AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKOR İNSTİTUTU

PERTEV NAİLİ BORATAV

# TÜRK FOLKLORUNA DAİR 100 SUAL

## (İnanclar, adət və mərasimlər, oyunlar)

BAKI – 2018

**Tərcümə edən, ön sözün,
qeyd, izah və şərhlərin
müəllifi:** **Sevinc ƏLİYEVA**

**Elmi redaktor:** **Seyfəddin RZASOY**
filologiya elmləri doktoru

**Pertev Naili Boratav. Türk folkloruna dair 100 sual.**
Bakı, Elm və təhsil, 2018, -336 səh.

folklor.az

A 4603000000 Qrifli nəşr
N-098-2018

© Folklor İnstitutu, 2018

## GÖRKƏMLİ TÜRK FOLKLORŞÜNASI PERTEV NAİLİ BORATAV

P.N.Boratav 1907-ci ildə Bolqarıstanın Gümülcünə bölgəsinin Darıdərə ilçəsində anadan olmuşdur. İlk təhsilini İstanbul, Arabsun (Gülşəhri), Dəvəli və Mudurnuda (1912-1919), orta təhsilini İstanbulda Qimqapı Fransız Kollecində (1919-1924), Gelenbevi və İstanbul liseylərində (1924-1927), ali təhsilini İstanbul Universitetinin Ədəbiyyat fakültəsinin Türk dili və ədəbiyyatı bölümündə və Ali Müəllimlər Məktəbində (1927-1930) almışdır.

1931-1932-ci illərdə Ədəbiyyat fakültəsində assistent, 1932-1936-cı illərdə Konya Liseyi və Oğlanlar Məktəbində türk dili və ədəbiyyat müəllimi vəzifələrində işləmişdir.

1936-1937-ci illərdə bir il müddətində Almaniyada dövlət təqaüdü ilə çalışmışdır.

1937-1938-ci illərdə yenə də bir il Mülkiyyə Məktəbində kitabxana məmuru işləmişdir.

1938-ci ildə Ankara Universitetinin Dil və Tarix-Coğrafiya fakültəsində Türk dili və ədəbiyyatı bölümünə türk xalq ədəbiyyatı üzrə dosent vəzifəsinə təyinat almış, 1946-cı ildə həmin fakültənin professoru olmuş və 1948-ci ilə qədər bu vəzifədə işləmişdir.

P.N.Boratav 1948-1952-ci illərdə ABŞ-ın Stanford Universitetində Hoover Kitabxanasının Türkiyə bölməsini quraraq, Türkiyədən idarə etmişdir.

1952-ci ildə Fransaya getmiş, bu tarixdən 1974-cü ilin sonuna qədər Centre National de la Rechehche Scientifique-də tədqiqatçı-mütəxəssis kimi çalışmalarını, 1976-cı ilə qədər də Ecile Pratique des Hautes Etudes-də türk folkloru seminarlarını davam etdirmişdir.

Görkəmli alim 1998-ci ildə Parisdə vəfat etmişdir.

P.N.Boratavın topladığı arxiv, mütəxəssislərin fikrincə, ən önəmli və geniş əhatəli arxivlərdən sayılır. Burada toplanmış xalq nağılları, rəvayətlər, atalar sözləri, şeirlər, lətifələr, mahnılar, xalq teatr nümunələri, hətta etnobotanik xalq təbabəti (fitoterapiya) və astronomiyaya aid məlumatlar var.

Arxivdə "Əsli və Kərəm", "Koroğlu" dastanları ilə birlikdə, ümumiyyətlə, Türkiyənin müxtəlif bölgələrində, həmçinin Azərbaycan hüdudlarına yaxın bölgələrdə (Qars, İqdır, Ərdahan, Ərzurum və s.) toplanmış yüzlərcə uşaq oyunu, minlərcə xalq nağılları, eyni zamanda bir çox digər xalq dastanları yer almışdır.

O, 1941-ci ildə "Xalq dastanları və xalq dastançılığı" mövzusunda dissertasiya müdafiə edərək dosent olmuş, daha sonra professorluğa yüksəlmiş, 1948-ci ildə başqanı olduğu Xalq ədəbiyyatı bölümü CHP iqtidarı tərəfindən bağlandığına görə xaricə getmişdir.

P.N.Boratav zəngin elmi fəaliyyət və yaradıcılığa malikdir. Onun təkcə kitablarının adlarına diqqət etmək alimin nə qədər zəngin əhatə dairəsinə malik folklorşünas olduğunu açıq göstərir. Onun "Gökoğlu Destanı" (1931), "Folklor ve Edebiyyat" I cild (1939), "Bey Böyrek Hikayesine Ait Metinler" (1939), "Halk Edebiyyatı Dersleri" (1943), "İzahlı Halk Şiiri antolojisi" (1946), "Folklor ve Edebiyyat" II cild (1954), "Halk Hikayeleri ve Halk Hikayeciliği" (1946), "Typen Türkischer Volsmarchen" (1953), "Zaman Zaman İçinde" (1958), "Le Tekerleme" (1963), "Az Gittik , Uz Gittik" (1969), "100 Soruda Türk Folkloru" (1973), "Nasreddin Hoca" (1996) və s. əsərləri çap olunmuşdur.

Müəllifin oxuculara təqdim etdiyimiz "Türk folkloruna dair 100 sual" kitabı həmin "100 Soruda Türk Folkloru" kitabının tərcüməsidir. Bu kitab Azərbaycan oxucusunun folklora baxışlarının genişlənməsində, "folklor" adlanan fenomenin nə

qədər zəngin mədəniyyət və şüur hadisəsi olduğunun fərqinə varmasında böyük rol oynayacaqdır.

Kitabı tərcümə etməkdə iki əsas məqsəd güdülmüşdür:

Birincisi, xüsusilə gənc folklorşünasları bizimlə eyni kökə malik Türkiyə türklərinin folklor mədəniyyətinin belə müasir sistemli əhatə təcrübəsi və folklor fakturasının müasir dünya elmi təcrübəsi əsasında təsnifat-modelləşdirmə nümunəsi ilə tanış etmək;

İkincisi, "folklor" termininin uzun onilliklər ərzində "şifahi xalq ədəbiyyatı" anlayışı ilə eyniləşdirildiyi Azərbaycan folklorşünaslıq məkanında hazırda gedən "folklor" fenomeninə münasibətin sürətlə dəyişməsi prosesinə P.N.Boratav kimi dünya səviyyəli alimin əsəri ilə töhfə vermək.

Biz bu kiçik müqəddimədə əsərin quruluşu, bölmələri, əhatə dairəsi haqqında məlumat verməyi artıq hesab edirik. Çünki bu məsələlər istər əsərin əvvəlində, istərsə də sonuncu bölümündə müəllif tərəfindən bütün nəzəri aydınlığı ilə şərh olunmuşdur.

Bu əsər bir gənc folklorşünas olaraq bizim nəzərimizdə bir xəzinədir: P.N.Boratav bu folklor(şünaslıq) xəzinəsinin yaradılmasına bütün ömrünü və varlığını vermişdir. İnanırıq ki, böyük məsuliyyət hissi ilə tərcümə və daha sonra redaktə olunmuş bu əsər gənc folklorşünasların yetişməsində böyük rol oynayacaq və onların stolüstü kitabına çevriləcəkdir.

**Sevinc ƏLİYEVA**

# GİRİŞ

## 1-ci sual: Bu kitabda hansı mövzular işlənəcəkdir?

**“Türk xalq ədəbiyyatına dair 100 sual”** adlı kitabımın (“100 soruda” seriyası, № 13) 5-20-ci səhifələrində (1-7-ci suallar) folklor deyildiyi zaman nə başa düşülməli olduğu, onun etnologiya (**ethnologie**) və başqa elm sahələri (tarix, dilçilik, sosiologiya və s.) ilə münasibətlərini, problemlərini araşdırarkən durularaq üzə çıxmış, folklorun önəmli, amma kiçicik bir qolu olan **xalq ədəbiyyatından** kənarda qalan məsələlərini ikinci bir cild kitabda işlənəcəyi barədə əvvəlcədən məlumat vermişdik[1]. Bu mövzulardan bir neçəsi birinci kitabın 9-cu səhifəsində belə sadalanır: xalq sənətkarlığı, inanclar, adətlər, istehsal və istehlak vasitələri, geyim-kecim...

Bu ikinci kitabda isə öyrəniləcək mövzuların tədqiq olunmasına keçməmişdən əvvəl onları bir dəfə də başdan-ayağa sayaraq sadalamaq, türk folkloruna dair tədqiqatların bugünkü vəziyyətinə, mütəxəssis olmağın bizlərə verdiyi imtiyazlara əsasən və bu seriyadan olan kitabların mütəxəssislər üçün yazılmadığını da nəzərə alaraq, bunların hansılarını hansı miqyasda dərinliyinə və genişliyinə tədqiq edə biləcəyimizi əvvəlcədən oxucuya xəbər vermək yerində və yararlı olacaqdır.

Kitabımızın beş fəslindən birincisi ilə ikincisində yer kürəsinin formalaşması, müxtəlif təbiət hadisələri və elementləri ilə, fövqəltəbii varlıqlar və faktlarla əlaqədar inanclar və davranışlar, bu elementlərə, hadisələrə və faktlara təsir göstər-

---

[1] Folklorun şifahi xalq ədəbiyyatından kənarda qalan mövzularını göstərə bilmək, eləcə də oxucunu çaşdırmamaq, yadırğatmamaq baxımından bir ifadə tapmaq çox çətin olduğu üçün bu kitaba “Türk folkloru” adı verilmişdir – **Pertev Naili Boratav**

mək səyləri və üsulları tədqiq olunacaq. Üçüncü və dördüncü fəsillər fərdi və sosial baxımdan cürbəcür mərasimləri özündə əks etdirəcək: bunlar insanın bir fərd kimi həyatı boyunca və müəyyən yaş mərhələlərinə görə sıralanan fəaliyyət növləridir; amma insana fərdi şəkildə tətbiq olunduğu zaman bu keçid mərasimlərində cəmiyyət də iştirak edir; doğum, sünnət, məktəbə getmə, toy, yas... və s. ilə əlaqədar ənənələr bu qrupa daxil edilir. Bir sıra sosial mərasimlərin əvvəlkilərdən fərqi ondadır ki, onların hər birinə fərd kimi əvvəlcədən bəlli olan bir şəxs **səbəb olmur**, **müəyyən bir toplum** tərəfindən və **müəyyən bir toplum üçün** təşkil olunur: dini bayramlar, kənd bayramları, övliyaların yatdığı yerlərin ziyarət olunması və s. kimi.

Beşinci fəsildə oyunlar və onların oyuncaqları, xalq idman növləri tədqiq olunub. Buradakı **oyun** sözü ilə ona əlavə etdiyim **oyuncaq** sözünün də izah etdiyi kimi, "rəqs" anlayışından kənarda olan mərasimlər başa düşülməlidir: **kor-əbə, birdir-bir, aşıq-aşıq** və s. bunlar uşaqlar üçün olan oyunlardan tutmuş, **güləş, cirid** və s. yaşca böyük insanlara məxsus və müasir dünyada beynəlmiləl məhşurluq əldə etmiş və ortaq oyunlara çevrilmiş idman nümayişlərinin hər xalqın öz adət-ənənəsindəki analoji variantıdır. Bu mövzunu tədqiq edərkən istifadə edə biləcəyimiz (nəşr olunmuş və ya olunmamış) materiallar kifayət qədər zəngindir. Kitabda bu mövzunun ən müxtəlif problemlərinə, müxtəlif tərəflərinə dair geniş bir şəkildə yer ayıra biləcəyimizə ümid edirik.

Xalq ədəbiyyatı cildində olduğu kimi, bu cilddə də türk folklorunun əhatə etdiyi fakt və hadisələrin nə variantlarının təsvirini, nə də hər faktın bütün Türkiyə miqyasında qarşılıqlı müqayisəli bir tədqiqini işləyib-hazırlamamışıq. Bu kitab türk folklorunun bütün tərəflərini əhatə edən ilk cəhd, ilk sınaq xarakteri daşıdığı üçün bu elm sahəsinin bugünkü vəziyyətində,

orta hesabla, hər ziyalı insanın beynində yanıb-sönən bir çox suallara cavab tapmağın narahatçılığı, bəzi problemlərin də, üstündə daha artıq düşünülsün, müzakirəyə çıxarılsın deyə, ortalığa çıxartmaq niyyəti ilə qələmə alınmışdır. Faktlardan, hadisələrdən, proseslərdən yalnız üstündə dayanmağa dəyən nümunələrlə və bugünün imkanları əsasında sağlam nəticələr üzə çıxarılması şərtini vurğulamaqla kifayətlənməyi lazım bildik.

Kitaba axırda "Nəticələr" adı altında bir fəsil də əlavə etdik. Bu fəsil bütöv halda (yəni xalq ədəbiyyatı da daxil olmaqla) folklorun cürbəcür problemlərinə həsr olunmuşdur; bu sətirlərin müəllifi orada folklorun tədqiqat sahəsinə daxil olan mövzuların toplanması, açıqlanması, şərh olunması və dəyərləndirilməsi ilə bağlı mövcud problemlərlə əlaqədar düşüncələrinin qısa bir dəyərləndirilməsini verməyə calışacaq, qırx ildən artıq bir müddəti keçən, əksərən, qarma-qarışıq təcrübələrindən əldə etdiyi həqiqətləri vurğulayacaq və gələcəyin folklorçularına, ümumən incəsənət nümayəndəsi olsun, yazıçı olsun, pedoqoji və ya elmi işçi olsun, fərq etməz, bütün ziyalı insanlara türk xalqını öyrənmək və təbliğ etmək səylərində bir damcı köməyi olarsa, zəhmətinin hədər olmadığını görməyin verdiyi iftixar hissi ilə böyük xoşbəxtlik hissi keçirəcəkdir.

# I BÖLÜM

## İNANCLAR VƏ TÖRƏ QAYDA-QANUNLARI

### 2-ci sual: İnanc dediyimiz zaman nə başa düşürük?

İnancın hərfi mənası "fərdi və ya sosial baxımdan bir fikrin, bir faktın, bir əşyanın, bir varlığın həqiqət olduğunun qəbul edilməsi" deməkdir. Xalq inancları barədə söz açan şəxslərə görə, məfhumun fransız və alman dillərindəki variantı olan **supersistion** və **aberglaube,** türk dilinə **batil etiqad, batil inanc, yanlış inanc, boş inanc, xurafat** sözləri ilə tərcümə olunur. Bu ifadələr özlərində müəyyən bir hökm ifadə etdikləri üçün yersiz istifadə olunduqları zaman yanlış nəticələrə gətirib-çıxara bilər. Elm adamı işlədiyi mövzu qarşısında tərəfsiz olmalı, bilib-bilmədən hökm verməkdən uzaq durmalıdır.

İnanc məfhumu lüğəvi mənasında insan düşüncəsinin çox böyük bir hissəsini əhatə edir: din, siyasət, əxlaq... İnancları bütün bu müxtəlifliyi və yayğınlığı ilə bütöv halda tədqiq etmək folklorun sərhədlərini aşar. Folklor müəyyən bir toplumun **qədim** dinlərindən miras alaraq, öz dövrünün şərtlərini tətbiq edərək formalaşdırdığı yeni dini dünyagörüşündə həyat şərtlərinin tələb etdiyi yeni formalar, məzmunlar və hekayələri özündə ehtiva edən inanclarla maraqlanır. Folklor mövzusu kimi inamların başqa bir xüsusiyyəti də dini, əxlaqi... qayda-qanunlardakı qətilik və möhkəmliyə rəğmən, bunların bölgədən-bölgəyə və cəmiyyətlərarası fərqli forma və məzmuna malik olmasında ifadə olunur. Türkiyə əhalisinin böyük əksəriyyətinin bağlı olduğu islam dinini götürək: bu dinin əhatəsinə daxil olan bütün inancları tədqiq etmək din tarixinin vəzifəsidir. Amma, məsələn, Konya, Kütahya, Ərzurum kimi ərazilərin kəndlərinin, cənub-şərqi Anadolu ərazisində yaşayan əhalinin, ya Taxtaçılarda

mövcud olan inancların "rəsmi olaraq islam dininin" (mədrəsənin, kitabların) öyrətdiklərindən başqa qalan hissəsi türk folklorşünaslığının tədqiq edə biləcəyi bir mövzudur.

**3-cü sual: İnanclar xalqın dilində və davranışlarında necə mənalanır? Onları hansı mənbələrdən əldə edə bilərik?**

Sualımıza gözlənilən izahı konkret bir nümunə ilə vurğulayaq. Adana vilayəti ərazisində Ceyhan mahalına tabe olan İmrən kəndində məskunlaşan, ya da hələ məskunlaşa bilməyib, kənd ətrafında çadırlarda qışlamağa davam edən yörüklərdən 1947-ci ilin fevral ayında tədqiqat apararkən qoyun, çoban və tütəklə əlaqədar belə bir hekayə eşitmişdik:

"Qoyun heç cür cənnətdən çıxmaq istəmirmiş, cənnətiəladan... Çobana deyirlər ki, bu heyvanla nə qədər əlləşdik, cənnətdən çıxmır ki, çıxmır. Bəlkə, tütək çalsan, tez çıxar... Çobana tütəyi verib deyirlər ki, cənnətin qapısından tütək çala-çala uzaqlaş. Çoban bir gün, iki gün arxasına baxmadan gedir. Axır ürəyi dözmür, dönüb arxaya baxır. Bütün qoyunlar çıxıb onun arxasınca gəlir, təkcə qoçdan başqa, o, cənnətdən çıxmayıb. Çoban baxan kimi cənnətin qapısı bağlanır, qoç da qalır içəridə. Bütün qoçların buynuzu gümüşdən imiş. Çoban arxaya çevrilən kimi bütün qoçların buynuzu sümüyə çevrilir. Baxmasaymış, həm o bir dənə qoç da cənnətdən çıxacaqmış, həm də bütün qoçların buynuzu olduğu kimi – gümüşdən qalacaqmış... Şeytana deyirlər ki, cənnətdən bir dənə çalğı aləti çıxıb, tütək, çox gözəldi... Şeytan da: "Kar deşikləri olmasaydı...", – deyir. O biri deşiklərə heç qarışmayıb, amma kar deşiklərə qarışıb. – Bunlar ən altda olan deşiklərdir. Əgər bunlar olmasa, heç vaxt tütəyi çalmaq mümkün olmaz".

Bir söhbət əsnasında dinlədiyimiz bu hekayədə həyatlarında qoyunçuluğun xeyli əhəmiyyətli bir yer tutduğu, qa-

zanclarını, əsasən, bu peşə ilə qazanan bir yörük tayfası üçün qoyunun və tütəyin müqəddəs bir mənşəyinin olması, daha incə detallarına qədər araşdırsaq, tütəyin çalınma texnikasında bir dəliyin o birinə nisbətən dəyərli olduğuna dair **inanclar** sözlər vasitəsi ilə bir **hekayə** qəlibinə salınmışdır.

İnamların böyük bir qismi yuxarıda verdiyimiz misaldan da göründüyü kimi, **əfsanələr**lə faktlaşdırılır, onların vasitəsilə şifahiləşmə və yayılma haqqı qazanır. Əfsanələrin inanclarla olan bu sıx bağlılığına, qarşılıqlı münasibətlərinə xalq ədəbiyyatı mövzularını tədqiq etdiyimiz zaman (1-ci kitab 50, 52, 53, 54-cü suallar) toxunmuşduq. Əfsanənin ən vurğulanmalı tərəfi onun "inanılan bir hadisənin nəql edilməsi" olduğuna görə, hər əfsanədə bir və ya bir neçə inam özünə yuva qurmuşdur.

Təkcə əfsanələr deyil, xalq ədəbiyyatının, demək olar ki, bütün janrları: atalar sözləri, nağıllar, təkərləmələr, tapmacalar, xüsusilə əfsanələrə ifadələnmə imkanı verən janrlar: xalq mahnıları, rəvayətlər, dastanlar... inancları təqdim edən vasitələr ola bilir.

Yazılı ədəbiyyat əsərləri də xalq inamlarını tədqiq etmək istəyənlərin istifadə edə biləcəyi mənbələrdir. Ələlxüsus bunların içərisində peyğəmbərlərin, din böyüklərinin, məşhur övliyaların həyatlarından söz açanlar: qisseyi-ənbiya, vilayətnamə və s. bu kimi "mənqəbələr"i toplamış olanlar, qədim tarixi abidələr (xüsusilə bunlarda yazıçının öz dövründən çox-çox əvvəllər barədə danışan giriş hissələri), səyahətnamələr inamların üzərində "diaxronik" və müqayisəli tədqiqatlar aparanlar üçün dəyəri heç nə ilə ölçülə bilməyən vasitələrdir. Övliya Çələbi kimi türk yazıçıları ilə bərabər, xarici səyyahların da türk ölkələrində gəzərkən yerli əhalidən eşidərək qələmə aldıqları xalq inamları bir çox yönlərdən xüsusi əhəmiyyət daşıyır: müasiri olan türk yazıçılarının əhəmiyyət vermədiyi bir çox məqamlar xaricilərin diqqətini cəlb edir və bu cür şeylər

öz ölkəsindəkilərdən dünyagörüş və quruluş etibari ilə fərqləndikləri üçün onlarla maraqlanırdılar.

Amma xalq inamları mənşə, törə, törən və əfsun xarakteri ilə birgə sistem halında formalaşır. Bir neçə misal verməklə fikrimizi aydınlaşdıraq:

Ölkəmizin, deməк olar ki, hər yerində xüsusilə qadınlar xıdırəlləz gecəsi (5 may) gül kolunun altına həmin il boyunca əldə etmək istədikləri şeyləri bildirən kiçik əşyalar qoyurlar; məsələn, başının üstündə bir damı olmayanlar “miniatür bir ev” düzəldirlər; uşağı olmayanlar balaca bir yelləncək asırlar. Bir qrup başqa adətlər isə övliyalaşmış insanların uyuduğu məzarların, ya da onların üstündə salınmış pirlərin ətrafında həyata keçirilə-keçirilə günümüzə gəlib çatmışdır. Qısırlığı müalicə etmək, ya da cürbəcür xəstəliklərə çarə tapmaq üçün sözügedən məzarın torpağından bir az suya qarışdıraraq içmək, yaxud həmin qəbirlərin olduğu yerlərdə gecə qalmaq kimi... Bu işlər Xızırın, ya da ziyarət edilən digər bir müqəddəsləşmiş şəxsin qeyri-adi bacarıqları sayəsində arzuları reallaşdıra biləcəklərinə inanaraq onların vasitəçiliyinə[2] üz tutmaqdır.

Başqa bir mərasimi – xüsusi təbiət hadisəsi kimi xarakterizə oluna biləcək quraqlığa son qoymaq üçün təşkil olunan “yağış duaları”nı da gözdən keçirək. Bu mərasimdə həyata keçirilməsi vacib olan bir sıra işlər vardır: paltarları tərsinə geymək, əllər dua üçün göylərə qaldırıldığı zaman barmaqları açıq bir şəkildə torpağa doğru əymək, üzərinə kifayət qədər çox sayda xüsusi dualar oxunmuş balaca daşların yığıldığı torbanı suya batırmaq, ana südü yeyən uşaqları və əmizdirilən quzuları südyemə vaxtı gələndə əmizdirməyib fəryad etdirmək ... və s.

Bütün bu hərəkətlər ən kiçik detallarına qədər tədqiq olunarsa, hər birinin özündə ayrı bir “inancı” ehtiva etdiyini

[2] Şəfaətinə – ***Tərcüməçi***

müşahidə etmək mümkündür: Xıdırəlləz gecəsi törəninin ünsürlərindən hər biri bir inancın ifadəsidir:

1) Xızır o gecə yerə enəcəkmiş;

2) Xızır insanların istədiklərini yerinə yetirmək gücünə qadir olan varlıqdır;

3) Balaca yelləncək arzulanan körpənin, balaca ev həqiqətdə arzulanan evin simvollarıdır və Xızırla dilək sahibi arasındakı anlaşmaya onlar vasitəçilik edəcəkdir.

Yağış yağdırmaq məqsədilə təşkil olunan mərasimdəki kimi:

a) Yağışı bəndələrindən əsirgəyən Tanrının onlara yazığı gəlməsi məqsədilə südəmər uşaqları südsüz saxlamaq, onları ağlatmaq, fəryad etdirməklə susuz qalmış torpağın halı dilə gətirilmiş olur;

b) Üzərində xüsusi əməliyyatlar aparılmış daşlar yağış yağdırmaq gücünü əldə etmiş olur; həmin daşlar atıldıqları suyun içərisindən çıxarılmayınca yağış dayanmaq bilməz, dəhşətli tufan olar.

Deməli, inamların bir qismi də əfsunların və mərasimlərin məzmununa daxildir və onlarla birlikdə konkret ifadə forması qazanırlar.

Bu cür hərəkətlər və onlara bağlı inamların başqa növlərini: xəstəliklərin, ya da düşmən tərəfindən gələ biləcək pisliklərin qarşısının alınması, yaxşılığa döndərilməsi, yuxuların yozulması, gələcəyin əvvəlcədən bilinməsi və s. ilə bağlı məlumat və üsulları daha sonra növbə ilə gözdən keçirəcəyik.

## 4-cü sual: Kainatla bağlı inamlar hansılardır?

İslam dini təlimlərinin əksəriyyətinin mollalar, vaizlər, ya da oxumuş adamlar vasitəsilə əhalinin oxu-yazı bilməyən təbəqələrinə qədər yayıldığını nəzərə alsaq, inancların bütün növləri

kimi kainatla bağlı inancların bir çoxunun da kitablardan xalq ənənəsinə keçmiş ola biləcəyi qənaətinə gələrik. Amma bunların da kitablara “xalqın kitab və yazıdan əvvəlki” ənənələrindən, ya da başqa dinlərdən sızmış olma ehtimalını da yaddan çıxartmamaq lazımdır. Kainatla bağlı rəsmi islam təliminin, “Quran”ın, hədislərin və onları şərh edənlərin iştirakı ilə başqa dinlərdən gələn sızıntılar nələrdir? Türk xalqlarının ən qədim dinlərindən bunlarda hansı izlər qalmışdır? İnanclarda müxtəlif qaynaqlardan gələn elementlərin bir-bir ayırd edilməsi uzun və zəhmət tələb edən bir işdir; amma türk mədəniyyəti tarixinin, mifologiyasının, folklorunun əsrlərin qaranlıq dərinliklərində qalmış neçə-neçə dəyərli tərəflərini aydınlaşdırmaq üçün gələcəyin məhsuldar elmi tədqiqat proqramında bu problemlər mütləq öz əksini tapmalıdır. Biz isə burada mənşə probleminə baş vurmadan inamlardan bir neçəsini sadalamaqla kifayətlənəcəyik.

Kainatın yaradılması ilə əlaqədar inamların ən müxtəlif tərəflərini müəyyənləşdirmək üçün bir neçə örnək verək.

1929-cu ildə Mudurnunun (Bolu mahalında) bir kəndində kainatın yaradılışı belə izah olunurdu:

- Tanrı dünyanı yaratdı. Onu buğda dənələri ilə doldurdu. Sonra bir quş yaratdı. Bu quş hər 20 gündə bir buğda dənəsi yeyirdi. O vaxtlar buğdanın bir dənəsi 520 dirhəm ağırlığında idi. Adəm babamıza Cənnətdə verilən buğda da elə bu buğda idi. Başqa canlıların yaradılmasından əvvəl tək bu quşun bu qədər ağır buğdanı yeyib-qurtara bilməsi üçün keçən zaman tam 30 dəfə keçib getmişdir. Sonra Tanrı Can qövmünü yaratdı. Şeytan (Əzazil) bu qövmdən idi...

Taxtaçılarda var olan bir inancda Tanrı və kainat haqqındakı düşüncələr aşağıdakı kimi əks etdirilir:

- Tanrı üstümüzdəki göy üzünün də üstündə üzərində müxtəlif naxışlar olan dağ kimi bir taxtda oturur və oradan da bizi idarə edir. Buludların halı onun simasındakı dəyişiklikləri

özündə bildirir: pambıq kimi ağ görünməsi Tanrının ağappaq saqqalı və ağappaq saçları ilə bizlərə gülümsəməsini, sıx və qapqara görünməsi bizə hirsləndiyini bildirir. Külək onun gülməsini, fırtına, qasırğa, göy gurultusu onun hirslənməsini ifadə edir... Göy qurşağı onun nurlu rəngləri və qollarının hər yerə uzanmasıdır... (A.Yılmaz, **Tahtacılar,** Ankara, 1948, s. 92-93)

Qərbi Anadoludan dünya ilə əlaqədar aşağıdakı inanclar toplanılmışdır:

- Kimisinə görə dünya dümdüzdür. Qaf dağları onun sərhəddidir. Bəzilərinə görə isə dünya yumrudur. Bir Sarı Öküzün buynuzları arasında dayanmışdır. Bu öküzün 70000 ayağı vardır, hər iki ayağının arasındakı məsafə minlərcə il yol uzunluğundadır. Buynuzları yaqutdandır. Öküz də bir qayanın üzərində durur. (Musa Kazım, **Anadolu Hurafeleri,** "Halk Bilgisi Haberleri", IV, 1935, s. 320). İstanbul əhalisinin bir inancına görə (M.Xalid Bayrı, **İstanbul Folkloru**, İst. 1947, s. 120) öküzün pəncələri dördkünc yaqut bir daş parçasının üzərində dayanır; bu daş bir odun üzərində durur, od da Tanrının gücünə durur.

İnsanın yaradılması ilə əlaqədar və bir çox tərəfləri ilə rəsmi islam təlimlərinə uyğun gələn inamlar belədir:

- Tanrı kainatı bu ardıcıllıqla yaratdı: Lövh və Qələm, Ərş və Kürs, Cənnət və Cəhənnəm, gözə görünməyən məxluqlar (Cinlər, Pərilər, Mələklər), göylər, dənizlər, bomboş yer üzü, dəniz heyvanları və bitkiləri, quruda yaşayan heyvanlar və bitkilər. Sonra insanı yaratmağı istədi. Cəbrayılı, Mikayılı, İsrafili növbə ilə yer üzünə bir ovuc torpaq almağa göndərdi. Yer yaradılacaq insanın gələcəkdə üsyan edərək, Cəhənnəmdə yanacağını bildiyindən ona yazığı gəldi, ağladı; üç mələk buna dözə bilməyib əliboş geri qayıtdılar. Nəhayət, Əzrayıla torpaq gətirmək vəzifəsi tapşırıldı. O, Yerin sızıldanmağına qulaq asmadı, ondan bir az götürdü (Yalvarışlara etina etmədiyinə görə insanın canını alma işinin Əzrailə verilməyi də bu səbəbdəndir.).

Tanrı bu torpağı yoğurdu, insan formasına saldı. Bu qəlib 40 gün (ya da 40 il) gözlədikdən sonra Tanrı ona can verdi...

Mələklərin insana səcdə etməsi, Şeytanın buna etina etməməsi, Həvvanın yaradılması və s. bu kimi mövzularla əlaqədar danışılanlar müqəddəs kitabların öyrətdiklərindən fərqlənmir. "Qadağan olunmuş çərəz" mövzusunda olan inanclar müxtəlifdir: bu çərəz növü buğda əncir, ya da xurma kimi göstərilir.

XVI əsrdə yazılmış bir ələvi-qızılbaş mənbəyində isə (A.Gölpınarlı və P.N.Boratav, **Pir Sultan Abdal,** Ankara 1943, s.160) kainatın başlanğıcı haqqında bunlar deyilir:

- Əvvəlcə Tanrı yaşıl bir dərya yaratdı. Həmin dərya Tanrının bir baxışı ilə coşdu; içərisindən bir cövhər çıxdı. Tanrı cövhəri iki yerə böldü: biri yaşıl, biri isə ağ. Yaşıl və göy qübbəsinə oxşayan bir qəndilə həmin o iki cövhər parçasını yerləşdirdi: yaşıl rəng Məhəmmədin (s.) nuru, ağ rəng isə Əlinin (ə.) nuru idi. Sonra yaratdığı beş dənə mələkdən növbə ilə soruşdu: "Sən kimsən? Mən kiməm?" Onların hər birindən "Sən sənsən. Mən mənəm." cavabını alanda onları məhv etdi. Ən axırda da Cəbrayılı yaratdı. Ona da eyni sualı verdi. Cəbrayılın dili tutuldu, cavab verə bilmədi. Tanrı ona buyurdu, o da dalbadal iki dəfə altı min il ərzində bir boşluqda uçmağa başladı. Axırda yorğunluqdan bitkin bir vəziyyətə düşəndə Tanrı onun "batini gözünü" açdı. Cəbrayıl gedib yaşıl qübbə formasında olan qəndilin üzərinə qondu. İki nur bir bədən halına gəlmişdi. Qəndildəki ağ nur Cəbrayıla Tanrının sualına verilməli olan cavabı öyrətdi. Tanrı bu dəfə Cəbrayıla eyni sualı verən kimi o: "Sən Yaradansan, mən yaradılmışam. Sən Sultansan, mənsə qulam" dedi. Tanrı: "Rəhmət Ustadına və Pirinə!" deyə Cəbrayılı əzizlədi. Ustad – Əli (ə.), Pir də Məhəmməddir (s.). Cəbrayıl o biri dörd mələyə də (Mikayıl, İsrafil, Əzrayıl, Əzazil) Tanrıya veriləcək cavabı öyrətdi. Əzazil Tanrını tanımaq istəmədi və qəndildəki nura tüpürdü. Bu tü-

pürcək bir halqa olub Əzazilin ( Şeytanın) boynuna taxıldı və "lənət halqası" oldu.

Bu inanc ələvi-bəktaşi şairlərinin şeirlərində də xatırlanır və qızılbaşlardan olan əhalinin hər bir üzvünə də tam, ya da natamam halda məlumdur, çünki "süluk" (**initiation**, "cəmiyyətin törəsinə qoşulma") mərasimlərində iştirak etmək üçün lazım olan əsas məlumatlardan biridir.

**Rubruck** səyahətnaməsindən (Paris baskısı, 1877, s. 119) öyrəndiyimizə görə, Tanrının insanı Şeytanın yer üzündən gətirdiyi bir ovuc torpaqdan yoğuraraq yaratması fikri XIII əsrdə moğollar tərəfindən də mənimsənmiş bir manixeist inancıdır.

Türklər arasında ilk insanın yaradılması ilə əlaqədar qədim inancları XIV əsrə aid yazılı bir qaynaqdan əldə edirik. Misirdə quldarlıq çağında yaşamış qıpçaq əsilli Abdullah Aybək Dəvadari oğlu Əbubəkir bu məlumatları fars dilinə türkcə əslindən çevrilmiş olduğunu xüsusi vurğuladığı bir kitabın IX əsrdə ərəb dilində yazılmış bir tərcüməsindən oxuyub-öyrəndiyini deyir. Kitabın türkcə əslinin adı **Ulu Ay Ata Bitiki** imiş. Bu da onun bu mövzu ilə əlaqədar danışdıqları:

- Çin sərhədlərində yerləşən Qara Dağda bir mağara var imiş. Bu mağaranı bir dəfə yağış suları basmış və insan formasında olan bir çuxuru doldurubmuş. Günəşin istiliyinin təsiri ilə bu qəlibin içərisindəki palçıq doqquz ayın axırında canlanmışdır. Və ilk insan beləcə yaranmış olan Ay Atamdır. O, qırx il müddətində tək yaşayır. Bir gün yeni bir su basqını ilə çuxur yenə dolmuş və qəlibin içərisində ikinci bir varlıq cana gəlmişdir. Amma bu dəfə istilik kifayət qədər olmadığı, palçıq tam bişmədiyi üçün "məxluq" əvvəlkinə nisbətən əskik əmələ gəlir: bu, ilk qadındır. Ay Atamla bu qadının birləşməsindən 40 uşaq doğulmuşdur. Ay Ata 120 yaşında ölmüşdür, ondan da qırx il sonra arvadı. Ən böyük oğul onları, bəlkə,

yenidən canlanarlar ümidi ilə həmin qəlibə yerləşdirsə də, umduğu əmələ gəlməmişdir. Ay Atanın ən böyük oğlu, türklərin ilk xanı Onu ölən kimi onu qızıldan olan içi boş heykəlin içinə, heykəli də mağaranın içinə qoymuşlar. Bu mağara beləcə türklərin ibadət etdikləri müqəddəs bir yerə çevrilmişdir.

**5-ci sual: Günəş və Ayla bağlı inanclar hansılardır?**

Xalq inamlarında çox vaxt günəş və ay birgə olurlar.

Folklor mövzusu kimi Günəşlə bağlı ölkəmizin sərhədləri daxilində sorğu aparılmamışdır. Amma Ay ilə bağlı inamlar, ənənələrlə bağlı 1930-cu illərdə Folklor Dərnəyi tərəfindən təşkil olunan proqram əsasında Anadolunun müxtəlif ərazilərinə paylanan bir "anket siyahısı"na gələn cavablar 1934-cü və 1939-cu illər arasında "Halk Bilgisi Haberleri" jurnalında, 1956-1957-ci illərdə isə "Türk Folklor Araştırmaları" jurnalında dərc olunmuşdu.

Ayla bağlı toplanmış nümunələrdə çox vaxt Günəş, bəzən də ulduzlar barədə danışılır. Bunlarla əlaqədar inancların, demək olar ki, hamısında Günəş qız, Ay oğlan kimi qəbul edilir. Bir neçə misal verək:

- Günəş-Qız batdığı zaman deyirlər ki, "anasının yanına getdi". Səhərlər isə üzü günahlarla çirklənmiş olduğu üçün fəryad edir, yanıqlı-yanıqlı dərdlərini anasına danışarmış. Evlərinin yaxınlığındakı bir kənddə hər evin qapısında bir davul asılıbmış. Kənd əhli Günəşin fəryadları eşidilməsin deyə bu nağaraları çalırmış (Yusifəli).
- Günəş-Qız ilə Ay-Oğlan bacı-qardaş imiş. Gecəni bir arada keçirirmişlər. Səhərə yaxın ataları gəlir, Günəşi oyadırmış. Günəş o zaman ağlamağa başlayırmış. Fəryadları eşidilməsin deyə nağara çalırmışlar (Soma).

**Niyə heç vaxt günəşə baxa bilmirik?**

• Günəş dünyanı gözləyən bir qız imiş. Dayanmadan cürbəcür naxışlar işləyirmiş. Ona baxmağa cəhd göstərən insanların gözlərinə iynə batırırmış (Tosya).

• Ay-Oğlan Günəş-Qızın səmada gəzməsini ona göz dəyməsin deyə qadağan edibmiş. Günəş otuz iki iynəsini bəd gözlərin içərisinə batıraraq özünü qoruya biləcəyini deyib, gəzib-dolaşmağa icazə almışdır (Tosya).

Bir çox inanclarda Ay və Günəş bacı-qardaş kimi müşahidə olunur:

• Ay və Günəş zülmkar bir ananın uşaqları imiş. Axır dözə bilməyib evlərindən qaçırlar. Bir qadın da onlara bir dağın arxasında yerləşən iki göldən su içmələrini tövsiyə edir. Soldakı göldən içən ay, sağdakından içən isə günəş olur və onlar göyə qalxırlar (Tosya).

• Anaları "biri-biriniznən heç vaxt qovuşa bilməyəsiniz" deyə bacı-qardaşlara qarğış edib (Tosya).

• İki bacı-qardaş dalaşırmışlar. Günəş bacısı Ayı döyür; bu da qaçaraq göyə çıxır. Günəş də onun dalınca gedir. Amma heç vaxt görüşə bilmirlər (Tosya).

**Günəşin və ayın üzündəki ləkələr necə yaranır?**

Tanrı Ayı oğlan, Günəşi də qız olaraq yaratmış, Aya gecə, Günəşə isə ancaq gündüzlər gəzməyi əmr etmişdir. Qız gündüzlər üzünü göstərməkdən utandığı üçün Tanrı onun üzünə bir ovuc iynə atır. Bunlar günəşin ləkələridir. Ay da buna gülür. Bütöv Ayın bütöv gülən bir üzə bənzəməsi də buradan irəli gəlir (Mudurnu).

• Lap əvvəl Ay da, Günəş də eyni dərəcədə işıq saçırmış. Tanrının buyruğu ilə Cəbrayıl Ayın üzündən qanadlarını

keçirdir; buna görə də o, əvvəlki parlaqlığını itirmişdir (Mudurnu).

• Bir gün Xəlifə Ömər köynəyini çıxardıb bitlərinə baxırmış. Günəş onun kürəyini yandırır; o da hirslə baxır. Günəşin üzündəki ləkələr də ordan qalıb. Tanrı buyurmuş, Cəbrayıl qaçıb Ömərin qəzəbini sakitləşdirmiş və onun hirsli baxışlarından Günəşi qorumuşdur; yoxsa Günəşin də Ay kimi işığı solacaq, istiliyi itəcəkmiş (Mudurnu).

• Günəşnən Ay dava edibmiş, Günəş Ayın üzünə bir az palçıq (bir Kipr inanışına görə – mal peyini) atıbmış. Ayın üzündəki ləkələr də ondan əmələ gəlib (Soma).

• Günəş Ayın arvadı imiş. Xəmir yoğuranda Ay onu hirsləndirir. O da xəmirli əli ilə ərinin üzünə vurur (Sinop).

• Anası Ay-Oğluna hirslənir və üstü unlu çörək taxtası ilə onun üzünə vurur (Yusufəli). Vanda isə: "Anası ayın üzünə bulaşıq əskisini çırpıb" deyirlər.

Bu inanclardakı bir çox təfərrüatlar Türkiyədə yaşayan ermənilərin ənənələrində də var. Amma onların danışdığı nümunələrdə çox vaxt Ay – qız, Günəş isə oğlan kimi təsəvvür olunur. Erməni mətnlərindən birində isə türk ənənəsində olduğu kimi, Günəş – qız, Ay isə oğlandır.

• Aynan Günəş bacı-qardaş imişlər. Dərədəki suda yuyunmağa gediblərmiş. Ay bacısının çılpaq bədənini görmək üçün sudan ondan qabaq çıxır. Günəş onun bu pis niyyətini başa düşmüş və utandığından göyə qalxmışdır. Ay da onun dalınca. Günəş onun gözlərinə iynələr ata-ata ələ keçməkdən canını qurtarmışdır.

Ayın – qız, Günəşin – oğlan olduğu düşüncəsinə türk xalqlarının inancları arasında çox az rast gəlinir:

• Ay Günəşə aşiq olan bir qız imiş. Sevdiyi isə ona heç üz vermirmiş. Onlar ancaq Qiyamət qopan günü biri-birinə

qovuşacaqlar və Ay məhz həmin gün öz sevgisini Günəşə danışa biləcək (İstanbul).

- Ay-qız Günəş-oğlanla evlənibmiş. Günəş öz arvadını aldadır. Buna görə də Ay xoşbəxt olduğu günlərdə bəmbəyaz, aldadıldığı, yaslı günlərdə isə qapqara paltarlar geyinərmiş (Adana).

İnancların başqa bir qismində isə ayla günəşi ər-arvad, ya da iki sevgili kimi səciyyələndirirlər:

- Ayla Günəş ər-arvad imişlər. Günəşin parıltısı onların toyunda başına taxılan qızılların, ləl-cəvahiratın parıltısı imiş (İstanbul).
- Onlar bir-birinin dalınca qaçan iki qısqanc sevgilidir. Birinin o birini tutduğu vaxtlar da olur: gün və ya ay tutulması bundan baş verir (İstanbul).
- Onlar biri-birindən ayrı düşmüş və qovuşmaq üçün biri-birini qovan sevgililərdir (Sinop). Sevgilisinin dalınca qaçmaqdan yorulan Ay arıqlayıb kiçilir (Soma). Onlar ancaq Qiyamət qopan günü qovuşacaqlar (Soma, Dəvrək, Kırşəhir).

Ay ilə bağlı inamların böyük bir qismi onun tutulması və ya 29-30 günlük müddət ərzində böyüyüb-balacalaşması faktları ilə əlaqədardır.

**Ay tutulması:**

- Ayı cinlər (İzmir, Qaziantep, Ankara, Kırşəhir, Toqat), pərilər (İzmir, Kipr, Bursa, Uşak), ifrit və şeytanlar (Muğla), bir Qara-Ərəb (Bursa) qaçırırmış.
- Ay bir canavardan qorxaraq gizlənirmiş (İstanbul).
- Cadugər qarılar onu qovalayar, Qaf dağına çatmamış tutarmışlar. Bax onda o, öz parlaqlığını itirirmiş (Kipr).
- Onu qovan düşmənlərin əlinə keçəndə qan ağlar, buna görə də qıpqırmızı rəng alırmış (İstanbul).

• Ay insanlara onların günahlarını bildirmək üçün (Bursa, Isparta, Dəvrək, Sinop), yaxud cadu edənlərə qəzəbləndiyi zaman (Bursa) rəngini dəyişdirir, solurmuş. İnsanlara azğın hərəkətlərindən əl çəkmələrini xatırlatmaq istədiyi zaman Tanrı Cəbrayıla Ayın və Günəşin önünə qanadlarını gərməsini buyururmuş (İstanbul).

• Ay dünyada müharibə olacağı zaman qorxusundan gizlənirmiş (Bursa).

• Böyük bir ilan (əjdaha) onu qovar, dişlərini ona batırar, bədəninə sarılaraq beləcə onu bütünlüklə örtər və boğub-öldürməyə çalışarmış (Sinop).

• Ayın yolu meşədən keçəndə quldurlara əsir düşərmiş (Soma).

• Enişli-yoxuşlu yollarda gəzdiyi üçün bəzən kələ-kötürlüklər üzündən görünməz olurmuş (Sinop).

• Divlərlə əjdahalar Günəş-qızın əmcəklərinin südünü əmmək üçün onu axtarmağa gedərkən Ay-oğlan onların yolunu kəsir və onlarla dalaşırmış. Bu döyüşlər vaxtı divlərlə əjdahalar Ayı dünyadakı insanların gözlərindən gizlədirmişlər (Soma). Ayı divlərdən, əjdahalardan qoruyan mələklərin qanadları onu bizim gözlərimizdən gizlədirmiş (Soma).

Ayın və Günəşin tutulduğu hallarda hər yerdə bu "fəlakətin" aradan qaldırılması üçün müxtəlif çarələrə üz tuturlar: davul və ya bu tip səs çıxaran, gurultu yaradan başqa şeylərə (qazan, dəmir çəllək və s.) döyərək, tüfəng ataraq günəşi, ayı tutan pis varlıqlar (əjdaha, cadugər qarı və b.) qorxudulur. Sinopdan və İstanbuldan toplanan mətnlərdə tüfəngdən atılan güllələrin bir-birini itələyə-itələyə düşmən varlıqlara qədər gedib-çata biləcəklərinə, onları vuraraq əsir olan Ayı qurtara biləcəklərinə inanırlar.

Gurultu çıxararaq ayı və günəşi tutan qorxunc varlıqları ürkütmək aktına XIII əsrdə moğol şamanlarının da üz tutdu-

ğunu Rubruck (fransızca nəşri, s. 248) da nəql edir: "Yüksək səslə qışqıraraq dəmir zənglər çalır, davul vururlar". Moğollardakı bu inanc **Hacı Bəktaşi Vilayətnaməsi**nin yazıldığı XV əsrdə Anadolu türkləri arasında da geniş yayılmışdı (A.Gölpınarlı nəşri, s. 39).

Narlıdərə taxtaçıları ay və günəşin tutulmasını onların etdikləri günahların cəzası kimi izah edirlər. Qadınlar ay tutulması başa çatana qədər "darama dayanırlar": ayaqüstə, əlləri yan tərəfə buraxılmış və başı əyib yalvarış və sayğı duruşunda qalırlar.

**6-cı sual: Ulduzlara dair inanclar hansılardır?**

Bu inanclardan ən geniş yayılanlarından biri Samanyolunun necə əmələ gəldiyi haqda danışan əfsanədə özünə yer alır. Saysız-hesabsız ulduzların səmada cızaraq yaratdıqları bu parlaq iz saman oğrusu olan ər və arvadın (başqa bir mətnə görə: bir hacı) qaçıb gedərkən arxasından tokülən samanlar imiş. Bu əfsanənin ermənilər arasında yayılan nümunəsinə görə, günahı ortalığa çıxan kimi ər və arvad utandığından axaraq göyə qalxmış, bu zaman da tökülən samanlar yol boyunca "Samanyoluna" çevrilərək qalmışdır. Digər bir inanca görə isə dünya alt-üst olana yaxın Samanyolu günəşə çevriləcək: günü-gündən parlaqlaşması da bunun sübutudur (Mudurnu).

Türkmənistanda yaşayan türkmənlər bizim Samanyolumuza "Ağ mayanın[3] südü" deyirlər. Bu adlandırma bizə onların "Voie lectee", "Galaxie" kimi sözlərlə adlandırılan inanclara əsaslandıqları nəticəsinə gəlməyə imkan verir.

Zöhrə ulduzu ilə əlaqədar əfsanə pərdəsinə bürünmüş və Qızılbaş-Bəktaşi ənənəsində bəzən şeirlə nəql olunan bir inan-

---

[3] Dəvənin – ***Tərcüməçi***

ca da toxunaq: əfsanəyə görə, Zöhrə Əlinin (ə.) alnında “doğmuş” və Salman da ona aşiq olmuşdur. Çox güman ki, bu inancın Salmanın Fatimədən (əri uzaqlarda olanda) anadan olmuş bir qıza (Qərbi Anadoluda yaşayan taxtaçıların övliya hesab etdikləri Qaz dağında dəfn olunmuş Sarı Qıza) aşiq olması barədə danışılan əfsanə ilə əlaqəsi vardır. Başqa bir inanca görə isə Zöhrə ulduzu Məhəmmədin (s.) alnında “doğmuşdur”. Bu inancların formalaşmasına, bəlkə də, Məhəmmədin (s.) qızı Fatimənin bir adının da Zöhrə olması öz təsirini göstərmişdir.

Ulduzlarla əlaqədar ən geniş yayılmış inam isə Yer üzündəki hər bir insanın özünə məxsus bir ulduzunun olması barədədir. Astroloji (ulduzlar vasitəsi ilə fala baxma) bilik və üsulların xalq arasında geniş yayılması bu inancı formalaşdırmış olmalıdır. Göy üzündə bir ulduzun axmasının həmin ulduzun sahibi olan adamın öldüyünü, ya da ölə biləcəyini xəbər verməsinə dair mövcud olan inam da buna bağlıdır (S.V.Örnek, **Anadolu folklorunda ölüm,** Ankara 1971, s. 24-25). Ulduzun axdığını görüncə “ulduzum yerindədir” deyirlər (Mudurnu).

Quyruqlu ulduz xalq inancında, ümumən, geniş miqyaslı afətlərdən, ya da önəmli hadisələrdən xəbər verir: müharibə, böyük adamlardan birinin ölümü... kimi mənfi, yaxud da böyük bir adamın doğulması kimi müsbət hadisələrdən (S.V.Örnek, **Anadolu folklorunda ölüm,** Ankara 1971, s. 25).

Ulduzların səmadakı yerləri ilə əlaqədar inanc xüsusiyyəti daşıyan və başqa məlumatlar (fəsillər və s.) daha sonra veriləcəkdir. Burada misal kimi tək bir inanca toxunacağıq: (Ceyhan ilçəsinə tabe olan) İmrən kəndi yörüklərinin danışdıqlarına görə, Tərəzinin yanındakı kiçik ulduza “Quyruq” deyirlər; onu Tərəzi Ülkərdən oğurlamışdır. Avqustun əvvəlində çıxır. Əgər o çıxmasa imiş, dünya od tutub yanarmış. O çıxdıqdan sonra havalar sərinləşməyə başlayır.

**7-ci sual: Xalq inanclarında kainatın sonu və o biri dünya necə təsəvvür edilir?**

Türkiyə əhalisinin əksəriyyətini təşkil edən müsəlmanların bu mövzudakı inamlarının böyük bir qismi islam dini təlimləri ilə bağlıdır. Amma yenə də bunlarda bölgələrin, məzhəblərin, qövmi nəsillərin müəyyənləşdirdiyi fərqliliklərə rast gələ bilirik.

Dünyanın sonu ilə əlaqədar M.H.Bayrının İstanbul əhalisindən topladığı inanclar, demək olar ki, hər yerdə yayılmışdır. Qiyamətin yaxınlaşdığından xəbər verən əlamətlər arasında qurd ilə quzunun bir arada gəzməsi, qadınların doğmaması, yolların qısalması... kimi adət olunan hadisələrin əksinə nəyinsə baş verməsi, zinanın artması, insanların pul ehtirasında boğulmaları... kimi adət olunmuş əxlaq qaydalarının pozulması halları özünə yer alır. Bunlardan başqa: Yəcuc-Məcuc adlanan, böyüklükləri insan barmağı qədər olan varlıqların dünyaya yayılacağı, onların çaldıqları musiqi səsinə günahkar insanların qaçacağı, bu adamların başında buynuzlar bitəcəyi, dünyanın dümdüz olacağı... kimi ağılasığmaz hadisələr də bu inanclara əlavə olunur.

Kainatın sonu barədə danışan əfsanələr xalq yaradıcılığının xüsusi forması kimi müəyyən kitablarda toplanmışdır. Bunlardan türk xalqının ədəbi yaradıclıq ənənəsində ən məşhur olanlardan biri XV əsrdə yazıb-yaratmış müəlliflərdən biri Yazıcıoğlunun "Məhəmmədiyyə" əsəridir. Bu kitablar islam dininin əsas qayda-qanunlarını əhatə edən **Quran, Hədis** kimi əsas qaynaqlardakı mətnlərin bir yandan qədim dini ənənələrin, o biri tərəfdən müxtəlif xarakterli məhəlli yaradıcılığın təsiri ilə şərh olunaraq genişləndirilməsi nəticəsində meydana çıxmışdır. XVIII əsrdə yaşamış Türkmənistanın xalq şairi Məxtimqulunun bir şeirində bu inanclar bir tablo formasında sərgilənir.

Onun dilindən:

• Qiyamət yaxınlaşanda Dəccal gələcək və dünyanı qarışdıracaq. İnsanlar qorxu içərisində ora-bura qaçışacaqlar. Dəccalın ətrafında dörd dənə dağ gedəcək. O: “Mən Tanrıyam” deyəcək. İman sahibi müsəlmanlar dörd şəhərə sığınacaqlar. Dəccal boynundan zınqırovlar asılmış eşşəyin üstündə gedəcək; ətrafına kafirlər yığılacaq. Buludlar yığılacaq, tufanda olduğu kimi yağışlar yağacaq. Dindar olan bütün bəndələrə quşlar hücum edərək, onların ətlərini didəcək. Zamanın Mehdisi İsa zühur edəcək; bərabərliyi, haqqı davam etdirə bilmək üçün Dəccalla çox mübarizə aparacaq. Axırda onu tutub öldürəcək... Bundan sonra Yəcuc-Məcuc tayfası Qaf dağını aşaraq bütün dünyaya yayılacaq və yer üzündə bir dənə də olsun sağ canlı qoymayıb öldürəcək. Bunlar qulaqları yerlə sürünən qorxunc varlıqlardır. İsrafil öz surunu çalanda göy yarılacaq, dağlar parçalanacaq, axar sular quruyaraq, dəniz boşalacaqdır. Ay ilə Günəş qaralacaq, ulduzlar yağış kimi yer üzünə axacaq, dağlar əriyəcək... Qırx gün elə bir tufan olacaq ki, göy ilə yer bir-birinə qarışacaq. Yer üzündə bir dənə də olsun varlıq qalmayacaq... Buraqa[4] bənzəyən bir at parlaq qaçışı ilə şahə qalxacaq. Dörd dənə mələk gəlib Məhəmmədi (s.) qəbrindən götürəcəklər. Ölülər diriləcək, çöl heyvanlarının, quşların onlardan qaçmadıqlarını görərək təəccüblənəcəklər. Hər bir insan özünü öz sevdiyinin yanında tapacaq. O tərəfdə “Mizan”[5] qurulacaq: Əzab mələkləri əllərində toppuzlarla dimdik dayanacaqlar; böyük Divan toplanacaq. Günəş dünyaya özünün qaynar tərəfini çevirəcək; beyinlər istidən qaynayaraq əriyəcək, ancaq kasıb insanlara verilmiş çörəklər mərhəmətli insanların başının üstündə kölgə olacaq...

Göründüyü kimi, dünyanın sonu ilə bağlı inanclar dünya, günəş, ay və ulduzlarla bağlı inamlarla müqayisədə daha

---

[4] **“Buraq”:** Həzrət Məhəmmədin Merac gecəsi istifadə etdiyi minik heyvanı, at – ***Tərcüməçi***

[5] **“Mizan”:** günahları ölçən tərəzi – ***Tərcüməçi***

fövqəladə, daha fövqəltəbii, daha qorxuducu elementlərlə zəngindir. Bunlar ana xətləri etibarilə müsəlman "aməntü"-sünün[6] qayda-qanunlarına uyğunlaşmaqla birlikdə inkişaf etmiş, daha da zənginləşmişdir. Adı bilinməyən "nağılçılar" onlara bir növ "hekayət" donu geyindiriblər. Bunu edərkən də Dantenin, ya da **Apocalypse**ni yazan yazıçının yolu ilə gediblər. Bu, nə zaman gələcəyi bilinməyən "gələcək görüntüləri" keçmişdə yaşanıbmış kimi, canlı rənglər, əl ilə toxunula biləcək konkret ayrıntılarla canlandırılmışdır. Türkmən yazıçısı Məxtimqulunun bir sözü də bu mənada anlam qazanır. O, bir başqa şeirində Cənnət haqqında danışarkən deyir: "Dərvişlər onu yuxusunda görüblər." Dünyanın sonu və o biri dünya, əvvəl-axır, yaşanan hadisələrdən güc almış, kökləri gedib yenə onlara çıxan, amma çox-çox uzaq gələcəkdən xəbər verən bir "xəyal"dır: bir yandan onun üçün darıxdığımız və xoşbəxtlik yaradan, o biri yandan isə qorxulu, cansıxıcı bir xəyal...

O biri dünya ilə əlaqədar inanclar bir tərəfdən dünyanın sonu ilə, o biri tərəfdən isə ölüm və ölümdən sonrakı həyat ilə əlaqələndirilir. Birinci qismə aid olanları bir neçə nümunə ilə sadalayaq.

Eynilə 7-ci suala aid olan əvvəlki görüşlər kimi, bunların da ana qaynaqları ilahi kitablardan öyrənilmişdir:

- İsrafil surunun çalan kimi ölülər kəfənlərinə bürünmüş halda məzarlarından qalxacaqlar. Dümüsküldəki hissədəki bircə sümükdən başqa bədəninin hər yeri çürümüş olacaq; bədən bu sümükdən başlayaraq yenidən yaranacaq. Məşhər yerində qurulan "Mizan"da dirilən ölülərin günahları və savabları ölçüldükdən sonra cənnətə, yoxsa cəhənnəmə gedəcəkləri bəlli olacaq. Uşaqlar və şəhidlər heç bir hesab vermədən birbaşa

[6] **"Aməntü":** ərəbcə "inandım" mənasında olub, islam dininin təməl prinsiplərini (Allaha, onun yaratdığı mələklərə, göndərdiyi kitablara, peyğəmbərlərə, axirətə, qəzavü-qədərə inamı) bildirən sözdür – ***Tərcüməçi***

cənnətə gedəcəklər. İstanbuldan toplanmış bir inanca görə, Əraf cənnətlə cəhənnəmin arasında yerləşir: bura nə günah, nə də savab işləmiş "avara"ların yeridir. Onlar oradan həm cəhənnəmi, həm də cənnəti görəcəklər: cəhənnəmin qorxusunu, cənnətin həsrətini çəkə-çəkə duracaqlar. Cəhənnəm bir atəş dənizidir. Üstündə Sirat körpüsü vardır. Bütün insanlar bu körpüdən keçməyi sınayacaqlar. Yaxşı insanlar qurban bayramlarında kəsdikləri qoçların belinə minərək, sağ-salamat o biri tərəfə keçəcəklər. Pislər aşağıya yıxılacaqlar. Günahlarının çoxluğuna və əhəmiyyətlilik dərəcəsinə görə uzun ya da qısa bir müddətdə orada yanacaqlar. Kafirlər üçün bu cəza sonsuz olacaqdır. Cəhənnəmin gözətçiləri Zəbani deyilən və günahkar bəndələrə cürbəcür cəzalar tətbiq edən qorxunc varlıqlardır.

Başqa bir fikrə görə, cəhənnəm canlı bir varlıq, yeddi başlı bir əjdahadır: kafirlər və günahkar qullar onun ağzına atılacaqlar. Cəhənnəmin yeri çox zaman "yerin yeddi qat dibində" göstərilir.

Cənnət saraylarla bəzədilmiş səkkiz qatlı bir bağdır. Ortasından Kövsər bulağı axır. Bir inanca görə, xoşbəxt, cənnətə getməli olan bənədələrə Kövsər şərabını qızıl bir tasda Məhəmməd peyğəmbərin (s.) kürəkəni Əli (ə.) təqdim edəcəkdir. Cənnət bağçasında Tuba ağacı vardır. Bütün arzulanan şeylər bunun budaqlarında asılı vəziyyətdə dayanmışdır. Ağacın kökləri havada, budaqları isə yerdədir. Cənnətdə xoşbəxt bəndələrə xidmət etməklə vəzifələndirilən gənc qızlar – hurilər, gənc oğlanlar isə – qılmanlardır. Evlənmədən ölmüş olan bəndələr hurilərlə evlənəcəklər. Dünya nemətlərinin ən yaxşıları, ən gözəlləri cənnətdədir; hər arzulandığı vaxtda ələ gələ biləcək və cənnətlik olan bəndənin bu xoşbəxtliyi əbədi olaraq, sonsuza qədər davam edəcəkdir. Bir Anadolu kəndlisinin cənnət ilə əlaqədar verilən bir suala verdiyi cavab çox qəribədir: "Orada sən bir ağacın altında oturmusan, məsələn, ağaca bir

quş qonsa, sən də: "Bu mənim əlimə keçsəydi, bişirib yeyərdim" desən, o quş elə o dəqiqə bişər və bir qabda sənin qabağına gələr. Sən o qızarmış quşu yeyirsən, qabı da havaya fırıldadırsan, o qab yox olub gedir."

Yunus Əmrə o biri dünya ilə əlaqədar inancları qəbul etmədiyini, bunları lazımsız və dəyərsiz xəyallar hesab etdiyini bildirmək üçün Tanrıya səsləniş formasında bir şeirində cənnətin "hurilərinə və saraylarına" da işarə edir:

Cənnət, cənnət dedikləri
Bir neçə köşklə, bir neçə huri.
İstəyənə ver sən onı,
Mənə sən gərəksən, sən.

Yunus yenə Tanrıya səslənən bir başqa şeirində xalq arasında geniş yayılmış Məşhər, Tərəzi, Sirat, Cəhənnəm kimi inanışlara da toxunmuşdur:

Qıl kimi körpü gərirsən keç deyə
...........................
Qıl kimi körpüdən adammı keçər?
Ya yıxılar, ya durar, yaxud uçar.

Qulların körpü düzəldərlər xeyir üçün,
Xeyri budur ki, keçərlər seyr üçün
............................
Tərəzi qurdum günahım ölçməyə,
Qəsd edirsən məni oda atmağa.

Tərəzi ona gərək baqqal ola,
Ya bəzirgan, ya tacirü əttar ola.
............................
Sən tamaşa qılasan, mən xoş yanam.
Haşa lillah səndən, ey Rəbbül-ənam.
............................

Keçmədimi intiqamın öldürüb,
Çürüdüb gözumi torpaq doldurub.
............................
Bir ovuc torpağa bunca qeylü-qaal
Nəyə gərək, ey Kərimü zül-Cəlal?

Yunusun bu mövzudakı əsas fikirlərini çox sonralar Qayğusuz Abdaldan başlayaraq bir çox ələvi və bəktaşi şairləri də öz yaradıcılıqlarında işlətmişlər.

**8-ci sual: İnsan və insan bədəni ilə əlaqədar nələrə inanırlar?**

İnsanın ilk yaradılışı xalqa görə necə təsəvvür edildiyini yuxarıda (sual 4) gördük. Yaradılışın varlıqlarından biri kimi insanla əlaqədar başqa inanclar da var. Bunların bir çoxu yenə də islam dini təliminə uyğundur: İnsan "yaradılmışların ən şərəflisi"dir ("əşrəfi-məxluqat"), ona bütün mələklər səcdə edirmişlər və s.... Amma yenə də inancların bir qismi xalqın düşüncəsində qazandıqları fərqliliklərlə rəsmi dini xarakterini daha da genişləndirərək zənginləşmişdir.

Hər insanın səmada öz ulduzunun olması düşüncəsi kimi, çox qədim zamanlardan bu yana astroloji məlumatlara əsaslanan inanclarla yanaşı, bədənin müxtəlif əzalarının, yönlərinin, daxili və xarici orqanlarının xüsusiyyətləri, onlarla fiziki və ruh qüvvələrinin münasibətləri ilə əlaqədar bir çox fikirlər də qədim təbabət, anatomiya, fiziologiya, **physiognomonie,** ruhşünaslıq məlumatlarından töküntülərdir. Bunlar müəyyən vaxt ərzində qəlibləşərək, inanc formasını almışdır. Bir neçə nümunə:

– Ağız yaraları tez sağalır (bədənin özünümüdafiə gücü).

– Əli böyük olanın bəxti açıq olur.

– Əli soyuq olanın ürəyi isti olur.

– Biləyindəki damarlarını sıxan kimi qabaran adamlar comərd olurlar.

– Qulağı uzun olan adamlar uzunömürlü olurlar.

Bir qismi isə cadugərlik əməlləri ilə bağlıdır. İnsan bədəninin hər hansı bir hissəsi üzərində həyata keçiriləcək bir işin bədənin hamısına təsir edə biləcəyi haqda qənaət vardır, məsələn:

– Kəsilmiş dırnağı harasa atmaq yaxşı iş deyil: onu tapdalayanlardan pislik gələ bilər.

– Başdan tökülən, ya da kəsilən saçları küçəyə atmamalı: atan adamın başı ağrıyar sonra.

Bu axırıncı inancın:

– "Küçəyə atılan saçlar quşların ayağına dolaşarmış, quşlar da qarğış edərlərmiş, buna görə də atan adamın başı ağrıyırmış" şəklindəki variantı da eyni dünyagörüşü ilə əlaqədar olmaqla yanaşı, heyvanlara insan həyatına təsir etmək fürsətini verən, daha inkişaf etmiş və zəngin məzmunlu inanc hekayətidir.

İnsanın bədən üzvlərindəki bəzi dəyişikliklər olmuşu, olanı, ya da olacağı "xəbər vermə əlamətləri", bir növ, fal hesab edilir. Məsələn:

– Qulağı cingildəyən bir adam hardasa bir yerdə onun barəsində danışıldığına inanır.

– Sağ qulağı qızaran adam birinin onun barəsində xoş şeylər, sol qulağı qızaran adam isə əksinə pis şeylər danışıldığına inanır.

– Burunun qaşınması nə isə kədərli bir şey baş verəcəyinə işarədir.

Bütün növ "səyriмələr" bu seriyaya aid edilir. Göz, qulaq, əl, çənə... səyirmələrinin hər birinin yaxşı və ya da pis mənası vardır. Bu cür əlamətlər başqa bir "yozum elmini" ortaya çıxarmışdır. Bu mövzuda "səyriknamə" adı ilə kitabçalar da yazılmış, əlyazma və nəşr şəklində geniş miqyasda yayılmışdır (Bk. J.-L. Bacque-Grammont, **Elements pour leude de palmomancie chez les Tures.** "Traditions... des peuples altaiques" içərisində, s. 7-9. Paris 1972.). Səyirmələrlə əlaqə-

dar inancların türklər arasında var olmasına dair ən qədim sübutları X əsrin uyğur mətnləri ilə XI əsrə aid olan Kaşğarlı Mahmudun lüğətində tapmaq mümkündür. Kaşğarlı Mahmud səyirmə hadisəsini **"öz konuk"** ifadəsi ilə xarakterizə etdiyi ruhun, insan bədəninin hər hansı bir yerini tərpədərək üzə çıxması kimi şərh edir (Bacque-Grammont, **eyni** əsər, s. 9.). Bu inanclar, çox güman ki, bir də hər insan bədəninin kainatın bütün elementlərini özündə əks etdirən bir "kiçik-dünya" ("mikrokosm") və bu xüsusiyyəti ilə də başqa insanlarla, heyvanlarla, cansız əşyalarla, ulduzlarla "xəbər alıb-vermə" gücünə malik olması fikrinin bir nəticəsidir. Bu fikir xalq inancı kimi aydın və sabit bir təhkiyə qəlibinə girməmiş olsa da, onun uzaq əlamətlərini Hacı Bayram, Qayqusuz, Barak Baba kimi öz mistik düşüncələrinə türklərin qədim dinlərindən gəlmə dünya anlayışları ilə öz dövrlərinin xalq inanclarının və elmi məlumatlarının qaynayıb-qarışmasından təhkiyə gücü əldə etmiş şəxslərin təlimlərində tapa bilərik. Bugün bizə sadəcə bir söz oyunbazlığı, bir oyun, bir əyləncə vasitəsi kimi gələn nağıl təkərləmələri də bu cür təhkiyə üsullarının inkişaf etmiş başqa bir mərhələsidir (Nağıl təkərləmələri ilə mistik fikir təhkiyəsinin müqayisəsi üçün bax: P.N.Boratav, **Zaman zaman içinde**, İstanbul 1958, s. 44-45. Orada Rabelaisin məşhur kitabındakı "insanın daxili aləmi" haqda danışan yerlərlə bizim yanıltmacların müqayisəsi də verilmişdir. Rabelaisin bu aspektdən ətraflı tədqiqatı üçün bax: Mikhail Bakhtine, **Locuvre de François Rabelais et la culture populaire au Moyen Age et sous la Renaissance,** Paris 1970, özellikle V və VI fəsillər, s. 303-433).

Yenə insan bədəni ilə əlaqədar bu inanclara bədənin sağ tərəfinin (sağ əl, sağ ayaq...) uğurlu, xeyirli, müsbət, sol tərəfinin isə mənfi, bəzi hallarda uğursuz hesab edilməsi kimi qaydaları da əlavə edək.

Bədəndəki şikəstliklər, boyda, saç və göz rənglərində, saqqal və bığlarda vərdiş etdiyimiz ölçülərə uyğun gəlməyən uyğunsuzluqlar bu xüsusiyyətləri olanlar haqqında bir çox mühakimələrin yaranmasına gətirib çıxarır: korların, topalların, uğursuz, çox qısa boyu olanların, kosaların fitnə-fəsadlı, çox uzun boylu insanların axmaq olacağına, göy gözlü insanların baxışlarından zərər ("göz dəyəcəyinə") gələcəyinə inanırlar (Bax: S.V. Örnək. **Sivas və çevresinde ... batıl inanışlar...,** Ankara 1966, s. 121-122).

**9-cu sual: Can nədir? Haradadır? Yuxu və ölüm necə olur?**

Canın sümükdə, ya da qanda yer tutduğu açıq-aşkar qabardılan bir inanc kimi mövcud deyilsə də, türklərin qədim dinlərində var olan bu fikrin izlərinə cürbəcür ənənələrdə rast gəlmək mümkündür. Yuxarıda, Qiyamət günündə insanların bədənlərində çürüməyən tək bir parça olaraq dümüskül sümüyündən diriləcəkləri barədə inancdan danışmışdıq. Bir nağıl motivində bu inancın izini daha qabardılmış şəkildə müşahidə edirik: türk nağılları kataloqunda 108 nömrəli tipin bəzi variantlarında ölən qəhrəmanın sümükləri itirilmədiyi üçün, onun dirilməyi bu sümüklər sayəsində baş verməsi barədə danışılır. Can, ümumən, nəfəs kimi başa düşülür: bədəndən ayrılıb, uçub getməsi ölümdür. Bəzi yerlərdə də canın bədəndən bir milçək kimi qiyafəsində ayrılacağı haqqında düşüncələr mövcuddur. Xalq dilində mövcud olan "quşca can" ifadəsi, çox güman ki, onun bir quş kimi uçub gedəcəyi barədəki qənaətin izidir. Amma əksəriyyətə görə, can bədənin daxili orqanlarından birində oturmuşdur. Əzrailin insanın canını "sökərək", sahibinə əzab verərək alması qənaəti kimi, "can çəkişmək" ifadəsi də buna sübutdur. Bu inanc dastan və əfsanələrdə təhkiyə

formasına salınmışdır. **"Kitabi-Dədə Qorqud"**un bir epizodunda danışılan "Əzrail ilə Dəli Domrulun qarşılaşması" hekayəsinin bugünümüzə qədər gəlib çatmış, Antaliyalı bir abdaldan toplanmış bir vaiantında ölüm mələyi Domrulun arvadının canını almaq üçün çəngəlini onun bədəninə batırır, qadının canı göyərçin olub, Tanrının qatına gedir. Uşaqların canı da milçək, ya da quş kimi uçan bir varlıq kimi düşünülür. Əzrail əzab vermədən canını almaq üçün uşağa gözəl qırmızı bir alma göstərir, uşaq sevinc içərisində alma ilə oynayarkən canı da almaya yapışırmış (M.H.Bayrı, **İstanbul folkloru,** s.15). Mudurnunun bir kəndində eşitdiyim bir inanca görə, insan bədənində iki "can" vardır: birincisinə **ruh** deyirlər; bədəndən ayrılmağı ölümə gətirib-çıxarır, ikincisinə isə **revhan**. Yuxu əsnasında bədəndən keçici olaraq ayrılan bu candır. Onun bədəndən kənarda olarkən başına gələn macəralar isə yuxulardır. Yuxuların **kiçik ölüm** hesab edilməsi qədim oğuz ənənələrində yaşayırdı; günlər boyunca davam edə bildiyi üçün **kiçik ölüm** adlanırdı və Oğuz igidlərinin, əksərən, dustaq olunmaqlarına səbəb olan bu cür yuxuya **Oğuz yuxusu** da deyirdilər; Bu ifadə "uyuz yuxusu" formasında fonetik dəyişikliyə uğrayaraq, Anadoluda yaşayan yörüklərin nağıllarına qədər gəlib çatmışdır (Bax. P.N.Boratav, **Az gittik, uz gittik,** Ankara 1969, s. 119). Elə bu əsnada bunları da vurğulayaq: yunan mifologiyasında Hypnos (Yuxu tanrısı), Ölüm tanrısı Thanatosun qardaşıdır. Bundan başqa, Bayburtda topladığım bir "alqış" ifadəsi də vardır: "ipliyi uzun olsun". Bu söz bir adamın uzun müddət yaşamağı arzulandığı zaman deyilir. İnsanın ömrü ilə "ipliyin uzunluğu"nun əlaqəsinə qədim yunan-Roma ənənəsində də rast gəlinir: orada da hər insanın ömrünün uzunluğu, qısalığı **Parquesın** əyirib, büküb kəsdiyi üç ipliklə ölçülür.

**10-cu sual: Xalq inanclarında insanlar cins və yaş baxımından necə təsnif olunur?**

İnsanlarla bağlı ağıla ilk gələn təsnifat fiziki-fizioloji keyfiyyət daşıyır: qadın/kişi, gənc/qoca, uşaq/böyük... təsnifatı kimi. Daha qarışıq olanları isə sosial, mədəni, ətraf mühitlə bağlılığa əsasən aparılan təsnifatlardır: nəsil, irq, din, dil, sinif bölünməsi ilə şəhərli/kəndli, oturaq/köçəri kimi yaşam formalarının çoxçeşidliliyinin nəticəsi olanlar, məşğul olduqları peşələrin (cürbəcür sənətkarlıq növləri, ticarət, torpaq işləri, məmurluq...) xüsusiyyətlərindən yarananlar; cəmiyyəti idarə etməklə vəzifələndirilən şəxsə və ya idarəyə (hökmdar, dövlət...) münasibətdə fərqli mövqelərin səciyyələndirdiyi bölünmələr (sadiq təbəə/quldur, üsyankar...).

Bizim ənənələrimizdə bütün bu təsnifatın şərtləndirdiyi xalq inanclarına əsasən sistemli və əsaslı araşdırmalar aparılmamışdır. Ancaq başqa mövzulara həsr olunmuş tədqiqatlar və onlarla bağlı materiallar içərisində sistemsiz məlumatlar mövcuddur. Xalqın məişət danışıqlarında, deyimlərində, atalar sözlərində də bu cür inanclar üzə çıxır.

Bu cür düşüncə-davranışlar, əksərən, inanc gücü qazanmış önyarqı[7] keyfiyyətindədir. Bunlar cəmiyyətin maariflənməsi, müasir düşüncəyə, mədəniyyət normalarına uyğunlaşmaya tərs mütənasib olaraq, zamanla öz təsiri və keçərliyini itirir. Cəmiyyət quruluşunun inkişafına uyğun olan əxlaq qayda-qanunları ilə bərabər bunlarda da müəyyən dəyişikliklər özünü göstərir; dövrdən-dövrə, mühitdən-mühitə keçdikcə müəyyən ziddiyyətlərin olması bizləri əsla caşdırmamalıdır.

Qadın-kişi bərabərsizliyi, kişiyə tanınan haqların qadında olmaması, onu doğulduğu andan etibarən əskik və cürbə-

---

[7] "Önyarqı": stereotip, ustanovka – ***Tərcüməçi***

cür mənfi xüsusiyyətləri özündə ehtiva edən bir varlıq hesab etmə, ataxaqanlıq (**patriarcat**) qayda-qanunlarını mənimsəmiş cəmiyyətlərin əsaslandığı görüşdür və qadınla əlaqədar bir çox inanclar da bu görüşün nəticəsində əmələ gəlib.

Yuxarıda (4-cü sual) dünyanın yaradılışı ilə əlaqədar inanclardan söz açarkən gördüyümüz kimi, Tanrı ilk insanı torpadan yaratmış və ona can vermişdir: bu **kişi**dir (Adəm ata). Xalq inamlarına görə, Tanrı ilk qadını (Həvvanı) Adəmin qabırğasından yaratmışdır. Bu inanc Tövratın **Yaradılış** fəslində də verilmişdir. İlk qadının istilik kifayət qədər olmadığı üçün **tam bişməmiş** canlandığı barədə qədim bir türk əfsanəsi də (bax: 4-cü sual) qadının "qüsurlu, kişiyə baxanda daha yarımçıq bir canlı" olduğunu vurğulamaq istəmişdir. Xalq arasında qadını xarakterizə edərkən istifadə olunan "yarımçıq ətəkli", "saçı uzun, ağlı qısa" ifadələri də, yəqin ki, bu inanca əsaslanır.

XVI əsrdə toplandığına görə daha qədimdən gələn bir gücü olduğuna inandığımız hökmləri əhatə etdiyini düşündüyümüz bir atalar sözü kitabında **(Risale min kelimat-ı Oğuzname)** qadınla əlaqədar bir çox inamlar əks olunmuşdur. Oradakı hökmlərin mənzərəsini belə verə bilərik: qadına inanmaq olmaz; o, fitnəkar, hiyləgər, aragəzdirəndir; şəhvətli hərkətlərə qarşı müqaviməti yoxdur; onun dəyəri bir bəzək əşyası kimi gözəlliyində və gəncliyindədir; vəzifəsi kişinin dediyindən kənara çıxmamaq və ona uşaq böyütməkdir ("Quran" da qadınları kişilərin şumlayaraq əkdiyi tarlaya bənzədir. Bu bənzətməni yerin qadın, yağışın kişi hesab edildiyi xalq inamı ilə qarşılaşdırmağa dəyər). Haqqında danışdığımız atalar sözü kitabında bu mövzu ilə əlaqədar bir neçə nümunə verək:[8]

- Kız alursan sen bilürsin, avrat alursan ol bilür; alan bir günaha girer, alduran bin günaha girer.

[8] Nümunələrin dil və üslub orijinallığını saxlamaq məqsədilə onları olduğu kimi təqdim edirik – ***Tərcüməçi***

- İkinci ere varan avrata gelincük denilmez, meger kanı taze ola.
- Bir dişi ne denlü çirkin olursa kumalukdan kalmaz, amma kimse beğenüp asıllu gelin eyleyüp almaz.
- Er gelse kıv artar, avrat gelse kov artar.
- Dul avrata şeytan günde bir kuzı boğazlar.
- Şeytan ayıtmış ki: “Her nesneye bir derman buldum, avratlarun buçuk bildüğine bulamadum”.

Qadının “aybaşı” (“adet görme”, “kirlilik”) halının hər ayın bir neçə günü müddətində davam etməsi onun “toxunulmaz”, “uğur və bərəkəti qaçırdan” hesab olunmasına gətirib-çıxarmışdır. “Kirli” olub-olmaması qəti bilinməyəcəyinə görə belə qadına rast gəlmək ümumən uğursuzluq hesab edilir. “Kirli” vəziyyətində qadının bərəkət uzaqlaşdıran biri kimi tanınması halı “Quran”dakı “qadınlarınız kirli ikən onlarla yaxınlıq etməyin” sözləri ilə gücləndirilir. Lakin bununla yanaşı, həmin halın islam dininin sərhədlərini aşan qədimliyi və yayğınlığı vardır.

Bir qadının evlənməmişdən əvvəl bir kişi ilə yatması məsələsinə, “qızlığ”ına verilən önəm və bununla əlaqədar inanclar da patriarxat dönəmi qanunlarından təsirlənərək formalaşmışdır. Qızlıqdan qadınlığa çevirmə haqqının qızın ata tərəfi ilə aparılan danışıqlar nəticəsində tək bir kişiyə – onun əri olacaq bir adama tanınması və bu qanunun əleyhinə getmiş olan gənc qıza və onun ata-anasına qarşı cəmiyyətin verdiyi reaksiyaların sərtlik dərəcəsi patriarxal qanunlarının möhkəm və ya yumşaq tətbiq edilməsinə görə artır və azalır. Buna qarşı kişidə ərlik vəzifəsini yerinə yetirə biləcək gücün olması və qorunması da eyni dərəcədə önəm daşıyır. Bu gücün olmaması cürbəcür inanclara əsaslanır: kişidə bu cür bir qüsur meydana çıxdığı zaman səbəbləri axtarılaraq, onları aradan qaldıracaq çarələrə müraciət edilir. Ər-arvad olma vəzifəsini icra etməyə maneə olan qüsur (xalqın dilindəki bir ifadə ilə **asnıklık**) **qızın** ana-

tomik quruluşundan irəli gəlirsə, bu vəziyyət bəzi bölgələrin ənənələrində kökü məşhur sevgi dastanının qadın qəhrəmanı olan Əsliyə qədər gedib-çıxır: belə şikəstliyi olan qızların Əslinin soyundan olduğuna inanılır. Çankırı bölgəsinin gərdək adətləri arasında bəyin kişilik vəzifəsinin öhdəsindən gəldiyi xəbərinin "Əslinin düymələrinin tilsimi açıldı" ifadəsi ilə muştuluqlanması bu inamın hekayəti kimi başa düşülə bilər (Bax. Kemal Tahir, **Sağırdere,** 1955-ci il nəşri, s. 121).

Xalq inamları və adətlərində qadınların kişilərin qayda-qanunları altına girməyi, onun "satın aldığı qulu" olmağı qəbul etmək məcburiyyətində olmalarına qarşı olduqlarını ifadə edən tək-tük inanclar da vardır:

- Erkək arslan, arslan da dişi arslan, arslan deyilmi?[9]
- Qız doğan oğlan da doğar (Bu atalar sözü oğlan doğmadığı üçün qınanan qadını müdafiə etmək məqsədilə işlənir).
- Erkək quş havayı, dişi quş yapar yuvayı.
- Alət işləyər – əl öyünər, arvad işləyər – ər öyünər.

Nağılların bir çoxunda kişilərlə qarşılaşmağı, onun öhdəsindən gəlməyi bacaran, dastanlarda döyüşü ancaq gözəllikləri, ya da ağıllarının itiliyi ilə deyil də, atıcılıq, güləş kimi fiziki gücü ilə də qazanan qadın tiplərinə rast gəlinməsinin bir qisminin kökü, bəlkə də, matriarxat dövrünün qayda-qanunlarına gedib-çıxan ənənələrə bağlansa da, bir qismi məhz ata-xaqanlıq qayda-qanunlarına qarşı qadınların baş qaldırmasını ifadə etməlidir. Bu cür inanclara misallar ana xətləri etibarı ilə məmləkətimizin olduğu qədər bizim xalqımızla eyni sosial xüsusiyyətləri özündə ehtiva edən başqa ölkələrin ənənələrində də yer alır.

Cavan/qoca, uşaq/böyük, ata-ana/uşaq əlaqələrinə əsaslanan inamlara da bir neçə nümunə ilə nəzər yetirək:

- Söz ulunun, su kiçiyin.

---

[9] Azərbaycan variantı: "Aslanın erkəyi, dişisi olmaz" – ***Tərcüməçi***

- Ataların sözü "Quran"a girməz, "Quran" yanında yelik-yelik yelişir[10] (Burada "ata" qədim dövrlərin qoca və müdrik insanlarına işarə edən bir ifadədir.).
- Qocanın qüvvəti dilində, igidin qüvvəti belində.
- Qocaların toxumu çürük olur.
- Ananın qarğışı candan deyildir.
- Atanın qarğışı tez tutar; ağlı olan atası ilə necə atışar?

**11-ci sual: İrq və nəsil qruplaşdırmaları ilə əlaqədar inanclar və hökmlər hansılardır?**

İnsanların sosial qruplaşdırılması ilə əlaqədar inancların, demək olar ki, hamısı bir hökm xarakteri daşıyır: bəziləri göylərə qaldıran, bəziləri yerlərə endirən.

Bu cür hökmlər milli, mədəni və iqtisadi birliyə çatmaq yolunda mərhələlərdən keçərkən dünyanın hər yerində kiçik cəmiyyətlərin bir-birinə qarşı istifadə etdikləri döyüş vasitələri işini yerinə yetirir. Milli birliyin alınması üçün bu inanclar da öz gücünü itirməli olur: ged-gedə əyləndirici məqamlara, zarafatlara çevrilir. İqtisadi cəhətdən qabağa getmiş millətlərdə cürbəcür siyasi səbəblərdən müasir elm və mədəniyyət göstəriciləri saya salınmadan bu "anaxronik" inamların məcburi bir şəkildə yenidən canlandırıldığı hallar da olur: faşist quruluşlar, istismar məqsədi ilə işləyən iqtisadiyyatlar, nəsil, cins, irq... dəyərləndirmələri vasitəsilə insanları üstün/aşağı deyə təbəqələşdirmə üsulunu mənimsəyiblər. Bu cür hökmlərin keçərli və təbii qarşılandığı qədim zamanlarda belə buna cavab olaraq onlara qarşı çıxan düşüncələr də mövcud olmuşdur:

---

[10] Samət Əlizadə bu deyimi belə təqdim etmişdir: **"Atalarun sözi Qurana girməz, amma Quran yanınca yalın-yalın yalışur"** (bax: Oğuznamə. Çapa hazırlayanı, müqəddimə, lüğət və şərhlərin müəllifi Samət Əlizadə. Bakı. "Yazıçı", 1987, s. 18) – ***Tərcüməçi***

Yetmiş iki millətə bir göz ilə baxmayan
Xalqa müdərrisdirsə, həqiqətdə asidir –

deyən Yunus kimi...

Bizim ənənələrimizdə yaşayan və ya bir zamanlar yaşamış olan bu tip inanclara bir neçə nümunə verək.

Afyon-Qarahisarın kəndlərindən biri olan Yazılı-Qayada məskunlaşmış Qafqaz əsilli qaraçaylıların inanclarına görə köləliyin kökü bu iki əfsanə ilə izah olunur:

1) Müsəlmanların kafir uşaqlarını qaçıraraq qul kimi satmaq adətləri Matay (Battal Qazi) zamanından qalıbmış. O, kafir ölkələrin canına elə qorxu salıbmış ki, analar uşaqlarını **"səni Mataya verərəm"** deyə qorxudurmuşlar. Bir dəfə isə bir qadın ağlayan uşağını susdurmaq üçün "al bunu Matay" deyərək onu pəncərədən cölə uzadır. Matay da təsadüfən oradan keçirmiş: uşağı alıb-aparır. Bax qullar həmin bu uşağın nəslindən törəyib.

2) Məhəmməd peyğəmbərin (s.) xidmətçisi olan bir qız var imiş. Peyğəmbərin arvadı Xədicə Məhəmmədin (s.) hər səfərdən qayıtdığı vaxtı bilər və həmin saata yeməyini hazırlayarmış. Bir dəfə bu xidmətçi qız Xədicəni çətin vəziyyətdə qoymaq üçün yemək bişirilən daş qazanı gizlədir. Xədicə də ocağı qalayıb, yeməyi ovcunun içərisində bişirmiş, əlləri də ocağın hisindən qaralmışdır. Peyğəmbər evə qayıdanda Xədicədən əllərinin niyə qara olduğunu soruşmuş və buna xidmətçi qızın səbəb olduğunu biləndə ona qarğış etmişdir. Bax qullar həmin bu qızın nəslindən törəyib.

İzmir zəncilərinin inamlarına görə, köləliyin qadağan edilməsi bir məhəbbət hekayəsinə gedib çıxır: Afrikanı zəbt etmiş ingilis kralı bir zənci qıza aşiq olur. Zənci qız: "Əgər köləliyi ləğv etsən, səninlə evlənərəm," – deyə şərt qoymuşdur. Kral da bu şərti yerinə yetirmiş və arzusuna çatmışdır

(P.N.Boratav, **Les Noirs dans le folklore turc...,** “Journal da le Societe des Africantes”, XXVII, 1958, S. 12).

Türkiyədə zəncilərə alçaldıcı gözlə baxan davranışların əsas səbəbi onların ümumən kölə nəslindən olmaları, erkəklik gücünün yox edilməsi yolu ilə hərəmbaşıların daha çox onlardan seçilməsi, bir də, Osmanlı imperiyasının din faktoru vasitəsi ilə bir-biriləri ilə uzlaşdırdığı saysız-hesabsız irqlər arasında, yəqin ki, onların rəng baxımından diqqəti cəlb edən bir ayrılığı özlərində ehtiva etmələridir. Zənci qadınla evlənmək geniş yayılsa da, ağ qızı zənci oğlana verməkdən həmişə uzaq qaçıblar. Müsəlman kişinin başqa dindən olan bir qadınla ailə qurması yaxşı qarşılandığı halda, ziyalılar arasında belə müsəlman bir qızın müsəlman olmayan bir oğlana verilməsi məsələsində də eyni qanuna riayət olunmuşdur. Evlənmə mərasimlərindəki bu təktərəfli tolerantlıq ataxaqanlıq sistemi baxışlarının – qadını azadlıqdan məhrum, özbaşına mövcud ola bilməyən bir varlıq olması normasının və s. nəticəsidir.

Alçaldılan, xor görülən başqa bir azsaylı xalq isə çingənələr[11] olmuşdur. Bir inanca görə, kafirlər İbrahim peyğəmbəri yandıracaqları zaman onu oda atmaq üçün bir mancanaq düzəldirlər; amma mancanağın ağacını heç cür fırladıb, İbrahimi ata bilmirlər. O zaman kahinləri deyir ki, “iki bacı-qardaş zina edərlərsə, mancanaq işləyəcək”. Cin adında oğlanla Gan adında bacısını mancanağın altında zina etdirir, ağac da buna dözə bilmir və çevrilərək İbrahimi oda atır. Bax, qaraçılar bu bacı-qardaşın nəslindən imişlər.

Kürdlərin nəslil-kökünü də Yozgatdan toplanmış bir hekayə (M.Rasanan, “Studia Orientalia”, IV, 1936,s. 38-39 ) belə nəql edir: İfrit Süleyman peyğəmbərin qızı ilə evlənmək istəyir. Süleyman Kərtənkələnin öyüd-nəsihətinə qulaq asaraq

[11] “Çingənə”, yəni qaraçı – **Tərcüməçi**

İfriti başından eləyir. Bu zaman İfrit gizlincə Süleymanın bir cariyəsi ilə gəzməyə başlayır. Qadın bir oğlan uşağı dünyaya gətirir. Utandığından bu uşağı dağ başında qoyur. Bir dişi ayı bu oğlanı əmizdirir, böyüdür. Bir it də ona danışmağı öyrədir... Göründüyü kimi, bu hekayət də, bir növ, "pisləmək" məqsədi güdən bir inancın məhsuludur.

Bəzi soylar isə müsbət xarakterli inanclarla ucaldılmaq istənmişdir. Bunlara dair nümunələrə dastan qəhrəmanlarının əsli-kökü barədə danışan əfsanələrdə rast gəlirik. XIV əsrin əvvəllərində Misirdə yaşamış qıpçaq əsilli Aybəkoğlu Əbu Bəkir türk, moğol və tatarların kökünü bu hekayə ilə belə nəql edir:

Bir qadın yolda gedərkən bir oğlan uşağı dünyaya gətirir. Qartal uşağı caynaqlarına alıb aparır və arslan balalarının arasına atır. Oğlanı arslan böyüdür. Günlərin bir günündə Arslan-Uşaq öz düşmənlərindən qaçan bir qafilə ilə rastlaşır; onlara qoşulur və onlardan olan bir gənc qızla evlənir. Türklər, tatarlar və moğollar bu oğlanın törəmələridir. Başqa mənbələrdən gələn məlumatlara görə, göytürklər bir dişi qurdla bir insanın birləşməsindən törəmişlər.

Osmanoğulları nəslinin qiyamətə qədər hökmranlıq edəcəyini xəbər verən inanış **"Kitabi-Dədə Qorqud"**da "axır zəmanda xanlıq gerü Qayıya dəgə, kimsənə əllərinden almıya, axır zəman olub qıyamet qopunca" sözləri ilə bilici Qorqud atanın dilindən gələcəyə dair xəbər kimi təqdim olunmuşdur. Dastanı yazıya alan şəxs: "Bu didügi Osman nəslidür, işdə sürilib gidə-yürür" sözləri ilə bunu tamamlayır. Qədim Osmanlı tarixlərində keçən başqa rəvayətlərdə Osmanoğullarının gələcəyi ilə əlaqədar ucaldıcı inamlar bir yuxunun yozumu kimi formalaşmışdır. Yuxusunda Osman Qazinin göbəyindən bir ağac bitməyə başlamışdır. Kölgəsində dağlar var imiş, dağların dibində bulaqlar qaynayırmış... Osman yuxusunu Ede-Balıya (qayınatası olacaq şeyxə) yozdurur. O da: "Sənə və sənin

oğullarına Tanrı səltənət verdi. Bütün yer üzü sənin oğullarının kölgəsi altında olacaq" deyir.

Eyni yuxunu, digər bir rəvayətə görə, Osmanoğullarının ilk atası hesab edilən Mir Süleymanın (Oğuz) atası Ivaz, bir başqa rəvayətə görə isə Sır-Dərya sahillərində yaşayan Qayı boyundan olan Togurmıs adlı bəy görmüşdür (Bax: P.N.Boratav, "Türkiyat Mecmuası", XIII, 1958, S. 43-44). Osmanlı padşahlarının sonsuz qüdrəti onların "Tanrının yer üzündəki kölgəsi" olması fikrinə əsaslanırdı.

**12-ci sual: Din və məzhəb ayrı-seçkiliyi inanclarda necə üzə çıxır?**

Din və məzhəb ayrı-seçkiliyi ilə əlaqədar inamların başqa dindən və ya məzhəbdən olan topluluqların bir-birini tənqid etmə, aşağılama üçün bir vasitə kimi istifadə olunmasına dair saysız-hesabsız nümunələr verə bilərik. Bunların çoxu atalar sözü formasındadır:

- Ayıdan post[12], kafirdən dost olmaz.
- Qırx illik Yani, olurmu Kani.
- Qoca müsəlman kafir olmaz, qoca kafir müsəlman.
- Kafirdən vəfa, zəhərdən şəfa.

Yolda keşişə rast gələn şəxsin əli ilə cansız bir əşyaya toxunması da (keşiş "kafirliy"in ən üstün təmsilçisi hesab olunduğu üçün) ondan gələcə biləcək uğursuzluğu zərərsiz bir hala gətirmək məqsədini güdür. Cansız əşya yerinə, yanında olanlara toxunmaq formasına keçdikdə isə bu əməl ciddiyyətini itirərək, bir növ, zarafat, oyun xarakteri qazanır: təsadüfdən yarana biləcək uğursuzluğu yanındakına ötürmək cəhdi (kimi

[12] "Post": fars dilindəki "pust" ("dəri") sözünün türkcə deyiliş şəkli – ***Tərcüməçi***

birinci görsə, daha tez tərpənərək yoldaşına vurmağa calışar), yanındakına ilişmək, onu hirsləndirmək məqsədini güdür.

Seyyid Battal Qazi mənqəbələrində rast gəlinən bir inanca görə “iman” ağ bir quş, “küfr” qara bir quş kimi təsəvvür olunur: imanını itirmək kafir olmaq, ağ quşun insanın ağzından çıxıb, yerinə qara quşun girməsi ilə izah olunur.

Əvvəllər böyük şəhərlərdə geniş yayılmış bir inam var idi. Yəhudilər, guya, müsəlman uşaqlarını qaçırar, qanlarını içmək üçün onları iynəli çəlləklərə[13] atarmışlar. Uşaqlar bununla qorxudulurdu.

Minas Tcherazın topladığı bir hekayətə görə (**Orient inedit,** Paris 1912, s. 183-185), yəhudilər Məhəmməd peyğəmbəri (s.) öldürmək üçün ona zəhərli quzu əti yedirtmək istəyiblər. Bişmiş quzu dilə gələrək Məhəmmədə (s.) zəhərin məhz hansı hissələrdə olduğunu xəbər vermiş, peyğəmbər də ətin zəhərsiz yerlərindən yeyibmiş... Bu hadisənin ildönümü Xıdırəlləz günü ilə üst-üstə düşürmüş. Həmin gün yəhudilər diri bir quzunu ortalığa qoyub, yununu, ətini didik-didik edərlərmiş.

Sünni olan əhali arasında başqa məzhəblərə qulluq edənlər haqqında da cürbəcür inanclar yaranmışdır. Bunların əksəriyyəti həmin məzhəblərdən olanların özləri tərəfindən qəbul edilmir; düşmən mövqeyindən doğan, pisləyici fikirləri özlərində əks etdirir. Onların bir qismi, bəlkə də, çox qədim dini görüşlərin qalığı kimi həmin məzhəblərin əqidə və əməlləri arasında bir müddət mövcud olmuş, sonralar isə tədricən yox olub getmişdir. Amma düşmən tərəfindən unudulmamış, tənqid vasitəsi kimi istifadə olunmaqda davam etmişdir. Sünnilərin Anadolu qızılbaşları haqqında danışdıqları bu cür çox şeylər

---

[13] Azərbaycan Respublikasının Biləsuvar bölgəsində yayılmış mətnlərə görə, cüyütlər uşaqları oğurlayıb içi mismarlı çəlləklərə atırlar. Həmin çəlləkdə onların qanı çıxır, cüyütlər də bu qanı içirlər. Burada “cüyüt” sözü “cühud” sözünün dialekt şəklidir – ***Redaktor***

vardır. Onların əsrlər boyunca "mülhid"[14] edilərək qovulmaları, əzilmiş olmaları, bu səbəbdən də "xarici mühitə qapalı" qalaraq dini mərasimlərini özlərindən olmayanlara göstərməməyə diqqət edərək yadlardan gizlin saxlamaları, qadınlı-kişili bir yerdə keçirilən və sünni-islam dininin yaxşı qarşılamadığı sazlı-sözlü, rəqsli məclislərində müsəlman üçün haram hesab edilən içkilərin içilə bilməsi kimi hallar, yəqin ki, gerçəkliyin ziddinə olan bir çox fikirlərə gətirib-çıxarmışdır. Anadolu qızılbaşları (taxtaçılar və başqa ələvilər) haqqında elə o vaxtdan danışılan "dinə, əxlaqa zidd əməllərin", əksəriyyəti bir-biri ilə uyuşmayan rəvayətlərin bir qismini Jean Paul Rouxun cənub taxtaçılarının adət-ənənələri ilə əlaqədar yazdığı kitabda tapa bilərik (**Les traditions des nomades de la Turquie meridionale,** Paris 1970). Qızılbaş qadınlarının ərlərindən başqa kişilərlə də gəzməyinin onların adətlərinə uyğun olmasına dair mövcud olan xalq inancı, belə hesab edirəm ki, "iqrar" törənində "talib" ilə "müsahib"inin keçməsi vacib olan sınaq prosedurunun qəsdən və ya qəsdsiz yanlış yozulmasından doğan söz-söhbətlərə əsaslanır. Osman Bayatlının taxtaçı ənənələri ilə əlaqədar yazdığı kitabda (**Tahtacı gelini və inançları**, İzmir 1957, s.22) onların sözünə etibar edilən informatorlarından öyrənərək nəql etdiyi bir törəyə görə, "cəm gecəsində iki müsahib bir-birilərinin arvadları ilə çılpaq şəkildə kilimin üstünə uzadılır; üstlərinə də maral dərisi örtülür. Bütün günahlar bu dərinin üstünə töküləcəkdir. Bu yataqdan isə əlinə, dilinə və belinə sahib bir şəkildə qalxmaq lazımdır".

Qəsəbələrdə, kəndlərdə ələvilərin sünnilərə qarşı qəribə davranışı haqqında eşidilən cürbəcür rəvayətlərdən biri də onların sünni qonaqlarına təqdim etdikləri yeməyin içərisinə tüpürmələridir. Ələvi kəndlərinə gedən bir çox adamlar bu sə-

[14] "Mülhid" – ərəbcə olub, "dinsiz", "haqq yoldan çıxmış" mənalarındadır – ***Tərcüməçi***

bəbdən onların əlindən bir şey alıb yeməz, içməzlərmiş. Əzəldən sünni müsəlmanların heç biri qızılbaşların kəndində qalmağa risk etməzmiş. Sivas tərəflərdə eşitdiyimiz bir rəvayətə görə, Mustafa Kamal Samsunda Anadoluya qədəm qoyduqdan sonra padşahın adamlarının təqibindən qurtulmaq üçün qızılbaşların ən qatıları hesab olunan sirацların kəndində gecələyirmiş. Bu kəndlərdə bir sünninin, hələ-hələ bir osmanlı paşasının qala biləcəyinə heç kimin əsla inanmayacağı qənaəti onu bu yola əl atmağa vadar etmişdir.

Əlbəttə ki, ələvi topluluqlarının da özlərindən olamayanlar haqqında onları pisləmək məqsədi güdən qəribə inancları vardır: Bunlardan biri **Əbu Müslim Kitabı**nda haqqında danışılan hekayədə öz əksini tapmışdır. Müaviyə bir divarın dibində dəstəmazını pozarkən onun kişilik orqanını bir əqrəb sancır. Ölümdən can qurtarmaq üçün bir qadınla yatmalı imiş. O, nəslindən kimsə törəməsin deyə (çünki Peyğəmbər onun nəvələrini Müaviyənin nəslindən olan birinin öldürəcəyi barədə xəbər veribmiş) qısır kimi tanınan bir cariyə ilə yatır. Amma cariyə hamilə qalır və Yezidi dünyaya gətirir... Bilirik ki, qızılbaşlar ələvi olmayanları "Yezid", ya da "Yezid soyu" adlandırırlar.

**13-cü sual: Başqaları tərəfindən sosial çeşidlənmə və bunlarla əlaqədar inanclar hansılardır?**

İnsan cəmiyyətlərinin kəndli/şəhərli, oturaq/köçəri və s. kimi coğrafi və iqtisadi quruluşlardakı, ya da din, dil, kültürlərindəki fərqlər ucbatından bir-birinə yad qaldıqları üçün birinin digərini lağ obyektinə çevirməsinə, düşmənçilik hislərini alovlandıran inancların ciddiliklərini və sərtliklərini itirərək, sadəcə, lağ etmək və əylənmək məqsədi güdən gülməli hekayələrə çevrilmələrinə aid olan bir neçə nümunəni Qaratəpə adlı kənd əhalisi ilə əlaqədar danışılan hekayələrdə tapa bilərik. Əhalisi dəli

kimi ad çıxarmış bu kəndin dəqiq harada olduğunu da heç kim bilmir. Adana vilayətində biri Qədirliyə, biri Qarsantıya bağlı olan iki kəndin əhalisi də belə məşhur olub; amma Qədirli qaratəpəliləri Qayseri torpaqlarında da belə bir kəndin olduğunu da deyirlər və əsil "dəliləri" ilə məşhur olan Qaratəpənin öz kəndləri olduğunu da heç incimədən, əsəbiləşmədən, gülərək söyləməyi də unutmurlar. Qaldı ki, Qaratəpəlilərin dəliliyini göstərən əməlləri ilə əlaqədar danışılan şeylərə, bunlar Almaniyadakı schildürgerlilərin, Macarıstanda ratotluların macəraları kimi, Bolu ərazisində lazların, İbradıda ərmənəklilərin, Bitlisdəki əhlətlilərın macəralarıdır. Bolu bölgəsindəki türk kəndlərində yaşayanların qonşusu olan lazlarla zarafatlaşmaq üçün danışdıqları hekayələrin bənzərlərini lazların da türklər haqqında dediklərini eşidə bilərik. O biri tərəfdən, Qaradənizin şərq sahilboyunda yaşayan lazlar eyni tipdən olan lətifələr danışaraq, içəri kəndlərdə məskunlaşmış lazlara (orçaylara) lağ edirlər.

Qədirli torpaqlarında yaşayan Qaratəpə hekayəsində deyildiyinə görə, bu kənd əhalisinin əcaib hallarının səbəbi onların "Dəli bulağı"ndan su içmiş olmalarındadır. Günlərdən birində, Qozanoğlunun qaratəpəlilərə yazığı gəlmiş, bu bulağı tapdıraraq qurutdurmuş və ondan sonra qaratəpəlilərin ağlı özlərinə qayıtmışdır. "Dəli bulağı"nın suyundan içdikləri üçün dəli kimi hərəkətlər edən kəndlilər, deyəsən, təkcə Qaratəpəlilər deyildir. Fakir Baykurtun "**Onuncu kənd"** adlı romanında Düzülcə adlandırılan və dəqiq yeri göstərilməmiş bir kənd əhalisi haqqında da **"Dəli bulağı"nın suyundan içdikləri üçün heç də ağıllı işlər görməyən şəxslər"** deyə söz açılır.

Girəsunun Qala məhəlləsində Qazı-Yalağı adlandırılan çeşmənin suyundan içənlərin də dəli ola biləcəyi barədə xalq inamı mövcuddur. Hətta Girəsunda: "Hər məhəllədən bir dəli gəlsin, Qala məhəlləsindən kim gəlirsə-gəlsin!" deyə bir məsəl vardır.

XV əsrə aid olan bir yazılı mənbədə sivrihisarlıların Molla Nəsrəddinə: "Gəlsin bizə də bir az ağıl versin, biz də başqaları kimi ağıllanaq" deyə xəbər yolladıqları barədə danışılır (Bax.: Fahir İz, **Türk ədəbiyyatında nesir, I**, İstanbul 1964, s.316). Bu sənəd sivrihisarlıların da eynən qaratəpəlilər kimi bir vaxtlar dəli hərəkətlər edərək hər kəsi özlərinə güldürdükləri, Molla Nəsrəddinin onları ağıllandırdığı inancını təsdiq edir. İndilərdə isə sivrihisarlılar o ərazinin əhalisi arasında (eynən qaysərililər kimi) işlərinin öhdəsindən gəlməyi bacaran, cin kimi ağıllı insanlar kimi məşhurlaşıblar.

**14-cü sual: Xalq inanclarında peşələrin və bazar adamlarının qruplaşdırılması necə izah olunur?**

Xalq arasında sənət növlərinin hansının daha dəyərli olması inamlarda öz əksini tapmışdır. Orta əsrlərin sosial sistemində sənət qolları əxi təlimlərinə bağlanırdı. Bu qollardan hər birini ilk dəfə quran, ya da cəmiyyətin həyatında ona önəmli bir yer qazandıran, hər hansı bir sənət növünün texnikasında yeni bir kəşf etmiş olan şəxs o sənət adamlarının "pir"i hesab olunurdu.

• Mudurnuda 1931-ci ildə sənətkar pirləri ilə əlaqədar aşağıdakı məlumatları əldə etmişdik: Bərbərlərin piri – Salmani-Pak, tikişçilərinki (yəməni tikiş işçilərinin) – Əkbəri Yəməni, dəmirçilərinki – Davud Peyğəmbər, qəssablarınkı – Comərd Qəssab, əttarlarınkı – Qəzzazi Vəli; dabbaqlarınkı – Şeyx Əxi Evrən; əkinçilərinki (cütçülərin) – Adəm peyğəmbər, dərzilərinki – İdris peyğəmbər. Mudurnudakı dabbaqların (aşılayıcıların) inanışına görə, Əxi Evrən Məhəmməd (s.) və Əlinin (ə.) müasiri olmuşdur. "Evrənlər (əjdahalar) kimi döyüşdü", – deyə Əli (ə.) ona qızını vermiş, toyları Mədinə şəhərində olumuşdur. Gələn qoyunların dərisi bir yerə yığılır, Əxi Evrən də onları aşılayaraq, rəngləmiş və cehiz kimi asmışdır. Əli (ə.) qamçısı ilə bu dəriləri açmışdır (pardaxlamış-

dır). Bax buna əsasən, Əli (ə.) dabbaqların piri hesab olunur. Əxi Evrənə Peyğəmbər özü dua etmiş və demişdir: "Otuz iki sənət növü sənin icazənlə olsun". Məhz buna görə də dəri ilə əlaqədar otuz iki sənət növü sadalayırlar və onların hamısı da Əxi Evrəni özlərinə pir qəbul edirlər. Onların hamısının xəlifələrinə dabbaqların şeyxləri qurşaq bağlayırdı[15].

Övliya Çələbi İstanbulda şənliklər əsnasında təşkil olunan paradlarda iştirak edən sənətkarları sadalayarkən pirləri barədə də danışır, bəzi sənətləri "pirsiz" deyə xarakterizə edirdi. Bu baxımdan, qaraçıların və müsəlman olmayan azlıqların işlətdikləri sənət növləri "pirsiz" hesab olunurdu. Hər sənət növünə pirinin məşhurluq və hörməti dərəcəsində bir şərəf payı verilmişdir.

Xalq inanclarında sənət növlərinin ən qədimi hesab edilən cütçülüyün piri insan oğlunun ilk atası Adəm hesab olunur. Amma "cütçülük div sənətidir" ifadəsi xalq inanclarında torpaq ilə əlləşən insanların ancaq divlərin edə biləcəyi, insan qüvvəsindən üstün işlərin öhdəsindən gələ bildikləri, ya da, çox güman ki, ilk cütçülərin boylarının ucalığı etibarı ilə div kimi varlıqlar olması haqqındakı təsəvvürlərin qalığıdır. Belə ki, Qars ərazisində bu div-cütçülər ilə bağlı çoxlu əfsanələr danışılır, bəzi hekayələrdə isə bu əkinçilərə Oğuz adı verilir. Bir sıra nağıllarda cütçü-divlər barədə danışılması da həmin bu çox qədim inamın izləri olmalıdır.

### 15-ci sual: Fövqəltəbii gücləri olan insanlar kimlərdir?

Bir qədər əvvəl bəzi inamların mövzusu olan "div-insan"-lar barədə danışdıq. Bunlar, aydın görünür ki, nağıllarda rast gələn "div"lərdən fərqli olaraq, daha çox dastanın obrazı kimi

---

[15] Bu, bir mərasim aktıdır. Şeyx xəlifənin belinə qurşaq (başqa adı ilə: xirqə) bağlamaqla onun artıq ustalıq məqamına çatdığını təsdiq edirdi – ***Tərcüməçi***

xarakterizə oluna bilər. Burada bir də nağıllarda rastlaşdığımız və adı, məkanı, zamanı bilinməyən, sadəcə olaraq, **cadugər, sehirbaz, of-ərəb** və s. ümumi adlarla göstərilən qeyri-adi güc sahibi olan varlıqlardan tamamilə fərqli obrazlara aid nümunələri sıra ilə tədqiq edəcəyik. Bu cür insanlar iki böyük qrupa ayrılır:

1) Böyük müqəddəs kitablarda ("Tövrat", "İncil", "Quran") əməlləri barədə danışılan peyğəmbərlər, fövqəltəbii, müsbət və ya mənfi gücləri vurğulanan digər adamlar və bir də müsəlman-türk cəmiyyətinin adət-ənənələri barədə danışdığımıza görə qeyd edək ki, Məhəmməd peyğəmbərin (s.) müasiri, onunla yoldaşlıq etmiş olan seçilmiş, böyük şəxsiyyətlər.

2) Yazılı tarix səhifələrində və mənqəbələrdə xatırlanıb-xatırlanmamasından, həyatda yaşayıb-yaşamamasından asılı olmayaraq, tarixi şəxsiyyət kimliyi qazanmış və "ermiş"[16] deyə tanınan şəxslər.

Birinci qrupdakı şəxslərlə əlaqədar xalq inamlarının əksəriyyəti yuxarıda haqqında danışdığımız ana kitablarla, onlara verilən şərhlər nəticəsində yaranmış başqa yazılı qaynaqlardan, ənbiya qissələri, siyərlər[17] və bu mənbələrin məlumatlarını nəql edən qədim tarix kitablarından gəlir. Amma bu zaman həmin kitablara da bu inancların çox vaxt şifahi ənənədən keçdiyini də unutmamalıyq. İnamlar xalq içində yaranıb zənginləşdikdən sonra yazıya keçir. Yazılı və şifahi ənənələrin alış-verişi beləcə əsrlərdir davam edir. Yuxarıda (5-ci sual) günəşin üzündəki ləkələrin səbəbləri barədə danışan bir inancı nəzərdən keçirmişdik. Bu, islamın ilk xəlifələrindən Ömərin qəzəbli bir insan olduğunu vurğulamaq istəyən və bəlkə də, onun həqiqi şəxsiyyətinə uyğun gələn bir faktdan əmələ gəlmiş bir rəvayətdir. Məhəmmədin (s.) kürəkəni və əmisi oğlu Əli (ə.) tarixən Ana-

---

[16] "Ermiş" şəxslər dedikdə övliyalar nəzərdə tutulur – ***Tərcüməçi***

[17] "Siyər" – Həzrət Məhəmməd peyğəmbərin həyatından bəhs edən bədii əsərlərin ümumi adı – ***Tərcüməçi***

doluya heç bir zaman gəlməmişdir, amma Anadolunun hər küncündə ona dair bir xatirə vardır. Əlinin (ə.) Ərzincanın şimalında, Başköyün yaxınlığında yatan bir Ermiş-Qızın məzarını hərdən ziyarətə gəldiyinə, qışda ayaq izlərini qarın üstünə qoyduğuna inanırlar. Anadolu taxtaçılarına görə, Qaz-Dağının təpəsində yatan Sarı-Qız onun qızıdır.

Peyğəmbəri (s.) gerçək həyatda həqiqətən bir ilan sancıbmı, yaxud onu bu vəziyyətdən bir pişikmi xilas edib? Bunu bilə bilmərik. Amma pişiyin nə qədər hündür bir yerdən düşürsə-düşsün dörd ayağının üstünə düşəcəyinə, heç vaxt zədələnməyəcəyinə inanırlar: çünki Peyğəmbər (s.) onu ilandan xilas etdiyinə görə, pişiyin belinə sığal çəkib.

İkinci qrupdakı şəxslərin əksəriyyəti: Əyyub Sultan, Mövlana Cəlaləddin, Saru Saltuk, Yunus Əmrə, Qaracaoğlan və s. həqiqətən yaşayıblar. Bir çoxu isə: Qum Baba, Çıtlık Baba, Çinar Dədə, Buğda Baba, Munzur Baba və s. kimi torpaq, ağac, bitki, dağ... adları ilə adlandırılıblar. Bəzilərinin adı təqlidi sözlərdir: Şıpşıp Dədə. Bəzilərinin isə heç adı da yoxdur, sadəcə, "Yatır", "Dədə" deyərlərmiş. Bu qrupdakı şəxsiyyətlərin əsas xüsusiyyətlərindən biri qəbirlərinin Anadolu torpaqlarında olmaları və ondan ayrılmaz varlıqlar olmalarıdır. Onlar Anadolunun sularında, dağlarında, ağaclarında, çaylarında cisimlənirlər. Bəlkə də, indi onların uyuduqları yerlər bu ölkəyə türklər gəlməmişdən əvvəl, orada heç xristianlıq da yaranmamışdan qabaq başqa dinlərin ziyarətgahları, qurbangahları idi.

Adlı, ya da adsız, amma daha əski çağlara gedib çıxanlarla yanaşı, bir də yaxın zamanlarda yaşamış və həyatda ikən göstərdikləri qeyri-adi hallara hər kəsi inandırmış övliyaları da xatırlamaq lazımdır. Onlar barədə rəvayətlər danışan adamlara bugün də rast gələ bilərik. Əksəriyyəti "məczub"[18]

---

[18] "Məczub" – ərəb sözü olub, Allah eşqi ilə ağlını itirmiş dəli-divanə mənasındadır – ***Tərcüməçi***

deyə xarakterizə edilən şəxslərdir. Qaramat sözlərindən, məntiqsiz hərəkətlərdən bir növ “fal” mənası çıxardılır, onlara xüsusi hörmət, sevgi və maraq göstərilirdi. Çox söyüşkən olduğu üçün ziyarətə gələnlərdən söyüş, əhli-kef olduqları üçün qurban kimi məzarının başında üç, beş, yeddi “göbək atmağ”ını istəyən məşhur “övliyalar” hər halda öz sağlıqlarında bu cür insanlar olmuşlar. Öz dərbədər həyatlarıında dünya nemətlərinə, şana-şöhrətə dəyər verməmələri, var-dövlətlərini başqalarının xeyrinə xərcləməkləri onlara fövqəladə kimlik qazandırmışdır. Ömrü yad qapılarda qulluqçu, rəncbər, xidmətçi kimi başa çatmış övliyalar vardır. Onların övliyalığı həyatları boyunca xor baxılmaları, əzilmələri, ya da həyətində işlədikləri adamlara dərin bir sevgi ilə bağlanmaları ilə izah olunur. Çoban, dəmirçi övliyalar vardır: biri otardığı heyvanları suya çatdıra bilmək üçün özünü Allaha qurban dediyi üçün övliyalaşmışdır, o bir isə insanların Tanrının cəhənnəm əzabı ilə mühakimə olunmasını istəmədiyi üçün qaynar dəmir parçasını yumruğu ilə döymək gücünü qazanmış dəmirçidir.

Övliyaların əksəriyyətinə naməlum bir zamanda yaşamış insan gözü ilə baxırlar. Şəxsiyyətləri nə olursa-olsun, hər birinə bir vəzifə yaraşdırıblar. Bu vəzifələr bircə dənə “nəzir” sözü ilə verilir. Nəzir çox geniş və zəngin mənaları olan bir sözdür. Məzarda uyuyana nəzir demək ona hər hansı bir arzunun həyata keçməsi üçün üz tutmaqdır. Nəzir deyən şəxs bu hərəkəti ilə övliyanın onunla Tanrı arasında vasitəçilik edə biləcəyinə inanır. Arzusu həyata keçən kimi nəziri verir, yəni övliyaya vasitəçiliyi müqabilində verdiyi sözü yerinə yetirir. nəzir əgər qurbandırsa, bir heyvan kəsərək, fəqir-füqəraya paylayır. Bir ianədirsə, onu ya türbəyə qoyur, ya da nəzarətçisinə verir. Sadəcə, söz veribsə ki, filan işi edərəm (“Quran” oxumaq, namaz qılmaq, ya da yuxarıda haqqında danışdığımız hərəkət kimi “göbək atmaq” və s. işlər), o zaman onu yerinə yetirir. Deməli nəzir:

1. Övliya ilə hər hansı bir arzu ilə bağlı müqavilə;

2. Kəsilən qurban;

3. Verilən ianə;

4. Önəmli-önəmsiz, fərqi yoxdur, övliyanın ruhunu oxşayacaq bir hərəkət formasında olur.

Uşaq istəyənlərin anadan olacaq uşağa həmin övliyanın adını, ya da uşağın ona nəzir deyildiyini bildirən Satılmış, Satı kimi ad vermələri də əhd-nəzirlə bağlı adət-ənənələr sırasındadır. Bəzi övliyaların nəzirləri onların həyatda ikən məşğul olduqları sənətkarlıq növü ilə bağlı olur. İzmirin məşhur övliyası Testili Baba sağ ikən susuz evlərə öz teşti ilə su daşıyırmış. Ona nəzir deyənlər məzarının üstünə su ilə dolu teşt qoyurlar.

### 16-cı sual: Övliyalar hansı qeyri-adi işlərə qadirdirlər?

Övliyaların bir xüsusiyyəti də, yuxarıda haqqında danışdığımız kimi, həyatları boyunca və öldükdən sonra da müəyyən ağlasığmaz işləri həyata keçirə bilmələridir. Peyğəmbərlərin qeyri-adi işlərini göstərmək üçün istifadə olunan "möcüzə" anlayışını bunlarda "kəramət" sözü işarə edir. Xalq inanclarında möcüzələrlə kəramətləri bir-birindən ayıran müəyyən bir sərhəd, demək olar ki müşahidə olunmur. Ənbiya qissələrində[19] haqqında danışılan qeyri adi-işlərdən əksəriyyətinə övliya kəramətlərində rast gəlirik. "Quran"da da adı çəkildiyi kimi, həmin şəxslərin, məsələn, Zülqərneyn, Loğman kimi islamaqədərki Şərq mifologiyasının məşhur simalarının da islam təlimində "bəzisi nəbi, bəzisi vəli dedilər" sözləri ilə xarakterizə etməsi də bu baxımdan mənalıdır.

Kəramətlər, onları həyata keçirən şəxslərin adları, şəxsiyyətləri, zaman və məkan şərtləri miqyasında təhlil olunduğu za-

[19] Peyğəmbərlərə aid hekayət-rəvayətlərdə – **Tərçüməçi**

man çox geniş və zəngin bir təsnifat aparılması mümkündür. Bunları ortaq xüsusiyyətlərini nəzərə almaqla sxemləşdirib qruplaşdırsaq, nağıl motivlərində olduğu kimi, tədqiqatları asanlaşdıracaq müəyyən bir rəqəm səviyyəsinə qədər endirmək mümkündür. Biz ilk təcrübə olaraq aşağıdakı kimi qruplaşdırmağı düşünürük. Kəramətlər bu qayda ilə 35-ə qədər tipi təşkil edir. Gələcək araşdırmalar bu tiplərin sayını daha da artıra bilər:

**A qrupu:**

1. Özündən daha güclü bir adama meydan oxumaq; nəticədə ondan hörmət görmək.

2. Kafirlərin öhdəsindən gəlmək, Qoruduğu müsəlmanları müharibə zamanı qələbəyə qovuşdurmaq; müsəlman əsirləri xilas etmək.

3. Qeyri-adi xəbərdarlıqlarla dinsizləri, onun kəramətlərinə inanmayanları, hörmətsizlik edənləri, iddiaçıları, günahkarları öz yerlərində oturtmaq; onları elədiklərinə görə utandıraraq yola gətirmək; inam göstərməməkdə inadkarlıq edənləri cəzalandırma.

4. Övliyanın kəramətini görənin bunu başqa birinə danışmasının bir fəlakət, ya da ölümlə nəticələnməsi.

**B qrupu:**

5. Bir şəxsi, ya da bir cəmiyyəti təhlükəli bir vəziyyətdən, bir bəladan xilas etmə.

6. Məsumları, çarəsizləri haqsız cəzalardan xilas etmə.

7. İstədiyi şəxslərin mallarını, qazanclarını (cütçülərin torpaqdan əldə etdikləri məhsullarını, ovçuların ovlarını, balıqçıların balıqlarını) çoxalda bilmə; bərəkət əldə olunmasını təmin etmə.

8. Uşaqsız adamları övlad sahibi etmə.

9. Cürbəcür xəstəlikləri sağaltma; şikəstlikləri aradan qaldırma.

**C qrupu:**

10. Heyvanları (əhilləşdirilmiş və ya vəhşi) özünə tabe edə bilmə.

11. Vəhşi, ya da əhilləşdirilmiş heyvanları qoruma; onları başa düşüb-danışma.

**D qrupu:**

12. Cansız varlıqları (ağaclar, bitkilər) qoruma.

13. Cansız varlıqları (qaya, dağ, su...) özünə tabe etmə.

**E qrupu:**

14. Övliyanın insandan başqa varlığa çevrilə bilməsi.

15. Cansız bir varlığa can verə bilməsi.

16. Bir maddəni başqa bir maddəyə çevirə bilmə: şərabı suya, qurğuşunu qızıla...

17. Cürbəcür odlu silahların yaralama gücünü, odu... təsirsiz hala gətirmə.

18. Təbiət hadisələrini istədiyi kimi idarə edə bilmə; onların sırasını, düzənini dəyişdirə bilmə.

19. Zaman, yer, maddənin təbiətində mövcud olan qanunauyğunluqları poza bilmə:

a) Sağ ikən, ya da öldükdən sonra eyni anda bir neçə yerdə olabilmə;

b) Qısa bir zaman işində qeyri-adi bir formada bir yerdən başqa yerə getmə;

c) Yerindən tərpənmədən istədiyi yerə gedə bilmə; qolunun istədiyi qədər uzana bilməsi;

d) Uzaqda olan bir şeyi görə, səsini eşidə, olacağı əvvəlcədən sezə bilmə.

20. Bu dünyadan, ya da o biri dünyadan təəccüblü görüntüləri, hadisələri başqalarına göstərə bilmə.

21. Təbii şərtləri heçə sayaraq özünə istədiyi qədər mal, mülk, pul, ərzaq təmin edəbilmə.

22. Ölülərlə xəbərləşə bilmə.

23. Ölüləri dirildə bilmə.

24. Gələcəyi, olacaq şeyləri əvvəlcədən bilmə, gizli şeyləri sezmə.

25. Öldükdən sonra, yuxuda, ya da oyaq ikən diri insanlara görünə bilmə; bu üsulla onlara öz əmrini vermə.

26. Uça bilmə, ya bir boşluğa özünün buraxa bilmə.

27. Dəniz, göl və çay üzərində yeriyə bilmək.

28. Cinsi meyillərə qarşı gələ bilməyin ən qeyri-adi yollarını göstərmə və sübut etmə.

29. Yemək, içmək, yuxu... kimi təbii ehtiyaclardan uzaq dura bilmə.

30. Peyğəmbərlərlə, Xızırla, Qırxlarla xəbərləşmə, görüşmə.

31. Ölümündən sonra bədənini çürüməkdən qoruya bilmə.

32. Ölümündən sonra nəsə bir tikili (türbə) altında yatmamaq istədiyini bildirmə.

33. Övliyalıq mərtəbəsinə yetişmək, ya da yetişdiyini sübut edə bilmək üçün dözməli olduğu, qeyri-adi bir qüvvə tələb edən, adi insanın dözümlülüyündən qeyri-adi dərəcədə yüksək dözümlülük tələb edən sınaqların öhdəsindən gələ bilmə.

34. Öz ölüm anını əvvəlcədən dəqiq bir şəkildə görə bilmə; istədiyi anda ölə bilmə.

35. İnsanların cinsiyyətini dəyişdirə bilmə.

**17-ci sual: Hansı təbiət hadisələri hansı inancların mövzusu ola bilir?**

Eyni bir təbiət hadisəsinin bölgələrə və topluluqlara görə çox zaman hətta eyni bir ərazidə belə bir-birindən çox fərqli, bəzən ziddiyyətli inanclar yarada biləcəyini bir neçə nümunə ilə əyaniləşdirək. Yağış yağarkən eyni vaxtda günəşin çıxması cürbəcür yozulur:

1) Cənnətdə, ya da göy üzündə baş verən hadisələrin əlamətləri: “Mələklər evlənir”, “Məhəmmədin (s.) toyu olur”, “Şeytanların toyu olur”, “Huri qızlar xalça toxuyurlar”.

2) Yer üzündə baş verən şeylər: “Tülkülər evlənir”, “Dişi maral balalayır”, “canavarlar evlənir”, “Canavarla ayı evlənir”, “Xoruzlar evlənir”, “İlanlar öz padşahlarının (Şahmarın) yasını tuturlar”.

3) Uğurlu, müqəddəs, bərəkətli hadisələrin əlamətləri: “Hacət qapıları açılır”, “Əkinlərdə bərəkət olacaq”, “Qoyun sürüləri üçün xəstəliksiz-bəlasız bir il olacaq”, “Müharibə başa çatacaq, sülh olacaq”, “Göbələk çox bitəcək”.

4) Uğursuz, bədbəxtlik gətirən hadisələrin əlamətləri: “Məhsul az alınacaq, qıtlıq olacaq”, “Qış uzun olacaq”, “Quzular çox öləcək”, “Qadınlar qız uşağı çox doğacaq”, “Müharibə olacaq”, “Dünyaya bir ulduz düşəcək”, “Böyük bir adamın başına qonmuş quş onu dimdikləyir” (Bu mövzu ilə əlaqədar inamlar üçün bax: Oğuz Tansel, **Quand en meme temps que le soleil brille.** “Studia Orientalia”, XXIII, No 2, 1958, s. 3-9).

Yağışın ilin konkret bir ayında yağmasının bərəkətli olmasına inanılması torpağın məhz həmin ayda suya ehtiyacının olması ilə izah oluna bilməz; belə ki, aprel yağışları bərəkətli hesab olunduğu kimi, inci-mirvarilərin onun damcılarından əmələ gəldiyinə də inanılır. Bunan başqa, aprel yağışında islanmaqdan qorxmamaq, çəkinməmək lazımdır: o, insanın saçlarını gücləndirər, gurlaşdırarmış.

Göy guruldayarkən anbarlara vurmaq adəti bu təbiət hadisəsinin bərəkət gətirici gücünə olan inamdan qaynaqlanır. Antaliya yörüklərindəki bir inanca görə, göyün guruldaması mələklərlə zəbanilərin səmada vuruşarkən onların dəyənəklərinin çıxardığı səslərdir.

Göy qurşağı bir çox yerlərdə Fatma-Ananın qurşağı adlanır: onun altından, oğlan keçsə – qıza, qız keçsə – oğlana dönər.

Martın 22-dən (köhnə təqvimlə martın 9-dan) etibarən hər hansı bir həftənin, hər hansı bir gününü seçərək, o günün vəziyyətinə əsasən həmin ilin uğurlu olub-olmayacağı təyin olunur; bu, bir növ, baharın ilk günlərindən fal məqsədilə istifadə etməkdir.

İlin məlum fəsilləri ilə əlaqədar inanclarda aylar canlı varlıqlar kimi təsəvvür olunur. İnanclardan birinə görə, aprelin gəlməsi ilə istiyə qovuşan bir qoca qarı marta lağ edir. Mart da bu qadına hirslənərək, fevraldan bir gün almış; soyuq, fırtına geriyə qayıtmış, qoca qarı da pis hərəkətinin cəzasını çəkmişdir. Mart ayı ərzində havanın yenidən qış havasına çevrildiyi bu günə "qoca qarı fırtınası" deyilməsinin səbəbi bu imiş.

Ermənilərin inanclarında fevral ayı umacı, qara-konqolos[20] kimi canlı varlıq şəklində təsəvvür olunur. Mart girən kimi çalı[21] budağı ilə, ya da bir köhnə əski ilə, bir kürk parçası ilə evin divarlarına, tövlədəki yemə vura-vura "fevral çölə, mart içəri" deyərək soyuğu canlandıran bir bu zərərli varlığın qovula biləcəyi təsəvvür olunur.

Anadoluda geniş yayılmış, bir zarafata çevrilmiş olan bir adət də köhnə təqvimlə martın birində "mart içəri, birə çölə" (ya da "mart bizə, birə sizə") sözlərini deyərək, evin tozlu əşyalarını başqalarının evlərinə tərəf çırpmaq, ocaqdan götürülmüş külləri tez tərpənib qonşunun qapısının ağzına yığmaqdır. Bu işlə bütün il boyunca bit-birədən, tozdan, murdarçılıqdan qoruna biləcəyinə inanırlar.

Fəsillərlə əlaqədar ən geniş yayılmış inanclardan biri də istilərin düşməyini "cəmrə"lərlə əlaqələndirməkdir. Ərəb dilində qor, köz mənasını verən bu sözlə necəliyi bilinməyən, istilik yaradan bir maddə təsəvvür olunur. İnama görə, cəmrə-

---

[20] "Umacı", "qara-konqolos" – qorxunc, çirkin görünüşə malik, zərərverici mifoloji obrazlar – ***Tərcüməçi***

[21] "Çalı" – böyürtikən/gicitikən şəkilli bitki – ***Tərcüməçi***

lər bir həftə ara ilə 7 fevralda (20 fevralda) havaya, 14 fevralda (27) suya, 21 fevralda (5-6 mart) torpağa düşərmiş.

**18-ci sual: Dağlar, qayalar, su mənbələri, göllər və çaylarla əlaqədar hansı inanclar vardır?**

Dağların hörmət və sevgi ilə yanaşı, həm də qorxu mənbəyi hesab olunması və bu yolla müqəddəslik qazanmasına bəzi faktorlar öz təsirini göstərmişdir: onlara uzaqdan baxanda insan onun müqabilində nə qədər cılız, gücsüz görünür, onları aşmaq istəsən, gərək nə qədər çətinlikləri gözə alasan. Bütün bunlarla yanaşı, axar suları, otlaqları, meşələri ilə insan övladına öz qoynunda yer verə və onu yedizdirə bilir... Ta qədim dövrlərdən Anadolu torpaqlarında olduğu kimi, türklərin qədim yurdlarında da dağlara müqəddəs varlıq kimi yanaşıldığını əsla yaddan çıxarmaq olmaz. Qədim türk ənənələrində ilk insanın döl yatağı olan mağaranın yerləşdiyi Qara Dağ (bax: 4-cü sual), Ötükən dağı müqəddəs yerlərdir.

Anadoluda yaşayan əhalinin inanclarında onların yaşadıqları torpaqların həqiqi dağlarından başqa, nağıl dünyasının əsas dağ obrazı olan Qaf dağı əhəmiyyətli yerə malikdir: ora divlər, pərilər yurdudur. Əksərən Süleyman peyğəmbər haqqındakı əfsanələrdə bu dağın adı çəkilir və dünyanın sərhədlərinin məhz bu dağ olduğuna inanılır.

Ağrı dağı Tufan ilə bağlı əfsanələrdə xatırlanır: Nuhun gəmisi bu dağın təpəsinə söykənmiş və içərisindəki insanlar tufanın sakitləşməsini bu dağın başında gözləyibmişlər. Anadoluya Qafqazdan köçüb gəlmiş qaraçaylar Elbrus dağının başında olan haçanın Nuhun gəmisinin ora çırpılması ilə izah edirlər. Əli Rza Öndərin (**Yaşayan Anadolu Efsaneleri,** İstanbul 1955) nəql etdiyi əfsanədə deyilir ki, Ağrı dağının adı gəmisi dağın başına toxunduğu zaman Nuhun "nə ağır

dağdı" deməsindən yaranmışdır. Yenə o kitabda nəql olunan başqa bir hekayəyə görə, Kiçik Ağrı ilə Böyük Ağrı iki bacı imişlər. Dava eləyəndə bir-birlərinə qarğış edirlər və beləcə Tanrı qəzəblənərək onları dağa çevirir.

Bingöl[22] dağlarının adının mənşəyi isə belə izah olunur: əvvəllər dirilik suyu olan Abı-Həyat bulağı burada imiş və bir gün həmin bulaq parçalanaraq min dənə göl əmələ gətirmişdir. Başqa bir əfsanədə isə deyilir ki, bir gün Koroğlu bir quş ovlayır, ovladıqdan sonra quşu bu çeşmədə yumaq istəyir, lakin yumağa başlayan kimi quş canlanır və onun lələklərindən sıçrayan su damcılarından min dənə göl əmələ gəlir. Bu əfsanənin başqa cür danışılan formaları da vardır: biri də Övliya Çələbinin **Səyahətnamə**sindədir. Bütün bu əfsanələrdə verilən əsas fikir budur: Allah ölməzlik suyunun insanlar tərəfindən tapılmasına qəzəblənir, bulağı min yerə parçalayaraq, onda mövcud olan ölümsüzlük xassəsini insanlara bəxş edilə biləcək başqa, ancaq daha önəmsiz xassələrə çevirir. Koroğluya aid dastanlarda bir motiv kimi rast gəlinən, ondan içənə igidlik, şairlik, fiziki sağlamlıq qazandıran, hər biri ayrı rəngdə olan "Üç köpük", bəzi Anadolu söyləmələrinə görə, Bingöllərdən axıb tökülən sularda üzürmüş. Anadolu qaraçayları isə Abi-Həyatın Elbrus dağında olduğuna inanırlar. Qartal onun bulağından su içibmiş, ona görə də o qədər uzun yaşayırmış.

Bir çox dağların zirvələrində adları onlarla eyni olan övliyalar uyuyur. Dağ ilə müqəddəs hesab edilən şəxsin əlaqələri barədə adın mənşəyini izah edən əfsanələr vardır. Həsən dağı, Əli dağı kimi dağlar öz adlarını, yəqin ki, həqiqətdə yaşamış övliyalardan almışlar. Bəzilərinin adları isə çöx qədim əfsanələrdən gəlir: Nəmrud dağı, Yuşa təpələri kimi... Nəmrud Allahla yarışa girmək istəyib, dəvələrə daş daşıdaraq, bu dağı

---

[22] "Mingöl" – ***Tərcüməçi***

qurmağa çalışmışdır. Tanrı dəvə qatarını daşa döndərmiş və deyirlər ki, həmin dəvələrin formasında olan qayalar bugün də görünür. İstanbuldakı Beykoz ərazisində isə Yuşa peyğəmbərin basdırıldığına inanırlar. Torosdakı Düldül dağı isə adını Məhəmməd Peyğəmbərin (s.) əmisi oğlu və kürəkəni Hz. Əlinin (ə.) əfsanəyə çevrilmiş atı Düldüldən almışdır.

Bəzi hallarda isə "Övliya adını dağa verib, yoxsa dağ övliyaya?" demək çox çətindir. Bir çox dağların zirvəsində adsız bir qəbir mütləq vardır.

Bəzi dağların adlarının isə, təqribən, hansı tarixlərdə formalaşdığı barədə söz demək mümkündür. Bolunun Səbən ilçəsi torpaqlarında bir dağ məşhur dastan qəhrəmanı Koroğlunun adını daşıyır; amma bu adda başqa dağlar da vardır. Türkiyədə olduğu kimi, onun sərhədlərindən kənarda da onun məkanı olan Çənlibelə çox rast gəlinir. Bu yerlərin adı Koroğlunun əfsanəvi bir qəhrəmana çevrilməsindən sonra yaranmışdır. Bilirik ki, Koroğlu XVI əsrin sonlarında yaşamış bir Cəlali sərkərdəsi idi. Bundan dolayı bu gün onun adı ilə əlaqələndirilən dağlar və dağ zirvələri Koroğlu ənənəsi silsiləsinə XVII əsrdən sonra daxil olmalıdır.

Qaz dağının isə hekayəsi belədir: ətraf kəndlərdən birində yaşayan bir qız şərə düşür, iftira atırlar və o da atası ilə birlikdə bu dağa sığınır. Dağ da adını övliya Sarı qızın otardığı qazlardan almışdır. Başqa bir əfsanəyə görə, Sarı qız Fatma anamızın qızıdır. Səlmani-Pak onu anasından ayıraraq bu dağa gətirmiş, böyütmüşdür. Sarı qız da ana həsrətilə bu dağın başında can vermişdir. Məhz buna görə də ələvi-taxtaçılar hər il avqust ayında bura axın edir, qurbanlar kəsib, mərasimlər keçirirlər.

Bəzi dağların isə elə də böyük hekayəsi yoxdur. Bəyşəhər gölünə baxan Anamas dağı kimi. Bu dağda məşhur bir quldur yaşayırmış. Günlərin bir günü tutulmuş və asılmağa aparılarkən cəllada: "Məni asma, anamı as" demişdir. Çünki

anası o, balaca ikən oğurluqlarına göz yumub, onu pis yola yönəltməsə imiş, o da hərami olmayacaqmış...

Çaylar, bulaqlar və onların mənbələrinə dair əmələ gəlmiş inamlardan ancaq birini nəzərinizə çatdırmaq istəyirik. Fərat çayının mənbəyi kimi tanınan Dumlu Ərzurum ərazisində eyni adı daşıyan kəndin yaxınlığındadır. Bu kənd də, bulaq da öz adlarını buraya köç etmiş Xorasanlı bir övliyadan almışdır. Dumlu Sultan hələ öz vətənində ikən batini gözü ilə Fərat çayının mənbəyini görmüş, ərənlər də ona oraya gedib məskunlaşmağı məsləhət görmüşlər. Gəlmiş, oradakı kafirlər kralından icazə alıb yerləşmiş və özünə bir zaviyə qurmuşdur. Suyun haradan gəldiyi ona çox maraqlı imiş. Əlinə bir qab alıb göyə qaldırır və boş qab da su ilə dolur. Deməli, Fəratın suları "göydən" gəlirmiş. XVIII əsrin məşhur mütəsəvvifi Ərzurumlu İbrahim Haqqının da Dumlunun təpəsində eyni işi görməyə çalışdığını və əl dəsmalını havaya qaldıraraq onun su ilə islandığını gördüyünü buraların adamları hələ də danışırlar. Bu bulağın suyunun müqəddəs olduğuna inanırlar, doğuşu çətin keçirən qadınlara onun suyundan içirdirlər. Əgər bir adam onun suyuna qüsulsuz halda girməyə çalışsa, su o dəqiqə irinə bənzər bir maddəyə çevrilir. Cürbəcür xəstəlikləri olan adamları bulağın ətrafında yeddi dəfə dolandırır və üstünə suyundan çiləyirlər. Bir dəfə Ərzurum məmurları burada araq içmək istəyir, şüşələri sərinlətmək üçün suya salırlar. Birdən elə bir dolu, yağış, tufan qopur ki, adamlar etdikləri hörmətsizliyi başa düşüb, dərhal oradan qaçırlar. Dumlunun suyu Qara suya tökülür, lakin onun içərisində ayrıca bir axın kimi axır.

İsti sulu bulaqların (ılıcaların) da meydana gəlişi əksərən onların yaxınlığında məzarı olan övliyalarla əlaqəli fövqəltəbii hadisələrə bağlanır. Bir neçə misal:

Haymanadakı isti suyun yanında bir övliya məzarı vardır: Cimcimə sultan. Cımcıqqılı bir qız ikən ögey anası ona

xor baxırmış, atası da qızı gətirib biyabanda buraxır. Cimcimə qızın bədəni günəşdə yanaraq, yaralar bağlayır. Çarəsizlikdən su tapmaq ümidi ilə yeri qazmağa başlayır. Elə bu vaxt torpaqdan bu şəfalı su fışqırır, onunla yuyunan balaca qız da dərdlərindən xilas olur. Əslində, Cimcimə sultanın hekayəsi, İsmayılın dabanını yerə vurmaqla Zəmzəm suyunun çıxarmağını xatırladır. Heç gözlənilmədən qəribə bir ilahi güclə (kəramətlə) torpaqdan su fışqırdan Anadolu çobanları ilə əlaqədar danışılanlar da eyni qrupa daxildir: çoban susayır, qoyunun məməsindən süd sağır, südün damlasının düşdüyü yerdə bir bulaq yaranır. Yaxud çobanın sürüsü tam susuzluqdan məhv olacaqmış; o, dəyənəyini yerə vurur, yerdən də su fışqırır.

Əflatun Cem Güneyin danışdığı bir əfsanəyə görə, Bursadakı isti sulardan biri anası və inəyi ilə birgə bir mağarada yaşayan Sarı qızın sözlərinə əsəbləşərək mağaraya hücum çəkən qaynar sulardan meydana gəlib. Orada yuyunanlar inanırlar ki, şəfa tapmaq üçün "Arılıq, uruluk, Sarı Qız eşqinə cum" deyərək suya atılmalıdırlar. Başqa söyləmələrdə də bir Bursa istisuyunun "sahibi" Sarı qızdan bəhs edilir: o, isti suyun təmiz qalması üçün tüstü verilmədiyi halda hamam xidmətçilərinə onların vəzifələrini xatırlatmaq üçün gözlərinə görünərmiş. Yaxud yenə də Bursada İsti su düzəldilərkən Rüstəm Paşanın qurban etdirdiyi ərəb (zənci) kölənin başı əgər tüstü ilə təmizlənmə aparılmazsa, tikilinin içərisində dımırlana-dımırlana gəzirmiş. Bütün bu inanclar və əfsanələr onu demək istəyir ki, bunların gözə görünməz sahibləri vardır. Və sulara şəfa gücü verənlər bunun əvəzində buraya nəzarət edənlərdən, bu sularda yuyunanlardan hörmət-izzət, nəzir gözləyirlər.

Göllərin meydana gəlməsini də qeyri-adi hadisələrlə izah edirlər. Kocaelindəki Sabanca gölü, Konyadakı Obruk gölü üçün də eyni hekayə nəql olunur: Xızır, ya da hər hansı bir müqəddəsləşmiş şəxs sığınmaq və qarnını doyuzdurmaq

üçün qapı-qapı şəhərdə gəzirmiş. O boyda şəhərdə təkcə bir qoca qadın və əri onu evində qonaq saxlamağa razı olurlar. Həmin bu şəxs də şəhərə lənət oxumuş və şəhər də su altında qalmışdır. Təkcə bu ər-arvada rəhm edir. Obruk variantına görə isə bu iki şəxs göyərçinə çevrilərək göylərə yüksəlibmişlər. Bu gölün içərisinə baxanda daşa çevrilmiş daş parçaları görünürmüş. İznik gölünün meydana gəlməsi də, deyilənə görə, Ayasofyanın tikilməsi ilə əlaqədardır. Memarlar tikilinin qübbəsini heç cür möhkəmlədə bilmirmişlər. Cəbrayılın tövsiyəsi ilə insanlar Məhəmməd Peyğəmbərə (s.) müraciət edirlər. O da üç dənə həb verir. Lakin yolda bu həblərdən birinin düşürdürlər, o da suya çevrilərək bu çölləri tutur. Ankara yaxınlığında yerləşən Gölbaşıda taleyi kəm gətirən bir gəlinin məzarı olduğuna inanırlar: o göldə yuyunmağı uğurlu hesab etmirlər. Çıldır gölünün olduğu yerdə də əvvəllər bir kənd var imiş. Buna səbəb isə boşboğaz bir qız imiş, çünki o, su götürdükdən sonra sevgilisi ilə söhbətə başı o qədər qarışır ki, bulağın ağzını tıxamağı yadından çıxarır.

Anadolunun bəzi gölləri haqqında danışılanlar isə çox qədim dastan və mifologiya qalıntılarıdır. Bozkırın Sülek yaylağında bir göl vardır: buna Dibsiz göl deyirlər. Bunun dibinin olmadığına inanılır, hər il bu göl bir adamı qurban kimi udurmuş. Digər bir çox dərin dağ gölləri haqqında da bu inanc geniş yayılmışdır. Başqa göllərin isə içərisindən ildə bir dəfə su ayğırının çıxdığına inanırlar. Bu inancın ən qədim sübutlarından birinə “**Kitabi Dədə Qorqud”**un **Bamsı Beyrək** boyunda rast gəlirik. Bu qəhrəmanın atı “dəniz qulunu boz ayğır” deyə xarakterizə edilir. Əsilli-nəsilli atlar barədə onların dənizdən, ya da göldən çıxaraq, sahildəki qısraqlardan birini döllədirən ayğırların nəslindən törəndiyinə inanma (bəzi söyləmələrə görə, Koroğlunun məşhur Qıratı belə bir heyvandır) Anadolunun bir çox göllərinin yaranması barədə olan əfsanələrdə də rast

gəlmək mümkündür. Qarsın Gölə torpaqlarındakı Ayqır gölü, Göksündə Təkir-sunun mənbəyi, Urfada Dala-Guni (Qanlı göl) haqqında da eyni əfsanə danışılır: sulardan müəyyən vaxtlarda bir ayğır çıxar və orada otlayan atlardan birini döl-ləndirərmiş. Bir il sonra bu su ayğırı gəlib, dayçasını götürər və sularda gözdən itərmiş.

Yaşamaqda olan ənənədə dənizlərin də canlı varlıq kimi təsəvvür olunduğuna, onların qəzəbini də qurban verərək so-yutmağın mümkün olduğuna dair inancların qalıqlarına rast gə-lirik. Zonquldakda danışılanlara görə, Qaradənizə balığa çıxan-ların arvadları fırtınalı günlərdə parçadan düzəldilmiş gəlin-cikləri suya atarlar; qara bir inəyin südünü sağıb dənizə tökər-lər. Gəmiçilərin dənizə zeytun yağı tökməsi də, hesab edirəm ki, dənizə hökm edən, həm də onu cisimləndirən[23] varlığa ve-rilən hədiyyənin rəmzidir. Köycəyizin Döğüş-Bələn kəndində bizə deyilənlərə görə, əvvəllər dənizdən çıxaraq, uşaqları tutub-aparan dəniz qızları var imiş. Həmin dəniz qızlarını tutub, evin-də qul, kəniz edənlərin macəralarını günü bugün də danışırlar.

Qayaların, xüsusilə görkəmi ilə etibarı ilə insanlara, heyvanlara oxşayanların yaradılışı bir əfsanəyə bağlanır. Bir çox yerlərdə qayalar "Gəlin qayalar" deyə adlanırlar. Onların haqqında deyilənləri belə ümumiləşdirmək olar: zorba bir adam (dərəbəyi, ağa...) gəlini qaçırtmaq istəyir; gəlin Tanrıya sığınır; toy dəstəsinin hamısı daşa çevrilir. Bir çox qayalar pis hərəkətə, ya Tanrıya, ya onun sevdiyi böyük bir insana, ya da müqəddəs bir əşyaya qarşı hörmətsizliyə şahidlik edir. Yuxa-rıda haqqında danışdığımız Nemrud dağı əfsanəsində dəvə qatarının daşa çevrilməsi kimi. Bir qadınla uşağına bənzəyən qayaları isə bişirdiyi çörəklə uşağnın nəcisini silən sayğısızın cəzalanmasının nişanəsi sayırlar. Bəzi qayalar da bir övliya

[23] Maddiləşdirən, obrazlaşdıran – ***Tərcüməçi***

insanın kəramətinin nişanəsidir: böhtana düşmüş övliya qazının hüzurunda şahidlik etməyə qayaları çağırır. Qayalar da yerindən durub yeriməyə başlayır, ancaq övliya "dayan" deyən kimi olduqları yerdə qalırlar.

Övliyaların sığındığı, qorunduğu mağaralar da müxtəlif inanclar üçün mövzu mənbəyinə çevriliblər. Əshab-i Kəhfin (Yeddi yatanlar) yüz il müddətində yatıb qaldıqları mağara yurdumuzun bir çox yerində vardır. Mağaralarla bağlı başqa inanc da övliyaların bu dünyadan köçüb getmək istədikləri zaman həmin mağaralara girərək qeybə çəkilmələridir. Bunu Qaracaoğlan haqqında da deyirlər.

### 19-cu sual: Bitkilərlə əlaqədar inanclar hansılardır?

Bu inancları iki qrup halında tədqiq edəcəyik:

1) Bitkilərdən yararlanaraq onlardan xeyir görənlərin inancları;

2) Onların yaranması və formalaşması ilə bağlı olan inanclar;

Həm islam dini, həm də dindənkənar görüşlər bitkilərin yeyilib-yeyilməməsi barədə heç bir qadağa qoymamışdır. Zərərli olmayan bütün bitkilər və meyvələr yeyilə bilər.

Bitkilərdə qadağa iki aspektdən müşahidə olunur: birincisi, yaş bitkilər kəsilə bilməz. "Yaş kəsən, baş kəsər" deyimində cavan meşə ağacları, yenicə basdırılan tinglər, meyvə ağacları nəzərdə tutulur. Bəzi meşə ağaclarının böyümə müddəti uzun olduğu üçün bununla bağlı bir qadağa qoyulmuşdur: qara ağac (qayın ağacı) çətin əmələ gələn ağacdır, ona görə də onu kəsmək uğurlu hesab edilmir; ağacından uşaqlara nəzərlik[24] düzəldirlər (Ərtən kəndi/ Afyon). Böyüməmiş əkin bitkilərini tapda-

[24] Göz dəymədən (bəd nəzərdən) qoruyan tilsim-əşya – ***Tərcüməçi***

manın, onlarla qidalanmanın necə bir günah olmasını Koroğlu ilə əlaqədar xalq dastan ənənəsinə daxil olmuş bir inancda müşahidə edirik. Bu xalq qəhrəmanın uğurlarının, məğlubedilməzliyinin, fövqəltəbii gücünün səbəblərindən biri dəlilərinə, nəyin bahasına olursa-olsun, əkin tarlalarını tapdalamağı qadağan etməsi imiş. Yunus Əmrə də "göy tarlaların biçilməsini" insan oğlununun "igid ikən" ölməsinə, ya da öldürülməsinə bənzədir. İkinci "qadağa" övliya qəbirlərinin yanında olan ağacların kəsilməsinin günah olması inancı ilə bağlıdır. Bu qadağanı pozanın ya bir tərəfi quruyar, ya da ölər.

Övliya qəbirlərinin ətrafında bitmiş bəzi şam, çinar, çitləmbik, ardıc kimi ağacların özündə də, yəqin ki, müqəddəslik vardır. Bəzi bu cür qəbirlərin məhz ağac adları ilə adlandırılmalarının bir mənası vardır: Çitləmbik Dədə, Çınar Dədə kimi. "Kitabi-Dədə Qorqud"un bir çox yerlərində ağacın müqəddəs bir varlıq kimi təsvirinə rast gəlirik. Boyların axırında dastançı "yom" verərkən "Kölgəlicə qaba ağacın kəsilməsin" alqışını deməyi əsla unutmaz.

Ağaclar arasında ardıc, xüsusilə ələvi-bəktaşi ənənəsində önəmli bir yer tutur. Mənqəbəyə görə, Haci-Bəktaş qəsəbəsinin cənub-şərqindəki Hırka dağı zirvəsində bugün də mövcud olan və Dədəcik-Ardıc adı ilə adlanan ağac Haci-Bəktaş bu dağda inzivaya çəkildiyi zaman onun üzərini çadır kimi örtərək kölgəlik yaratmış və onun xeyir-duasını almışdır.

Bəzi ağacların isə bir neçə mənfi xüsusiyyətinin olduğuna inam vardır. Trabzonda əncir ağacı əkmək, xüsusilə, evində oğlan uşağı olanlar üçün heç də xeyirli bir əlamət deyildir. "Ocağına əncir ağacı əkmək" ifadəsindəki "evini, yurdunu xarab etmək, nəslini qurutmaq" mənası da, yəqin ki, bu inancla əlaqədardır. Yabanı əncirin pis yerlərdə, uçuq tikililərin qalıqları üstündə bitməsi faktı da, bəlkə, bu inancların formalaşmasına öz ciddi təsirini göstərmişdir.

Bəzi bitkilərin necə meydana çıxması, ya da əvvəllər necə olması barədə əfsanələr, çox güman ki, eyni inanc kökənlidir. 4-cü sualda dünya yaradılarkən buğdanın necə olması barədə danışmışdıq. Yenə bir misal verək: Ankarada mövcud olan bir inama görə, tütün Şeytanın torpağın üstündə qalan nəcisindən törəmişdir. Bu izah zərərli bir şeyin məhz "Şeytandan gəlmə" olduğuna əsaslanır. Buğda misalında olduğu kimi, bəzi bitkilərin quruluşunda insanların əməllərindən təsirlənərək dəyişmələr olduğuna inanılır. Kamal-Paşada (İzmir) deyirlər ki, "namus çiçəyi" deyilən bir gül vardır: ortası qırmızı, ləçəkləri ağ. Həmin bu qırmızı əvəllər çox böyük imiş, dünyada həya, ədəb azaldıqca qırmızı da kiçilirmiş. Açıq-aydın başa düşülür ki, bu inancın formalaşmasında "üz qızarması" ilə utanma hissi başlıca faktor olmuşdur.

Meydana çıxmağında, ya da cürbəcür xüsusiyyətlər əldə etməyində həqiqətən yaşamış, ya da əfsanələşmiş şəxslərlə əlaqələndirilən bitkilərə, ağaclara bir neçə misal verək: **Əba Müslim Kitabı**nda deyildiyinə görə, Məhəmməd Peyğəmbər (s.) merac əsnasında göylərə yüksələrkən, nəvəsi Hüseynlə (ə.) bütün arvad-uşağının öldürüləcəyi yeri görəndə gözündən iki damcı yaş düşür, bundan bir gül, bir də ağac əmələ gəlir. Əba Müslimin çəliyinin sapı bu ağacdan düzəldilmişdir.

Niyə bəzi ağaclar meyvəsizdir?

Çünki Nəmrud İbrahim Peyğəmbəri yandırmaq istəyəndə bu ağaclar odun verməyə razı olublar. Qovaq ağacı peyğəmbərlərdən birini budaqları arasında düşmənlərindən gizlədir. Qovağı kəsmək istəmiş, heç bir balta ilə buna nail ola bilməmiş, yalnız yemişan ağacından düzəldilmiş balta ilə kəsə bilmişlər. Peyğəmbər qarğış etdiyi üçün o gündən bu yana yemişan ağacı bar vermir (Kastamonu).

Qışda yarpaqlarını tökməyən, həmişəyaşıl ağaclar nə vaxtsa quşları öz budaqları arasına alaraq qoruyublarmış, bu-

na görə də Allah onlara həmişə yaşıl qalmağı nəsib edibmiş. Qışda yarpaqlarını tökən ağaclar isə məhz bu səbəbdən Allahın qəzəbinə gəliblər və qışda çılpaq olurlar.

Yəqin ki, quruluşu insan bədəninə çox oxşadığı üçün bir çox millətlərin ənənələrində əhəmiyyətli yer tutan **adam otu ("mand agore")** adlandırılan bitki ilə əlaqədar Səbahaddin Eyyuboğlu ("Tıpta Yenilikler", sayı 6, 1961) aşağıdakı məlumatları verir: "Bu otu qədim Halikarnassosda (Bodrum) görə bildik. Yaşılı-bənövşəyi yarpaqları yerə yapışmış olan bu otun iri, qalın, insanabənzər, kol-koslu bir kökü vardır. Bu kök cürbəcür dərdlərin dərmanıdır. Qopardanda, deyilənə görə, insan kimi bir səs çıxardır və bu səsi eşidən çarpılarmış. Ona görə də kökü çıxardarkən əvvəlcə dibini qazaraq, tamamilə boşaldır, sonra onu bir itin quyruğuna bağlayıb, oradan uzaqlaşırlar. İti çağırırlar, o da gəlmək istəyəndə kökü dartıb özü ilə gətirir[25]. Bu bitki yer üzərində çox az yerdə qalıb, nəsli kəsilmək üzrə imiş".

Bu bəhsi bitirərkən bir məsələyə də diqqət edək. Bəzi bitkilər olduqları bölgələrin iqtisadiyyatlarında xüsusi yer tutduğu üçün onlara dair daha özəl inanclar mövcuddur; məsələn, fındıqdan düzəldilmiş dəyənəyin ilana dəyən kimi onu hərəkətsiz və zərərsiz hala gətirməsi, yaxud belə bir dəyənəyi özü ilə gəzdirən adamı ilan, əqrəb kimi zəhərli heyvanların çalmayacağı inancının Trabzonda geniş yayılması bu məna ilə bağlıdır.

### 20-ci sual: Heyvanlarla bağlı nələrə inanırlar?

Heyvanlar haqqında inanclar eynən bitkilər kimi aşağıdakı şəkildə qruplaşdırılır:

1) Heyvanlardan yararlanaraq onlardan xeyir görülməsi haqqında inanclar;

---

[25] Yəni əgər kökün səs çıxarmağı ilə bir bəla gələrsə, bu halda insana yox, kökün yanında olan itə gələcəkdir – ***Tərcüməçi***

2) Onların yaranması və çevrilməsi ilə bağlı inanclar;

Amma bitkilərdən fərqli olaraq, heyvanlar xalq ənənəsində yeyilməsində bir problem olmayanlarla, yeyilməsi, hətta toxunulması günah, rastlanılması uğursuzluq gətirənlər olmaqla da qruplaşır.

Bildiyimiz kimi, islam dininin yeyilməsi qəti surətdə qadağan etdiyi heyvan donuzdur. Bu qadağa xalqın davranışlarında dərin kök atmışdır. Şərab və başqa sərxoşluq verən içkilər dini hökmlərlə qadağan edildiyi halda, onlara göstərilən müəyyən xoş münasibət donuz ətindən qəti şəkildə əsirgənir. Ümumən, "yeyilə bilər" qrupuna ev və ov heyvanlarından məməli, ot yeyən və gövşəyən heyvanların əti daxil edilir. Müsəlman olan və Anadolu türkləri ilə dil, irq, ənənə ortaqlıqlarına malik olan Orta Asiya köçəri, ya da yarı köçəri toplumlar (qırğızlar, qazaxlar...) at əti yeməyə heç bir zaman qadağa qoymayıblar. Qədim oğuzların da bu ənənəyə riayət etməsinə dair faktlar **"Kitabi-Dədə Qorqud"**a qədər gəlib çatmışdır. Ov quşlarından isə hansının yeyilən, hansının yeyilməz olduğunu, hər yerdə olduğu kimi, təcrübələrdən əldə edilən qaydalar müəyyənləşdirir. Bəzi heyvanlar, məsələn, qurbağa, tısbağa, kirpi, midyə, istidriyə haqqında dində heç bir qadağa olmadığı halda, bəzən din adamlarının bu barədə hökmlərinin təsiri ilə xalq ənənəsində onların yeyilməsi xoş hesab olunmayıb. Ancaq bunlardan bir çoxunun bəzi hallarda xəstəliklərin sağaldılmasında, tilsimlərin, caduların açılmasında istifadə olunduğu da müşahidə olunmuşdur.

Ələvi-qızılbaşlar arasında donuz qədər qəti qadağan olunan ikinci bir heyvan isə dovşandır. Onun uğursuz heyvan hesab edilməsi və ətinin yeyilməməsi cürbəcür izah olunur: bədəni tamamilə qan imiş, heç əti yox imiş; pişikdən əmələ gəlib; ata-anası eşşək imiş; Xəlifə Ömər (əvvəlcə – ***TƏRCÜMƏÇİ***) qadın olmuş, iki uşaq doğmuş, bu uşaqlar da dovşana

çevrilibmişlər; dovşan bir qadının murdar paltarlarından əmələ gəlibmiş; o da qadınlar kimi aybaşı olurmuş... Özü də bu təkcə təkcə ələvilərdə deyil, sünnilərdə də yayılmış inancdır: yola çıxmış bir adam dovşan görərsə, nə isə pis bir şey baş verəcəyinə inanır. Ümumən Anadolu əhalisinin, xüsusən isə qızılbaşların inancları fərqli tarixi və mifoloji köklərə gedib çıxır: dovşandan qorxma və dovşanla bağlı qadağalar da buna aid edilə bilər. Faktorlar arasında etnoloqların ən çox üzərində durduqları: heyvanların ətindən yeməklə onların cürbəcür xüsusiyyətlərini (fiziki qüvvə, hiyləgərlik və s.) əldə etmək olar inancını da hesaba almaq lazımdır. “Dovşanın qaçmağına baxdım, ətindən iyrəndim” sözünə XVI əsrdə toplanmış, yazıya alınmış atalar sözləri arasında da, müasir Qaziantep folklorunda da rast gəlirik. Bu heyvanın ətinin “yeyilməzliyi”nə onun qorxaqlıq və hədsiz ürkəklik keyfiyyətlərini qazanmamaq istəyinin təsiri olduğu düşünülə bilir.

Bəzi heyvanların isə müqəddəs olduğuna inanırlar. Dişi bir canavarla bir cavanın birləşməsindən əmələ gəldiklərinə inanan qədim türklər bu heyvanı vaxtilə dağlar arasında qapalı qaldıqları zaman onlara yol göstərdiyi üçün müqəddəs hesab edirdilər. Qurda olan belə bir inam Anadolu folklorunda da yaşamaqdadır. Afyon bölgəsindən əldə etdiyimiz bir söyləməyə görə, Qurtuluş müharibəsinin son illərində cəbhə bölgəsindəki ordu komandirlərindən birinə məhz qurd kömək etmişdir. Başqa birində isə deyilir ki, qurdun əsli-nəsli insan olub. Bunlar dörd qardaş imiş, ən balacaları dağlarda özündən böyük qardaşlarına bələdçilik edirmiş. Günlərin bir günündə qardaşlar öz aralarında heyvan sürülərini böldükləri zaman bu balaca qardaşa heç nə vermirlər. Qurd qardaş: “Harda rastıma çıxsa, heyvanlarınızı öldürəcəyəm” deyə əhd edir. Başqa birində isə qurdların üç növü ayırd edilir: sarı qurd, qara qurd, boz qurd. Bunlardan ilk ikisi atlara və eşşəklərə hücum edir;

boz qurd isə əsil-nəcabətlidir, ancaq qoyunlara hücum edir. Nizipdə Qurd baba adlı bir təpədə qırx dənə hin vardır. İnanclara görə, bunların hər biri bir qurdun imiş. Bunların bir atası var imiş, ildə bir dəfə mal-qaradan nəsə yeyərmiş. Kim o əsnada ona güllə atsaymış, quruyarmış. Baraklılar isə qurda "Həzrət Əlinin iti"dir deyirlər. Qurd öldürdüyü heyvanları boğar və qanını axıdaraq öldürürmüş, ona görə də qurdun öldürdüyü qoyunun əti yeyilirmiş. Qurdun müvtəlif əzaları, dişi, dərisi cürbəcür zərər-ziyanlardan qorunmaq üçün istifadə edildiyi kimi, insana bəzi qeyri-adi güclər də bəxş edirmiş. Balaca ikən qurdun ürəyini və böyrəyini yemiş adam əmcəkləri şişən inəkləri sağalda bilirmiş. Albastıdan[26] qorunmaq üçün zahı qadının balışının altına qurd dərisi qoyurlar; qorxaq insanları ürəkləndirmək üçün onlara qurd ürəyi yedirdirlər (Qurdla ilə əlaqədar inanclar üçün bax: Ali Rıza, **Anadoluda Bozkurt**, "Halk Bilgisi Haberleri", I, 1930, s. 200-202; II, 1930, 1931 ve 1933, s. 32-34, 138-140, 166-168).

Xalq inancları arasında eyni dərəcədə əhəmiyyətli olan bir heyvan da maraldır. Maral haqqında elə əfsanələr danışılır ki, bunların bəziləri Orta-Asiya mənşəli, bəziləri Anadolunun qədim dinlərinin mif mənşəli qalıqlarıdır. Bu əfsanələrin əksəriyyəti onu sübut etmək istəyir ki, maralların nəsli Anadolu dağlarında getdikcə tükənmək üzrədir və onu ovlayan şəxsə bədbəxtlik gətirəcəkdir. Müasir dövrümüzdə marallarla oturub-duran qadınlar və kişilərin qeyri-adi halları haqqında əfsanələr toplanmışdır. Bunlar, bir növ, maralların qoruyucusu, sahibi hesab olunur. Muğlanın Ula ilçəsində danışılan bir ovçu hekayəsində "maral çobanı" olan bir qoca kişi ilə bir qız qonaqları olan ovçuya maralı kəsib yedizdirirlər, sonra da yerdə qalan sümüklərini bir yerə yığaraq maralı dirildirlər

[26] Albastı – alarvadı, hal anası və s. – ***Tərcüməçi***

(Yusif Ziya Dəmirçi, **Yörüklər və köylülərdə hikayeler, masallar, İstanbul 1934**). Afyon ərazisindəki Uzun Qız övliya da maralların çobanı və qoruyucusudur. O, maral ovçularını şikəstliklə, ölümlə cəzalandırır. Ibradıda danışılan ovçu hekayələrinə görə, ovçular marala güllə atmağa hazırlaşdıqları anda o yoxa çıxır, yerində saqqallı, qoca bir kişi görünərmiş. Bir ovçu dişi maralları sağan "Pəri qızları"na rast gəlibmiş. Heyvanlara güllə atdığına görə vurulan maralın sahibi olan qız ona qarğış etmiş, bu səbəbdən də ovçunun bir əli quruyubmuş. Başqa bir ovçu da qayanın oyuğunda qatığa bənzər bir şey tapıb yemişdir. Heç demə, bu da maral südündən olan qatıq imiş. Ona görə də bu adamın ağzı-üzü yaşıl rəngə boyanır, həmişə elə qalır. Ona görə də ona Yaşıl Əli deyirmişlər.

Övliyala insanların marallarla oturub-durmaları, belə görünür ki, xalq ənənəsində çoxdan yayılmış inancdır. Daha əvvəl haqqında danışdığımız **Atalar sözü** kitabında marallarla əlaqədar belə deyilir: "Geyiklere merkeb ül-evliya derler" (yəni: maral övliya insanların miniyidir); "Əjdaha maraldan doğulub".

Bu ikinci atalar sözündə ayrı bir əfsanə xüsusiyyətinə işarə var. Onun izahını Diyarbəkir bölgəsindəki Qaraca dağı ilə bağlı əfsanədə tapa bilərik: Buralarda payız aylarında bir maral Ülkər ulduzunu görəndə ondan hamilə qalırmış, yazda torba kimi bir şey doğurmuş. Sonra da başlayırmış təpikləməyə... axırda içindən əjdaha çıxırmış torbanın. Elə o anda da göydən yerə mələklər enər və əjdahanı göyə çıxararmışlar. Qaraca dağın başındakı buludlar, qasırğalar da bu əjdahalar imiş. Bunlar payızda yerə enər və qışı mağaralarda keçirərmişlər. Bahar aylarında isə yenə göyə çıxaraq buludlara qarışarmışlar (F.Qırzıoğlu, "Yeni Meram", ocak 1956, "Türk Folkloru Araştırmaları", sayı 144, mart 1953).

Atın qeyri-adi xüsusiyyətləri barədə danışan çoxlu inanclar tapmaq mümkündür. Başqa xalqların mifoloji görüş-

lərində də bir çox nümunələrinə rast gəldiyimiz "qanadlı atlar"dan biri dastan qəhrəmanlarından olan Koroğlunun Qıratıdır. Koroğlu atasının öyüd-nəsihətlərinə qulaq asaraq onu uzun müddət gün işığı görməyən bir tövlədə bəsləyir, beləcə Qırat qanadlı bir ata çevrilir; lazım olanda qanadlarını açaraq uçurmuş bu at. Amma bu xüsusi qabiliyyətini insanlardan gizlədirmiş. Göllərdən, dənizlərdən çıxan ayğırların soyundan gələn əfsanəvi atlar da vardır: bu mövzu barədə yuxarıda danışmışdıq. Bəzi atların isə ölümsüz olduğuna inanırlar. Bir söyləməyə görə, Koroğlunun atı da belə imiş. Hər on beş gündən bir Şam bazarında satılır, sonra da sahibini dəyişdirirmiş. Başqa bir rəvayətdə də deyilir ki, o, hər ay İstanbulda bir kasıb sudaşıyanın qapısına gedir, bir ay bu adama qulluq etdikdən sonra qeybə çəkilirmiş. Xızırın Boz atı, Həzrət Əlinin (ə.) Düldülü, Şah İsmayılın Qəmərdayı da Abi-Həyatın suyundan içib, əbədiyyətə qədər ölümsüzlük əldə ediblər. Qurumuş at kəlləsinin yağış yağdırmaq mərasimlərində, bostanlarda quşları qorxutmaq üçün və ya nəzərdən qorunmaq üçün, nalından da yenə nəzərdən qorunmaq üçün, ya da uğur gətirsin deyə istifadə olunması onun sehrli gücü ilə bağlıdır.

Quşlardan isə durna müqəddəs hesab edilir. Xalq şeirlərində (xalq mahnılarında, aşıqların deyişmələrində) ona, uzaqda olanlara xəbər aparması, onlardan xəbər gətirməsi üçün yalvarırlar. Qızılbaşların inamlarına görə, durna səsini Həzrət Əlidən (ə.) almışdır. Pir Sultanın şeirlərindən birində bu inam öz əksini belə tapmışdır:

Həzrət Şahın avazı
Durna deyilən bir quşdadır.

Pir Sultana görə, başqa heyvanlar da Əlidən (ə.) nələrsə almışlar:

Baxışı aslanda qalıb,
Döyüşü də qoçdadır.

Əlinin uca tutulduğu yerlərdə onun "Allahın aslanı" deyə tanındığını bilirik. Şair qoçun döyüşmək gücünü Əlidən qalma bir vergi hesab edir. Qoçun və ümumən qoyun cinsinin müqəddəs hesab edildiyi barədə yuxarıda danışmışdıq. Mudurnuda toplanmış məlumatlara görə, qoyunların da eynən, marallar kimi qeyri-adi gücləri olan "sahib"ləri vardır. Çobanı gecə yuxu tutarsa, onlar sürünü təhlükələrdən qoruyar və bəzən insan qiyafəsində çobanın gözünə də görünərmişlər.

Balıqlara dair inanclardan: Tanrı balığı həm uçan, həm də dənizə baş vura bilən bir heyvan kimi yaratmışdır. O da başlayır öyünməyə ki, onun insanlardan heç bir qorxusu yoxdur və s. Elə bu zaman da Tanrı onu qanadlarından məhrum edir (Mudurnu). Balığın qanı axıdılmadan yeyilə bilməyinin halal olması xalq inanclarında belə izah olunur: Nəmrud İbrahim Peyğəmbərin Tanrısını öldürməyə cəhd göstərir. Qartallarla göylərə yüksəlir. Tanrıya ox atır. Tanrı da oxun qarşısını bir balıqla alır. O da qansız qalır buna görə. Tanrı da onun qanının axıdılmadan yeyilə bilməyini halal buyurubmuş. Səbahəddin Eyyuboğlu Anadoluda xalq təbabəti ilə əlaqədar tədqiqatında ("Tıpta yenilikler", sayı 6, 1961) balıqlarla bağlı bir inancın ağlabatan izahını verir. Əskişəhərin Çiftələr kəndinə yaxın bir dərədə balaca sarı balıqlar yaşayırmış. Kəndlilərə görə, bu balıqları yemək günah imiş. Səhiyyə Nazirliyi İtaliyadan artırılmaq üçün milçək yumurtası yeyə bilən balıqlar gətirir. Bu gətirilən balıqlar, heç demə, kəndlilərin "günah olar" deyib yemədikləri balıqlardan imiş. Balıqların Anadolu Qurtuluş Müharibəsində iştirak etdiyini də deyirlər. O müharibənin Əskişəhərdə baş verdiyi əsnada bir dərədə, qan izləri qalmışdı. Cəbhə xəttinə doğru axıb gedən bir balıq sürüsü görübmüş kəndlilər. Bunların düşmənlə döyüşdən qayıdan balıqlar olduğuna inanıbmışlar.

Heyvanlarla əlaqədar inancların bir qismi də Nuh Tufanı haqqında əfsanələrlə (bak: **100 soruda Türk Halk Edebiy-**

**yatı**, soru 50), ya da “Süleyman Peyğəmbərlə heyvanların macəraları” silsiləsi ilə əlaqələndirilir. Bunların əksəriyyəti yazılı mənbələr vasitəsilə bir çox millətlər tərəfindən ortaq mənimsənmiş əfsanələrdir. İki nümunə verməklə fikirlərimizi aydınlaşdıraq: “Qaranquşun quyruğu niyə haçadır?” sualına Trabzon əfsanəsi belə cavab verir: Nuhun gəmisi deşilibmiş, deşiyi ilan burularaq tutur. Buna qarşılıq olaraq da istədiyi canlının ətindən yemək icazəsi əldə etmiş olur. Ən ləzzətli heyvanın ətini tapmaq işi arıya tapşırılır. Arı da bütün canlıların dadına baxdıqdan sonra gəlib, “Ən ləzzətli ət insan ətidir” demək istəyir. Elə bu zaman qaranquş tez sıçrayır və arının dilini qoparır. İlan da hirslənir və qaranquşun quyruğunu haçalayır.

“Hüdhüd quşunun (çavuş quşu) təpəsində niyə bir bəzək var?” sualının cavabı isə ta gedib Süleyman Peyğəmbərin məhəbbət macəralarına çıxır. Bilqeys ilə Süleymanın arasında məktubları aparıb-gətirən bu quş imiş. Daşıdığı məktublar islanmasın deyə Süleymanın yalvarışı ilə Tanrı onun başında çətirəbənzər bir bəzək yaratmışdır.

Nəsə bir məsələ, ya da söhbət çox uzanarsa, “İlan hekayəsinə çevrildi lap” deyirlər. Bu deyimə “İlandan söz düşəndə söhbət tez başa çatmaz” inancı izah gətirir. Bu ifadə, eyni zamanda, ilanın folklorumuzda necə önəmli bir yer tutduğuna bir sübutdur. Bu heyvan bəzən müsbət, bəzən də mənfi xarakterizə olunur. Yolda ilana rast gəlmək böyük uğursuzluqdur. Əgər yuxunda ilan görsən, bu o deməkdir ki, düşmənindən bir zərər gələcək. Bunun əksinə olaraq, evlərin, dəfinələrin sahibi, qoruyucusu olan ilanların olduğuna da inanırlar. Nağıllarda, əfsanələrdə onlara yaxşılıq edənləri mükafatlandıran ilanlardan danışılır. Bir-birinin əleyhinə olan bu iki fikrin formalaşmasında ilanların zəhərli və zəhərsiz deyə iki növə ayrılması da öz təsirini göstərib.

Bir sıra heyvanların müxtəlif xüsusiyyətlərini izah edən inamlara bir-iki misal verməklə mövzuya son nöqtəni qoyaq:

- Kəklik düşmənlərindən gizlənən bir Peyğəmbərin qovaq ağacının budaqları arasında gizlənmiş olduğunu “gak kavak! gak kavak!” deyə səs çıxararaq xəbər vermişdir. Peyğəmbər düşmənləri tərəfindən öldürülür, qanı kəkliyin tüklərinə bulaşır. Xınalı rəngi də ordan qalıbmış. Peyğəmbər də: “Hamı səni tutsun” deyərək ona qarğış etmişdir. Buna görə kəkliyi tutmaq asandır.
- Qarğa qarıldayırsa, bu xeyir bir xəbər gələcəyinə işarədir (Qarğanın xəbərvermə xüsusiyyətini xalq yaradıcılığının başqa nümunələrində də görə bilərik. Krş. Yusuf Ziya Demirci, **Yörükler ve Köylülerde hikayeler...** s. 70-71; uşaqlar bir günah etdikləri zaman böyüklər bunu qarğalardan eşitdiklərini deyirlər və uşaqları da buna inandırırlar.).
- Köpək ulayırsa, ölümü xəbər verir.
- Bayquş oxuyursa, bir fəlakət, pərişanlıq olacağı deməkdir.
- Qatır nə üçün qısırdır? İbrahim Peyğəmbəri yandırmaq istədikləri zaman odun daşımağa razı olduğu üçün onun nəsli qurumuşdur.

## 21-ci sual: Çevrilmələrin növləri və onlarla əlaqədar inanclar hansılardır?

İnsanların, heyvanların, bitkilərin, cansız varlıqların öz xüsusiyyətlərini itirərək başqa bir şeyə çevrilməsinə, cansız varığın canlanması, canlı varlığın cansız bir maddə halına gəlib çıxması kimi hadisələrə **dönüşüm**[27] (forma dəyişdirmə, metomorfoza) deyirik. Bir çox xalq inancları bu metomorfozlara əsaslanır. Bu inanclarla yoğrulmuş əfsanələri getdikcə sosial və

[27] Azərbaycan folklorşünaslığında “çevrilmə” terminindən istifadə olunur – ***Tərcüməçi***

rasional baxımdan izah və şərh etmək mümkün olmur. Birinci kitabımızda (**Halk Edebiyatı**, 48-54-cü suallar) bu barədə danışmışıq. Müasir elmə dair məlumatlar xalq arasında yayıldıqca inancların bir çoxu köhnədən gələn dəqiqliklərini, əsaslarını itirirlər. Onları nəql edənlər: "əvvəllər belə deyirdilər...", "anam, nənəm buna inanırdılar ki..." və s. deməklə əslində, danışdıqlarına özlərinin də inanmadıqlarını nəzərə çarpdırırlar.

Bu qəbildən olan inancların böyük bir qismi bir çox millətlərin ortaq malıdır. Əksəriyyəti, yuxarıda haqqında danışdığımız kimi, "Nuh Peyğəmbər və tufan", "Süleyman Peyğəmbər və heyvanlar" silsiləsinə aiddir.

Yuxarıda (18, 19 və 20-ci suallar) dağların, qayaların meydana gəlməsi ilə bitkilərlə, heyvanlar haqqında inancları izah edərkən cürbəcür metomorfoz faktlarına dair misallar da verdik. Bu mövzuda məlumatları tam əhatə edə bilmək üçün yenə bir neçə misalla yolumuza davam edək:

- Köstəbək əslində insan imiş. Bir yəhudi ilə bir müsəlmanın torpaq üstündə davası çıxır. Müsəlman tarlanın onun olduğunu deyir və buna şahidlər gətirir, amma yəhudi dirənir və kimin sahəsi olduğunun tarlanın özündən soruşulmasını istəyir. Heç demə, yəhudi əvvəlcədən gizlincə oraya bir adamını basdırıbmış. Qazı soruşanda ki, "Sən kiminsən?", o da yəhudinin olduğunu deyir. Tanrı da yalançı şahidlik etdiyi üçün onu köstəbəyə çevirir.

İshaq quşu[28], Yusufcuq, ibibik (guguk quşu) də əfsanələrdə əvvəllər insan olub, sonradan quşa çevrilən yaradılışlar kimi təqdim olunur. Yusufcuq əfsanəsinin məzmunu barədə birinci kitabımızda (bax: **Türk halk edebiyyatı,** soru 50, s. 101) danışmışdıq. İshaq quşu haqda iki variantı gözdən keçirək: biri Ankara əfsanəsidir, o biri isə "Tahir və Zöhrə" dastanındandır:

---

[28] İsaq-Musaq quşu – ***Tərcüməçi***

• Yeni evlənmiş iki gənc biri-birindən ayrı düşür. Heç cür qovuşa bilmirlər. Tanrı da fəryadlarını bir-birinə çatsın deyə onları quşa döndərmiş, İshaq quşu olmuşlar. Onlar da ancaq ayrılıq barədə oxuyurmuşlar.

• Muradına çatmadan ölən Tahir ilə Zöhrənin qəbirlərinin üstündə bir qovaqla, bir gül bitir. Tahirin rəqibi olan Qara Kafirin qəbrinin üstündə isə bir qara kol. Bu kol qovaqla gülün (Tahir ilə Zöhrənin) birləşərək qucaqlaşmasına mane olurmuş. Tahirin qovağında bir erkək ishaq quşu, Zöhrənin gülünün üstündə isə bir dişi ishaq quşu, kafirin kolunda isə çalağan peyda olubmuş. İshaq quşları bütün il ərzində ancaq bir dəfə görüşürmüşlər. Onda da sevindiklərindən ağızlarında gətirdikləri yemi itirirmişlər. Yenə də ayrılır və təzədən bir il boyunca yem axtarmaq üçün dolaşırmışlar. Dişi ishaq quşunun acı fəryadları buradan qalmışdır.

**22-ci sual: Cansız maddələr, əşyalar və qidalarla əlaqədar nəyə inanırlar? Bunlarla necə rəftar edirlər?**

Canlı varlıqlar kimi, cansız varlıqlar da xalqın folklorunda müsbət və ya mənfi formada dəyərləndirilmiş və dərəcələndirilmişdir. Bəzisinə müqəddəslik və uğur ehtiva etdiklərinə görə hörmət edilir; bəziləri isə uğursuz və pis hesab edilir, onlardan diksinir, çəkinirlər. Bəziləri isə müsbət, yaxud mənfi dəyəri olmayan qrupa aid edilir. İkili standartlarla dəyərləndirilənlər, yerinə görə yaxşı, yerinə görə pis olanlar da vardır.

Birinci qrupa daxil edilənlər:

• Od, torpaq, dəmir, su. Su həm də qida ehtiyatı kimi ayrı bir dəyərə sahibdir.

• Çörək və duz; əkin məhsulları (buğda, arpa və s.); süd və süddən düzələn yeməklər.

İkinci qrupa daxil olanlar:

• İnsan və heyvan bədənindən çölə çıxan maddələr: sidik, nəcis, tüpürcək, selik, sperma; hər növ heyvan gübrəsi; çirkli sular; yeyilməsi haram olan heyvanların ətləri; dinin qadağan etdiyi içkilər. Donuzun əti haram olduğu kimi ona toxunan hər şey murdarlanmış hesab olunur. İtin toxunduğu şeylər üçün də eyni cür düşünürlər.

Çörək ərzaqlar arasında ən çox hörməti olan qida növüdür. Onu yerə atmamaq, yerdə görən kimi götürüb öpdükdən sonra ayaqaltı olmayan bir yerə qoymaq lazımdır. Çörək və bunun kimi əksər ərzaqları başı açıq halda yemək olmaz. Suyu belə başı açıq içmək günahdır. Ayaq üstə yemək yemək və su içmək də yaxşı iş hesab olunmur: "Şeytan götürüb aparar; Yeyib-içiləndən fayda gəlməz".

Çörəyə və müəyyən qidalara and içirlər. Bu andlar müəyyən bir söz qəlibinə düşmüşdür: "çörək qurutsun", "bu nemət gözümə, dizimə batsın" kimi. Bunlar həmin şəxsin qarşısındakı adamı öz sözlərinə inandırmaq istədiyi zaman istifadə etdiyi gündəlik deyimlərə çevrilmişdir. Bu sözlərdən çörəkdə və Tanrıdan insana "nemət" kimi bəxş olunmuş hər cür qida maddəsində fövqəltəbii qüdrət olması mənası üzə çıxır. Bu qidalar arasında duzun da xüsusi yeri vardır: bir adama, keçmişdə elədiyi bir yaxşılıq müqabilində "duz-çörək haqqı var"dır deyirlər. Ənənələrə bağlı ailələrdə bir tikə çörəyin üstünə səpilmiş duzun dadına baxmadan yeməyə əl uzatmazlar. Bu, çörəyə və duza olan hörmətdir. İftar süfrəsində zeytunun, ramazan ayında xurmanın xüsusi bir mənası vardır. Bunlar Məhəmməd Peyğəmbərin (s.) vətənində yetişən, "Quran"da da haqqında danışılan ərzaqlardır.

Yerdə üstü yazılı olan bir kağıza rast gəlindiyi zaman onu da çörək kimi ayaq dəyməyəcək bir yerə qoymaq lazımdır. Çünki hər üstü yazılı kağızda Allahın adını əmələ gətirən hərflər vardır. "Quran" isə ayrıca bir hörmət mövzusudur: onu qa-

rından aşağıda saxlamaq, oturulan yerə qoymaq olmaz. Onu hər dəfə ələ götürəndə öpüb gözün üstünə qoymaq lazımdır. Ən təsirli and isə "Quran"ın üstünə əl basaraq içilən anddır.

Odun təkcə yandırıcı deyil, eləcə də pislikləri uzaqlaşdıra biləcək bir gücə sahib olduğuna inanırlar. Xəstəliklərdən qorunmaq üçün istifadə olunan bir çox "təmizlənmə ritualları"nda oddan istifadə edirlər. Balıkəsirdə bir kənddə heyvanlar yoluxucu xəstəliyə tutulanda iki çılpaq adam iki odun parçasını bir-birinə sürtə-sürtə od qalayar, o gün tamam sönüb qurtarmış ocaqları bu odla yenidən qalayaraq heyvanları ilə birlikdə sahiblərini də onların qabağından keçirərmişlər. Toroslar bölgəsində əgər təzə at alıblarsa, ya da atlar üçün axur tikiblərsə, heyvanlar buraya salınmamışdan əvvəl qapının hər iki tərəfində ocaq qalanır və heyvanları ocaqların arasından keçirirmişlər. Anadolunun bir çox ərazilərində, hətta xristianların yaşamadıqları qəsəbələrdə belə Pasxa günü ocaq qalayaraq üstündən hoppanan uşaqlar, qadınlar bütün bir il boyunca müxtəlif zərər-ziyanlardan, ağrı-acılardan təmizlənəcəklərinə inanırlar. "Rüfailik" adında bir təriqət vardır. Bu təriqətin üzvləri odu "zərərsiz" hala gətirə və onunla danışıb-anlaşa bilirlər.

Dəmirin müqəddəs bir maddə kimi hörmət və qorxu obyekti olması da bir çox inanclarda izlərini buraxmışdır. Mahmud Kaşğarlı qılıncla bağlı andlar haqqında danışarkən onun insanlardan qisas ala biləcəyini vurğulayır və sözlərinə bu şərhini də əlavə edir: "Çünki dəmiri ulu tutarlar". Dəmirdən düzəldilmiş bıçaq, qayçı kimi əşyalar əldən-ələ verilməz, yerə qoyulduqdan sonra bir-birinə ötürülər. Buradan açıq-aydın görünür ki, xalqın düşüncəsində dəmirin gücünə inam var.

Bəlkə də misin karroziyasından qorunmaq üçün qabları qalaylamaq lazım olduğundan çıxan ümumi bir fikrə əsasən, qalayın da təmizləyici bir gücünün olduğuna inanırlar. İtlərin yaladığı qabların qalaylanmasının xalq arasında mütləq əməl

olunması, bəlkə də, bununla bağlıdır. Daha az dərəcəli "pis-lik"lərdən su vasitəsilə təmizlənirlər. "Axar su kir tutmaz" deyimində vurğulandığı kimi, təmizləyici maddənin pis, murdar şeyləri götürüb-aparması əsas şərtdir. Əşyanın kirlənmə dərəcəsinə görə üç dəfə, beş dəfə, yeddi dəfə, qırx dəfə yuyulması şərtləri də suyun paklandırıcı gücə malik olması inanışı ilə bağlıdır. Bədənin təmizlənməsində isə suya dində verilən dəyər də hamımıza məlumdur: dəstəmaz və qüsul, namaz kimi dini rituallardan başqa, çox vacib bir iş görülməmişdən əvvəl də sudan paklanma vasitəsi kimi istifadə olunur. Cənabət qüsulu alınmadığı zamanlarda evin bərəkəti qaçar, uğursuzluq gələr. Aybaşı halında olan qadın bəzi mühüm işləri görməməlidir, hörmət olunan şeylərə toxunmamalıdır. Bu kirli hal başa çatar-çatmaz mütləq heyz qüsulu alınmalıdır.

Su tapılmayan yerlərdə isə onun yerini torpaq tutur. İslam təlimlərində buna – belə bir təmizlənmə üsuluna "təyəmmüm" deyilir. Bir Kastamonu inancına görə, torpaq murdarlığı saxlamaz: çünki bir gecədə yeddi dəfə silkinir və murdarlıqdan təmizlənir. Torpağın müqəddəsliyin bir sübutu da onun insan bədəninin yaradılmasında "xəmir" kimi istifadə olunmasıdır. Amma başqa mənfi mənalara da rast gəlinir. Məsələn, onun "aşağı"da olması mənfi bir elementdir: çürüməklə, torpağa çevrilməklə izah olunur. Torpaq, eyni zamanda, təhqir olunmağın, tapdalanmağın, xor baxılmağın simvoludur. "Başa torpaq səpmək" yas yerinə uyğun hərəkətdir: ağı deyən qadınlar hərəkətlərinə, sözlərinə xüsusi bir məna əlavə etməklə ölənin dalınca ölmək, özlərini qurban vermək arzularını ifadə edirlər.

Yeyib-içilməsi haram olan şeylərin yaratdığı uğursuzluqlar dini qadağlarla izah olunur. Əgər bədən bir şeyi çölə atırsa, deməli, bunun bədənə bir ziyanı var imiş. Bunların yığıldığı yerlərdə: bulaşıq su yığıntılarında, zibilliklərdə, qüsulxanalarda, dəstəmazxanalarda və s. qeyri-adi zərərli varlıq-

ların olduğuna inanırlar. Belə yerlərə getməmişdən əvvəl mütləq müxtəlif qaydalara əməl etmək lazımdır.

## 23-cü sual: Mənzil və sığınacaqlar inanc mövzusuna çevrilə bilərmi?

Xalq inancları ilə əlaqədar araşdırmalar aparılarkən "təkin"[29] sözünə çox rast gəlirik. Özü də bunu həmişə mənfi xarakterli hadisələr üçün istifadə olunan ifadələrdə istifadə edirik. Əgər bir insan "təkin deyil" deyə xarakterizə olunursa, deməli, onun başqa insanlarda olmayan əsrarəngiz halları, fövqəltəbii qüvvələri vardır.

Evlərin də təkin olmayanları olur və bunlar, əksərən, böyük, köhnə tikililərdir. Daha çox yaşayanların onları tərk edib getdikləri, xarabalaşmağa doğru gedən mülklər belə bir şöhrət qazanırlar. Belə yerlər haqqında çoxlu əhvalatlar danışılır. Təkin olmayan böyük tikililərə nağıllarda çox rast gəlinir. Sahibləri belə evləri, ən ucuz pula olsa da, kirayə vermirlər. Bu cür evlərdə kirayə yaşamağa razı olanlar bir müddət sonra cürbəcür hürküdücü hadisələrlə qarşılaşaraq oradan qaçmağa məcbur olurlar. Bəzi evlərdə isə ev əhlinin gözünə görünməyən, lakin cürbəcür əlamətlərlə özlərini hiss etdirən bir qrup varlıqların olduğuna inanırlar. Bunlar qorxudan, zərər verən, narahat edən şeylər hesab olunmur: onlar evin "sahibi", ya da "piri" deyilir[30].

Evlərdən başqa axurlar, kəndlərin kənarlarında olan tənha otaqlar, karvansaraylar, dəyirmanlar, əsasən də, xarabalıqlar (qala, saray xarabalıqları və s.) "təkin olmayanlar" qrupuna daxil edilir. Bunlara fakt dəyərində bir nümunə verək:

---

[29] Güvənilən, təhlükəsiz və s. – ***Tərcüməçi***

[30] Azərbaycan inanc mətnlərində belə varlıqlar, əsasən, **əyələr** adlandırılır. Haqlarında geniş bilgi üçün bax: A.Babək. Azərbaycan folklorunda su ilə bağlı inamlar. Bakı: Nurlan, 2011, 212 s. – ***Tərcüməçi***

• 1939-cu ildə Zonquldakda işləmiş, əslən Dəvrəkdən olan bir mədənçi çavuş bizə bunları danışdı: o, əvvəllər tütün qaçaqçılığı ilə məşğul olurmuş. Bir dəfə o, kəndlərdən birinin kənarında tərk olunmuş otaqlardan birində gecələyibmiş. Yatmağa hazırlaşdığı zaman qapının arasından bir qurşaq parçası sürüşüb düşdüyünü görür. Az sonra bu qurşaq bir sincab olub, rəfin üstünə tullanmış, oradan da hoppanıb ocağın içinə düşmüş, sonra da yenidən qapıya tərəf qayıdaraq, qurşaq şəklinə düşmüş və oradan da çölə qaçıb yox olmuşdur. Sonra da bir səs gəlmiş və qapıda bir ərəb peyda olmuşdur. Xülasə, qurşaq səhər açılana qədər şəkildən-şəklə düşmüş, adamı qorxudubmuş.

Evdə yaşayan insanları narahat etməyən, yaxşılıq edən, "evin sahibi" kimi xarakterizə olunan varlıqlarla bağlı Malik Akselin bir məqaləsində nəql etdiyi hekayəyə nəzər salaq:

• Evin xanımı ocaqda kotlet bişirərkən birdən tavaya quru bir əl uzanır. Qadın əlin içərisinə bir kotlet qoyur. O gündən sonra "xoş saatlarda olsunlar"ın evə bir zərər verməməsi üçün lazım olan işləri görür. O, yaxşı hərəkətlərinin müqabilində hər səhər sobanın yanında bir qızıl tapır. Qadının əri bu qəribə davranışları, ardı-arası kəsilməyən qızıllar barədə israrla soruşur, o da məcbur qalır, hər şeyi danışır. Qızılların gəlişi dayanır.

"Evin sahib"inin[31] könlünü xoş tutmaq üçün həyata keçirilən iş: onları hirsləndirməmək və həyata keçirtdikləri işlər barədə heç kəsə danışmamaq. Bu varlıqlar, əksərən, onlara hər gün şərbət verilməsini istəyirlər. Onların bu xüsusiyyəti barədə bilən adamlar hər gün mətbəxin bir küncünə şərbət qoyurlar.

Bəzən elə bilirlər ki, "evin sahibi" ilan qiyafəsində olur. Bu zaman evin bir yanından ilan çıxanda onu öldürməkdən qorxurlar. Dəyirmanlar, hamamlar da "təkin olmayan" yerlər-

[31] Əyə/yiyənin – ***Tərcüməçi***

dir. Nağıllarda, əfsanələrdə belə yerlərdə cinlərə, pərilərə rast gələn kimsələrin onlarla yaxşı rəftar etdikləri halda yaxşılıq gördükləri, əksinə getdikləri halda cəzalandırıldıqları haqqında nəql olunur.

**24-cü sual: Mədən quyuları və xəzinələrlə əlaqədar inanclar varmı?**

Anadoluda işlədilən cürbəcür mədənlər və mədən ocaqları ilə əlaqədar araşdırmalar yoxdur. Bu mövzuda 1939-cu ildə Zonquldak kömür mədənlərindən əldə etdiyimiz məlumatları sizinlə paylaşmaq istərdik:

- Ocaqda siçan görmək uğur gətirərmiş. Bu inancı mədən işçilərindən biri rasional[32] üsulla belə izah edir: "Siçan heç vaxt qaz olan yerdə görünməz".
- Ocaq yerinə qadın xeylağının girməyi xeyirli olmaz.
- Quyuya ilk dəfə işləmək üçün gələn bir işçinin, ya da sırf oradakı iş şəraitini görmək üçün gələn yad bir adamın girməsi ilə nələr baş verməsindən asılı olaraq həmin adamın ayağının düşərli olub-olmamsı inancına gəlinir.
- Bir çox hallarda işçi gözlənilmədən baş verən bir hadisədə nəsə qeyri-adi bir şey olduğunu iddia edir. Bir dəfə, necə olursa, bacalardan birinə xoruz girir və orada banlamağa başlayır. İşçilər də bu səsi eşidəndə elə biliblər ki, nə isə fövqəltəbii varlıqdır.
- İşçilərin əksəriyyəti ocaqda tez-tez bir Ərəbi (Zəncini) gördüklərini deyirlər. Onu "ocağın sahibi"[33] hesab edirlər. O işçilərdən birinə rast gəldiyi zaman ondan bu mədənin kimin olduğunu soruşarmış. Əgər işçi ona: "filan şirkətin..." kimi bir cavab verərsə, hirslənər, onu ya qurudar, ya boğar, ya da şax-

---

[32] Rasional: əqli-təcrübi – ***Tərcüməçi***
[33] Ocağın əyəsi – ***Tərcüməçi***

tanın dirəklərini çökdürərərək əzərmiş. Onun sualına: "Ocaq səninindir", deyə cavab verməк lazım imiş. O zaman Ərəbin könlü xoş olar və işçiyə onun sahibi olduğu gücdən artıq güc verərmiş ki, daha çox kömür çıxartsın. Bizə bu barədə danışan mədən çavuşu zabiti buna inanmırmış. Ərəbin boğduğu güman edilən işçilərin öz ehtiyatsızlıqları ucbatından öldüklərini söyləyirdi. Lakin buna baxmayaraq: "Ərəbə quyuda rast gəlməmişəm, amma arada yuxuda görmüşəm" deyirdi.

• Əgər bir işçi Ərəbin vasitəsilə daha çox kömür çıxardığı barədə harda gəldi danışarsa, az keçməz, ölüsü tapılarmış.

Xəzinələrlə bağlı rəvayətlər və inanclar ilə əlaqədar çoxlu mətnlər toplanmışdır. Anadolu folklorunda bu mövzuda danışılan ən qədim hekayələrdən biri "Kitabi-Dədə Qorqud"da özünə yer almışdır. Təpəgöz Basatı öldürmək məqsədilə bir-birinin ardınca iki mağaraya göndərir. Bunlardan biri Təpəgözün xəzinəsinin yığıldığı mağaradır. O birinin qapısında isə dayanmadan qalxıb-enən qılınclar var imiş. Anadolu şifahi ənənəsində də xəzinələrin gizlədildiyi və qapısının ağzında qılıncların oynadığı mağaralarla bağlı hekayətlər çox danışılır. Bu cür "xəzinəli" mağaralardan biri də Mudurnu kəndlərindən birinin yaxınlığında imiş. O da, rəvayətlərdən birinə görə, içindəki qızılların aparılmağını qapıda birdən-birə üzə çıxan qılınclar vasitəsilə əngəlləyərmiş. Başqa bir mətnə görə, mağaranın qapısını bir qız gözətləyərmiş və o qız xəzinənin "tilsimi" imiş. Cürbəcür tilsimlərin açılması ilə kəşf edilən, çox vaxt da təkcə yerinin tapılması deyil, içərisindəkilərin əldə edilməsi üçün də xeyli zəhmət tələb olunan xəzinəli mağaralarla bağlı xeyli şeylər danışılır. Bunlar arasında macəranın qəhrəmanlarının özlərindən toplanmış mətnlər də var. Bəzi hekayətlərdə xəzinələrin tilsimini bilənlər, "Məğribi"lər (Şimali Afrikalılar) gizli elmlərə sahib adamlar kimi səciyyələndirilir. Bir çox mətnlərdə isə xəzinələrin yerini bilənlər lazım

olan tilsimi də bildikləri halda, ya birgə yollandıqları şəxslərdən birinin yanlış davranışı, ya da tilsimin açılması prosesində birdən-birə üzə çıxan nə isə lazımsız bir şeyin ucbatından mağara ilə bağlı arzularını heç cür həyata keçirə bilmirlər.

**25-ci sual: Qədim böyük tikililər və xarabalıqlar haqqında hansı inanclar var?**

Məşhur böyük tikililərin fövqəltəbii varlıqların yaratdığına, ya da onların köməyi, hümməti, məsləhətləri sayəsində ərsəyə gəldiyinə inanırlar. Bu cür inamların formalaşmasının əsas amilinin köçəri, yarıköçəri, ya da kənd əhalisinin "şəhər sivilizasiyası" ilə qarşılaşdığı zaman onlarda yaranan təəccübdən doğması olduğunu düşünürük. Bu, digər tərəfdən, şəhər əhalisinin bu cür tikililərin tikilməsində, ərsəyə gəlməsində əməyi keçən ustaların, köməyi olan dövlət adamlarının adlarını ucaltmaq, onları əbədiləşdirmək istəyi ilə də izah olunur.

Kütahya qalası ilə əlaqədar əfsanədə biz bu qalanı insanların deyil, insanlardan daha güclü, daha cüssəli bir varlıqların tikməsi ilə qarşılaşırıq:

- Kütahyanın indi olduğu yerdə lap qədimlərdə boyları minarə boyda divlər yaşayırmış. Susayanda əyilib Fələnt çayından su içərmişlər. Günlərin bir günü bunların bəyi özünə və adamlarına sığınacaq düzəltmək fikrinə düşür. Şəhərin bugün mövcud olduğu yerdən Yoncalıdakı Nəmrud qayalarına qədər sıra ilə aralı-aralı dururlar. Sıranın bu biri ucundakılar ev böyüklüyündə qayaları sökür, digərləri də bir-birinə ötürə-ötürə qayaları sıranın o biri ucundakı bəyə çatdırırmışlar. Bəyin özü isə təkbaşına qalanı hörürmüş. İş öz ahəngi ilə davam edərkən birdən-birə bu bəyin 300 yaşlı, hələ bığ yeri yenicə tərləməyə başlayan oğlu yıxılıb ölür. Divlər ilk dəfə imiş ki, ölüm hadisəsi ilə qarşılaşırmışlar. 1000 yaşında olan bəy cavan oğul itirməyin

yanğısı ilə: "Bu dünyada ölüm olduğunu bilsəydim, daşı daş üstünə qoymazdım" – deyib, qalanın tikintisini yarımçıq qoyur.

Bu əfsanənin cürbəcür variantları vardır. Bir dənəsini XVII əsr Osmanlı tarixçisi Naima Berqama qalası haqqında danışır. Onun yerli əhalidən dinləyərək nəql etdiyi bir inanca görə, Berqama qalasının sahibi Nəmrud Cabbar qalanın başından əyilərək Berqama çayından su içə bilən div kimi varlıq imiş. Hekayənin bir variantı da Suğla gölünün suyunu axıdan quyuları (yeraltı axınları) bağlayaraq, düşmən torpaqlarını sular altında qoymaq istəyən bir bəy haqqında danışılır.

Ayasofya – 916 il xristianların, 481 il müsəlmanların məbədgahı olmuş bu böyük tikili indi muzeydir. Təkcə memarlıq, mozaika ya da başqa sənətkarlıq növlərinin sərgiləndiyi bir yer deyil, eyni zamanda, əfsanə və inanclar xəzinəsidir. Bizans dönəmində və daha sonra da xristian əhali, eləcə də Türklər onu məscidə çevirdikdən sonra İstanbulun müsəlman olan hissəsi bu böyük tikilinin yaradılmasında insan gücü ilə bərabər, qeyri-adi bir qüvvələrin köməyi olduğuna, onun hər künc-bucağında ağılkəsməyən neçə sirlərin gizləndiyinə inanmışlar. Ayasofyanın istər özü, istərsə də ona bağlı olan hər hansı bir detal barədə mövcud olan inanclardan bir qisminə nəzər salaq:

- Xristianlar arasında formalaşan bir inanca görə, Kayser Justinianus dini bir mərasim əsnasında "müqəddəs çörəkdən" bir parça alıb qaçan arını qovmağa başlayır, gedib onun pətəyində görür və Ayasofyanın planını pətəyin quruluşundan götürərək əldə edir.

- Müsəlmanlar isə belə deyir: hələ ta Məhəmməd Peyğəmbərin (s.) zamanında Ayasofya həmin ərazidə baş verən zəlzələ nəticəsində uçur. Təmirə cəhd göstərildiyi zaman heç cür mümkün olmur ki, qübbəni düzəltsinlər. Xızırın nəsihətinə qulaq asaraq, Peyğəmbərin (s.) tüpürcəyi, Zəmzəm suyu və Məkkə torpağı ilə yoğrulmuş palçıq hazırlayırlar. Məhz bu

palçığın sayəsində qübbəni yerində saxlamaq mümkün olur. Övliya Çələbinin bir qeydinə görə, bu qarışıq məbədin "tərləyən dirək" adlandırılan sütunun altında qalıb. Böyük qübbədən salladılan qızıl toplu qəndili isə bu möcüzəyə hörmət əlaməti olaraq Fateh sultan asdırmışdır.

- "Tərləyən dirəy"in (yaxud "Ağlayan dirək") üzərində bir dəlik var. Deyirlər ki, kilsəni məscidə çevirərkən Xızır məscidin üzünü Kəbəyə döndərmək üçün barmağını bu dəliyə soxmuşdur. Bu dəlikdən sızan suyun cürbəcür dərdlərə dərman olduğuna inanırlar. Həmçinin, Xızırın Qədir gecəsində Ayasofyaya gəldiyinə, düz həmin qızıl top qəndilin altında namaz qıldığına inanırlar.

Bəzi böyük körpülərin də hazırlanmasını xalq fövqəltəbii qüvvələrin işi hesab edir.

- Qarabük yaxınlığında Öyləbəli kəndində uyuyan Bahaəddin Qazi çoban imiş. Qoyunlarını otardığı yerdə ot qalmayıbmış. Çayın o biri sahilində qoyunlarını otara bilmək üçün körpü qurmaq istəyir. Lakin gücü çatmır, Tanrıya yalvarır. Bir sürü maral ona lazım olan daşı, ağac-uğacı dayışıb-gətirmiş, o da körpü qurub, yanında da bir məscid tikmişdir (Bk. "Türk Folklor Araşdırmaları", No 150, 1962).

Həsənqala yaxınlığındakı məşhur Çoban körpüsünün bir övliya dərvişin köməyi ilə bir çobanın necə qurduğunu və bunun sayəsində padşahın qızı ilə necə evləndiyini nəql edən bir əfsanə vardır.

İstanbuldan toplanmış bir rəvayətdə Cərrahpaşa xəstəxanasının necə qurulması barədə belə deyilir:

- Varisi olmayan çox varlı bir adam ölüm döşəyində ikən qonşusu olan kasıb balıqçıya öz vəsiyyətini deyir: yaşadığı imarətinin zirzəmisində xəzinəsi gizlədilib. Oranı qeyri-adi varlıqlar mühafizə edir. Xəzinəyə Misirdə yaşayan məşhur Cərrahdan başqa heç kim girə bilməz. Balıqçı da bir çox hadi-

sələrdən sonra Misirdəki Cərrahı tapır və İstanbula gətirir. Cərrah Padşahın qızı ilə evlənir və bugün onun adı ilə tanınan həmin məşhur xəstəxananı qurur.

Həqiqətdə isə, bu xəstəxana hər nə qədər Cərrah Məhməd Paşanın adını daşısa da, onun zamanında və onun tərəfindən qurulmamışdır. Osmanlı vəziri olan bu şəxs indi onun adını daşıyan səmtdə savab məqsədi ilə çoxlu məntəqələr tikdirmişdir. Buna görə də bu məhəllə sonradan onun adı ilə adlandırılmışdır. Xəstəxanaya gəlincə, onun qurulması çox yenidir. 1910-cu ildə köhnə mülklərdən birində açılmış, 1912-ci ildə isə həmin mülkün yerində tikilən daha əlverişli bir binaya yerləşdirilmiş, adını da yerləşdiyi məhəllənin adından almışdır. Əfsanənin yaranmasının əsas səbəblərindən biri Cərrahpaşanın adını daşımasıdırsa, o biri isə, bəlkə də, 1944-cü ildə xəstəxana binasına bitişdirilərək tikilməsi planlaşdırılan gecə klubunun qazıntısı zamanı oradan bir xəzinə tapılmasıdır (Bk. "İstanbul Ansiklopedisi", **Cərrahpaşa** maddesi).

Anadolunun bir çox yerində mövcud olan çox qədim qalalar və xarabalıqlar Cənəvizlilərdən qalma hesab edilir. Ərzurumda danışılan əfsanələrdən biri:

- Cənəvizlilər güclü bir hökmdar olan Haruna xərac verirmişlər. Onların bəyi Harunu gücsüz vəziyyətə salmaq üçün belə bir hiylə işlədir: öz vəzirini Harunun xidmətinə verir. Vəzir də Haruna ölkəsinin hər yerində qalalar tikdirməsini məsləhət görür. Bu tikililərin ərsəyə gəlməsinə bütün var-dövlətini sərf edən Harun kasıb vəziyyətə düşür. Beləcə, əslində, ona xərac verən bəy Harunun bütün torpaqlarını ələ keçirir.

İzmirə tabe olan Kamalpaşa (köhnə Nif) qəsəbəsinin lap yaxınlığında bir saray xarabalığı vardır və yerli əhali də onu Cənəvizlilərdən qalma hesab edir. Bu sarayın da hekayəsi belədir:

- Bu ölkənin hökmdarının qızı qonşu bəylərdən birinə gəlin gedirmiş. Qız yarıyolda nişanlısının ölüm xəbərini eşidir

və orada bir saray inşa etdirir. Nifkədəki xarabalıq bu saraydan qalmadır. Qız o saraya qapanmış, tək başına orada bütün ömrünü keçirmişdir. Çobanların dağdan bir boru vaitəsilə saraya axıtdığı süd ilə yaşayırmış. Qız öldükdən sonra ora heç kim girə bilməmişdir. Bu gün də sarayın qalıqlarını bir arı qoruyur və ora girməyə çalışanı sancıb-öldürür.

Bir çox xarabalıqların qoruyucuları, xalq inanclarına görə, fövqəltəbii varlıqlardır. Bunlar, çox vaxt, cin, pəri kimi ümumi adlarla göstərilir, bəzən də ilan, ya da əjdaha olduğuna inanırlar.

**26-cı sual: Fövqəltəbii varlıqların növləri, gördükləri işlər və onların insanlarla münasibətləri necədir?**

Xalq ənənəsində qeyri-adi hərəkətləri ilə insanların həyatına təsir edən əsrarəngiz varlıqların olduğuna inanırlar. Bəzi qeyri-adi şərtlər daxilində onları gördüklərini iddia edən adamlar da vardır. Ancaq onlar heç vaxt iki nəfər bir yerdə olanda gözə görünməzlər: insan tək olanda özlərini ona cürbəcür qiyafələrdə göstərirlər. Bunların bütün növlərinə, ümumən, cin deyirlər. Bu söz türk dilinə ərəb dilindən, ərəb dilinə də latın dilindəki "genius" sözündən keçmişdir. Latıncada mənası insanları, heyvanları, müəyyən yerləri mühafizə edən, onların taleyini idarə edən "ruh", ya da "ilahi varlıq"dır. İnsanlarla müxtəlif münasibətləri olan cinlərdən başqa, meşə, dağ, göl və bulaqlarla əlaqəsi olanlar da vardır (Yuxarıda – 20, 23-25-ci suallarda bu cür inanclar barəsində danışmışıq.). Bu varlıqlar yerinə görə "pir" (evin piri), "sahib" (evin, maralların, qoyunların sahibi), yaxud "gözətçi" (xəzinələrin, varabalıqların qoruyucusu) adlarını da daşıya bilirlər. Türk dilində bəzən cin yerinə "əcinnə" sözü də istifadə olunur. "Pəri" sözü bir çox hallarda "cin" sözü ilə eyni məna daşıyır, amma bu varlığa daha çox nağıllarda rast gəlinir. Anado-

lunun orta və şərq ərazilərində, məsələn, Tokat, Ərzurumda bunlar "məkir" sözü ilə adlandırılır. Onlardan qorunmaq üçün "xoş saatlarında olsunlar" deyilir: beləcə, adlarını eşidəndə gəlmələrinin qabağı alınır. Konyada, İstanbulda bunlardan qadın cinsindən olanlarına Rüküş hanım, İstanbulda, həmçinin, Ibrıq Qalfa deyildiyinə rast gəlinibmiş. Cinlərin də müsəlmanları, kafirləri, qadınları və kişiləri var imiş. Toplu halda yaşayırmışlar, öz xanları, bəyləri, sosial mühitləri var imiş. Nə işləri varsa, gecə həyata keçirirmişlər, səhər azanı, ya da xoruzun banlaması eşidilən kimi öz evlərinə çəkilirmişlər. Yaşadıqları, ya da bir yerə yığışaraq əyləndikləri əsas yerlər dəyirmanlar, hamamlar, tərk edilmiş, qorxulu olan, heç etibarlı olmayan evlər (xüsusilə böyük mülklər), viranələr, qəbiristanlıqlar, karvansaraylar, kəndlərin kənarındakı uçuq-sökük otaqlar, iri ağacların altı imiş. İstanbul əhalisinin inanclarına görə, şəhərin içərisində və çölündə onların tez-tez baş çəkdikləri müəyyən yerlər vardır. Dəniz cinlərinin padşahı Qız qalasının sahillərində qonaq olurmuş. Əfsanələrdən birində Dimetokada hətta bir məscidin niyə cinlər yurduna çevrildiyindən danışılır. Gündüzlər də ayaqyolu, zibillik, böyük ağacların dibi, çirkli suların toplandığı yerlər, örtülü yerlərdə ola biləcəklərini nəzərə alaraq, onları hürküdəcək, hirsləndirəcək hərəkətlərdən uzaq durmaq, ya da müəyyən tədbirlər görmək lazımdır: məsələn, cirkli suların toplandığı yerlərə, zibilliklərə işəməmək, ayaqyolulara, yaxud belə sularla çirklənən yerlərə girərkən "dəstur"[34] deməк lazımdır. Berqamada toplanmış iki mətndə isə "pəri"lərin gündüz vaxtı tənha bağlarda, istinin lap cırhacır vaxtında da görüldüyündən danışılır.

Cinlər insanlara qarşı cürbəcür davranışlar göstərirlər: onları hirsləndirməsən, pislik etməzlər; ya laqeyd olarlar, ya da

---

[34] "Dəstur" sözü farsca olub, mənası "izin", "icazə" deməkdir. Başqa sözlə, belə yerlərə girərkən orda olan xtonik varlıqlardan icazə almaq lazımdır – ***Tərcüməçi***

zərər verməyən şıltaq hərəkətlər edərlər. Onların könüllərini xoş etməyə çalışan adamları mükafatlandırarlar. Onların verə biləcəyi zərərlərə qarşı lazımlı tədbirlər görməyənləri, onları hər hansı bir səbəbdən hirsləndirənləri,ələlxüsus onlara meydan oxuyanları vurmaq, şikəst etmək, hətta öldürməklə də cəzalandırırlar. Cinlər padşahına ərizə verərək, arzu etdiklərini əldə edən insanların da hekayələri vardır. Bu cür işlər, birbaşa cinlərlə münasibəti olan, onları sakitləşdirməyi, idarə etməyi bacaran ocaqlı insanların, "cindarların" vasitəsi ilə həyata keçirilə bilir. Cinlərin verdiyi mükafatlar ən çox soğan, sarımsaq qabıqlarıdır. Bunları götürüb evə aparanda qızıla, gümüşə çevrilir. Cinlərin insan bədəninə vurduqları ən böyük zərbələr hər hansı bir bədən üzvünün qurudulmsı ilə iflic olması, şikəst qalmasıdır. Digər bacarıqları içərisində ər-arvadın arasını vurmaq, evlənmələrinə əngəl olmaq da vardır. Bu hal həm ər-arvadın cinləri hirsləndirməsi nəticəsi ola bildiyi kimi, qadına kişi cinin, kişiyə də qadın cinin aşiq olmasından da irəli gələ bilər. Cinlərdən və onların səbəb ola biləcəkləri cürbəcür zərərlərdən qorunmaq üçün onların tez-tez baş çəkdiyi yerlərə ələlxüsus gecələr getməməli, oraları çirkləndirməməli, onlarla rastlana biləcək yerlərdə bir iş görərkən, hətta ümumiyyətlə bir iş görərkən, harasa gedərkən "Bismillah!", yaxud "Dəstur" demək lazımdır. Bir yerə (şkafa, şifonerə) bir əşya, yeməli bir şey qoyanda da "Bismillah!" deyilməzsə, yeməyin bərəkəti olmayacağına, cinlərin onun bir tikəsini alıb-aparacaqlarına, paltarı götürüb istifadə edə biləcəklərinə inanılır. Əgər hər hansı bir ciddi xəstəlik, ya da şikəstlik cinlərin ucbatından baş veribsə, mütləq cindara müraciət etmək lazımdır. Cindarlar ("xuddamlılar") əlaltıları olan cinləri çağıraraq, onlarla mübahisə edir, xəstəni, şikəsti sağaltmaq üçün bəzən onlardan üzr istəyir, bəzən də qorxutmaqla onları razı salırlar. Bu tədbirlər çox vaxt cinlərin qəzəbinə gəlmiş şəxslərin iştirakı ilə həyata keçirilir.

1920-ci illərdən əvvəl İstanbul, İzmir, Manisa kimi böyük şəhərlərdə olduqca önəmli bir toplum halında yaşayan Afrika əsilli zəncilərin içərisində cinlərin səbəb olduğu xəstəlik və şikəstlikləri aradan qaldıran usta mütəxəssislər var idi. Bu şəhərlərin ziyalı insanları belə bir çox hallarda onlara üz tuturdular.

Cinlər insanların gözlərinə cürbəcür formalarda görünə bilərlər. Ən çox qara pişik, oğlaq, keçi, qara it, dovşan, tülkü, eşşək, ördək, cücəli toyuq, quzu, öküz, ilan... qiyafəsinə girirlər. İri gövdəli insan kimi, çox vaxt teleqraf dirəyi, yaxud minarə kimi incə və uzun boylu, ağappaq bir həyətdə, ya da çox gözəl bir qız, gəlin, cücə, qundaqdakı körpə formasında da insanın yolunun üstünə çıxırlar bəzən. Yuxarıda kəndin kənarında etibarlı olmayan bir otaqda gecələyən adamın başına gələnlər barədə danışarkən vurğuladığımız kimi, görünüşləri tez-tez dəyişə bilir, bəzən də cansız əşyaya çevrilirlər.

Buraya qədər pəri, məkir, cin kimi ümumi adlarla göstərilən və fərqli işlər görən varlıqlar barədə danışdıq. Qeyri-adi varlıqların bir qisminin gördükləri işlərə, pal-paltarlarına, cinsiyyətlərinə görə xüsusi adları vardır: Karakonkolos, Qara-qura, Halbasdı, Cadı, Çərşənbə qarısı, Albız kimi.

Qaradənizin şərq bölgəsində geniş yayılmış inanışa görə, Karakonkolos qışın ən soyuq günlərində insanlara sataşan varlıqdır. Burada adına Kancalar deyirlər. Zəmhərinin[35] ilk on iki günündə küçələrdə gəzər, rast gəldiyi adamlara: "Haradan gəlirsən?, Hara gedirsən?, Adın nədi?..." deyə soruşarmış; verilən cavablar arasında "qara" sözü də olmalı imiş: "Qara kənddən gəlirəm..." və s. Yoxsa, qarşısındakının başına əlindəki böyük daraqla vuraraq öldürərmiş. Bu günlər ərzində Kancaların əlinə keçməməsi üçün evlərdə bütün daraqları kilidləyirmişlər. Yozgatda isə bu varlığın adı Conqolosdur. Ev-

---

[35] Zəmhəri: qara qış – ***Tərcüməçi***

lərə, qara qışın axırında, zəmhərinin əvvəlində bir həftə boyunca (10 yanvar – 17 yanvar arası) girib-çıxırmış. Buna gərə həmin yeddi günlük müddətin özünü də conqolos adlandırırlar. O, ağzı açıq olan ərzaq küplərinə tüpürür, işəyir, beləcə xəstəliklərə səbəb olurmuş. Bəzi insanları da yaxınlarından birinin səsini təqlid edərək çağırır, yuxulu halda ikən alıb-aparırmış. O adam oyanarsa, evinə qayıdar, oyana bilməzsə. Çöldə donaraq ölərmiş. Conqolos çuğundur olan evlərə girə bilmir. Ona görə də bu günlərdə evlərdə çuğundur bişirir, qapılardan çölə çuğundur basdırırlar (Bk. Hasan Özbaş, "Türk Folklor Araştırmaları", No 212, mart 1967). Onun adının başqa variantları da vardır: Koncolos, Karaconqolos. Bütün bu adların yunan dilində olan Kallikantzaros/Karkantzalosdan gəldiyi aydın başa düşülür (Bak: H. Ve R.Kahane, A.Tietze, **Lingua Franca...,** Urbana 1958, s. 521-522).

Başqa bir təhlükəli varlıq isə Albasdıdır[36]. Onun işi atlarla və zahı qadınlarla olur. Zahı xəstəliyinin (köhnə adı: "hummayi-nifasi") ondan gəldiyinə inanılır. Bu xəstəlik də onun öz adı ilə **albastı, halbasması** adlanır. Halbasdının qadın cinsindən olduğuna inanırlar. Bir çox yerlərdə adı Al qarısı olan bu varlıq gecə atları tövlələrindən çıxarır, minir, səhərə qədər çapırmış. Bəs at yiyələri bunu hardan bilirmiş?: Atların yallarının hörüklənməsində və onların qan-tər içində olmalarından. At sahiblərinin, yaxud zahı qadınların yaxınlarının Al qarısını tutduqlarını, onu evdə illərcə qul kimi işlətdikləri haqqında da deyirlər. Adın variantları arasında **al** sözünün olan və xalq inanclarında **al rəng** ilə əlaqələndirilən bu varlıq Türklərin, Qafqaz və İran mənşəli əhalinin ortaq folkor hadisəsidir. Albastı və bu adın digər variantları digər xalqlara türklərdən keçmişdir. Elə hesab edirlər ki, Al qarısının zahı-

[36] Albastı – Hal // Hal anası // Hal qarısı // Alarvadı – ***Tərcüməçi***

nın ciyərini çıxarıb-aparır və övladlarına yedirdir. Zahı qadının və yeni doğulmuş körpənin cürbəcür üsullarla qorunmasına diqqət edilir. Görülən işlər arasında zahı qadına gəlincik, biyan kökü şərbəti kimi qırmızı rəngdə olan şeylər içirtmək, otağında dəmir saxlamaq və xüsusilə onu təkbaşına qoymamaq mühüm yer tutur. Al qarısı kişi olan yerə girə bilmir. Gördülər ki, o, zahı qadını "basaraq" əziyyət verir, onda onu qorxutmaq üçün havaya silahla atəş açırlar (Bax: O.Acıpayamlı, **Doğumla ilgili adet ve inanmalar,** Erzurum 1961, s. 75 v.d; Michele Nicolas, **Croyances et pratiques populaires turques,** Paris 1972, s. 131-136).

Çərşənbə arvadı, adından da göründüyü kimi, çərşənbə günləri üzə çıxan qadın cinsindən olan bir varlıqdır.

Albız adı hələ XVI əsrə aid bir atalar sözü kitabında olduğuna görə, belə hesab etmək olar ki, o, Anadolu xalqının daha qədimlərdən inandığı varlıqdır. Ənənədə tam təsvirinə rast gəlinmir. Orta Asiyada olduğu kimi, türk tayfalarında **albıs, almış**, yakutlarda **albın**, moğollarda **albin** sözləri ilə şeytanai, hiyləgər, aldadıb-aparan bir varlıq təsvir olunur. Ədirnədə də bu gün belə şeytan mənasında bir **albız** sözü yaşamaqdadır.

Ərzurum xalq inanclarına görə, Qara-qura da zahı qadınlarla əlləşir. Konyada danışılanlara görə, bu varlıq keçiyə oxşayır. Amma pişik boyda imiş. İnsanların boğazına çökərək onları boğmağa çalışırmış. Gün işığını görəndə tərpənə bilmirmiş, ona görə də onu tutmaq mümkün olurmuş. And içdirə-rək özlərinə tabe edir və kölə kimi istifadə edirmişlər. Qara-qura adına da XVI əsrdən qalan atalar sözləri kitabında rast gəlirik.

Cadılar[37] xortlayan ölülərdir. Onlarla əlaqədar kifayət qədər hekayələr mövcuddur. Əksəriyyət qadınların cadı olduğuna[38] inanırlar. Cadı-arvad ifadəsi də buradan gəlir. Amma

[37] Cadının dilimizdəki adı xortdandır – ***Tərcüməçi***
[38] Öləndən sonra xortlayaraq cadıya (xortdana) çevrilməsinə – ***Tərcüməçi***

kişilərdən də “xortlayanların” olduğuna dair faktlar var. Türk folklorundakı cadı obrazını, təqribən, qərb inanclarındakı vampirlərlə qarşılaşdırmaq mümkündür. Cadılar təzə basdırılan ölülərin ciyərlərini çıxararaq yeyirmişlər. Rumelidə danışılan bir rəvayətə görə, əvəllər cadıları zərərsiz hala gətirən usta “cadıçılar” var imiş. Cadılarla əlaqədar inanc və rəvayətlər Anadoludan daha çox İstanbul və Rumeli ərazisində yayılmışdır (Bak: Osman Saygı, **Sarıgöldə Cadılar,** “Türk Folklor Araştırmaları”, No 150, 1962-ci ilin yanvarı).

Əjdahalarla əlaqədar əldə olan məlumatların əksəriyyətini şifahi və yazılı dastanlardan, əfsanə və nağıllardan əldə etmək mümkündür. Türk folklorunda əjdaha, adətən, “böyük ilan” kimi təsəvvür olunur. Bu, “**Kitabi-Dədə Qorqud”**da açıq-aşkar vurğulanmışdır: Qazan xan, yeddibaşlı Əjdahanı öldürdüyü barədə danışanda onu “ilan” kimi xarakterizə edir. Nağıllarda onun suların mənbəyini tutduğundan və ölkə əhalisinə su vermək üçün insan qurbanı tələb etdiyindən danışılır. Bəzi əfsanələrdə isə xalqa xərac kəsən bir canavar kimi xarakterizə olunur. Mudurnudan toplanmış əfsanədə ağıllı bir şəxsin əjdahadan qurtulmaq üçün necə çarə tapması haqqında danışılır: Bir quzu dərisini sönməmiş əhənglə doldurub, Əjdahanın su içməyə getdiyi yolun üstünə atırlar. Əjdaha "quzu"nu udur, bulağın suyundan içən kimi qarnındakı əhəng yanaraq qaynamağa başlayır və onu tələf edir. Eyni qəsəbədə yenə həqiqətən başa gəlmiş bir hadisə kimi nəql olunan başqa bir əfsanədə Əjdaha insanlara düşmən olmayan varlıq kimi xarakterizə olunur. Bir karvanbaşını öz belinə mindirərək başqa bir əjdahanın mağarasına aparmış, karvanbaşının vasitəsilə bu düşmənini öldürtdürmüşdür. Əjdahanın mənşəyi, buludlarla, mövsümlərlə bağlılığı barədə yuxarıda (20-ci sual) danışmışdıq.

**27-ci sual: Hansı işlər necə, nə vaxt, harada edilməli və ya edilməməlidir?**

Bu qrupdakı inanclar çox saydadır və çoxvariantlı faktlara əsaslanır: onların hamısından danışmayacaq, yalnız bir-iki nümunə verməklə kifayətlənəcəyik. Bunların bugünə qədər sistemli tədqiqatı aparılmamışdır; nəşr olunmuş materiallar ümumi bir ad altında bir bölgənin, ya da bir kəndin, qəsəbənin, şəhərin, yaxud bir sosial qrupun, "müxtəlif inancları" kimi təqdim edilmişdir. İnanc tiplərini aşağıda müəyyən sistem daxilində qruplaşdırmağı təcrübə etdik və hər tipə aid bir neçə örnək verdik.

**I. Nələr, necə həyata keçirilməli?**

**A. İşlər.**

**a) Ev işləri: paltar, təmizlik, tikiş:**

1. Tikiş tikəndə bacarıqlı, əldən-ayaqdan cəld olanın üstünə gəlməsi arzulanır: iş o zaman uğurlu olar, sürünə-sürünə həyata keçməz.

2. Eyni bir evdə iki adam ev süpürərsə, birinci süpürənin başı ağrıyar (İstanbul).

3. Təzə yuyulmuş paltar qatlanıb boğçaya qoyulmamış geyinilməməlidir.

4. Yatmaq üçün yer düzəldildiyi zaman yorğanın qırağını ölünün üstünə sərilən örtüyə oxşamaması üçün qatlayaraq açmaq lazımdır.

**b) İstehsalata dair işlər; alış-veriş:**

5. Buğdadan ilk əldə edilən məhsuldan halqa şəklində bir çörək bişirilir və məhsulda suyun bol olmasını, məhsulun bərəkətli olmasını təmin etmək məqsədilə bulağın açılan yerinə asılır.

6. Siftə pulu düşərli hesab edilir və pulun miqdarı saqqaldakı tüklərin sayı qədər çox olsun deyə çənəyə sürtürlər.

7. Günün alış-veriş baxımından xeyirli olub-olmayacağı ilk gələn müştərinin əlinin yüngül olub-olmaması ilə ölçülür.

8. İlk satış olmadan və kassaya pul girməmişdən əvvəl dükandan nisyə heç nə verilməz (Mudurnu).

9. Kənddən cənazə çıxdığı zaman cütlə yer sürmək olmaz (Çərkəş).

10. Əkini biçməyə başlamamışdan əvvəl, dəryazları dikəldirlər: "Pirimiz Həzrəti Adəm, Peyğəmbərimiz Məhəmməd, Səlli əla Məhəmməd" deyərlər (Sivas).

11. Əkin ilk dəfə biçiləndə ondan bir az yoldan keçənlərə verər və bəxşiş alarlar.

12. Anbardan, ərzaq dolabından bir şey götürəndə "Bismillah" demək lazımdır.

13. Göy guruldadığı zaman bərəkət gəlməsi üçün anbara vururlar.

14. Xırmanda ilk məhsul xəlbirlənərkən üç dənə daş götürülür və buğdalar onun üstündə xəlbirə çəkilir. Sonra bu daşlar buğda ilə birlikdə anbara qoyulur. Toxum əkilərkən yenə bu daşlarla birlikdə əkilir.

15. Nehrə çalxalananda söhbət edilirsə, ayran gec əmələ gəlir.

**B. Səfər:**

16. Yolçu səfərə çıxmamışdan onun əlini una basdırır, sonra onu bir güzgüyə baxdırırlar. Unu fəqir-füqəraya verir, güzgünü də yolçu qayıdana qədər üzü üstə qoyurlar.

17. Yola düşən adamın dalınca yolu rahat olsun deyə yerə çoxlu su tökürlər.

18. Əgər kimsə leylək quşunu ayaq üstə ikən, ya da yeriyərkən görərsə, o adam həmin il çoxlu səfər edəcəkdir.

**C. Geyim-kecim, bədənə qulluq:**

19. Yuyulmuş paltarı heç saxlamamış, dərhal geyinmək yaxşı deyil: həmin adamın üstündən pəri adlayar (Balıkəsir).

20. Təzə paltar geyilməmişdən qabaq yaxasına basmaq lazımdır, yoxsa bədəndə ağırlıq olar (İstanbul).

21. Əl və ayaq dırnaqları eyni vaxtda tutularsa, sevinc və kədər eyni anda gələr (Trabzon).

22. Dırnağı tutub küçəyə atmaq olmaz.

23. Saçı darayarkən tökülənləri küçəyə atmaq olmaz (Bax: 8-ci sual).

24. Donun və ya paltarın sökülən yerini, düyməsini insanın əynindəykən tikmək yaxşı şey deyildir: paltar sahibin qisməti bağlanar. Məcburiyyətdən yaranan bir hal olarsa, tikildiyi zaman paltarın bir ucunu dişlərin arasında saxlamaq lazımdır.

**D. Davranışlar.**

**a) Sevgi əks etdirən davranışlar: öpüş və s.:**

25. Gözdən öpmək yaxşı deyildir, ayrılığa səbəb olar.

26. Ənsədən öpülən uşaq yalançı olar (Balıkəsir).

27. Ağzından öpülən uşaq gec danışar (Balıkəsir).

28. Dirsəyindən öpülən adam Həccə gedər (İstanbul).

**b) Başqa cür davranışlar:**

29. Ayağının altına vurulan uşaq gec yeriyər (Balıkəsir).

30. Uşağın üstündən atdananda boyu uzanmaz.

31. Uşağın başına çörəkxana kürəyi ilə vurularsa, boyu uzanmaz (Kastamonu).

32. Boynundan təsbeh asan adam heç vaxt borcdan qurtulmaz (Balıkəsir).

33. Yumurtanın qabığını əzməmiş atmaq olmaz, içinə şeytan girər.

34. Kəllə-kəlləyə toqquşanlar keçəl olar; keçəl olmamaq üçün ikinci dəfə də toqquşmaq lazımdır (İstanbul).

35. Göz qapaqlarını yeddi dəfə dalbadal qırpmaq cinləri hürkütməyə və onlardan zərər çəkməyə səbəb ola bilər.

36. Dodağını əmən uşaq böyüyəndə qatil olar (İstanbul).

**II. Nələri nə zaman etməli və ya etməməli?**

**A. Bayramlar, sayılmaqla tapılan günlər:**

37. Ərəfə günü və üç gün bayram boyunca cüt sürmək olmaz (Çərkəş).

38. Ramazan ayında və iki bayram arasında evlənmək olmaz.

39. "Üçü bir yerdə olan aylar"da (Rəcəb, Şaban, Ramazan) süddən kəsilən uşağın ruzisi az olar (Trabzon).

**B. Gecə və gündüz, gündüzün və gecənin saatları:**

40. Gecə dırnaq tutan adamın ömrü qısalar (İstanbul).

41. Gecə saqqız çeynəyən ölü əti çeynəmiş kimi olar (Balıkəsir).

42. İkindi namazından sonra hörümçək yuvasını dağıdan adamın öz yuvası dağılar (Balıkəsir).

43. Ağzının hər iki tərəfində yara olan adamın ağzına şeytan cilov taxıb: səhər günəş çıxmamışdan öncə küçə qapısındakı halqanı üç dəfə yalamaq lazımdır (Balıkəsir).

44. Günortadan sonra, yəni nahardan sonra uşaq əskisi yumazlar; yumağa məcbur olanda suyunu atmazlar: günortadan sonra gündüzdən az qaldığı üçün uşağın da ömrü qısalar (Kastamonu).

**C. Həftənin günləri:**

45. Çərşənbə axşamı, çərşənbə və şənbə günləri böyük işlər (paltar yuma və s.) görməzlər. Təzə paltarın tikilişinə həmin günlərdə başlamaq olmaz. Belə işlər üçün uğurlu hesab edilən günlər bazar ertəsi, cümə axşamı və cümədir.

46. Cümə günü tikiş tikən adamın qisməti bağlanar (Kastamonu).

47. Cümə günü azan veriləndə süpürgə ilə iş görmək olmaz.

48. Qırx cümə günü dalbadal üzünü qırxan adamın boynu vurulacaqdır (Trabzon).

49. Şənbə günü qulağı cingildəyən adamın arzusu həyata keçər (İstanbul).

50. Bir müqayisə nümunəsi kimi, dırnaq kəsilməsi ilə bağlı günlər üzrə iki ayrı bölgədə mövcud olan inanclar:

| **Günlər:** | **Trabzonda:** | **İstanbulda:** |
|---|---|---|
| **Pazar:** | Əsəbdən xilas olar | Hədiyyə alar |
| **Bazar ertəsi:** | Varlı olar. | Qəbir əzabı görməz. |
| **Çərşənbə axşamı:** | İmanla ölər. | Uşağı ölər. |
| **Çərşənbə:** | Pis xasiyyətli olar. | Qara xəbər alar. |
| **Cümə axşamı:** | Sevdiyindən miras qalar. | Varlı olar. |
| **Cümə:** | İmanı artar. | ---------------- |
| **Şənbə:** | ------------- | Həccə gedər. |

**D. Doğulduğu andan etibarən uşağın yaş dövrləri ilə əlaqədar inanclar:**

51. Əgər uşaq ilk aylarında bal, yumurta yeyərsə, dili gec açılar (Trabzon).

52. Qırxı çıxana kimi uşağın otağında ağzı açıq qab qoymaq olmaz: bir qaraquş gəlib suyun içərisinə bir muncuq atar, ana da o sudan içən kimi uşaq boğmacaya düşər (Maraş).

53. İki yaşından sonra anasını əmən uşaq ömrü boyu anasına həsrət qalar (Balıkəsir).

(İlk aylarda körpələrlə əlaqədar inanclar barədə daha sonra doğum mövzusunu tədqiq edərkən yenidən söz açacağıq.)

**III. Nələri harada etmək olar, harada etmək olmaz?**

**A. Evin içərisi:**

54. Evin bərəkətinin qaçmaması üçün gecə vaxtı evdən başqasına maya, ələk, tava verməк olmaz.

55. Evdən başqasına qazan verilməsi yaxşı deyil: evdən ölü çıxar (Balıkəsir).

56. Gecə vaxtı evdən başqasına maya vermək çox vacib olarsa, uğursuzluğun qabağını almaq üçün üstünə bir parça kömür qoyarlar (Kütahya).

57. İkindi namazından sonra evindəki hörümçək yuvasını dağıdanın yuvası dağılar (Balıkəsir).

58. Evdən başqasına duz vermək olmaz: evin dadı qaçar (Kütahya)

59. Gec vaxtı, axşam düşəndən sonra evdən başqasına turşu verilərsə, evin sirkəsi pozular (Kütahya).

60. Cinləri məmnun etmək üçün təzə girilən evin nəmli yerlərinə şərbət tökərlər.

**B. Evin çölü:**

61. Başqasının evində paltar qurudan adamın öz evi quruyar (Kütahya).

62. Gecə vaxtı dörd yol, xarabalıq, qəbiristanlıq kimi yerlərdən keçən adam "dəstur" deməyi[39] unutmamalıdır.

63. Gecə vaxtı küçəyə çirkli su tökən adam cinləri hirsləndirər.

64. Divar diblərinə, zibillik kimi yerlərə yüngül bayıra getmək olmaz.

Bu mövzunu yekunlaşdırmamışdan əvvəl bunu da əlavə edək: yuxarıda ələ düşən materiallardan seçilərək qruplaşdırdığımız inanc nümunələrini hətta yüngül şəkildə gözdən keçirmək açıq-aşkar göstərir ki, bu mövzuda inanclar əksərən bir-biri ilə ziddiyyət təşkil edir. Birində "yaxşı" kimi qəbul

---

[39] Həmin yerlərin sahibi/əyəsi olan xtonik varlıqlardan (şər qüvvələrdən) icazə almağı – ***Tərcüməçi***

olunan, o birində "pis" deyə tanıdılır. Bunu onların formalaşma mənşələrinin fərqli olmaları ilə izah etmək mümkün olduğu kimi, bir çoxunun kollektiv düşüncənin deyil, fərdi sınamaların nəticəsi kimi də izah etmək mümkündür.

### 28-ci sual: Hansı ifadələr hansı inanclarla bağlıdır?

Sevgi və hörmət ifadə edən sözlərin əksəriyyətinin hər hansı bir inancla əlaqəsi mövcuddur. Bundan əvvəlki sualda davranışlar barədə danışarkən bunların arasında sevgi xarakterli olanlara toxunduq. Onlara, demək olar ki, həmişə xoş niyyət ifadə edən sözlər daxil edilir və o sözlərin təsirli ola biləcəyinə inanırlar: "maşallah", "Allah bəd nəzərdən saxlasın", "şeytan qulağına qurğuşun" və s. kimi.

Böyüklərin, ələlxüsus qədəmi uğurlu olan yaşlı adamların sözlərinin təsirli olduğuna inanırlar. Onların müsbət arzu xarakterində olan sözləri demələrinə şərait yaratmağa çalışırlar: salam vermək, əl öpmək, köməyə qaçmaq kimi.

Qədim türk dilində **alqış** adı altında göstərilən xeyir-duaların hamısı yaxşılıq bəxş etmək gücünə malik sehirli sözlər hesab edilir. **Qarğışlar** (əski dildə **bəd dua**) da eyni dərəcədə mənfi xarakterli sehrli gücə malik hesab edilir. Dilin təhkiyə qabilliyyətini artıran bu cür sözlərin növləri və mənaları ilə əlaqədar birinci kitabda (**Halk edebiyatı,** 66-67-ci suallar) bəhs etmişdik. Qarğışları tez təsir edən şəxslərin də olduğu özünə yer etmiş inanclardan biridir, yetimlərdə, çarəsiz, yoxsul insanlarda bu gücün daha üstün olduğu qəbul edilir. Anaların uşaqlarına qarğışları isə ürəkdən gəlməyən, quru sözlər sayılır: ananın nə qədər pisliyini görsə də, övladına qıya bilməyəcəyi, onun başına pis nə isə bir şeyin gəlməsini heç vaxt ürəkdən istəyə bilməyəcəyi düşünülür. Atalar sözlərindən biri "Ananın qarğışı ürəkdən gəlməz" deyir.

Yerli-yersiz, haqlı-haqsız qarğış etməyin, söyüş söyməyin yaxşı bir şey olmadığı da geniş yayılmış inanclardan biridir. XVI əsrin yuxarıda başqa mövzularla əlaqədar adı çəkilən **Atalar sözü** kitabında da bu haqda belə deyilir: "Kakıqan (tez-tez açıqlı sözlər deyən) kişi nefsine hay deməz isə az vakıtda kafir olur"[40].

Müxtəlif vəziyyətlərdən qabaq, cürbəcür işlər həyata keçirilən zaman söylənməyi sanki bir qanuna dönmüş lazımlı sözlər baxımından türkcəmiz çox zəngin, rəngli bir dildir. Bunların inanclarla münasibətləri daha qabarıq olanlarından bir neçə nümunə:

- Yuxu gördüyünü xəbər verən şəxs yuxusunu danışmamışdan qabaq qarşısındakı şəxsin: "Xeyirdir, inşallah!" deməsi lazımdır. Bu sözü yuxu görən adamın özü də danışarkən deməyi unutmaz.
- Pisə yozulma ehtimalı olan bir yuxunun xeyirliyə çevrilməsi üçün "Xeyirdir, inşallah!" deyildikdən sonra üç "İxlas", bir "Fatihə"[41] oxunaraq üfürülməlidir.
- Təzə bir evə girdiyimiz zaman cinlər üçün "şərbət töküldükdən" sonra: "Alın ağzınızın dadını, verin ağzımızın dadını" deyilir.
- Küçəyə çirkli su töküləndə: "Dəstur, ya əhd-i Süleyman!" deyilir. Bu Süleyman Peyğəmbərin cinlərlə olan sövdələşməsini xatırlatmaq üçündür. Cinlər: "Sənin adını dilinə gətirən adama toxunmayacağıq", – deyə Süleymana söz veriblər.
- Səhər-səhər bazar adamları ilə "bazar olsun" deyib salamlaşırlar. "Bazar ola Həsən bəy" İstanbulun məşhur tiplərindən biri idi. Onu İstanbulun bütün bazar əhalisi uğurlu he-

---

[40] Acıqlı adam nəfsinə "dur" deməzsə, çox keçmədən kafir olar – ***Tərcüməçi***

[41] "İxlas" və "Fatihə" "Qurani-kərim"in məşhur surələrinin adlarıdır – ***Tərcüməçi***

sab edir, “bazar olsun” deməyini, dükandakı mallara əl çəkməyini xeyirli sayardı.

- İstanbuldakı və ziyalı təbəqə arasındakı “Nuş olsun” ifadəsinin Anadolunun qəsəbə və kəndlərindəki variantı “Bərəkətli olsun”dur. Süfrəyə rast gələndə yemək yeyənlər bu söz ilə salamlanır, onların da gələn adamı öz süfrəsinə dəvət etməsi lazımdır.
- “Bərəkətli olsun” sözü toxum səpən, xırman sovuran əkinçilərə rast gəlindiyi zaman deyilir: adətən, buna “Yorulmayasan” sözü də əlavə olunur. Bu axırıncı söz hər hansı bir işi görən adama da deyilir.
- Bəlli qəliblərdə olan sözlərlə salam vermək, verilən salamı almaq (uyğun gələn, yerinə düşən cavabı vermək) “vacibat” hesab edilir; bu vəzifəni yerinə yetirməmək günahdır. Bir adamdan onun uzaqda olan bir tanışına, yaxınına salam aparmağı öz boynuna götürən adam salamı sahibinə aparıb çatdırmazsa, günaha girmiş olar. Uzaqdan gələn salam deyildiyi zaman sahibi “Göndərən də, gətirən də sağ olsun” deyərək cavab verir.

Bəzi sözlərin deyilməsi uğursuzluq hesab olunur. Bir sıra hallarda xoş niyyətli sözlərin belə deyilməməsi lazımdır. Ovçulara rast gəlinəndə “Uğurlu olsun” demək uğursuzluq, ovun müvəffəqiyyətsiz keçməyinə səbəb ola bilərmiş (Çərkəş). Balıqçılar da bəzi sözlərin deyilməyini istəməzlər. Onlara balığa getdikləri zaman balığın adını deyərək sifariş vermək doğru hərəkət hesab edilmirmiş. Çünki “Dəniz ilə bazarlıq etmək olmaz” (İstanbul).

Deyilməsi narahatlıq yaradan sözlər sırasında bədnəzərin qabağını almaq məqsədi ilə deməkdən çəkinməli olduqlarımızı da sadalamaq lazımdır: anaların öz uşaqlarını “çirkin”, “yumurcaq”, “bicbala” kimi təhqiredici sözlərlə səsləməyi, onları müsbət xarakterlə adlandırmamaları bunun üçündür.

Qadağan olunmuş sözlər qrupuna bir də bəzi heyvanların və fövqəltəbii varlıqların adlarını da əlavə edək: türk dilində qədim adı **böri** olan heyvanın bugün **qurd** (əslində isə balaca böcək), bəzi ərazilərdə isə gənə böcəyi mənasında **böcü** deyə adlandırılması buna ən yaxşı nümunədir. **Canavar** sözü də qurda, donuza verilən bu xarakterdə adlardandır. İlanın da adı deyilmədən "uzun oğlan" deyə yada salınması qədim bir "qadağa" inancına əsaslanır. Cinlər barədə danışarkən "Yaxşı saatlarında olsunlar", ya da "Rüküş xanım", "Ibrık xanım" kimi ifadələrdən istifadə olunması da, yuxarıda toxunduğumuz kimi (26-cı sual), öz adları ilə çağrılarsa, onların eşidərək gələ biləcəyinə olan inanca əsaslanır.

### 29-cu sual: Şəxs adlarının və ləqəblərin xüsusi əhəmiyyəti, mənası və cadu effekti vardırmı?

Qədim türklərdə oğlan uşağına ya uzun müddət heç ad verməz, ya da ilk qoyulan ad ömrünün axırına qədər qalmazmış, yəni keçici bir ad imiş. Əhəmiyyətli bir işi bacardığı zaman, yəni yetkinlik yaşına gəldiyi zaman, ya bacardığı hansısa əhəmiyyətli bir işi xatırladan, ya da gələcəyi üçün bir dilək mənası daşıyan bir ad verilirdi: buna **ər-ad** ("kişilik adı") deyərdilər. Türklər İslam dinini qəbul etdikdən sonra bu ənənə get-gedə öz gücünü itirmişdir.

Müsəlman türklərin adət-ənənələrində uşağa ilkin bir **göbək adı** vermə qaydası vardır. Bu adın verilməsi kiçik bir mərasimlə həyata keçirilir; göbək adları, adətən, müsəlman ənənəsindən gələrək **Kitabi-Müqəddəsə** gedib-çıxan, ya da birbaşa islam ənənəsinə aid olan adlardır: Musa, İsa, İbrahim, Həcər. Tanrının adların və sifətlərinə bağlananlar: Abdullah, Əbdürrəhman. Peyğəmbərin adına, sifətlərinə bağlananlar: Mehmet, Əh-

məd, Mahmud. Qadın, kişi, müsəlman böyüklərinin adları: Ömər, Əli, Həmzə, Həsən, Hüseyn, Fatma, Zəhra, Zeynəb kimi.

İkinci bir adqoyma üsulu kənd və qəsəbələrin ətraflarında daha az müşahidə olunur, ziyalılar arasında yayılmışdır və bir növ, bənzəmə, arzu, öyünmə mənalarını daşıyır. Kəndlərdə və qəsəbələrdə qədim türk ənənəsi başqa yöndə inkişaf etmişdir. Qədim **ər-ad**ın yerini “ləqəb” tutmuşdur. Soyadı qanunu çıxmamışdan əvvəl kişi, qadın, uşağın – hamının bir ləqəbi var idi. Əvvəlki qədər məşhur olmasa da, bu qayda bu gün də davam etməkdədir. Bu adət bir çox tərəfləri ilə həm də faydalı və məcburi idi: Əhməd, Əli, Mehmet... və s. kimi ortaq adları daşıyan adamları bir-birindən ayırd etməyi təmin edirdi. Ləqəbin önəmi “İgid ləqəbi ilə xatırlanır” atalar sözündə də vurğulanır. Bir çox hallarda ləqəb eyni ilə **ər-ad** kimi, onu öz adının üstündə gəzdirənlərin ata-babalarının birinin nə sənətlə məşğul olduğunu, bacardığı bir işi, ya da bədən quruluşundakı bir xüsusiyyətini özündə əks etdirir: Dəmirçi, Ayı-Boğan, Qalın-Boyun, Altı-Barmaq... kimi. Əsilli-nəcabətli kimsələrdən ləqəbləri çox qədimlərə, məsələn, Oğuzların ənənələrinə gedib-çıxanlar da vardır: Kozanoğulları, Qazan kimi.

Adların ən əhəmiyyətli magik funksiyası uşağın yaşaya bilməsini təmin etməsidir. Üst-üstə bir neçə uşağı ölmüş və ya düşmüş olan ata-ana uşağa yaşada bilmək gücünə inandıqları bu adlardan birini qoyur: Dursun, Durmuş, Durdu, Duran, Yaşar... Ad uşağın yaşamasını təmin etmək üçün üz tutulan başqa yolları gücləndirmək, yaxud tanıtma xüsusiyyətini də özündə daşıyır. Doğumundan az sonra uşağı küçəyə, çox vaxt məscidin qabağına qoyurlar, oradan hər hansı bir adam götürüb evinə aparır. Ata-ana onu yalandan pul ilə satın alırlar. Beləcə uşaq müvəqqəti olaraq ana və atasını dəyişdirmiş hesab olunur: bu halda adı oğlandırsa –Satılmış, qızdırsa – Satı olur. Qaziantep bölgəsində bu yalançı alış-veriş işi bir ərəb və

ya kürd ilə həyata keçirilir və uşağa Ərəb, ya da Kürd adı verilir. Bəzi yerlərdə bir pirə əhd olunma nəticəsində dünyaya gələn uşaqlara da Satılmış, ya da Satı adı verilir. Uşağa əhd olunan pirdə dəfn olunmuş övliyanın adının verilməsi də eyni məqsədlə görülən tədbirlərdəndir. Trabzonda babanın adının uşağa verilməsinin də onun yaşamasını təmin edəcəyinə inanılır. Bir çox yerlərdə isə ölmüş olan babanın, nənənin, yaxın qohum-əqrəbalarının adlarının verilməsi ənənəsi vardır: Bu səbəblə, yaxud uşağın ölmüş bir yaxın adamına oxşadığına işarə olunduğu zaman "Torpağı sanı yaşasın" deyilir. Bu ifadədə ölünün üstünü örtən torpağın əbədiliyi nəzərdə tutulur.

Çox geniş yayılmış olan bir adət də uşağa gördüyü bütün böyük işlərlə, elmi, igidliyi, böyük nailiyyətləri ilə məşhurlaşmış bir adamın adını verməkdir. Bununla adın əsl sahibinin xüsusiyyətlərinin adla birlikdə yeni sahibinə keçə biləcəyinə inanılır. Böyük adamların adlarının onlar hələ həyatda ikən uşaqlara qoyulması da müşahidə edilir: İkinci Məşrutiyyət zamanında Ənvər və Niyazi bəylərin, Qurtuluş müharibəsi zamanı Mustafa Kamalın xalq arasında özlərinə qarşı oyandırdıqları sevgi və coşqu o illərdə anadan olmuş bir çox uşaqlara onların adlarının verilməsinə səbəb olmuşdur. Şərqi Anadoluda doğuş əsnasında evə kimsə gəlibsə, uşağa onun adını vermə ənənəsi də müşahidə edilir. Bu, yəqin ki, qonağın ayağının düşərli hesab edilməsi ilə əlaqədar olmalıdır. Bir çox adlar isə müəyyən arzuları ifadə edir. Qızlara qoyulan çiçək adları: Nərgiz, Mənəkşə, Gül, Çiydəm, Güllü onlara gözəllik, oğlanlar üçün seçilən: Çətin, Dəmir, Qaya, Bahadur adları onlara igidlik, döyüşçülük, güc diləndiyini və bu adlardan gözlənilən xarakterin təmin edilə biləcəyi ümidini ifadə edir. Ankaranın bəzi kəndlərində qızlarda rast gəlinən Gürcü adı gürcü qadınlarının gözəllikləri ilə məşhur olmaları ilə əlaqədar ol-

malıdır. Qızlara verilən Dönə, Yetər, Kafiyə[42] adlarının mənaları da adlardan magik gücünə inanılmasına nümunədir. Ard-arda qız uşağı dünyaya gətirən analar axırıncı anadan olana Dönə adını verməklə ondan sonra anadan olacaq uşağın oğlan olmasını təmin etmək istəyirlər. Yetər adında da eyni məna vardır Yetər, Yetişir, Kafiyə (oğlanlarda isə Kafi) adları daha heç bir uşaq istəməyənlərin Tanrıya təqdim etdikləri, bir növ, "xahiş-ərizə" anlamını daşıyır. Bəzən isə həmişə oğlan uşağı dünyaya gətirən ana doğuşdan əvvəl Dönə adını seçərək, qız uşağı gözlədiyini bildirmək istəyirmiş.

**30-cu sual: Sayların xüsusi əhəmiyyəti və mənaları vardırmı?**

Xalq inancında bəzi rəqəmlərə xüsusi bir əhəmiyyət verilməsi onların tez-tez istifadə olunmasından, bildirilməsi lazım olan miqdarın bütöv və həqiqi rəqəm yerinə belə bir rəqəmlə göstərilməsindən də başa düşülür. 1, 3, 5, 7, 9, 12 kimi ilkin saylarla 40, 70, 72, 99, 300, 360, 366, 1001, 18000 kimi daha böyük rəqəmlərin hər biri özündə müqəddəslik, xeyir, uğur kimi mənalar ehtiva edir. Onların bu mənaları necə, harada, nə vaxt almaları məsələsi bir çox tədqiqatların mövzusu olmuşdur. Bunlar türk ənənəsinə məxsus rəqəmlər deyildir,; onların belə xüsusi dəyərləndirilməsi ta ən qədim sivilizasiyalardan bu yana bir çox xalqların ortaq ənənəsinə daxil olmuşdur. Bir qismi qədim Misir ənənələrinə, bir qismi şumerlərin başlayaraq Mesopotamiyada ulduzlar və səma haqqında planetlərin, bürclərin rəqəmləri, ilin aylara, həftələrə günlərə bölünməsi kimi inkişaf etmiş məlumatlara əsaslanır. Bəziləri də yunan filosofu Pifaqorun "rəqəm"lərlə insanın müxtəlif halları, fiziki və ruhi həyatı arasında münasibət qurmaq fəlsəfəsinə gedib çıxır. Bunların

[42] Azərbaycanda Kifayət – ***Tərcüməçi***

arasında türklərin İslamdan əvvəlki dövrlərdə öz gündəlik həyat təcrübələri, yaxud da dini fəaliyyətlərinin nəticəsi kimi əldə edilən məlumatlarla bağlı olanlar da ola bilər.

Sayların dəyərləndirilməsində bizə bilgi verən ən yaxın mənbələr, şübhəsiz ki, islam dininin və ondan əmələ gəlmiş məzhəblərin, təsəvvüf sistemlərinin, təriqətlərin təlimləridir.

**"1"** – Allaha işarə edən rəqəmdir. "Söz bir, Allah bir", "Mən anadan bir dəfə doğulmuşam" ifadələri, nağıllarda çox rastlaşdığımız əjdahanın, ya da divin başını kəsən qəhrəmanın qılıncla bir dəfədən çox vurmamağa diqqət etməsi motivi bu rəqəmin istifadəsinə nümunələrdir. Bütün kainatı və yaradılmışları Tanrı ilə birlikdə tək bir varlıq kimi görən "birlik bilgisi"[43] düşüncəsində bu rəqəmə verilən dəyər ifadə olunmuşdur.

**"2"** – İnsanın və bütün canlı varlıqların törəməsi üçün cinsləri fərqli bir "cütün" birləşməsi zərurəti bu rəqəmə özəl bir dəyər qatır: Bütün simmetriyalar iki istiqamətli, iki hissəlidir: şərq/qərb, sağ/sol, Ay/Günəş, yer/göy, quru/su... Cütçülük ənənələrində də bu rəqəm ayrı bir məna daşıyır: sənətin adı "cüt" (kotana qoşulan iki öküz) ifadəsindən irəli gəlir. Cütçülərin piri Adəm Ata öküzü cütə qoşan ilk insandır:

Adəm Ata öküzü cütə qoşduğu kimi,
Rəncbərlər, xoşca görün öküzü –

deyir Pir Sultan. Anadoluda yaşayan kəndlilərin bir adətinə görə, toxum səpilməmişdən əvvəl kisədən bir ovuc dən götürülür; "cütləşdirmə" həyata keçirilir, yəni dənələr cüt-cüt seçilir; cüt çıxarsa, toxum o çuvaldan götürülür, tək çıxarsa, kisə dəyişdirilir. Çünki toxumların cüt istehsalı, bərəkəti təmin edəcək rəqəmdir.

**"3"**-dən başlayaraq **"5", "7", "9"**-a qədər olan tək rəqəmlər ümumən uğurlu, müsbət hesab olunur: yuyunarkən bir

[43] "Vəhdəti-vücud" – ***Tərcüməçi***

sabunla yuyunmağa diqqət edilir, xalq şairləri qoşmalarını, dastanlarını tək sayda olan bəndlərlə bitirməyi qayda hesab edirlər. Bu rəqəmlərə xüsusi bir əhəmiyyət verildiyini din, məzhəb və təriqət ənənələrində də görürük: beş fərz, islamın beş şərti, ələvilərdə üç sünnət, yeddi fərz, bir çox təriqətlərdə, xüsusilə də ələvilərdə, əhəmiyyətlilik baxımından Üçlər, Yeddilər, Qırxlar, Üçyüzlər deyə adlandırılan və hamısı tək bir Qütbün idarəsi altında olan, dünyaya nizam bəxş edən müqəddəs insanlar... inanclarında olduğu kimi.

Müqəddəs adamlar arasında xüsusi rəqəmlərlə dərəcələndirilmiş qruplardan xalq ənənəsində ən çox yada salınan Qırxlardır. Hər kəsə nəsib olmayan bir xoşbəxtliyə çatan bəzi insanların ölmədiyinə, Qırxlara qarışdığına inanırlar. Bir çox rəvayətlərə görə, məşhur dastan qəhrəmanı Koroğlu ölməmiş, Qırxlara qarışmışdır.

**“40”** rəqəmi xüsusən qırxlama, zahının qırxı, qırx gün gözləməyi vacib bilən, xəstəliklərə yoluxmamasını təmin edən qorunma tədbirləri (qarantin) və b. hallarda da xüsusi əhəmiyyət kəsb edir. Xalq təbabətində ot, ədviyyat və s. qırx cür şeydən düzəldilən dərmanlar, bəzi mərasimlərdə qırx çeşiddə yeməyin olması şərti, dəbdəbəli toyların, şənliklərin danışılmasında (xüsusilə nağıllarda) istifadə olunan "qırx gün, qırx gecə" deyimi də bu rəqəmin önəmini vurğulayan misallardır. Göy və yer yeddi qat şəklində təsəvvür edilir. Cənnətin doqquz qatı vardır. Təmizlik işlərində üç dəfə təkrarlama mütləq şərtdir. Kişi arvadını boşadığını kəskin şəkildə vurğulamaq istədiyi zaman istifadə etdiyi "üçdən yeddiyə şərt olsun" ifadəsində də tək rəqəmlərin xüsusi əhəmiyyəti özünü göstərir.

**“360”**-ın əhəmiyyəti bürclər qurşağının bu rəqəmlə dərəcələnməsindən irəli gəlir. **“72”** rəqəmini bu dərəcələnmənin beşə bölünməsi ilə, ya da doqquz rəqəminin səkkizə vurulması ilə izah edirlər. Bu say eyni zamanda dünya üzündəki dinlə-

ri, irqləri, bir-birindən fərqli cəmiyyətləri göstərmək üçün "yetmiş iki millət" ifadəsində də istifadə edilir.

**"366"**-ya əmiyyət verilməsi ilin günlərinin dörd ildən bir bu rəqəmə çatması ilə əlaqədardır. Hürufilərə görə, bədəndə 360 və ya 366 damar varmış: bu inanc xalqın gündəlik söz qəlibləri arasına da girmişdir.

**"1000"** rəqəmi Bingöllər, Bin-boğa dağları və s. yer adlarında olduğu kimi, ümumən, çoxluğu ifadə edir. Amma min rəqəminə bir müqəddəslik və ya üstünlük dəyəri verilmək istəndiyi zaman ona "bir" əlavə olunur: Tanrının min bir adı vardır, Min Bir Dirək İstanbulda çox sayda dirəkləri ilə məşhur qədim yeraltı anbardır, çətinliklə hamiləlikdən azad olan qadın haqqında "min bir ağrı çəkdi" deyilir.

Kainatı formalaşdıran saysız-hesabsız "dünya"lar haqqında danışılanda **"18000"** aləm ifadəsi istifadə olunur.

Cüt rəqəmlərdən bizim ənənəmizdə ən önəmli yer tutan **"12"**-dir. Bunun Şiə-Qızılbaşlıq təlimi ilə möhkəmlənməsinə, ancaq daha qədim ənənələrdən gəldiyinə şübhə yoxdur. İlin 12 aya bölünməsi bu rəqəmin dəyərləndirilməsində ən qədim təsir faktoru olmalıdır. Qızılbaş inanclarında 12 qapı bədəndəki 12 deşiyə işarə edir: 2 göz, 2 qulaq, 1 ağız, iki döş, 1 ön, 1 arxa. On iki imam Ələvilərin uca bildikləri, Əli ilə Fatimənin (dolayısı ilə Məhəmmədin) nəslindən gəlmiş 12 din başçısıdır.

## II BÖLÜM

## TƏBİƏT BİLGİSİ – TƏBİƏT QANUNLARINA TƏSİR ETMƏYİN YOLLARI

### 31-ci sual: Uğur nə deməkdir?

**Uğur (və ya oğur)** sözünün mənasının formalaşması özü müstəqil bir tədqiqatın mövzusu ola bilər. Türk dilinin ən qədim lüğəti olan Mahmud Kaşğarlının kitabında ona "vaxt, zaman", "bir işdə vaxt və fürsət", "əvəz **(ıvaz)**", "uğur, bərəkət", "dövlət" (yəni xoşbəxtlik) mənaları verilmişdir. Söz bu mənalardan bir qismini, yəni "xoşbəxtlik", "bərəkət" mənalarını bu gün də özündə ehtiva edir, onun vasitəsilə əmələ gəlmiş ifadələri Kaşğarlının dövründəki kimi, elə həmin mənalarında istifadə edirik: **oğur bolmaq**, "yolun xeyirli və uğurlu olması" mənası "uğurlar olsun" ifadəsində özünə yer tapır. Kaşğarlı, digər tərəfdən, **oğurluq bolmaq** ifadəsinə "sırasında və yerində olmaq" mənasını verir. Biz **uğurlu olsun** ifadəsini **xeyirli, uğurlu olsun** formasında, "xoşbəxt olsun", "xoşbəxtlik gətirsin" ifadələrinin yerində işlədirik. Kaşğarlının "vaxtında və yerində edilən iş" kimi mənalandırdığı **oğurluq iş** ("uğurlu iş") ifadəsini biz "xoşbəxtlik gətirən, yaxşılıq bəxş edən, xeyir gətirən iş" ifadəsinin yerində istifadə edirik. **Uğurlu əşya, uğurlu uşaq, uğurlu ev** kimi deyimlərimizdə də eyni məna vardır.

Uğur kəlməsi dilimizdə **padşah uğrunda, din uğrunda, vətən uğrunda** və s. ifadələrində olduğu kimi, "yol" və "xidmət" mənalarını da qazanmışdır. Səfərə çıxan adama **“uğurun açıq olsun”** deyildiyi zaman **uğur** başqa bir aspektdən yanaşanda “yol" mənasına da gəlib çıxır.

Bütün bu şərhlərdən çıxaracağımız nəticə: **uğur** bir əşyanın, bir insanın, bir heyvanın, bir işin, bir zamanın, bir yerin mayasında mövcud olan yaxşılıq, xoşbəxtlik, bərəkət,

asanlıq – bir sözlə, **müsbət xüsusiyyət və gücdür.** Xalq inancları və fəaliyyətindəki bütün davranışlar, zamanlar, istiqamətlər, ətrafındakı əşyalar, adamlar, heyvanlar **uğurlu və uğursuz** deyə qruplaşdırılmışdır. Uğurlu olanlara üstünlük vermək, uğursuzluq gətirənlərdən qaçmaq və ya onların gətirə biləcəyi zərərlərdən can qurtarmağın üsullarını müşahidə etmək, müəyyənləşdirmək lazımdır[44].

İnanışlar bölümündə yeri gəldikcə yuxarıda sadalananlardan bir çoxuna münasibət bildirmişik. Aşağıda təbiət qanunlarına təsir etmək gücünə malik olan fəaliyyət növlərini tədqiq edərkən də tez-tez uğurlu və uğursuz şeylərdən, davranışlardan və s. danışılacağı üçün uğur anlayışı üzərində az dayanmağın faydalı olduğunu düşündük.

**32-ci sual: "Bərəkət" sözünün "uğur" sözündən fərqli bir mənası vardırmı?**

Mənşəcə ərəb sözü olan bərəkətin mənasını bir neçə ifadə əsasında tədqiq edək: "torpağı bərəkətli", "bərəkətli yağmur-

---

44 Prof. Mirəli Seyidov "Uğur" mifonimi ilə bağlı tədqiqat aparmış, bu sözü bir neçə formasiyanın mədəni, ictimai həyatına şahid olmuş və bundan dolayı çoxlu mənalar kəsb etmiş konsept kimi şərh etmişdir. Alimə görə, "uğur"//"oğur" sözü əski mifik görüşlərlə əlaqədardır və əski Beynənnəhreyn və Kiçik Asiyada yaşayan bir çox xalqlarda, Azərbaycan və eləcə də türkdilli xalqların bəzilərində **yol, yer tanrısının** adıdır. "Uğur" sözü qədim dünyanın bir çox əski xalqları ilə bağlı olmuş, tarixi, siyasi, mifik görüşlər zəminində məna dəyişmələrinə, çarpazlaşmalarına məruz qalmışdır: "Uğur" sözü yol tanrısının adı olduğundan zaman keçdikcə, görüşlər dəyişdikcə tanrılığı unudulmuş və "yol" sözünün sinoniminə çevrilmişdir (**Bax: Seyidov M. "Uğur" sözü haqqında bəzi qeydlər // Az. SSR EA Xəbərləri (İctimai elmlər seriyası), 1962, № 4, s. 147-159**). "Uğur (Oğur) yol tanrısının adıdır. Əski zamanlardan azərbaycanlılar, eləcə də bəzi türkdilli xalqlar yola çıxarkən, keçmiş inamla əlaqədar olaraq, Uğuru – yol tanrısını köməyə çağırırmışlar" (**Bax: Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, s. 236) –** ***Tərcüməçi.***

lar", "bərəkətli bir il" ifadələrində **bərəkət**, "torpaqdan əldə edilən məhsullarda bolluq" mənasındadır. Bərəkətli torpaq – çox məhsul verən torpaq, bərəkətli yağışlar – vaxtında və yetəri qədər yağdığı üçün məhsulların bol olmasını təmin edən yağışlar, bərəkətli bir il – məhsulun bol olduğu il deməkdir.

"Bərəkət versin" diləyi verilən bir şeyin əvəzində alan şəxsin verən şəxsə dediyi sözdür: "Allah cibinə, malına bərəkət versin", yəni "pulunu, malını artırsın". Yemək yeyən adamlara rast gəlinən zaman deyilən "bərəkətli olsun" sözünün əsl mənası da "yeməyiniz heç vaxt əskik olmasın", "yemək sarıdan yoxluq çəkməyin" deməkdir. Belə başa düşülür ki, **bərəkət** kəlməsi, bir də yaxşı, faydalı şeylərin, mal, pul və qida ehtiyatının artması mənasını verir.

Təbiət qanunlarına təsir etmək üçün görülən işlərin bir çoxu bərəkəti təmin etmək məqsədini güdür. Ona görə də bu sözə o cür işlərdə tez-tez rast gəlinir. Bunlara bir-iki misal verək:

- Məhsulun bərəkətli olmağı üçün, toxumu səpməzdən əvvəl dəstəmaz alıb iki rükət namaz qılırlar. Sonra: "Qurdnan, quşnan, dostnan, tanışnan yeməyi nəsib eylə" deyərək toxumu səpirlər (Yazılı-Qaya / Afyon).
- Yayda buğda məhsulu tarladan gələndə dərhal üyüdülür, yoğurulur, sonra halqa formasında çörək bişirilir və küçəki bulaq başında qoyurlar: bunu edən adamın evində bərəkət su yerinə axır (Balıkesir).

Ən əsaslı və geniş yayılmış inanclardan biri Xızırın bərəkət təminedici gücü ilə bağlıdır. Onun bu xüsusiyyəti haqqında irəlidə Xıdırəlləz günü mərasimləri ilə əlaqədar danışarkən məlumat verəcəyik. Təbii ki, bütün övliyalar da bərəkət gətirmək bacarığına sahibdirlər. "Ocaq"lardan da (bax: 41-ci sual) bərəkət umulur. Nikolaidesin kitabından (**Traditions populairesde İ~Asie Mincure,** s. 336) öyrənirik ki, onun doğulduğu Kayseri bölgəsində "ocaq sahibi" olan bir dəyirman-

çı var imiş və bu adamın dəyirmanında üyüdülən unun bərəkətli olacağına inanılırmış.

Bərəkəti təmin etmək üçün deyilməyi lazım olan sözlər (bax: 28-ci sual) haqqında, həmçinin ərzaq məhsullarının bərəkətini qaçırmamaq üçün onları cinlərdən necə qorumaq barəsində (bax: 26-cı sual) yuxarıda danışmışıq.

**33-cü sual: "Yozum" sözündən nə başa düşürük? Hansı hadisələr və davranışlar necə yozulur?**

Yorum türkçə **yo-** kökündən törəmiş **yor** felinin isim forması olub, "hadisələrdə və əşyalarda gizlənən və gələcəkdən xəbər verə bilən işarələri açıqlamaq" deməkdir. "**Kitabi-Dədə Qorqud"da** rastlaşdığımız və xoş diləkləri sadalamasından meydana gəlmiş və bir növ, "alqış" mənasına gələn **yom**, əski türk dilində ağı mərasimi ilə bağlı, orada oxunan ağlamalı sözlərin adlandırıldığı **yog**, Türkiyədən kənardakı bəzi türk dillərində nağıl, tapmaca mənalarında istifadə olunan **yomak, comak** sözləri də eyni kökdəndir. **Yormaq** felinə bugünkü mənasında Mahmud Kaşğarlının kitabında da rast gəlinir. Sözün feil forması bugünkü günümüzdə ən çox yuxular üçün istifadə olunur. Bu sözün ərəbcə qarşılığı **təbir**dir. Bugün daha geniş bir mənada yazılı dilə qəbul edilmiş **yorum** isə təfsir mənasındadır. Sözün fel forması xalq dilində yuxulardan başqa, əvvəlcədən görünən hər hansı bir işarədən gələcək üçün yaxşı və ya pis bir nəticə verən məna çıxarmaq mənasına da gəlir: bir şeyi "yaxşıya yozmaq", yaxud "pisə yozmaq".

**Yozumun** burada üzərində dayanmaq istədiyimiz mənası, qısacası, "insanın heç bir müdaxiləsi olmadan öz-özündən yaranan bir vəziyyət, bir hadisə, bir görüntüyə gələcək üçün müsbət və ya mənfi məna vermə" hərəkətidir.

Yozun vermək yozumlanacaq hadisə və əşyanın xüsusiyyətindən asılı olaraq, ya hər bir kəsin görə biləcəyi işdir, ya da

burada mütləq bir “mütəxəssis”ə ehtiyac vardır. Hər yerdə işlək inanclar halını almış bir sıra məsələlər vardır ki, bunları mütəxəssisə müraciət etmədən hər kəs yoza bilər. Amma çox rast gəlinməyən, mənası ziddiyyətli olan hadisələrdə işin ustası olan “yozumçu”ya müraciət edilir. Hər iki növdən olan yozumları hər tipə bir neçə misal verməklə aşağıdakı kimi qruplaşdıra bilərik:

**1. Cansız əşyalarla bağlı yozumlar:**

– şüşədən düzəlmiş bir əşyanın qəflətən qırılmasından xeyirli bir şey olacağı;

– neft lampası yandığı zaman onun şüşəsinin çatlamasından bir yerdən pul gələcəyi (Ankara);

– ləyəndə və ya hər hansı bir qabda mayalı xəmirin daşmasından qonaq gələcəyi (İstanbul);

– ocaqda və ya sobada küllərin topa-topa yığılmasından qışda çox qar yağacağı;

– sobanı tez alışdırmağı bacaranın nişanlısının gözəl olacağı;

– ocaqda yanan kötükdən çınqıların[45] sıçramasından havaların gözəl olacağı mənaları çıxarılır.

Alovun cürbəcür hallarından nəticələr çıxarmaq türk xalqları arasında geniş yayılmış bir ənənədir. Yakutlar od ətrafında oturan adamın üstünə sıçrayan çınqını uğurlu hesab edir; həmin şəxs onu götürüb, öpərək başına qoyur. Türklərin yanar odun alovundakı rənglərdən müəyyən yozumlar çıxardıqlarına onların inanc və törənlərindən söz açan bir ərəb mənbəyində də işarə olunmuşdur.

**2. Ay, günəş və ulduzlarla bağlı yozumlar:**

Daha əvvəl başqa səbəblərlə bağlı adını çəkdiyimiz, XVI əsrdən qalma “Atalar sözü kitabı”ndakı “Ay bütövlənsə – ağılını böyüt, gün bütövlənsə – qoyununu güd” ifadəsi, yə-

---

[45] Çınqı – tonqaldakı odundan sıçrayan odlu qırıntılar – **Tərcüməçi**

qin ki, Ayın və Günəşin ətrafında görünən halənin yozumuna əsaslanır. Ayın bütövlənməsi qışın uzun və sərt keçəcəyinə, Günəşin bütövlənməsi isə havaların yaxşı keçəcəyinə, qoyunları otarmağa aparmaqdan qorxmaq lazım gəlmədiyinə işarə hesab olunur. Ulduzun axmağının birinin öldüyü, quyruqlu ulduzun görünməsinin isə həmin ildə ya böyük bir müharibə, ya da bir fəlakət olacağı mənasını verməsi haqqında bundan əvvəl (6-cı sual) söz açmışdıq.

**2. Havanın müxtəlif əlamətləri**ndən səmada göy-qurşağının meydana gəlməsi və yağış yağarkən günəşin parıldamağı ilə əlaqədar inanclar arasında da gələcəyə dair hadisələrin yozumlanmasına rast gəlirik. Bunların arasında uğursuzluqlar da müşahidə olunur. Məsələn: həmin il vəfat edəcək adamların cəhənnəmə gedəcəyi; ilin bərəkətli olacağı; həmin il qıtlıq olacağı; qışın çox çəkəcəyi; həmin il doğulan uşaqların çoxunun qız olacağı; düşmənlərin məğlub olacağı və sülhə nail olunacağı və s. kimi. Fəxrəddin Qırzıoğlu ("Türk folkloruna dair araşdırmalar" 234 səh., 1969-cu ilin yanvarı) bir yazısında 1713 (hicri 1125) tarixli bir əlyazmada əsli Qırxlarəlinin Babaeski bölgəsindən olan yazıçının göy qurşağının rənglərinin necə yozulması haqqında verdiyi məlumatları təqdim etmişdir:

- Göy qurşağının yaşıl rəngi altda olarsa – yay günləri gözəl olar; sarısı altda olarsa – xəstəliklər çox zərər verər, amma sonda salamatlıq olar; qızılı rəngi altda olarsa – müharibə baş verər; mavi rəngi altda olarsa – qış sərt keçər; çəhrayı rəngi altda olarsa – epidemiyalar olar; boz rəngi altda olarsa – o il yağışlı keçər və sular daşaraq gəmiləri qərq edər; qırmızısı altda olarsa – əgər yazdırsa, quraqlıq, qış günləri yaxındırsa, şaxta olar...

**4. Heyvanların hərəkətlərinə əsaslanan yozumlara** bir nümunəni XVI əsrdəki bir osmanlı müəllifi Lamii Çələbinin **"Lətaif"** kitabında oxuyuruq: Bir dəyirmançı öz eşşəyinin quyruğunu qaldıraraq xayalarını qarnına tərəf çəkməsin-

dən havanın yağışlı olacağı qənaətinə gələrmiş. Ovucun içərisinə qonan bir Fatma nənə böcəyinin nəğmə-təkərləməsi oxunduqdan sonra uçub-uçmadığı əsasında istəyin həyata keçib-keçməyəcəyi qənaətini çıxartması da bu tipdən olan yozumlara başqa bir misaldır.

Yenə heyvanlar vasitəsi ilə cürbəcür işlərdə yozumlar aparılmasına bir neçə misal verək:

– Toroslarda yaşayan Taxtaçıların fikrincə, maralların əkilmiş yerdən keçməsi oradan əldə ediləcək məhsulun bərəkətli olacağına dair işarədir.

– Yolda canavara rast gəlmək işlərin düz gətirəcəyi, dovşanla qarşılaşmaq isə uğursuzluq olacağı mənasına gəlir.

– İtin ulamağı ölümdən xəbər verir. Hələ Göytürklər dövründə belə bir inanc mövcud idi. X əsrdə Volqa ətrafında yaşayan bulqarlar isə, əksinə, itin ulamağını uğur və bərəkətin müjdəçisi hesab edirdilər.

– Bayquş oxuduğu zaman bu hər hansı bir fəlakətdən xəbər verir.

– Mahmud Kaşğarlının kitabında onun zamanında qartalın insanın üzünə qarşı oxumasının ölümdən qabaq onun xəbərinin gəlməsi kimi yozulduğunu müşahidə edirik.

– Bir rəvayətə görə, Atilla leyləklərin bir şəhəri tərk edib getməyində xeyirli bir əlamət görərək, mühasirəni davam etdirmək qərarını vermişdir.

**5. Uşaqların müxtəlif davranışlarına verilən yozumlar:**

– Uşaq iməklədiyi zaman "evə qonaq gələcək" deyilir (İstanbul).

Uşaq günahsız və məsum bir varlıqdır. Onun cürbəcür sehrli işlərdə də məhz bu xüsusiyyəti əsasında "medium" (vasitəçi) kimi istifadə olunduğunu sonra da müşahidə edəcəyik.

**6. Bədən üzvlərindəki əlamətlərin mənaları:**

– Qulağın cingildəməsi kiminsə sənin barəndə danışdığına işarədir.

– Qulağın və ya üzün hər hansı bir yerinin heç bir şey olmadığı halda qızarması birinin sənin haqqında qeybət etməsinə işarədir.

– Bir söhbət əsnasında birdən səssizliyin çökməsini məclisə şeytanın gəlməsi kimi yozurlar.

– Bədənin birdən-birə ürpəşməsi Əzrailin yoxlaması kimi yozulur.

Bədənin hər hansı bir yerində çox və sürətli titrəmələr ən çox yozulan hadisədir. Buna bəzən **səyrik**[46] də deyirlər. Yuxarıda (8-ci sual) bu məsələ barəsində kifayət qədər söz açmışdıq. Səyrimələrin üzə çıxdıqları yerə görə mənalandıran kitablar yazılmış olsa da, xalq ənənəsində haranın səyriməyinin, pis və ya yaxşı nəyə işarə etməsinin adamdan-adama dəyişik olması haqqında inanışlar vardır. Məsələn, bəzisinə "sağ gözünün səyriməsi"nin, bəzisinə də "sol gözünün səyriməsi"nin düşərli olması ən çox eşidilən yozumlardandır.

**7. Yuxuların yozulması** da bu mövzuda kitablar yazılası dərəcədə önəmli hesab olunmuşdur. Hər kəsin öz yuxusunu özü yozması ənənə olmaqla bərabər, maraqlananlar bəzi ziddiyyətli, qarışıq, ya da ənənəvi qaydalarla yozula bilinməyən yuxular üçün bir “mütəxəssisə" müraciət edirlər. Qədim zamanlarda bu, yəqin ki, ancaq vergili mütəxəssislərin işi imiş. "**Kitabi-Dədə Qorqud**"dakı hekayələrdən birində bu ənənənin xatırlamasına rast gəlirik. Salur Qazan yuxusunu özü yoza bilmir, qardaşı Qaragünəyə müraciət edir. O da yuxunun bəzi hadisələrinə izah verə bilir, amma yoza bilmədiyi məqamlar da vardır: "Qalanını yoza bilmirəm, Tanrı yozsun", – deyə cavab verir.

---

[46] Səyrimə – ***Tərcüməçi***

Yuxarıda öz-özündən, hər hansı bir təsadüf nəticəsində üzə çıxan hadisələrdən misallar verdik. Bir də gələcəyi öyrənmək məqsədilə bir çox işlərə gördükdən sonra üzə çıxan hadisələri izah etmə üsulları da vardır. Xalq ənənəsində bunların hamısının **niyyət** sözü ilə göstərilməsi mümkündür. Niyyətli yozumlar gələcəyi xəbər verməkdə bir az daha inkişaf etmiş pillə hesab edilir. Buna yuxularla bağlı olanda **istixarə** deyilir: gələcəklə əlaqədar hər hansı bir problemə dair öncədən bir məlumat almaq istəyən adam müəyyən bir gecə görəcəyi yuxudan bunu gözlədiyini niyyət edərək, bir neçə qayda-qanuna əməl edir və "istixarəyə yatır". Ərəbcə olan bu ifadə "xeyir gözləmək" mənasına gəlir. Xıdırəlləz gecəsi istixarə niyyəti ilə yatmaq gənc qızlar arasında geniş yayılmış bir ənənədir: həmin gecə görə biləcəkləri yuxuya əsasən, o il ərzində evlənib-evlənməyəcəkləri, kimə ərə gedəcəkləri barəsində yozumlar edirlər. Niyyət Quyusuna baxaraq gələcəkdən, ya da uzaq bir yerdə baş verənlərdən müsbət və ya mənfi xəbər öyrənmək də eyni cür yozum üsullarındandır. Bunların ən sadələrindən biri, yuxarıda haqqında danışdığımız kimi, əslində bir oyuna çevrilmiş olan Fatma nənə böcəyini uçurtmaq hərəkətidir.

### 34-cü sual: Fal nədir və hansı növləri vardır?

Fal geniş mənada bundan əvvəlki sualın izahında verdiyimiz yozum üsullarını da əhatə edir. Bu cəhətdən, müjdə böcəyini uçurtma, niyyət quyusuna baxma, yuxu yozma və s. kimi işlər də, bir növ, fal hesab edilə bilər. Falı daha dar və geniş yayılmış mənasında xüsusi üsulları, vasitələri və mütəxəssisləri olan "yozum elmi" kimi tərif çərçivəsinə sala bilərik. İnsan öz gələcəyini, doğmalarından birinin səhhətini, uzaqda olan birinin halını öyrənmək, oğurlatdırdığı və ya itirdiyi dəyərli bir əşyanı tapmaq qayğısı kimi mühüm hallarda özünün

imkanları çərçivəsində əldə edə bilmədiyi məlumatı təmin etmək üçün falçıya (baxıcıya) müraciət edir.

Bu mənada "fal"lar (baxıcılıqlar) texnikasına, peşəkarlıq xüsusiyyətlərinə, istifadə vasitələrinə, ya da yozulmağı gözlənən hadisələrə görə müxtəlif formalarda qruplaşdırıla bilər. Biz Türkiyədə ən keçərli fal növlərini digər xüsusiyyətlərini də qısaca nəzərə almaqla vasitələrinə görə, təsnif edəcəyik:

**1. Su ilə falabaxma.** Baxıcı bir qabın içərisinə tökülmüş suya baxır və ya başqa birisinə baxdırır. Bu, daha çox "medium" bir uşaq olur. Bu iş üçün deyilməyi lazım olan "dəvət" xarakterli sözlərini təkrarlayaraq cinləri çağırır, onlardan öyrənmək istədiyi şeyləri soruşur: əgər hər hansı bir xəstəlikdən söhbət gedirsə, xəstəliyin səbəbini, müalicə üsulunu və s.., yaxud uzaqda olan, haqqında heç xəbər alına bilməyən şəxslərin vəziyyətinə dair məlumatlar, ya da keçmişlə, gələcəklə əlaqədar bilinməsi arzulanan başqa cür məsələlər barəsində olan məlumatlar. Baxıcı suallarının cavablarını suyun üzündə əmələ gələn xətlər, yazılar, obrazlar vasitəsi ilə əldə etdiyini deyir. Bu üsuldan istifadə edən baxıcılara cindar və ya cinçi də deyirlər. Cindarlar kişi və ya qadın da ola bilərlər. Niyyət quyusu eyni fal texnikasının vasitəçiyə ehtiyac olmayan bir növü hesab edilir.

**2. Güzgü ilə falabaxma.** Şamanların itən əşyalardan xəbər almaq üçün istifadə etdikləri vəsaitlərdən biri də güzgüdür. Bunu Türkiyə falçıları, bildiyimiz qədəri ilə, suyun düz və daha aydın üzü kimi istifadə edirlər. Yəni baxma qaydaları hər iki üsulda eynidir. Cindar çağırdığı cinlərə güzgüdə görmək istədiyi adamları və hadisələri əks etdirməyi buyurur. İstanbulda keçən əsrin sonları ilə əsrimizin əvvəllərində bu üsulla işləyən, əsli Rumelidən olan bir baxıcı qadın var imiş (bax: "İstanbul Ansiklopedisi", **baxıcılar** maddəsi).

**3. Qurğuşun, köz və tüstü ilə falabaxma.** Bu üç üsul da cinlərlə işləmək növünə daxildir: baxıcı çağırdığı cinlərdən is-

tədiyi məlumatları əldə edir. Tüstüdə də suda və güzgüdə olduğu kimi, insanların üzlərinin, bədənlərinin əks olunduğuna, baxıcının bunları gördüyünə inanırlar. Qurğuşun və közlə baxmaq texnikasında isə bu maddələr, yəni köz və ya əridilimiş qurğuşun suya atıldıqda onların soyuyaraq aldıqları formalar yozulur. Eyni zamanda, o maddələrin suya atılması ilə çöldə və ya xəstənin üstündə dayanan, xəstəliyin səbəbi sayılan pis varlıqları qorxutmaq, qaçırmaq, hürkütmək məqsədi də güdülür. Deməli, həm fal, həm də xəstəliyi müalicə etmə işi bir arada görülür.

Tüstünün köməyi ilə xəstəliyin səbəbini kəşf etmək üsullarının ən məşhur mütəxəssisləri ərəb adı ilə göstərilən zəncilər idi və bunların da arasında ən çox qadınlar idi. Xəstəliyin səbəbini öyrənmək və xəstəliyi müalicə etmək kifayət qədər uzun və qarışıq əməliyyatları zəruri edirdi. Qodya adını alan baxıcı və onun köməkçiləri tüstülənmənin sonunda ekstaza gəlir, "boruları", ya da "ataları tutur", evdən çölə: küçələrə, çəmənliklərə, çöllərə çıxaraq uzun bir vaxt ərzində gəzirərək cinləri yığır, sonra tüstünün başına yığışaraq cinlərdən arzu etdikləri şeyləri soruşub öyrənərdilər. Xəstə birinin yaxşılaşması arzulandığına görə xəstə də tüstüyə verilirdi. Qodyaların tüstüyə verdikləri xəstənin özü də qodya keyfiyyətini, yəni xəstəliklərin səbəbini tüstü yolu ilə öyrənmə və xəstəni sağaltmaq gücünü qazanmış olurdu. Tüstü yolu ilə cinləri çağırmaq sənəti zəncilərə məxsus deyildir. "Ocaq" olma, yəni ya ata-anadan, ya da yad adamdan "əl alma" əməliyyatı və mərasimi nəticəsində qazanılan bir bacarıqdır.

Kürək sümüyü, qəhvə, kart, paxla falları xəstəliyi götürmə ilə bağlı deyildir. Baxıcı bu texnikalardan baxdıranın, sadəcə, “hal”ı, ya da gələcəyi haqqında öyrənmək məqsədi ilə istifadə edir.

**4. Kürək sümüyü ilə falabaxma.** Bu fal İstanbulda məşhur deyildir. Buna Anadolunun qoyunçuluq mühitlərində rast

gəlinir. Türk çobanları kimi, Rum və Arnavut çobanlarının, Qafqaz əsilli çərkəzlərin və Anadolu kürdlərinin də bu texnikadan istifadə etdiklərini göstərən məlumatlar toplanmışdır. Kürək sümüyü ilə fala belə baxılır: müəyyən üsullarla çıxarılan kürək sümüyü ətdən təmizlənir, odda qızdırılır və baxıcı bu zaman sümüyün üzərində meydana gələn cizgilər əsasında yozum verir. Bu texnika Orta Asiya türkləri arasında yayılmışdır. Bunu başqa millətlər də bilir və tətbiq edir. Bir çox ərəbdilli risalələrdə bu falın qaydaları yazılıb nəşr edilmişdir.

**5. Qəhvə falında** falına baxdırmaq istəyən şəxs qəhvəsini içdikdən sonra fincanı tərsinə qapayıb soyumasını gözləyir. Baxıcı fincanın dibindəki çöküntünün aldığı şəkillər əsasında yozum verir.

**6. Kartla falabaxma**. Hər bir kart bir şəxs (fala baxdıran, onun yaxınları, dostları, düşmənləri və s.) və ya bir durum (xəstəlik, sıxıntı, sevinc və s.), gözlənilən bir şey (pul, məktub və s.) kimi düşünülmüşdür. Baxıcı kartları qarışdırdıqdan sonra onları açıq üzünə düzür, məlum mənaları olan kartların yan-yana gəlib-gəlmədikləri, yaxın-uzaqlıqları əsasında yozumlar edir.

**7. Paxla ilə falabaxma**, əsasən, qaraçı qadınların istifadə etdiyi üsuldur. Bu fala qırx bir dənə quru paxlanın arasına qarışdırılmış bir kömür, bir qənd, bir qaya duzu parçası, bir kiçik pul ilə baxılır. Paxlalar ilə o biri şeylərin hər biri bir adamın nişanəsi sayılır. Baxıcı bunları üç dəfə yerə atır və bunların düzümünə (yanaşılığına, yaxınlığına, uzaqlığına) əsasən yozumlar söyləyir. Lamii Çələbinin yuxarıda adı çəkilən kitabındakı eyni hekayədə paxla falı da onun dövründə yayğın bir baxıçılıq texnikası kimi xatırlanmışdır. Lamiinin verdiyi bilgiyə görə, paxla əvəzinə noxud, ya da arpa dənələri də istifadə oluna bilirmiş.

**35-ci sual: Nəzər nə deməkdir? Kimin, kimə, nəyə nəzəri dəyə bilər?**

Ərəb mənşəli **nəzər** sözü baxış mənasında olub, türk dilində bəzi insanların baxışlarındakı zərərli güc və bu xüsusiyyəti vasitəsi ilə bir adama, bir heyvana, ya da bir əşyaya baxmaqla həmin canlıda xəstəlik, şikəstlik, ölüm, əşyanın bir yerinin qırılmağı, sınma kimi lazımsız, bir təsirin əmələ gəlməsi mənasını qazanmışdır. Hər hansı bir ziyanlı hadisə belə bir səbəblə əlaqələndirildiyi zaman "nəzərə gəldi" (göz dəydi) ifadəsi istifadə olunur. Məsələn, sapsağlam bir uşaq birdən-birə xəstələnəndə, bir ailənin içərisində və ya iki dost arasında yaxşı münasibətlər pozulanda... "Bəd nəzərə gəldi" ifadəsi də eyni mənaya gəlib çıxır. Belə hesab edilir ki, son dərəcə açıq mavi gözlərdə bəd nəzər var. Həqiqətlərə zidd olsa da, hər halda, bu inanışa əsaslanaraq mavi gözlü insanların pis niyyətli, paxıl, başqalarına zərər verməkdən xoşu gələn şəxslər olduğuna inanılır. Paxıllıq hissinin nəzərə səbəb olması inancı da geniş yayılmışdır. Nəzərə gələn ən əlverişli adamlar uşaqlar və gözəllikləri, hünərləri ilə hərkəsdə heyranlıq oyatmış şəxslərdir. Çünki uşaqlar zəif məxluqlardır, təsirə tez məruz qalırlar. Gözəllər, hünərlilər, xoşbəxtlər də insanların paxıllıq hisslərini oyadırlar. Bu pis hislər bəd nəzər vasitəsilə hədəfə təsir edib, ona zərər vurur.

Nəzərə gəlmə təkcə insanlara aid deyildir, mal, mülk, heyvanlar (xüsusilə at, inək kimi böyük heyvanlar), müxtəlif əşyalar (xüsusilə asan qırıla, xarab ola bilən əşyalar), evlər də nəzərə gələ bilir. Durduğu yerdə xəstələnən və ya axsayan at, südü azalan inək, bol gözlənildiyi yerdə qıt gələn illik məhsul və s. üçün də “göz dəydi”, “nəzərə gəldi” deyilməsi təbii haldır. Hətta yuxarıda toxunduğumuz ailədaxili münasibətlər, dostlar arasındakı sevgi əlaqələri, uğurla həyata keçirilən iş də bəd nəzərlə pozula bilir. Xalq arasında bəzi adamların qeyri-

adi dərəcədə və səbəbi bilinməyən nəzər gücünə malik olduğuna inanılır. Nəzəri ilə bir atı yüz, iki yüz, üç yüz metrədən "çatlada biləcəyi" haqqında mərc edən və bunu əməli şəkildə sübut edən adamlar haqqında əhvalatlar da danışırlar. Nəzər paxıllıq kimi mənfi hislərdən yarana bildiyi kimi, xüsusilə insanın öz doğmalarına həddindən artıq heyranlıq və sevgi duyğularından da əmələ gələ bilir. Belə nəzərə ən çox uşaqlar məruz qalırlar. Ona görə də ata-ananın, atanın öz uşağına həddən artıq vurğunluğu yaxşı şey hesab olunmur.

**36-cı sual: Nəzərdən necə qorunmaq olar?**

Qorunmağın ağıla ilk gələn çarəsi zərər görmə ehtimalı olan adamı "yaman göz"dən uzaq tutmaqdır. Bu qaydanın həddən artıq tətbiq olunmasına dair nümunələrə nağıllarda rast gəlirik. Məsələn, padşahın övladı (çox zaman qız) o qədər gözəldir ki, göz dəyməyindən qorxurlar. Uşaq illər boyu heç kimə göstərilmədən bir sarayda tək başına yaşamaq məcburiyyətində qalır... Çox sağlam və gözəl uşaqları hətta qırxını tökdükdən sonra da mümkün qədər bəd nəzər adamlara göstərməməyə, onlardan uzaq tutmağa çalışırlar.

Uşaqların doğmalarının sevgi və heyranlıq baxışlarından, çox əzizlənmələrindən gözə gəlməsi inancına əsaslanıb, onları gözəl sözlər əvəzinə, "eybəcər", "çirkin", "meymun", "murdar"... kimi sözlərlə əzizləməyi məsləhət görürlər. Arada bir "maşallah" deməli, "tfu-tfu" tipli tüpürməyi təqlid edən sözlər əlavə etmək lazımdır. Bu cür söz və hərəkətlərlə pis gözlərin təsirini aradan aparacaqlarına inanırlar. "Elem tere fiş, kem gözlere şiş" sözləri kimi mənaları kifayət qədər aydın olan təhdidedici sözlər[47] demək də bəd gözdən qorunmağın yollarından biridir.

[47] Ovsun/əfsun – ***Tərcüməçi***

Uşaqları göz dəyməsindən qorumağın ən yaxşı yollarından biri **nəzərlik**dir. Bu əşya, əksər hallarda, bir göy muncuq olur. Bəzi böyük göz muncuqlarının üstündə göz şəkli də olur. Göz muncuqlarının daha inkişaf etmiş formaları qızıldan, ya da gümüşdən hazırlanmış **maşallah** yazılarıdır. Bunlar eyni vaxtda bəzək əşyası funksiyasını da daşıyırlar. Ən sadə, düzəldilib-taxılması ən asan olanlar bunlardır: kiçik bir zəy parçası, çitlembik ağacının qabığı, yaşıl qəhvə dənəsi, qurd dişi, balaca tısbağa balasının, ya da başqa dəniz heyvanlarının sərt çanaqları və s.

Göz dəymənin nəticəsində xəstələnən, zəifləyən uşaq və ya böyük bu işi bacaranlar tərəfindən dualanaraq-üflənir. Nəzərin zərərlərini yoxa çıxartmağın ən təsirli üsullarından biri də tüstüyəvermə və ya qurğuşun tökdürməkdir ki, bu məsələlərə də yuxarıda toxunmuşuq. Yeri gəldikcə onlardan yenə bəhs ediləcək. Üzərlik yandırmaq da tüstü ilə bağlı olan qrupa daxildir: bu, nəzərə qarşı tez-tez istifadə olunan üsuldur. Üzərlik toxumları oda atılır, üzərliyin tüstüsü aşağıdakı ovsun-təkərləməni oxuya-oxuya nəzər dəymiş, ya da nəzərdən qorunmaq istəyən adama iylədilir:

Üzərliksən, havasan,
Yetmiş iki dərdə davasan,
Gəlmiş, gələcək bəlanı sovasan.

*(Qaziantep)*

### 37-ci sual: "Cadu"[48] anlayışının içərisinə nələr daxildir?

Yaxşı və ya pis bir nəticə əldə etmək üçün təbiət qüvvələrinə, qayda- qanunlarına təsir etmək və hadisələrin təbii axarını dəyişmək üçün görülən tədbirlərin hamısına birlikdə **cadu** deyirik. Belə olanda sözün məna dairəsi genişlənir. Deyim fransız dilindəki **magie** kəlməsinin elmi dildəki istifadə-

---

[48] Türkcəsi **"büyü"** – ***Tərcüməçi***

sininin qarşılığıdır. Xalqın dilində **cadu** daha dar bir sahədə digər işlər üçün də istifadə edilir: birini sevdiyi adamdan soyutmaq, düşmənini xəstə yatağına salmaq və ya öldürmək üçün edilən "bəd cadu", bir adamda arvadına qarşı sevgi oyatmaq, ya da evinə bağlılığı təmin etmək üçün edilən "xeyirli cadu" (məhəbbət tilsimi) və s. Bu cür təsiretmə tədbirlərinin başqa tipləri xalq adət-ənənələrində aid olduqları yerlərə, şərtlərə, məqsədlərinə və mütəxəssislərinin olub-olmadığına görə müxtəlif adlarla adlandırılır. Bu sözü elmi kəlmə kimi istifadə etsək, yuxarıda 31-ci sualdan bəri, aşağıda da 55-ci suala qədər haqqında danışılan hərəkətlər və əməllər, hətta bu kitabın başqa yerlərindəki bir çox mövzular "cadu" xüsusiyyətini özündə ehtiva edən faktlara əsaslanır. Biz üzərində dayandığımız 37-ci sualda və bundan sonrakı daha iki sualda **cadu** növlərinin geniş mənada olanlarını deyil, daha dar mənaya uyğun gələnlərini nəzərdən keçirəcəyik.

### 38-ci sual: Caduların hansı növləri vardır?

Bu suala cavab verə bilmək üçün nəşr olunmuş cadu mətnlərini və təriflərini M.Xalid Bayrının **İstanbul folkloru** (İstanbul 1947, s. 160-176) kitabından seçmişik. M.H.Bayrı öz kitabında İstanbulda cadu işləri ilə məşğul olan şəxslərdən, yəni şifahi dildən topladığı məlumatlarla birgə, bu işlərin mütəxəssislərinin istifadə etməsi üçün yazılmış bir "risalə"dən 108 dənə "cadu resepti" təqdim etmişdir. Onların tədqiqatından çıxardığımız nəticə budur: Cadular, yuxarıda da qeyd etdiyimiz kimi, iki böyük qrupda toplanır: a) xeyirli cadular, b) bəd cadular.

**a) Xeyirli cadular.** Bunlarda əsas məqsəd əməliyyatın sonunda cadu edənin də, ondan təsirlənən şəxsin də "xeyrinə" bir nəticə əldə etməkdir. Nəticələrə görə xeyirli caduların aşağıdakı növləri vardır:

1. Arvadına, uşaqlarına qarşı laqeyd, gözü çöldə olan kişilərdə evlərinə bağlılıq yaratmaq üçün edilənlər;

2. Arvad-uşağı ilə sərt rəftar edən ataları yumşaltmaq üçün edilənlər;

3. Sevgisini qazanmaq istədiyi şəxsdə bu hissi oyatmaq üçün edilənlər. Bu, sevdiyindən qarşılıq görməyən kişi və qadının müraciəti etdiyi cadu növüdür.

4. Qürbətdə olan bir şəxsin tez gəlişini tezləşdirmək üçün edilənlər.

5. İtirilmiş əşyanı, xüsusilə cəvahirət kimi dəyərli şeyləri tapmaq üçün edilənlər.

6. Südü kəsilən ananın südünü geri gətirə bilmək üçün edilənlər;

7. "Hər arzu üçün" keçərli olanlar;

8. Məhkəmədə işi olan adamın işi udmağı üçün edilənlər. Bu axırıncı cadu əgər cadu etdirmək istəyən şəxs haqsızdırsa və cadu öz təsirini göstərdiyi təqdirdə bir haqsızlıq olacaqsa, "bəd cadular" sinfinə daxil edilməlidir. Bəd cadulara aid başqa nümunələrdə də müşahidə edəcəyimiz kimi, bəzi caduların "ikili dəyər" daşıdığını unutmamalıyıq.

9. Bəd caduların təsirlərini pozmaq üçün edilənlər.

**b) Bəd cadular.** Bunların bir qismi cadu edənin ona müraciət edənin pis niyyətli olduğunu bilə-bilə etdiyi cadulardır. Xalq arasında bu cür caduları edənlərə heç də yaxşı baxılmır. Bu cür caduları cadugərlər etdiyi kimi, onları pis niyyətli insanlar əksərən özləri də edə bilirlər. Reseptləri ya eşidib-öyrənir, ya da bu işlər üçün tərtib olunmuş kitablardan əldə edirlər:

1. Dil-ağız bağlamaq üçün edilənlər. Cadu edilən şəxsin danışa bilməyəcək hala gələcəyinə inanırlar.

2. Yuxunun ərşə çəkilməsi üçün edilənlər. Nəticədə cadu pozulmadıqca cadu edilən şəxsin gözünə yuxu getməz.

3. Kişilik gücünün əlindən alınmağı üçün edilənlər. Geniş yayılmış olan bu əməldə əsas məqsəd bəyin gərdək gecəsi öz kişilik vəzifəsini yerinə yetirə bilməsidir.

Yenə bu qrupdakı caduların bir qismi müraciət edilən mütəxəssisin boynuna bir günah yükləməz; onun nəticənin pislik, haqsızlıq gətirib-gətirməyəcəyindən xəbəri olmur. Məsuliyyət bu cadunu elətdirənin üzərində qalır.

4. Düşmənin öhdəsindən gəlmək üçün edilənlər. Bu halda "düşmən" adlandırılan adam həqiqətən bir cəzaya layiqdirsə, onda bu cadunu "xeyirli" olanlar bölümünə aid etmək lazımdır.

5. Oğrunun tutulması üçün edilənlər. Cadu, şübhəsiz ki, oğruya pis və zərərli nəticə verəcəkdir. Ona görə də oğrunun mənafeyindən baxdıqda bəd cadudur. Amma cəmiyyətin mənafeyi, ələlxüsus malı oğurlanaraq zərərə düşmüş insanın mənafeyi baxımından xeyirli cadudur. .

6. Qaçmış qulunu, ya da yanında işləyən xidmətçi uşağı (uzaqda olan birini) gətirmək üçün edilənlər. Bu cür caduları da yuxarıdakılar kimi başa düşmək olar. Bu cür cadulara “yol bağlama” deyilir.

**39-cu sual: Caduların quruluşu necə olur? Onların məzmunu nədən ibarətdir?**

Hər bir cadunun tərifini verən "resept"də, təqribən, aşağıdakı məlumatlar olur:

**A.** Mövzusu (sevgi, soyutma və s.).

**B.** Təsir ediləcək şəxs (və ya şəxslər).

(Bu iki element barədə bundan əvvəlki sualda danışmışdıq.)

**B-1.** Təsir ediləcək şəxsin yerini tutan (heyvan, ya da əşya).

Misal kimi M.Xalid Bayrının kitabındakı bir "soyutma cadusu"nun mətnini verək: "İki adamı bir-birindən ayırmaq

arzu edildiyi zaman bazar günü ikindi və quşluq saatlarında iki parça çörəyi yazıb (yazılacaq şeylər göstərilmiş) birini itə, birini pişiyə yedirtməli". Göründüyü kimi, burada araları vurulmaq istənilən adamların yerini it ilə pişik tutur. Bunlar da ki bir-biri ilə yola getməyən heyvanlardır.

**C.** Təsiredici maddə (daşıyıcı kimi).

Yuxarıdakı mətndə üstünə yazılar yazılan "... iki parça çörək" təsir ediləcək elementə "gedən yolda" daşıyıcı rolunu həyata keçirir.

**C-1.** Təsir edə bilən maddənin özündə daşıdığı "sehrli ünsür". Bu, yuxarıdakı misaldakı "yazı"dır. Yazının növləri: hərflər, sözlər, əsma (Allahın adları), rəqəmlər, dualar, rəqəmlər, müxtəlif cürbəcür rəmzlər və ya rəsmlər, hər iki tərəfin (ya da təkcə bir tərəfin) adları. Bu yazının yerinə "söz və üfürmə" də ola bilər, dua, əsma, türk dilinə uyğunlaşdırılmış, təkərləmə xarakterli sözlər. Burada da təsir ediləcək şəxsin və ya qarşı tərəfin adları deyilir. Sözlərin və üfürməyin neçə dəfə olması da əvvəlcədən bilinir.

**C-2.** Təsir edəcək maddənin istifadə qaydaları: yemək, içmək, yandırmaq, təsir edilməsi planlaşdırılan şəxsin bir tərəfinə bağlamaq və ya tikmək, atmaq, tökmək, səpələmək, basdırmaq. İstifadə olunarkən həyata keçirilməsi lazım olan hərəkətlər, maddənin salındığı formalar: düyün, qırmaq, çözmək. Yuxarıdakı nümunədə təsir ediləcək maddəyə "yemə" hərəkəti tətbiq olunmuşdur.

**D.** Əməliyyatın vaxtı: gün, saat

Yuxarıdakı misalda əməliyyatın "bazar günü, quşluq və ikindi saatlarında edilməli olduğu" göstərilmişdir.

**E.** Əməliyyatın təkrar edilmə sayı.

Yuxarıdakı mətndən əməliyyatın iki dəfə edilməli olduğunu başa düşürük.

Yazılar bunlardır: rəqəmlər, hərflər (ərəb əlifbası ilə), rəmzlər, xətlər – bunların hamısının bir simvolik dəyəri vardır. Ərəb əlifbası ilə olan sözlər: Allahın adları (**əsma**), Məhəmməd Peyğəmbərin adları və sifətləri, ilk dörd xəlifənin adları, bütöv dualar: arzuları açıq-aydın ifadə edən, ya da arzuların məzmununa bağlı ərəbcə dualar, "Quran" ayələri, ya da onlardan götürülmüş hissələr. Yazıların içərisində izahı türkcə olanları da vardır: qaçmış xidmətçini, işçini geri qaytarmaq üçün istifadə olunacaq bir tilsimdə rəmzli sözlər və cizgilərin altında: "Başını açdım filan ibn-i filanın" yazılmışdır. "Filan ibn-i filan"ın yerində geri qayıtmağı istənilən adamın adı və atasının adı yazılır.

Daha çox "oxuyub-üfürmə" formasında sözlü elementləri əhatə edən bəzi cadularda türk dilində olan təkrarlama/təkərləmə xarakterli sözlər ərəb dilində olan dua-qəliblərin yerini tutur, ya da onları gücləndirmək məqsədilə əlavə edilir. Nümunə kimi məhəbbət yaratmaq üçün edilən cadunun tərtib olunma qaydasını verək:

– Üç dənə arnavut bibərini götürürük. Bibərin hər birinin içərisindəki toxumlara dənə-dənə "Təbbət" surəsi oxunaraq üfürülür. Sonra toxumlar yenidən bibərin içərisinə doldurulur. Qığılcımlarla dolu külün içərisinə basdırılır. Bunu edən adam ocağın divarına sağ əlini vuraraq: "Əlimi vurdum divara, // Divar oldu üç para, // Birindən insan çıxdı, // Birindən cin çıxdı, // Birindən İsmayıl Pəri çıxdı, // İnsanı yolladım hinə, // Cini yolladım Çinə, // İsmayıl Pərini yolladım Filana (burada təsir edilməsi lazım olan adamın adı deyilir), // Durmadan, dincəlmədən yanıma gələ" dedikdən sonra arxasına baxmadan yatağına girməlidir.

Bu cür forma və məzmun xüsusiyyətlərə malik cadular, belə görünür ki, xarici yazılı mənbələrdən gələn hazır formullar olmayıb, yerli şifahi ənənədə formalaşmış yeni növlərdir.

Bunlara dair bir dənə də misal verək: Bayrının mətnlərindən 21-ci məhəbbət cadusu:

– Qırx bir dənə qırmızı kişmişi götürməli, hər birinə bir dəfə “Amənərrəsul” surəsini oxuyaraq üfürməli. Qırx bir dənə qırmızı kişmiş kamil bir formada dualandıqdan sonra bir tavanın içərisində qovurulmalı. Qovura-qovura “Ağ tut, qara tut, filanı filana tut” deməli (Burada təsir edilməyi nəzərdə tutulan adamların adları deyilir). Kişmişlər qovrulmamışdan əvvəl bir parça qırmızı torpaq, bir parça sarı torpaq, bir parça da qara torpaq götürməli və onları öz qabağına qoymalı. Sağ əlinə biri ağ, o biri qara iki tut çubuğu götürməli. “Qırmızı torpaq kimi qızarsın, sarı torpaq kimi saralsın, qara torpaq kimi qərarsız qalsın, heç dayanmasın, durmasın, gəlsin” deyərək, tut çubuqları ilə üzümləri qovurmalı. Lakin bunun cümə günü azan vaxtı olması mütləqdir.

Cadularn böyük əksəriyyətini təşkil edən "məhəbbət tilsimləri"ndən görünür ki, burada təsiredici element "od"dur: yandırılan, qovrulan əşyanın, ya da hədəf olan adamın bütünlüklə tilsim vasitəsilə "yanması" (sevgi oduna düşməsi) arzulanır. Başqa hallarda təsir cadunun təsir edəcəyi adamın paltarından alınmış bir parça vasitəsi ilə olur: burada paltar, bir növ, sahibini əvəz edir. Yuxarıdakı misalda "tut"/"dut", "qara"/"qərar" oxşarlıqlarında olduğu kimi, sözlərin deyilişi ilə caduda vasitə kimi istifadə edilən əşyanın adının oxşarlığından istifadə olunub. Rənglərin mənaları da simvolik dəyərləri baxımından önəmli faktor hesab edilir: **qırmızı** "qızmaq", **sarı** "saralmaq" ilə əlaqədardır. Rəqəmlər də xüsusi önəm daşıyanlardan seçilir: "qırx", "qırx bir", "üç", "yeddi" və s. Bəzi cadularda istifadə olunan vəsaitin rəmzi mənası üzə çıxır. Bir məhəbbət tilsimində kişi ilə qadının adlarının sarmaşıq yarpağının üstünə yazılmağı məsləhət görülür: "Yarpaqlar bir-birinin üstünə qoyulmalı və başın üstündə gəzdirilməli".

**40-cı sual: Bəd cadulardan necə qorunmaq və təsirlərini necə aradan qaldırmaq olar?**

Bəd niyyətli cadulardan qorunmaq üçün görülməsi lazım gələn tədbirlərdən on doqquzu M.Xalid Bayrının kitabında (**İstanbul Folkloru,** s.175-176) sadalanmışdır. Bunlardan bir neçəsini misal kimi verə bilərik:

– Dəyirmanın çarxından tökülən su ilə yuyunub, dəstəmaz almaq.

– Dənizi keçib bir yerə getmək və ya bulaq, çay, göl kimi kiçik yaxud böyük bir axar suyun üstündən keçmək.

– Müxtəlif tüstülərlə: a) yeddi dükanın süpürülmüşü, leylək lələyi, cəfəri toxumu yandırılaraq; b) qaş, kiprik və bədənin başqa tükləri yandırılaraq, c) yeddi qapının astanasından kəsilmiş taxta parçalarını yandıraraq tüstüyə verilmək (və ya evi tüstüləmək).

– Evin içindəki qapıların astanasına ardıc ağacından alınmış qətranla xaç işarəsi qoymaq.

– Malta pambığı ilə qırx bir düyün atmaq, düyünlərdən hər birinin üstünə "qul əuzu" surələrini oxuduqdan sonra düyünləri açmaq, pambığı bir stəkan suyun içinə qoyduqdan sonra cadu edilmiş adama bu sudan içirtmək.

– Qəhvənin üstünə qaranquş nəcisini əlavə edərək cadu edilmiş adama içirtmək.

Bu tədbirlərin bir çoxu, eyni zamanda, edilə biləcək cadulara qarşı “əvvəlcədən görülmüş bir tədbir” xarakteri də daşıyır. Əməllərdə istifadə olunan elementlərə gəlincə dəyirmanın “qorxulu yer” olması xüsusiyyətini bilirik. Suyun arındırma gücündən istifadə dəniz sahilində olan bir yerə getmək, çay, dərə kimi axar sulardan keçmək tədbirlərində, odun eyniadlı xüsusiyyətindən istifadə tüstüləmə prosedurlarında üzə çıxır. Astana, hamımızın bildiyi kimi, evin “gözətçisi” olan

fövqəltəbii varlıqların olduqları yer hesab olunur. “Astanaya basmadan keçmə” tipli qaydalar bu inanc ilə bağlıdır. Oradan kəsilərək götürülmüş taxtaların qoruyucu gücü bu inancla əlaqəlidir. Evi cadunun zərərli təsirindən qorumaq üçün olan əməllərdən istifadə olunan “xaç işarəsi”, bəlkə də, xristianlıq ənənələrindən gəlmədir. Düyün bütün “bağlama” cadularının simvoludur. Düyünü açmaq bu cür caduların təsirini yox etmək üsuludur. Evlənən kişini bağlama cadularında onlardan qorunmaq və onları açmaq üçün düyünün əhəmiyyətli rolu haqqında Sedat Veyis Örnək (**Sivas ve çevresi...,** 1966, s. 83-89) Sivas bölgəsi ilə əlaqədar ətraflı məlumat vermişdir. Bu cür cadularda düyün kimi, bıçağın ağzının açılması/bağlanması, əl barmaqlarının bükülü/açıq olması, qıfılların bağlı/açıq vəziyyətləri də mənfi və ya müsbət təsirlərə malikdir. S.V.Örnəyin verdiyi məlumatlara görə, bəyi bağlamaq üçün ən effektiv vaxt kəbinin kəsildiyi saatdır. Kəbini kəsən mollanın həmin vaxt gördüyü bəzi tədbirlər də diqqət çəkir: mərasimdən əvvəl dəsmalını düyünləyib, nikahdan sonra açır, mərasimdə iştirak edənlərin əllərini dizlərinin üzərinə qoydurur. Bu sonuncu tədbir hər hansı bir şəxsin hətta pis bir niyyəti olmadan, fərqinə belə varmadan barmaqlarını yummağından da yarana biləcək ziyanın qarşısını almaq məqsədi güdür.

Bəd caduların nəticələrinin aradan qaldırılması üçün başqa bir yol da “cavab cadu”suna müraciət etməkdir. S.V.Örnəyin kitabında (s. 84-89) bunlardan on doqquz nümunəyə rast gəlirik. Bunların bəziləri sadə əməllərdir, bəzilərində isə əməli gücləndirmək məqsədi ilə yazılardan (rəmzlərdən, rəqəmlərdən, sözlərdən) istifadə olunur. Axırıncılara dair bir nümunəni M.Xalid Bayrının kitabında (s. 175, nömrə 105) tapa bilərik.

**41-ci sual: "Ocaq" nədir və cadularla nə kimi əlaqəsi vardır?**

**Ocaq** sözünün məlum mənasından əmələ gəlmiş daha üç mənası vardır: **birincisi,** "ocağın batsın" ifadəsində olduğu kimi nəsil mənasında, **ikincisi,** "Həsən Dədə ocağı", "Narlıdərə ocağı" kimi ifadələrdən göründüyü kimi, Anadoludakı Ələvi-Qızılbaş birliklərinin bölgələr üzrə bağlı olduqları müqəddəs mərkəzlər. Ocaq sözü bu ifadələrdə, eyni zamanda, həmin yerlərdə oturan təriqət böyüklərinin nəsli mənasında başa düşülür. Adətən, bu ocaqlarda liderlik vəzifəsi atadan oğula keçir: belə ki, ocağa aid olan insanların nəslindən olan şəxslərə "ocaqzadə" deyirlər. Söz **üçüncü mənasında** müəyyən bir və ya bir neçə xəstəliyi sağaltmaq gücünə sahib olan, bu işin üsullarını bilən, bu iş üzrə ixtisaslaşmış şəxslərə deyilir. "Sarılıq ocağı", "yel ocağı" və s. bu kimi. Sonuncu halda "ocaq" və "ocaqlı"[49] ifadələri eyni mənada istifadə olunur. Ocaq sahiblərinin xəstəlikləri sağaltmaq metodları əksərən caduluqla əlaqədar olur, amma bunların əlinin altında yedirtmək, içirtmək, bədənin ağrıyan hissəsinə bu və ya digər maddəni sürtmək, bağlamaq kimi "dərman" hesab etdikləri materiallar da olur. Məsələn, Afyon bölgəsində, Bardaqçı kəndindəki Köstəbək ocağı köstəbək deyilən çiban növünü sağaltmağa qadirdir. Bu çiban vaxtı keçəndə sıracaya[50] da çevrilə bilirmiş. Ocaqlı, yəni ocaq sahibi bunu sağaltmaq üçün xəstəyə köstəbək əti yedizdirir.

Ocaq hesab edilən şəxslər, əksərən, bir övliyanın qəbrinin yaxınlığındakı kəndin əhalisindəndir. Onun nəslindən olmalarının, yaxud onun türbəsində, ziyarətgahında xidmət etmələrinin onlara qabiliyyət bəxş etdiyinə inanırlar. Ocaq sahi-

---

[49] Ocaqlı – ocaqçı//ocaq sahibi – ***Tərcüməçi***

[50] Boyun dərisinin şişməsi ilə müşayiət olunan vərəm növü – ***Tərcüməçi***

bi kişi də ola bilər, qadın da. Ümumən, kişi xəstələrə kişi ocaqlılar, qadınlara da qadın ocaqlılar baxırlar.

Üçüncü mənada ocaqlı olmaq da atadan oğula, yaxud anadan qıza keçir, amma bu, qəti bir qanun deyildir. Ocaqlı öz nəslindən olmayan birinə də "əl verə bilər"[51], yəni magik gücünü özündən sonra davam etdirməsi üçün başqasına da ötürə bilər. Afyon bölgəsində 1950-ci ildə tanış olduğumuz Yazılı-Qaya kəndinin mollası K.Xocanın atası Hayran Vəli türbəsində bir şeyxdən “əl almışdı”. Yeri gəldikcə kitabındakı məlumatlardan istifadə etdiyimiz Nikolaidesin babasının atası Andon ortodoksal bir keşiş imiş. Bu hadisə, təqribən, XIX əsrin əvvəllərində olub. O, bir dəfə Ankaraya gedib, orada sarılıq ocaqlısı olan bir müsəlmanla tanış olub, bu ocaqlı da ona “əl verib”. Andon ölməmişdən əvvəl oğluna, o da qızına, yəni Nikolaidesin xalasına vergi verib. Nikolaidesin verdiyi məlumatlardan öyrənirik ki, qədimdən Anadoluda xristianlar da “əl alıb” ocaqlı ola bilirmişlər, bir müsəlman bir xristiana da “əl verə” bilirmiş. Kişidən qadına da “əl keçə bilirmiş”. Nikolaides bu mövzuda aşağıdakı məlumatları verir: ocaqlının özündəki şəfa vermək gücünü ötürməyi məsləhət bildiyi şəxs gəlib onun önündə diz çökür, əlini öpür, ocaq sahibi “əl verdiyini” bildirən sözləri söylədikdən sonra onun ağzına tüpürür, ya da tüpürməyi təqlid edir.

Bəzi məşhur övliyaların qəbirlərinin olduğu kəndlərin bütün əhalisi ocaqlı ola bilirmiş: Afyonun yaxınlığındakı Qaraca-Əhməd Sultan ocağı belədir. Buna "dolular və dəlilər piridir" deyirlər, yəni orada ağıl xəstələri ilə hamilə qadınlar şə-

---

[51] Buna Azərbaycanda vergini başqasına vermək deyilir. Bu, adətən, tüpürmək yolu ilə olur. Qocalmış falçılar, sınıqçılar, baxıcılar, çöpçülər və b. vergi vermək istədiyi adamın ağzına tüpürürlər. Bununla həmin adam qabiliyyət, magik güc sahibinə çevrilir. Tüpürmək magik gücün ən qədim ötürülmə vasitələrindəndir. Azərbaycan nağıllarında ilanlar padşahı Ovçu Pirimin ağzına tüpütdükdən sonra o, bütün canlı və cansız varlıqların dilini başa düşür – ***Tərcüməçi***

fa axtararlar. Kənd əhalisindən hər hansı bir adam da xəstəni sağaltmaq məsuliyyətini öz boynuna götürə bilərmiş.

Zəncilərin adət-ənənələrində "ocaq sahibi" ilə eyni işi görən **qodya**ların tüstüsündən keçmiş adamların "tüstüləmə" qabiliyyətini qazana bildikləri barədə yuxarıda (34-cü sual) danışdıq.

Ocaq sahibi olma bacarığını qazanmağın başqa bir yolu Al qarısı[52] ilə əlaqədar ənənələrə daxildir. Zahı qadınlarda **albastı** deyilən xəstəliyin səbəbkarı kimi göstərilən, zahının ciyərini söküb aparmasından ehtiyatlanan bu təhlükəli varlığı kişilərin bəzi hallarda tutduqları da olub. Tutan adam Al qarısının bədəninə[53] bir iynə batırmaq, ya da başındakı darağı çəkib götürməklə onu özünə qul, əsir edə bilirmiş. O vaxt həmin adam onun nəslindən heç kimə zərər verməmək şərti ilə Hal arvadını azad edir, bunun əvəzində hal ocaqlısı (halçı) olurmuş[54]. Halçının halbasmasını sağaltmaq bacarığından başqa, özünə aid hər hansı bir əşyasını zahının yanında saxlamaq yolu ilə də onu qorumaq bacarığı var imiş.

Ocaq sahiblərinin sağaltmaq üsullarında üstün elementin cadugərlik işləri olduğuna dair bir-iki misal daha verək.

---

[52] Al qarısı – Hal qarısı // Alarvadı // Hal anası // Albastı // Halbasdı və s. – ***Tərcüməçi***

[53] Azərbaycan mifoloji rəvayətlərində: paltarının kürəyinə – ***Tərcüməçi***

[54] Hazırda Azərbaycanın Qazax bölgəsinin Çaylı kəndində yaşayan Qəsəbovlar nəsli belə bir hal ocağını təmsil edir. Onların babası Nəbi kişi həmin kənddən olan bir qadının ciyərini oğurlamış Hal anasını ciyəri suya çəkərkən (yuyarkən) tutmuş, kürəyinə iynə batıraraq özünə tabe etmişdir. Nəbi kişi Hal anasından qadının ciyərini qaytarmağı istəsə də, o, "Yumuşam, artıq gecdir" demişdir. Hal anası Nəbi kişiyə onun yeddi arxadan dönəninə (yeddi nəslinə) toxunmayacağına söz verib, azad olmuşdur. Həmin nəslin nümayəndəsi fəlsəfə doktoru İlhamə xanım Qəsəbovanın verdiyi məlumatlara görə, indi də mərhum Nəbi kişinin papağını zahı qadınların və qırxı çıxmamış körpələrin olduğu yerə aparırlar ki, papaq onları Hal anasından qorusun. – ***Tərcüməçi***

Afyon bölgəsində Künbət kəndi yaxınlığındakı Çıbık Babanın tabeliyində olan ocaqlı 1950-ci ildə Yapıldaq kəndindən olan Ərəb qızı adında bir qadın idi. Onun mütəxəssisi olduğu iş yırtıqları müalicə etmək idi. Çıbık Babanın yaxınlığındakı ağaclardan kəsilmiş iki çubuğu biri-birinə sarıyır, əgər çubuqlar biri-birinə yapışırmışsa, yırtıq da sağalarmış. Yuxarıda toxunduğumuz Köstəbək piri misalında da çibanın adı ilə əti yedizdirilən heyvanın adlarının eyni olması dərd ilə dərman arasındakı tilsimli bağlılığa bir işarədir.

Ocaqçıların bir çox əməlləri odla da əlaqədardır, bundan dolayı sağaltmaq gücü ilə evin od qalanan hissəsi olan "ocağ"ın əlaqəsi üzə çıxır. Məsələn, hal basmasına qarşı dəmirdən düzəldilən şeylərin, yeri gəlmişkən, ocaq sahibinin qılıncının istifadə edilməsi, zahının südünün kəsildiyi zaman döşünün üstünə islaq bir keçə parçası qoyub bunun üstünə də qaynar bir çubuq basdırma, bəzi şişləri dağlama, qırxlıq basmasına qarşı uşağı içərisinə ocaqdan alınmış kiçik daşlar atılan su ilə yuyundurma... kimi tədbirlər. Bəzi əməliyyatlarda ocaqlının tüpürcəyindən istifadə etməsi, məsələn, çibanın üstünə tüpürməsi, ona "əl verənin" onun ağzına tüpürməklə vergi verməsi ilə izah olunur. Sağaltma gücü ocaqlı şəxsin tüpürcəyindədir və həmin güc bir mütəxəssisdən başqasına əllər və ya tüpürcək vasitəsilə ötürülür. Yaranı bərpa etmək, ölünü diriltmək, kəsilmiş hər hansı bir bədən üzvünü yerinə bitişdirərək əvvəlki halına qaytarmaq üçün Peyğəmbərin və ya övliya insanların tüpürcəklərindən istifadə etdikləri də rəvayət olunmuşdur.

Bəzi ocaq sahiblərinin tək bir xəstəliyin mütəxəssisi olmayıb, hər bir dərdə dəva etdiklərini bilirik. Nikolaidesin kitabından eyni zamanda həm insan, həm də heyvan xəstəliklərinə baxan ocaqçıların olduğunu da öyrənirik. Belə ocaqlılardan birinin evi iki ayrı hissədən ibarət imiş: birində insan ziyarətçilər, o birində də heyvanlar üst-üstə üç gecə qalırmış.

**42-ci sual: Üfürmə, əfsun və s. əməllərin hansı xüsusiyyətləri var?**

Bundan əvvəlki sualda bəzi nümunələrini gördüyümüz, xəstəliklərin, şikəstliklərin qarşısını almaq və ya sağaltmaq məqsədini güdən magik tədbir və vasitələr xalq dilində cürbəcür adlarla göstərilir: üfürmə, əfsun, ırıklama, urasa, tüstü, alazlama, iplik bağlama, qurğuşun tökmə, dalaq kəsmə, parpılama, darpılama, əngəl kəsmək, tutam, qızdırma... Bunlardan bəzən eyni mənalı sözlərdir: eyni bir əməliyyat bölgədən-bölgəyə fərqli adlarla göstərilə bilir. Bəzən də eyni bir yerdə, eyni bir iş üçün iki ayrı ad, ya da iki ayrı iş üçün bir ad istifadə edildiyi də olur. Qədim ənənələrdə fərqlənmələr, bəlkə, daha aydın idi, müasir dövrümüzdə isə bu ifadələrin mənalarındakı dəqiqliklərin itdiyi həqiqətdir. Müasir dövrdə toplanmış məlumatlara görə, üfürmə, nəfəs, əfsun, urasa, ırıqlamaq, darpılamaq ifadələrinin aid olduğu işlər arasında böyük fərqlər görə bilmirik.

**Üfürmə** sözünün mənasını "oxuyub üfürmək" ifadəsi izah edir. Bu, xəstəliyin sağalmağı istənilirsə, duaların, diləklərin təsirini xəstənin bədəninə yaymaq üçün, fövqəltəbii zərərli qüvvələrin pisliklərindən qorunmaqdan ötrü ətrafa, ətrafdakı əşyaya bu varlıqları hürküdəcək sözləri çatdırmaq üçün görülən bir işdir. **Üfürükçü** ifadəsi günümüzdə bu cür ağıl və elmdən kənar cəhdlərlə cahil insanları aldadan və istismar edən şəxslər üçün istifadə edilir və həmin insanları pisləyən bir məna qazanmışdır.

**Nəfəs** də üfürməklə eyni mənadadır, təsiri güclü olduğuna inanılan adamlara "nəfəsi qüvvətli" deyilir. Eyni söz, bir başqa mənada din və təriqət mövzularını ehtiva edən şeirlər üçün də istifadə olunur: Bəktaşi nəfəsləri, Yunus İmrənin nəfəsləri. Müəyyən mənada bu şeirlər də onları yaratmış olanların müqəddəs nəfəslərini ifa edənlərin vasitəsilə dinləyicilərə çatdıran sözlərdir.

**Əfsun** üfürmə ilə eyni mənadadır. Əksərən qızdırmadan qorunmaq üçün biləyə dua oxunmuş ipin bağlanmasına "iplik bağlama" deyilir. Mersində bu iş **urasa** adı ilə tanınır: sarılıq ocaqlısı sarı ipi sarı muncuğa keçirdir, xəstənin boynuna asır və eyni zamanda "ocaq evi"nin külünü və duzunu ona yalatdırır.

**"Qurğuşun tökmə"** və **"tüstüləmə"** barədə yuxarıda danışdıq (bax: 34 və 36-cı suallar). Xəstəlik və nəzər dəyməsi kimi hallarda pis niyyətli insanlardan, ya da zərərverici fövqəltəbii varlıqlardan gələ biləcək hər cür pislik, şikəstlik və axsaqlıqların səbəbini başa düşmək üçün müraciət edilən yozma üsulları olduğu kimi, qorunma və pis təsirləri qovma yolu ilə sağaltmaq əməlləri də vardır. Qurğuşun tökülən qabı xəstənin üstünə və qapısının ağzına aparma bununla bağlıdır.

**Urasa (**başqa adları ilə: **ırvasa, uğrasa)**, yerinə görə aşağıdakı mənalarda istifadə edilir. Ocaqlı şəxslərin sarılığı və yörük adı ilə verilən çibanı sağaltmaq əməli (Mərsin). "Magiya xarakterli müxtəlif əməllərin hamısına birlikdə verilən ad" tərifini verən **Söz Derleme Dergisinin** verdiyi bir məlumata görə **urasa** İçəldə qırxı çıxmamış xəstələnən uşaqları sağaltmaq üçün dəyirman daşı üzərinə qoyub fırlatma, yaxud da uşaqlardan birinə bu işi tətbiq edərək, ikincisinə sadəcə eyni dəyirmandan alınmış unu sürtmək işinə deyilir. Konyada bu ad tatarca küpləmə, uçuqlama, alazlama, qızıl yel, çıbıq, sızanaq, yanma, parpı kimi dəri xəstəliklərinin sağaldılması üçün görülən əməllərə deyilir. Eyni bölgədə qurdeşən ırvasası belə izah olunur: xəstə döyülmüş dörd soğan götürür, dörd yol ayrıcına gedir, hər yolun ağzında "Qurd oldum, qurdeşən oldum, hu!" deyir və soğanları bir-bir tullayır. Sonra bir bulaq başına gedib, baş barmağı ilə şəhadət barmağı arasındakı fərq uzunluğunda bir bal mumundan hazırlanmış şamı yandırır və arxasına baxmadan qayıdır. Yaxud da yenə dörd yol ayrıcında yuxarıdakı sözləri deyir, başından buğda tökür, şam yandırır

və qayıdır (Bax.: "Türk folklor araştırmaları", sayı 28, kasım 1951).

**Irıklama** sözü **ır** kökündən gəlir. Əski türkcədə müəyyən bir kökdə oxumaq, türkü oxumaq, qoşmaq mənasına gələn **ırlamaq**/yırlamaq sözü var idi. Mahmud Kaşğarlının lüğətində bu feilə də, türkü, şərqi mənasını verən **ır/yır** sözünə də rast gəlirik. Bu kökdən fal mənasında **ırq** sözü yaranmışdır. X əsrdən Orxon-Yenisey əlifbası ilə yazılmış **Irq-Bitik** adlı kiçik bir fal kitabı da tanıyırıq. Irkıl-Ata, dastan ənənəsinə görə, Oğuz Kaqanın vəziri idi, adından da məlum olduğu kimi, o, gələcəkdən xəbər vermək gücünə və buna əsaslanaraq eli idarə edənlərə lazım olan nəsihətləri vermək bacarığına sahib bir adam idi. **Irıklama** (Muğlada) yel və revmatizmi sağaltmaq üçün ağrıyan yerin üstündə qayçı ilə çöp kəsmə əməliyyatını bildirir. Eyni bölgədə **ırıklama** ifadəsi "xəstəni yerə uzadaraq ofsunlama" kimi də tanınır. Beləcə, yuxarıda haqqında danışdığımız fakta bir misal da görmüş oluruq: **ofsunlama** və **ırıklama** eyni əməlin müxtəlif adları kimi istifadə edilə bilir.

**Parpılama** Konyada oc0aqçının gənəli heyvanlardakı gənələri aparmaq üçün gördüyü işdir: ağzına aldığı, ya da içinə tüpürdüyü duz qarışdırılmış suyu heyvana içirdir; ya da bu su ilə heyvanı yuyundurur. **Parpı** sözü Dənizli və Muğla bölgələrində təhlükə, qorxu, Amasyada **parpa** variantında təhlükə, sıxıntı mənalarını verir. **Parpılamak** Kayseridə döyərək qorxutmaq, acılamaq mənasında işlədilir. **Parpı** sözünün bu son mənası cadugərliklə əlaqədar ola bilərmi? Yoxsa, əks tərəfdən olan bir formalaşma ilə “qorxu” mənasına gələn **parpı**mı görülən işə sehr mənasını yükləmişdir? Proses zamanı xəstəliyi yaradan zərərli və pis varlıqları qorxudaraq qovmaq, uzaqlaşdırmaq məqsədinin olması bu son izahı təsdiq edə bilər.

**Darpılama** Bozqırda quduz xəstəliyinin təyinatında və sağaldılmasında istifadə edilən üsulu bildirir. Bu, xəstənin və

ya xəstəlik şübhəsi olan adamın üstünə su tökmə prosesidir. Kocaelidə eyni işə **parpullamaq**, Anamur bölgəsində isə **parpıllamaq** deyilir. Sinopda daha çox quduzluq üçün, amma eyni zamanda başqa xəstəliklər üçün də ocaqlının zərif bir gül budağı ilə xəstənin bədəninin çılpaq yerlərinə, ya da paltarının üstünə bir neçə dəfə vurmağına **parpılama** deyilir.

Cadu xarakterli müalicə əməllərindən ən məşhurlarından biri də **dalaq kəsmə**dir. Ocaqçı xəstəni yerə uzadır, başqa bir adamla duet-təkrarləmə şəklində danışdıqdan sonra, xəstənin dalağı üzərinə qoyduğu bir taxtaya balta ilə vurur (Bozqır). İskəndərunda əməliyyatın daha təfərrüatlı detallarını müşahidə edirik: ocaqçı xəstənin üstünə bir heyvan dalağı qoyur, bunu qızdırılmış bir şişlə parça-parça edir. Müəyyən dualar oxunduqdan sonra xəstə parçalanmış dalağı aparıb, hər hansısa bir yerdə basdırır. Narlıdərədə xəstənin bədənində dalağın olduğu yerə həqiqətən vurma təqlid olunur. Bu əməliyyatın diqqəti cəlb edən tərəfi təkrarləmə deyənlərdən birinin (ocaqlının) bir "dağ"dan gəldiyini vurğulamasıdır: Narlıdərədə Dalaq Dağı, Bozqırda Qaf Dağı. Birincidə ocaqlı işin mütəxəssisi olduğunu nəzərə çapdırır, ikincidə haqqında danışılan Qaf Dağı isə, xalq inancına görə, cinlərin və başqa fövqəltəbii qüvvələrin diyarıdır. Narlıdərədə dalaq kəsmə qadınların işi hesab edildiyi halda, İskəndərunda ocaqlı şəxs kişidir.

Narlıdərədə yeriməyi gecikən uşaqlara **duşşaq (dolaşmış ipi) kəsmə** əməliyyatı tətbiq olunur. Burada da duet danışığından sonra səlahiyyətli şəxs (uşaq oğlandırsa – kişi, qızdırsa – qadın) uşağın ayağına bağlanmış ipləri kəsir. Bu əməliyyatın başqa bir oxşar nümunəsinə Konyada **köstək kəsmə** deyirlər. Bu əməl yeriyəndə ayaqları dolaşan uşaqlara tətbiq olunur. Kəsmə işini məhəllədən olan bir uşaq bir sıra qaydalara əməl etməklə həyata keçirir.

Yenə də Narlıdərədə cılız, xəstəhal, sısqa uşaqları gücləndirmək məqsədilə baş vurulan bir əməl də vardır ki, adına **aydaş bişirmə deyilir**. Bu əməldə iki qoca qadının dialoqundan sonra, uşağı qazanda qaynatma işi təqlid edilir.

**Dalaq kəsmədə** xəstəliyə səbəb olan pislik elementini, zərərli varlığı kəsmək, parçalamaq, öldürmək, **duşşaq kəsmədə** uşağı yeriməkdən saxlayan "ipləri" qopartmaq (yəni onun ayaqlarını bağlayan mənfi qüvvələri yox etmək), **aydaş bişirmədə** uşağın tam bişmədiyi (formalaşmadığı) düşüncəsinə əsaslanaraq, onu "yenidən" lazımi qədər bişirmək üsulu ilə öz halına qaytarmaq, gücünü təmin etmək məqsədi güdülür. Bunlar təqlid, "sympathic" cadularının tətbiq olunması sayılır.

**43-cü sual: Musqa (dua kağızı), göz muncuğu, tilsim nə iş görür?**

**Musqa** ərəb dilində "yazılı şey" mənasını verən **musha** sözünün xalqın dilində təhrif olumuş formasıdır, xəstəlikləri müalicə etmək, ya da düşmən tərəfindən edilə biləcək pisliklər, ağlasığmaz qəzalar və s. bu kimi hər hansı bir fəlakətin qarşısını almaq məqsədilə insanın üstündə gəzdirdiyi yazılı kağıza deyilir. Kağızdakı yazılar yuxarıda (39-cu sual) cadularn məzmununu araşdırarkən müşahidə etdiklərimizə oxşayır. M. Şakir Ülküdaşırın çap etdiyi mətnlərdən götürdüyümüz iki nümunəyə ("Folklor xəbərləri", IV, 1934-cü il, a. 142) diqqət edək:

– Birinci musqada hər birinin əvvəlinə "bismillah" gətirilməklə Allahın aşağıdakı on adı sadalanmışdır: ya Qəhhar, ya Səttar, ya Qəffar, ya Əziz, ya Vahid, ya Səməd, ya Əvvəl, ya Axır, ya Zahir, ya Batin. Bundan sonra: bismillah ya Rəbb (üç dəfə), ya Allah (üç dəfə), ya Rəhman (iki dəfə), ya Kərim, ya Ərhəmər Rahimin, ən axırda da bu, hamının bildiyi "La havlə, və la quvvətə illa və billah il-aliyy il-əzim", Tanrıya sığınmaq üçün oxunan sözlər.

– İkinci musqada: əvvəlcə Əshabı-Kəhfin adları (yeddi adam və onların iti) sadalanmış, arxasınca da ərəbcə bir dua yazılmışdır. Bunun axırı yuxarıdakı musqada göstərilən "la havlə..." sözləri ilə tamamlanmışdır.

Hər iki musqanın nə işə yaradığı da mətnlərin əvvəllində belə göstərilmişdir:

– (1) Hər kim bu əsmai-şərifəni[55] oxusa və yaxud yazıb özü ilə gəzdirsə və ya suya salıb içsə, bütün bəlalara, epidemiyalara və xəstəliklərə şəfa gələr.

– (2) Hər kim bu musqanı özü ilə gəzdirsə və suyunu içsə, yetmiş iki növ xəstəliyin dərmanıdır.

Bu mətnlərin müqayisəsindən aşağıdakı nəticələri çıxara bilərik:

1) Musqalarda yazılı olanlar üfürmə (nəfəs, oxuyub üfürmək...) proseslərində də istifadə edilə bilər. Bu, birinci mətndəki "kim bu musqanı oxusa" sözlərindən də aydın bir şəkildə görünür.

2) Bunların istifadə sahəsi çox genişdir. Birinci mətndə: "bütün bəlalar", "epidemiyalar", ikinci mətndə: "yetmiş iki növ dərd".

3) Yazılı sözlərdə müəyyən bir xəstəlik, dərd, fəlakət göstərilmir: sözlər Tanrının adları, Tanrıya yalvarış və sığınmaqdan danışır. Sözlərin düzülüşü magik cəhətdən də ola bilər: bəzi sözlər üç dəfə, bəziləri iki, bəziləri də bir dəfə yazılmışdır. İkinci musqanın magik keyfiyyəti Əshabi-Kəhfin adlarındadır: bu yeddi adam fövqəladə bir yuxuya gedərək yüz il sonra oyanmaqları ilə təbiət qanunlarını alt-üst etmiş insanlardır.

Musqalar bir kağıza yazılır. Dəri material dayanıqlı olduğu üçün qədimdən kağız yerinə dəriyə də yazılırmış. Köhnəlib cırılmasının, yazıların silinməsinin qarşısını almaq üçün kağız duanı

[55] Şərəfli adları – ***Tərcüməçi***

müşəmbəyə sarıyaraq dəridən və ya mineraldan düzəldilmiş bir zərfin içərisinə yerləşdirir, uşaqların çiyinlərinə, böyüklərin boynuna asırlar. Ən çox müşahidə olunan forması isə üçbucaqdır.

**Gözmuncuğu** bir cəhəti ilə pis gözlərin və paxıllıq duyğularının səbəb ola biləcəyi xəstəliklərdən, şikəstliklərdən qorumaq xüsusiyyəti baxımından əslində musqa/kağız dua ilə eyni işi görür. Amma adından da göründüyü kimi, onun əsl vəzifəsi pis gözlərdən qorumaqdır. Bu, paxıllıq hissləri ilə yüklənmiş, ya da pis niyyətli bir baxışın təsiri haqqında düşünərək, əksərən, muncuqdan düzəldilmiş göz formasında bir əşyadır. Rəngi göydür, çünki ən təsirli olduğuna inanılan, bu üzdən də ən çox qorunmaq istənilən baxışlar göy gözlü insanlarınkıdır. Göz muncuğu kimi istifadə olunan başqa maddələr də vardır: hər halda, göz formasında olduğu üçün qabıqlı heyvanların çanaqları, qurd dişi, yaşıl qəhvə, quşüzümü ağacının qabığı, iydə çəyirdəyi, qurd aşığı[56], zəy. Bu əşyaların zərərli baxışları öz üzərinə çəkəcəyi və beləcə onları özü ilə gəzdirənləri qoruyacağı haqqında düşüncələr mövcuddur. "Bəd nəzərin təsiri ilə zəy əriyirmiş" inancı, göz muncuqlarının mavi, yəni pis gözlə eyni rəngdə olması bu düşüncəyə aydınlıq gətirən faktlardır.

Muncuqdan, kiçik heyvan çanaqlarından insanlar kimi heyvanları da qorumaq məqsədilə istifadə edilir. Müasir dövrümüzdə avtomobil, kamaz, avtobus kimi nəqliyyat vasitələrinə gözmuncuğu asılması da bu ənənə ilə bağlıdır.

Uşaqların beşiklərinə və ya çiyinlərinə taxmaq üçün yaxınlarının hədiyyə etdikləri qızıl və ya gümüşdən hazırlanmış "maşallah"lar[57] kağız dua ilə göz muncuğu tipində qoruyucu vasitələrin bəzəyə çevrilmiş formaları hesab edilə bilər. "Maşallah" yazısı cürbəcür bəzəkli formalarda evlərin kandarına da eyni düşüncə ilə vurulur. Bağçaların hasarlarına taxılan at

---

[56] Canavarın oynaq sümüyü – ***Tərcüməçi***

[57] Üstünə "Maşallah" yazılmış əşyalar – ***Tərcüməçi***

başı, evlərin qapılarına mismarlanan at nalı da, bir növ, nəzəri dəf etmək funksiyasına malikdir.

Nəzərə qarşı vasitə kimi ən müxtəlif əşyalardan istifadə edilə biləcəyini Kastamonu bölgəsindəki bu ənənə də bizə açıq bir şəkildə göstərir: uşağı qorumaq üçün onun ilk nəcisi çörəkotu və üzərlik toxumu ilə qarışdırılmış bir parçaya bükülür, otağının qapısından asılır. Zahı qadını qorumaq üçün də onun yorğanına iynə batırılır, yan tərəfinə bir yumurta, bir baş soğan və bir baş sarımsaq asılır.

Bir çox yerlərdə doğuşu asanlaşdırmaq məqsədilə görülən magik tədbirlərdə Fatma Ana əli, ya da Məryəm Ana əli adlandırılan bir bitki istifadə olunur. Eyni adı daşıyan və mineraldan əl formasında hazırlanmış əşyalar da istifadə olunur. Beş barmağının beşi də açıq bir əl şəklinin nəzərə qarşı qorunma vasitəsi olması dünyada da geniş yayılmış bir ənənədir. Ölkəmizin bir çox bölgələrindəki kənd evlərinin divarlarında oxra boyası ilə çəkilmiş əl şəkilləri müşahidə olunmuşdur. Eyni şəkillərə Anadolunun qədim dövrlərdən qalma tikinti qalıqlarında da rast gəlinir. Bu əl şəkilləri ilə pis gözlərdən qorunma üçün görülən tədbirlər sırasında sanki zərər gələcək şəxs qarşısında dururmuşcasına əli irəliyə uzadaraq deyilən "Ələmtərə fiş, kəm gözlərə şiş", "Beş barmağımın beşi də gözünə" sözlərinin müqayisəsi də eyni bir mənanı ortaya qoyur. Bu əl hərəkətləri pislik gətirəcək bəd gözləri oymaq təhdidi ilə qorxutmağı və əli nəzərə gələcək şəxslə zərər verəcək şəxsin baxışının arasına bir əngəl kimi qoymağı bildirir. Əlin başqa magik əməllərdə də rolu olduğunu bilirik: ocaq sahiblərinin öz şəfa vermə güclərini başqalarına ötürmələrinə "əl vermə" deyilir. Övliya insanların kəramətləri arasında onların qorumaq istədikləri insanlara, heyvanlara atılan oxları, mərmiləri, top güllərini əlləri ilə geri qaytarmaları barəsində əfsanələr də vardır.

**Tilsim** mənası olduqca bulanıq bir sözdür. Yuxarıda (37 və 39-cu suallar) cadunun təsirini təmin edən vəsaitlərə (dua sözləri,

işarələr və s.) bu adın da verildiyini müşahidə etdik. Tilsim başqa bir mənasında dəfinə tipli gizli şeyləri tapmağı, qapalı yerləri, misal üçün saray, mağara qapılarının açılmasını təmin edən və ancaq mütəxəssislərinin bildiyi sözləri və ya istifadə etdikləri vasitələri göstərir. Misal kimi Bergamada bir inancda yer alan bu "tilsim"i göstərə bilərik: Hər kim şanapipiyi tutaraq onun gözünü və ödünü isti-isti gözlərinə çəkərsə, yerin altındakı ən gizli xəzinələri görə bilərmiş. Xəzinələrin yerini tapdıqdan sonra meydana çıxartma əməliyyatının tamamlana bilməsi üçün kəsilməyi lazım olan qurbana və əksəriyyət etibarilə başqa ziddiyyətli və çətin işlərə də tilsim adı verilməsi mümkündür. Bu mənalarında tilsim nağıllarda ən çox rast gəlinən elementlərdən biridir.

## 44-cü sual: "Xalq təbabəti" ifadəsindən nə başa düşürük?

Bu sual və bundan sonrakının əhatə etdikləri məsələləri tədqiq etməyə başlamazdan əvvəl "xalq təbabəti" ifadəsinin mənası üzərində bir qədər dayanaq.

Xalqın imkanı olmadığı üçün, ya da hər hansı başqa səbəbdən həkimə gedə bilmədiyi zaman, ya da getmək istəmədiyi zaman xəstəlikləri təyin etmək və sağaltmaq məqsədilə müraciət etdiyi üsul və işlərin hamısına "xalq təbabəti"[58] deyilir.

Bu aspektdən yanaşdığımız zaman "xəstəlik" ifadəsi də adət etdiyimizdən daha geniş bir mənanı əhatə edir. Bu ad altında təkcə şəxsin səhhətindəki axsamaları deyil, qısırlıqdan, sonsuzluqdan tutmuş, bəd nəzər kimi insanlar tərəfindən gələ biləcək pis təsirlərə və fövqəltəbii varlıqların (cinlər, pərilər və s.) səbəb ola biləcəkləri şikəstliklərə qədər sağlamlığa dair cürbəcür pozğunluqları da başa düşmək lazımdır.

---

[58] **"Xalq təbabəti"** elmi termindir, Azərbaycanda bu xalq həkimliyi, el arasında olan müalicə üsulları **"türkəçarə"** adlanır – **Tərçüməçi**

Belə izah olunduğu zaman xalq təbabəti anlayışının içinə daxil olan proses və üsulların bayaqdan bəri tədqiq etdiyimiz faktların bir çoxunu da əhatə etdiyi öz-özünə üzə çıxır. Belə ki, kitabımızın bundan əvvəlki səhifələrində sadaladığımız 43 sualdan 22-sində (8, 9, 15-20, 22, 27, 30, 33-43) yeri gəldikcə bədən və ruh sağlamlığı ilə əlaqədar inanc və işlərə də rast gəldik. Aşağıda ənənənin özünə məxsus problemlərini gözdən keçirərək məlumatlarımızı tamamlamağa çalışacağıq.

**45-ci sual: Xalq təbabətinin cadu xarakterli sağaltmaq üsulları hansılardır?**

Xalq ənənələrində sağlamlığı qoruma, xəstəlikləri təyin etmə, sağaltma tədbir və üsullarının bir qismi sadəcə magik xarakterlidir, ikinci bir qismində isə magiya və rasionalizm biri-birini tamamlayır. Bütün bu saydıqlarımızı hər tipə bir neçə misal verməklə qruplara ayırmağa çalışaq:

**1. Magik xarakterli qoruma və sağaltma əməlləri.**

**a) Övliyalar.** Yuxarıda (15, 16-cı suallar) başqa aspektlərdən tədqiq etdiyimiz zaman gördüyümüz kimi, xalq müxtəlif fövqəltəbii gücləri olduğuna inanılan adlı-adsız övliyalara cürbəcür xəstəlikləri sağaldılması üçün də müraciət edir. Sonsuzluq qadına məxus günah hesab edildiyi üçün övliyalara həmin problemi aradan qalırmaq məqsədilə müraciət edənlər qadınlardır. (Nağıllarda və dastanlarda isə bu qüsura qadınla kişilərin şərik olması düşüncəsinin izlərinə rast gəlirik: Bir **dərvişin,** yaxud da fövqəltəbii gücə sahib olan bir **qoca**nın verdiyi almanı bölüşərək yedikdən sonra övlad sahibi olan ana və ata buna nümunədir. **"Kitabi Dədə Qorqud"**da Dirsə xan uşağı olmadığı üçün şikayət etdiyi zaman: "... Bu qara ayıb ya məndəndir, ya da qadınımdandır" deyir.)

Övliya məzarlarına üz tutan qadınların bu zaman etdiyi işlər müxtəlifdir: sadəcə bir əhd; övliyanın yatdığı torpaqdan suya qarışdırıb içmək; yaxınlıqdakı bulaqdan su içmək; o yerin ətrafındakı ağac, kol, barmaqlıq, pəncərə dəmiri kimi şeylərə parça bağlamaq; diləyini daha aydın, daha dəqiq bildirmək üçün kiçik bir yelləncək asmaq; övliyanın qəbrinin olduğu yerdə gecə qalmaq... bunlardan ən məşhurlarıdır.

Bəzi övliyalar hər hansı bir xəstəliyin mütəxəssisidir, amma əksəriyyətində bir neçə xəstəliyi, bəzilərində isə "bütün dərdləri" sağaltmaq gücü olduğuna inanılır. Ankaranın həm Ayaş ilçəsi torpaqlarında, həm də Ispartada "Sırtma Dədəsi" var: adlarından da başa düşüldüyü kimi, bunlar "malyariya xəstəliyinin mütəxəssisləridir". Kəskində Heydər Dədə, Afyonun Ihsaniyə ilçəsinə aid Qaracaəhməd kəndində Qaraca Əhməd Sultan, Ankaranın Nallıxan ilçəsi ərazisində Bacım Sultan sinir və ağıl xəstəlikləri mütəxəssisləridir (Hikmət Tanyu, "**Ankara çevresinde adak...**", 1967, s. 9, 217). Amma ixtisaslaşmış övliyalardan həm də ixtisaslarından kənar xəstəliklər və axsaqlıqlar üçün də "çarə" istənildiyi müşahidə edilir: Bacım Sultan xüsusilə qara sevda, ruh və ağıl xəstəlikləri ilə bərabər sonsuzluğu müalicə etmə gücünə də sahibdir, Qaraca Əhməd Sultan üçün "dəlilər ilə dolular (yəni hamilə qadınlar) ona müraciət edir" deyilir (bax: 41-ci sual).

**b) Ocaqlar[59].** Yuxarıda (41-ci sual) ocaqlıların/pirlərin övliyalarla əlaqələri, bir kişinin hansı şərtlər altında "halbasdı ocaqlısı" ola biləcəyi, zəncilərin tüstüləmə əməliyyatından keçmiş xəstənin özünün də tüstü vermə bacarığını, yəni bir növ, ocaqlı xüsusiyyətini necə əldə edə bildiyi barədə yetəri

---

[59] Başqa adı ilə: pirlər. Azərbaycanda "ocaq" və "pir" sözləri eyni mənada və eyni tezlikdə işlədilir. "Ocaq" – Azərbaycan, "pir" isə "qoca" mənasında fars mənşəli sözdür. – ***Tərcüməçi***

qədər məlumat verdik. Bugünə qədər toplanan məlumatlara görə, hər bir xəstəliyin öz ocaqlısı/piri ola bilər.

**c) Üfürmə, əfsun, urasa** və s. əməllərin böyük bir qismi, bağlamaq üçün olan caduları pozma üsulları, bir növ, müalicə üsulu hesab edilir. Həmçinin, göz muncuğu və yazılı dualar insan bədəninə gələ biləcək zərərlərin qarşısını almaq gücü baxımından sağlamlığı qoruma vasitələridir. Bunlarla bağlı da yuxarıda (35-43-cü suallar) lazımi qədər məlumat verildi.

**ç) Müqəddəs yerlər.** Bir övliyaya, yəni həqiqətən yaşamış, yaxud yaşadığına inanılan bir böyük şəxsə aid ocaq/pir olmadığı halda, qayalar, ağaclar, bulaqlar, isti sular kimi cürbəcür ehtiyaclar üçün müraciət edilən yerlər də vardır. Öskürəkdən əziyyət çəkən xəstələr Əvərək yaxınlığındakı Dəlikli Qayada yarıqdan keçəndə dərdlərinə dərman taparlarmış. Malyariya tutmaları keçirnlər hətta qışın ən soyuq günlərində də yenə Əvərəkdəki bir yeraltı suda bir, iki və ən çox üç dəfə yuyunmaqla şəfa taparmış (Nicolaides, s. 337, 338). Fərat çayının mənbəyi hesab olunan Dumluya çətinliklə dünyaya uşaq gətirən qadınların və cürbəcür xəstəliklərdən əziyyət çəkən insanların müraciət etdikləri barədə yuxarıda danışdıq (18-ci sual). Trabzon yaxınlığındakı Məryəm Ana (Sumela) monastrındakı mağarada bir hovuza 30-40 metr yuxarıdan düşən damcılarla yaşlılıq və ya şikəstlik baxımından yeriyə bilməyən şəxslərin sağaldılması, Efesdəki Məryəm Ana evinin yanındakı bulağın suyundan şəfa umma, Ədrəmit yaxınlığındakı bir qayanın oyuğundakı Şıpşıp Dədəyə dilək vasitəsilə və ya suyundan götürülən çınqıl daşları ilə xəstəliklərdən xilas olma inanclarının bulağın, qayanın, mağaranın müqəddəs gücləri (qutları) ilə açıqlanmasını vurğulamağı lazım bilirik.

**d) Xızırın** müqəddəs şəxsiyyəti ilə əlaqələndirilən bir çox müalicə və qorunma əməlləri vardır. Məsələn: başqa cür istəklərlə bərabər, uşaqsız qadınların Xıdırəlləz bayramı gecə-

si bir neçə dəfə bir gül budağının dibinə kiçicik bir yelləncək asması. Bir qədər sonra Xıdırəlləz mərasim və qayda-qanunlarını tədqiq edərkən bu məsələyə toxunacağıq.

**2. Xalq təbabətində bir qisim işlər də vardır ki,** məzmunlarında həm magik elementlər, həm də həqiqi, əqli-təcrübi **(rationaiste)** üsullar da vardır. Molla Nəsrəddinin lətifədəki öyüdünü xatırlayaq: Qonşusu oxuyub üfləsin deyə inadkar keçisini Mollanın yanına gətirir. Molla: "Bi gözəl nəfəs verərəm, amma xəstəliyin heyvandan getməyini istəyirsənsə, mənim nəfəsimə sənin tərəfindən bir qədər qətran əlavə edilməlidir" deyir. Buna oxşar üfləmək üsulu ilə olsun, övliya ziyarəti formasında olsun, fərq etməz, dərdindən can qurtarmaq istəyənə mollası, ocaqlısı, türbədarı, yəni sağaltmaq əməliyyatını üstünə götürmüş olan şəxs, yaxud kitablardakı hazır "reseptlər" bu "mənəvi" vasitələrə çox vaxt "maddi" vasitələr əlavə etməyin lazım olduğunu unutmurlar. Demək mümkündür ki, hər iki tərəf: xəstə də, "həkimlik" vəzifəsini öz üzərinə götürmüş şəxs də bu materialların "mənəvi" gücü dəstəkləyəcəyinə, tamamlayacağına, yəni "dərman" xüsusiyyətinin olduğuna inanırlar.

Daha əvvəl (41-ci sual) Afyon bölgəsində köstəbək adı ilə tanınan çibanın sağaldılmasında köstəbək ətindən necə yararlanmaq lazım olduğuna toxunmuşuq. Oradakı ocağın adı da **Köstəbək ocağıdır**. İnanca görə, bu çiban vaxtı keçəndə sıraca[60] xəstəliyinə çevirə bilimiş. İstanbul xalq təbabəti ənənələrində sıraca üçün eyni üsulun tətbiq olunduğunu müşahidə edirik: "Kişi olana dişi, qadın olana erkək köstəbək yarılaraq sıracalı yerə tətbiq olunur" (M.Xalid Bayrı, **"İstanbul folkloru",** s. 108, n. 173). Əlbəttə ki, sağaltma əməllərində ocaqlının şəxsiyyəti, xəstə ilə heyvanın cinsinin fərqli olması,

---

[60] Sıraca – dəridə, xüsusilə boyunda rast gəlinən, limfa düyünlərinin şişməsi ilə müşayiət olunan vərəm növü – ***Tərcüməçi***

xəstəlik ilə "dərman"ın eyni adları daşıması... magiya nümunəsidir, amma çibanı ona hər hansı bir "maddə"ilə sarıyaraq müalicə təcrübəsi "dərman tətbiqi" düşüncəsinə əsaslanır. Eyni tipdə olan birləşdirmənin başqa bir nümunəsini ilan şərbətlilərində də müşahidə edirik. Şərbətli də, bir növ, ocaqlıdır, onun ilan sancmasına qarşı immuniteti vardır. Qabiliyyətini özü kimi başqa bir şərbətlidən əldə etmişdir və özü də başqa birinə ötürə bilər. Şərbətli olmağının ona ilan sancmasını sağaltmaq gücünü verdiyinə də inanılır. Şərbətlilərin ilan sancması zamanı tətbiq etdikləri üsulların nə qədər faydalı olması mübahisələrə səbəb olsa da, onların bu bacarığı qazanmaları, məlumatlarımıza görə, sadəcə "nəsib alma" törələri və bunları dəstəkləyən dualarla deyil, eyni zamanda ilan zəhərinə qarşı anadan gəlmə bir immunitetə sahib olmaları ilə izah olunur.

Bu qəbildən olan başqa bir müalicə metodu da "dəriyə çəkmə"dir. Bu əməl hündür bir yerdən yıxılmaq nəticəsində bədənin əzilməsi zamanı, bir də qızdırmalı xəstəliklər zamanı (ən çox isitmədə) tətbiq edilir. Yaralı və ya xəstə dərhal təzə kəsilmiş heyvan dərisinə salınmaqla tərlədilir. Ala balığı diri-diri iki yerə ayırıb, bədənin əzilmiş, göyərmiş yerinə bükmək də, dəriyə çəkmək tipində bir müalicə metodudur. Bu mövzuda S.Eyyuboğlunun əldə etdiyi məlumatlara görə, ala balığı tutub yemək əvvəllər günah hesab edilirmiş. Nevzat Gözaydın ("Türk folklor araştırmaları", № 216, 1967) dəriyə çəkmək üsulu ilə müalicə texnikası haqqında çap etdirdiyi məqaləsində əməl edilməsi vacib olan qaydaları belə sadalayır: heyvanın qurbankəsmə mərasimində olduğu kimi kəsilməsi, ətinin kasıblara paylanması, kəsilən heyvanın sahibi üçün qarşılıq olaraq dəyərinin nə olmasından asılı olmayaraq bir heyvan istəmək haqqının olması və s.

Üçüncü bir nümunəni isə "Qaranquş xidmətçilərinin" göz pərdəsi xəstəliyinin müalicə etmələrində müşahidə edirik. Bu "göz cərrahı olan mütəxəssislərin" əməliyyatlarında zahiri ba-

xımdan magik bir cəhət yoxdur. Dr. N.R.Balçıoğlunun müəyyənləşdirdiyi kimi ("Türk folklor araştırmaları", № 30, 1952), bu, sınıqçı və çıxıqçıların gördüyü işlə eyni bir üsuldur. Amma Qaranquş xidmətçiləri özlərini Qədiri təriqətindən hesab edirlər və adlarının mənşəyini qədim ocaqlılarından birinin bir padşahın qəzəbindən qaranquşa çevrilərək can qurtarması haqqındakı əfsanə ilə izah edirlər (Əli Rza Öndər, "Türk folklor araştırmaları", № 91, 1957). Bundan başqa, Kilisin xalq təbabəti ənənələrində də gözə enmiş pərdəni qaranquş qanı ilə yox etmək üsulu var (Xurşud Alparslan "Folklor xəbərləri", X, 1940, № 106).

Bütün bu saydıqlarımızdan çıxan nəticə: həqiqilik xüsusiyyəti çox aydın görünən əməllərdə belə cürbəcür inanclara, əfsanələşmiş insanların müqəddəs güclərinə əsaslanma meyli xalq təbabətinin başlıca cəhətidir. Hətta əczaçılıq fabriklərinin ən müasir dərmanlarını alarkən "şəfa niyyəti ilə" deməyi unutmayan xəstələrin sözlərində də bunun bir izahını görürük.

**46-cı sual: Xalq təbabətində başdan-başa həqiqi, rasional metodlardan da istifadə olunurmu?**

Bundan əvvəlki sualın əhatə etdiyi mövzunu tədqiq edərkən də gördüyümüz kimi, cadu xarakterli əməllərin əksəriyyətində, eyni zamanda, əqli-təcrübi (rasional) vasitə və materiallardan istifadə etmək meyli vardır. Bir qrup müalicə metodları isə tamamilə həqiqi-rasionaldır. Bunlar "ev dərmanları", "qoca arvad dərmanları" adları ilə göstərilir (Bu ikinci adda bir az kiçiltmə, lağ mənası gizlənir).

"Halk Bilgisi Haberleri" jurnalında (sayı: 42, 43, 45, 46, 48, ili: 1934-1935) M.Şakir Ülküdaşır Sinopda, eyni jurnalda (109-cu nömrə, 1940-cı il) Cahid Özteli Zilədə istifadə olunan türkəçarə dərmanlarının uzun-uzadı siyahılarını çap etdiriblər. M.Xalid Bayrının kitabında (**"İstanbul Folkloru",** s. 99-100) xəstəliklərə görə bölünmüş 223 "resept"dən ibarət bir siyahı

var. Bu qəbildən olan kitablara daha sonra Osman Bayatlının **"Şifalı Otlar və Lokman Hekim"** (İzmir, 1960), Şərəf Üsküpün **"Şifalı Otlar və Kuvvet Macunları"** (İzmir, 1968) adlı kitablarını əlavə edə bilərik. Bu məqalə və kitablarda verilən reseptlərin əksəriyyətinə daxil olan maddələrin hər hansı bir makik cəhət yox, sadəcə, "dərman" xüsusiyyəti var. Əksəriyyəti üçün müasir təbabətin qayda-qanunları da keçərlidir. Bunların böyük bir qismi apteklərdə də satılır: kafur, spirt, ixlamur, kinin, karbonat, sirkə və s. Türkəçarə dərmanların bir çoxu qədim tibb elminin bugün üçün köhnəlmiş, yeni-yeni əcza maddələrinin, müalicə üsullarının kəşfindən sonra tətbiq oluna bilməyən materillardır. Müsbət təsirlərini unutmamış köhnə nəsillərdən miras alan yeni nəsillər bu cür dərmanlara olan inamı davam etdirirlər. Bütün bunlarla bərabər, onların arasında qəribə tərkibə malik olanlar da az deyil. Bir neçə nümunə:

– Qızdırma üçün: yeddi dənə deşiyi olmayan mirvari döyülərək toz halına salınır. İçərisinə heç bir ləkəsi olmayan qara toyuğun üç damcı qanı ilə bir az qırmızı istiot əlavə olunur. Bu şəkildə bir həb düzəldilərək üç gün hər səhər xəstəyə içirdilir.

– Vərəm üçün: ölmüş itin başı yandırılaraq toz halına salınır. Bu toza ədviyyat qatılaraq xəstəyə verilir.

– Yenə vərəm üçün: İt nəcisi qatıqla qarışdırılaraq xəstəyə verilir.

– Yenə vərəm üçün: İt küçüyü kəsilərək, əti bişirilir. Xəbəri olmadan xəstəyə yedizdirilir.

Birinci reseptdəki "toyuğun heç bir ləkəsiz, qara rəngdə" olması, qan damcılarının sayının məhz "üç" olması, heç şübhə yoxdur ki, cadu elementləridir. Vərəm üçün sadalanan dərmanlarda itlərdən əldə olunan şeylərin olmasının da yenə belə bir mənası olmalıdır.

Qədim təbabət elminin müalicə üsullarının türkəçarə tədbirlərinə çevrilməsinə daha bir maraqlı nümunə də "qan al-

maq"dır. Bunun "buynuzla deşmə" və ya "zəli qoyma" kimi növləri vardır. Hacəmət mütəxəssisləri[61], adətən, hamam kisəçəkənləridir, zəli qoymanı isə ev şəraitində, xəstənin özü və ya yaxınları özləri də edə bilirlər.

Yeraltı sulara gəlincə, onların xalq inancları ilə olan əlaqəsi barədə yuxarıda (18-ci sual) danışdıq. Gördük ki, yeraltı suların meydana çıxması, əksərən, fövqəltəbii hadisələrlə əlaqələndirilir. Əksəriyyətinin yaxınlığında müqəddəs bir adamın, övliyanın məzarı vardır. Bəzi isti suların pirləri, sahibləri olduqlarına inanırlar. Şəfa bəxş etmək gücü də bu "müqəddəs" elementlərdən irəli gəlir. Amma o biri tərəfindən də, hər yeraltı qaynaqdakı suyun tərkibinə görə müəyyən bir xəstəliyə, bəziləri isə bir neçə xəstəliyə şəfa təmin etməsi məsələsində xalq təbabəti ənənələri ilə müasir elm birləşir. Bursadakı, Yalovadakı komfortlu isti suların müştəriləri həm də revmatizma həkimlərinin xəstələri ola bilirlər. Ucqar kəndlərdəki yeraltı sular, dağ başındakı, əksəriyyətinin üstü belə örtülməmiş isti su qaynaqları ağrılarını, sızıltılarını dincəltmək yollarını öz başına axtaranların ən çox getdiyi yerlərdir.

### 47-ci sual: Heyvanların sağlamlığı ilə əlaqədar ənənələr hansılardır?

Heyvandarlıq deyildiyi zaman daha çox dördayaqlı ev heyvanlarının istehsalı və onlara qulluq ağla gəlir: at, eşşək, qatır, inək, öküz, camış, dəvə kimi böyükbaş və keçi, qoyun kimi kiçikbaş heyvanlar. Xalq ənənələrini tədqiq edərkən qoyunçuların ən əhəmiyyətli köməkçisi olan itləri, türk evlərinin pişiyini, ovçuların şahin quşlarını və bütün növləri ilə hin heyvanlarını da unutmamaq lazımdır. Belə görünür ki, xalq təbabəti ilə paralel olaraq "xalq baytarlığı" ifadəsi ilə göstərə

[61] Hacəmət mütəxəssisi: qan alan türkəçarəçi – **Tərcüməçi**

biləcəyimiz bu tədqiqat sahəsi çox genişdir. Ölkəmizin folklorşünaslıq tədqiqatlarında bu zəngin mövzular haqqında araşdırmalar hələ ki azdır. Xalq təbabəti tibb elmi üzrə ixtisaslaşmış mütəxəssisləri gözlədiyi kimi, xalq baytarlığı mövzularının da ən səlahiyyətli tədqiqatçıları baytarlıq elminin müxtəlif sahələrindən gəlməlidir. Son zamanlar bizim elm aləmində bu istiqamətdə tədqiqatlara girişmiş mütəxəssislər də üzə çıxmaqdadır. Biz isə özümüzdə bu zəngin tədqiqat sahəsinin ancaq bir iki probleminə toxunmaq səlahiyyətini görürük.

Anadoluya gəlməmişdən əvvəl yaşadıqları yerlərdə də başlıca yaşayını maldarlıq vasitəsilə təmin edən köçəri və oturaq türklərin heyvanların sağlamlıqları ilə əlaqədar zəngin ənənələri var idi. Mahmud Kaşğarlının kitabında yeri gəldikcə bunun izlərinə rast gəlirik. Məsələn, o, Anadoluda da **andız** adlandırılan ot haqqında öz lüğətində bunun "atların qarnı ağrıdığı zaman dərman kimi verildiyini" deyir. Ferruh Dinçerin **"Türk folklorunda baytarlıq həkimliyi haqqında araşdırmalar"** (Ankara, 1967) adlı tədqiqatından məlum olur ki, qoyunun çiçək xəstəliyinə qarşı Aralıq dənizi bölgəsində yaşayan yörüklər özlərinin hazırladıqları peyvəndlərdən istifadə edirlər; bu peyvənd texnikasının kökləri, Dinçərin qənaətinə görə, Orta Asiya ənənələrinə gedib çıxır, yazıçıya görə, bu cür peyvəndə digər ölkələrdə rast gəlinməmişdir.

Heyvanların sağlamlığının qayğısına qalmaq, xəstəliklərini müalicə etmək yolları da eyni ilə insanlarda olduğu kimi:

1) başdan-ayağa rasional üsullar;

2) başdan-ayağa magik üsullar;

3) rasionallıq və magiyanın bir-birinə qovuşduğu üsullara bölünür.

Heyvanların sağlamlığı və qulluğu adət-ənənələrinin bu üçüncü qrup tədbirlərini araşdırarkən qoyun və keçi qırxımı, nalbəndlik, xədimə çevirmə kimi üsullarını da unutmamaq la-

zımdır. İlk baxışdan bizə elə gələ bilər ki, bütün bunların heyvanların sağlamlığına nə dəxli var? Xədimə çevirmə iribuynuzlu mal-qaradan buğa və atlara, eləcə də kiçikbaş ev heyvanlarına tətbiq olunur və bu, onların xayalarının işəyaramaz hala gətirilməsi əməliyyatıdır. Əli Rza Yalgın köçəri cəmiyyətlərin heyvandarlıq ənənələri haqqında məlumatlar verərkən ("Türk Folklor Araştırmaları", № 2, 1949) bu texnikanın müxtəlif növlərini belə sadalayır: maşınla xədimləmə, çəkmək vasitəsilə xədimləmə, buraraq xədimləmə, döyərək xədimləmə, dişlə xədimləmə. Bunlardan sonuncusunun tətbiq olunması artıq aradan qalxmaqdadır. Müəllifin 1940-cı ildə Torosların Bulqar dağı yaylaqlarındakı Bəxşiş Türkmənlərində gördüyü "dişləyərək xədimə çevirmə" haqqında verdiyi məlumata görə, bu, xədimə çevirmə üsullarının ən qədimlərindəndir: usta çoban qoçun xayalarına gedən damarlarını qabaq dişlərinin arasında sıxaraq, onları işəyaramaz hala gətirir. Ə.R.Yalgının verdiyi məlumatlara görə, bu üsul əvvəllər Macarıstanda və yaxın zamanlara qədər Orta Asiyada da tətbiq olunurmuş.

**48-ci sual: Heyvanların sağlamlığını qoruma üsullarından hansılar magik səciyyə daşıyır?**

Gözdəymənin üzərində dayandığımız zaman (35, 36 və 43-cü suallar), dediyimiz kimi, heyvanlar, ələlxüsus iribuynuzlu mal-qara da insanlar kimi gözə gələ bilirlər. Buna görə də onlara da "göz muncuğu" taxılır. Bunlar atlarda göy muncuqlarla, üçbucaq formasında, rəngli dəri zərflərin içərisində kağız dualar seriyasından olan boyun və baş bəzəkləridir.

Yuxarıda (41-ci sual) Nicolaidesin XIX əsrin axırlarına dair verdiyi məlumatlara əsaslanaraq, bəzi ocaqlıların eyni zamanda həm insan, həm də heyvanlara aid olan xəstəlikləri müalicə etmək gücünə sahib olduqlarını demişdik. Daha əvvəl başqa bir məqamla bağlı Molla Nəsrəddindən verdiyimiz lətifədə deyilir

ki, "nəfəsi ox qüvvətli" mollalar xəstə insanlar kimi, xəstə heyvanlara da dua oxuyub üfürürlər. Balıkəsirin bir kəndində tətbiq olunan, heyvanları epidemik xəstəliklərdən qorumaq üçün onların "yenidən canlandırılmış bir od"un alovlarının qabağından keçirilməsi formasında olan bir törəni də xatırlayaq (22-ci sual).

Narlıdərə Taxtaçılarından aldığımız məlumata görə, yük atlarının piri Axsaq Molla deyilən və məkanının harada olduğu bilinməyən bir övliyadır. Atlar sancılandığı zaman onun adına şorba nəzir edərlər. Qulapa kəndində öyrəndiyimiz məlumata görə, Afyon bölgəsində Qara Baba adı ilə xatırlanan iki övliya vardır. Heyvanlar qara yara xəstəliyinə tutulduqları zaman çoban sürünü bu övliyaların məzarlarının ətrafında üç və ya yeddi dəfə fırladır, çomağını qəbirin üstünə atır, orada qalaqlanmış dəyənəklərdən birini götürür. Sonra övliyaya hər sürüdən nəzir olaraq bir qurban verilir.

Xəstəlikləri müalicə etmək üçün müraciət edilən "heyvan övliyaları"nın olduğuna dair üç fakt: Səlanikdə bir, İstanbulda isə iki "At qəbri" vardır. İstanbuldakının birinə (Qaraca Əhməd Sultanın atına) vaxtında yeriməyən uşaqları aparırmışlar. O biri "At övliyası"na sancılanmış atlar aparılır və qəbrin ətrafında üç dəfə dolandırılırdı. Orada Padşah İkinci Osmanın (Gənc Osman) Sisli-Qır adlı atı basdırılmışdı (Bax. "İstanbul Ansiklopedisi", **At mezarı** maddəsi).

**49-cu sual: Təqvimlərə, hava dəyişikliklərinə, mövsümlərə və aylara dair xalq ənənələri hansılardır?**

Bu sualın əhatə etdiyi faktlardan bəzilərinə yuxarıda ulduzlarla (6-cı sual), təbiət hadisələri ilə (17-ci sual), günlərə aid işlərlə (27-ci sual) əlaqədar inancları və adətləri tədqiq edərkən, dolayısı ilə də olsa, toxunduq. İrəlidə bayramları və ilin bəlli mövsümlərində, bəlli günlərində təşkil olunan məra-

simləri və mərasim əyləncələrini gözdən keçirtdiyimiz zaman da, yeri gəldikcə, bunlardan bəziləri haqqında bəhs edəcəyik.

Xalq təqvimlərini tədqiq etməyə başlamazdan əvvəl rəsmi təqvimlərə dair bir-iki kəlmə söz deyək. Bugün əhalisinin əksəriyyəti müsəlman olan ölkəmizdə iki təqvim istifadə olunur: 1) bir ili ayın 29-30 günlük dövr ərzində dəyişməyinə əsasən 12 yerə bölən, yəni ildə 354/355 gün sayan ay təqvimi ("qəməri təqvim"); 2) dünyanın günəşin oxu ətrafında 365/366 günlük dövretməsinə əsaslanan, qərb ölkələri ilə ortaq günəş təqvimi ("şəmsi təqvim"). Xalq ənənələri ilə əlaqədar günlər üçün bu iki təqvimdən də istifadə olunur: dini bayramlar üçün isə ay təqvimindən, başqa cür mərasim və işlər üçün isə mövsümləri göstərmək üçün əlverişli olan günəş təqvimindən.

Bizim cəmiyyətimizdə 1925-ci ildən əvvəlki illər, əsas etibarı ilə, bu iki təqvimə əsaslanaraq göstərilirdi. Birinci üçün başlanğıc Məhəmməd peyğəmbərin (s.) Məkkədən Mədinəyə köç etdiyi miladi təqvimin 622-ci ilinin 17 iyul günü idi. Ona görə buna "hicri təqvim" də deyilir.

İkinciyə gəldikdə isə, bunun başlanğıcı hər nə qədər bugün İsanın anadan olduğu gündürsə də (daha doğrusu, doğulması deyə qəbul edilən tarixdən bir həftə sonra), 1672-ci ildən sonra Osmanlı üsul-idarəsində tətbiq olunan yeni bir təqvim o ili hicri hesabı ilə olduğu kimi, yəni 1087 kimi buraxaraq, ondan sonrakı illəri günəş təqviminə görə hesablamaq düşüncəsinə əsaslanırdı və bu təqvimə “mali-rumi” adı verilmişdi. 1332-ci mali-rumi ilinə (1916-cı miladi ilinə) qədər bu təqvim ortodoksal xristian ölkələrinin istifadə etdikləri **julien** təqvimi üslubunda idi, yəni protestant və katolik ölkələrinin qriqoryan təqvimi ilə 1894-cü ildən bu yana 13 günlük bir fərq göstərirdi. Bizim tarixləri həmin qriqoryan təqvimi ilə uyğunlaşdırmaq üçün 13 gün əlavə etmək lazım gəlirdi, yeni il isə mart ayı idi. 1916-cı ildə qriqoryan təqvimi bu 13 günlük fərq ara-

dan qaldırılmaqla qüvvəyə mindi, ama yeni il 1925-ci ilə qədər yenə də mart ayı qaldı. Belə çıxır ki, 1925-ci ildən əvvəl anadan olmuş şəxslər üçün bu gün üç fərqli "doğum tarixi" ilə qarşılaşacağıq. Məsələn: 1) Bugünkü təqvimə görə 2 sentyabr 1907-ci ildə anadan olmuş bir şəxs, 2) hicri-şəmsi (rumi-mali) təqviminə görə 20 avqust 1323-cü ildə, 3) hicri-qəməri təqviminə əsasən 24 rəcəb 1325-ci ildə anadan olmuşdur.

Xalq ənənələrində təqvim mövzusuna qayıdaq. Keçmiş zamanlarda bəlli bir hadisənin zamanını göstərmək üçün xalq dilində nümunələrinə tez-tez rast gəlinən üsul cəmiyyətin həyatında iz buraxmış daha əhəmiyyətli bir hadisənin yaddaş daşı kimi götürülməsidir: Səfərbərlik (1914-1918-ci illər müharibəsi), 93 döyüşü (1876), Balkan müharibəsi (1912), Ərzincan zəlzələsi (1939) və s. Bəzən də əksinə bir üsul seçilərək, bir hadisənin tarixini danışan adam öz yaşını başlanğıc nöqtəsi kimi vurğulayır: "Mən 15 yaşında olarkən...". Bunlar, şübhəsiz ki, fərdi xarakter daşıyan üsullardır və bunları, sadəcə, təqvim anlayışının ən müxtəlif formalarının olduğunu vurğulamaq üçün yada saldıq.

Gecə və gündüz, təbii ki, günəşin batması vaxtı ilə doğması arasındakı zaman bölümləridir. Ancaq qərb ənənəsindən fərqli olaraq, bizdə gün[62] axşam günəşin batmasından sonra başlayır. Məsələn, cümə axşamı günü günəşin batmasından sonrakı vaxtdan sabah günəş batana qədər cümə günü hesab edilir.

Həftənin günlərinin hər kəs tərəfindən bilinən "rəsmi" adları olmaqla bərabər, bölgələrə, müxtəlif qəsəbələrə görə xüsusi adlar daşıyan günlər də vardır. İki misal verək. Dənizlinin Çal mahalına tabe Mahmudqazi kəndində:

| **yerli gün adları:** | **rəsmi gün adları:** |
|---|---|
| cümə | cümə |
| şənbə | şənbə |

---

[62] Sutka – ***Tərcüməçi***

| | |
|---|---|
| girəyi | bazar |
| bazar | bazar ertəsi |
| bazarertəsi | çərşənbə axşamı |
| işıqlı | çərşənbə |
| cümə axşamı | cümə axşamı (pərşənbə) |

(M.Toğrul. **Mahmutqazi köyü...,** İstanbul 1969, s. 222)

Bolunun Mudurnu ilçəsində:

| **yerli gün adları:** | **rəsmi gün adları:** |
|---|---|
| cümə | cümə |
| bazar | şənbə |
| bazar ertəsi | bazar |
| Bolu bazarı | bazar ertəsi |
| dərnək | çərşənbə axşamı |
| çərşənbə | çərşənbə |
| cümə axşamı (pərşənbə) | cümə axşamı (pərşənbə) |

Göründüyü kimi, günlərin adlandırılmasına həftə ərzində bölgənin ticarət mərkəzi olan qəsəbədə bazarların qurulma günü öz təsirini göstərir. Cümə dini xarakteri etibarı ilə heç bir yerdə öz adını dəyişmir. Mahmudqazi kəndində bazar gününün adı olan **girəyi sözü** yunan dilindən gəlmədir. Bu fakta Anadolunun başqa yerlərində də rast gəlirik.

Yaşayışlarını əkinçilik və heyvandarlıqla təmin edən insanların təqvimləri, əlbəttə ki, mövsümlərin və hər mövsüm daxilindəki bölünmələrin il ərzində hər dəfə eyni hava şərtlərinə rast gəlməsi sistemində olacaqdır. Belə ki, bu tərəflərin xalq təqvimləri günəş təqvimindən elə də fərqlənmir, eyni təsəvvürlərə əsaslanır. Ancaq ayların adlarında və bölünmələrində müxtəlif faktorlar nəticəsində əmələ gələn çeşidlənmələr müşahidə olunur. Bunu bir neçə misal üzərində izləyək.

**1) Mahmudqazi kəndində (Dənizli/Çal):**

| | | |
|---|---|---|
| yaz : | mart | (22 mart – 5 may) |
| | xıdırəlləz | (6 may – 21 iyun) |
| yay: | gündönümü | (22 iyun – 13 avqust) |
| | avqust | (14 avqust – 21 sentyabr) |
| payız: | güz | (22 sentyabr – 5 noyabr) |
| | qasım | (6 noyabr – 21 dekabr) |
| qış: | zəmhəri | (22 dekabr – 31 yanvar) |
| | qara qış | (1 fevral – 21 mart) |

Bu təqvimdə diqqəti cəlb edən məqam ilin hər fəsildə iki ay hesabı ilə səkkiz aya bölünməsidir.

**Darəndədə:**

| | |
|---|---|
| orta qara qış | (yanvar) |
| gücük | (fevral) |
| mart | |
| lisan | (aprel) |
| mayıs | (may) |
| ilk temus | (iyun) |
| orta temus | (iyul) |
| son temus | (avqust) |
| ilk güz | (sentyabr) |
| orta güz | (oktyabr) |
| son güz | (noyabr) |
| ilk qara qış | (dekabr) |

**2) Girəsunda, Koroğlu kəndi:**

| | |
|---|---|
| zəmhəri | (yanvar) |
| gücük | (fevral) |
| mart | |
| abrul | (aprel) |
| mayıs | (may) |
| kiraz | (iyun) |

| | |
|---|---|
| oraq | (iyul) |
| ağustos | |
| haç ayı | (sentyabr) |
| avara | (oktyabr) |
| qoç ayı | (noyabr) |
| qara qış | (dekabr) |

**3) Ərzincanda Səmək kəndi:**

| | |
|---|---|
| zəmhəri | (yanvar) |
| şubat | (fevral) |
| mart | |
| abril | (aprel) |
| may, iyun, iyul, avqust, sentyabr | |
| havara | (oktyabr) |
| qoç ayı | (noyabr) |
| qara qış | (dekabr) |

**4) Muş və ətrafında:**

| | |
|---|---|
| qanuni-sani | (yanvar) |
| sıbat | (fevral) |
| adar və ya mart | (mart) |
| ebrul və ya aprel | (aprel) |
| gulan | (may) |
| iyun, iyul | |
| tabaq | (avqust) |
| sentyabr | |
| birinci çirin və ya təşrini-əvvəl | (oktyabr) |
| ikinci çirin və ya təşrini-sani | (noyabr) |
| qanuni-əvvəl | (dekabr) |

**5) Van mahalına tabe Ərciş qəsəbəsi və ətrafında:**

| | |
|---|---|
| mart | (13 mart – 12 aprel) |
| aprel | |

gülan (may)
iyun, iyul, avqust, sentyabr
təşrini-əvvəl (oktyabr)
təşrini-sani (noyabr)
qanuni əvvəl (dekabr)
qanun-i sani (yanvar)
15 gün zəmhəri
15 gün qara qış

(2-6 nömrəli təqvimlər M.Kemal Özərginin "Türk folklor araşdırmaları" jurnalının 238-ci sayındakı məqaləsindən götürülmüşdür.)

Göründüyü kimi, bəzi ay adları rəsmi təqvimlərdəki adlarla eynidir, bəzi yerlərdə rəsmi təqvimdəki qədim adlar qalmışdır: təşrin-i əvvəl, qanun-i sani. Muş bölgəsindəki **"adar"** adı İran əsilli bir dildən (bəlkə də, kürd dilindən) gəlmədir (fars dilində **"azər":** mart). Başqa adların mənşəyi barədə də geniş şəkildə danışmaq olar. İlk baxışda gözə çarpan bizim xalq təqvimlərimizin ay adlarında qarışıq mədəni təsirlərin paya malik olmasıdır. Bunların arasında türk mənşəli olanlar və Anadoludakı kəndli, köçəri xalqın yaşayış şərtlərindən təsirlənmiş olanlar üzərində bir qədər dayanaq.

Adıçəkilən təqvimlərin əksəriyyətində qış aylarından birini və ya bir ayın bir hissəsini göstərən **qara qış** ifadəsindəki **qara** sifətinə mənfi məna yüklənmişdir. Bu, kəndlinin iş görə bilmədiyi və ən çox sıxıntılı günlərini əhatə edən bir zaman kəsiyidir. Darəndə təqvimində **ilk** və **orta** sifətləri əlavə olunaraq iki ay bu adla göstərilmişdir. İki təqvimdə **havara** və **avara** formalarında işlərin (burada oktyabr işlərinin) qurtararaq, əkinçinin avara qaldığı dövrü göstərən adlar istifadə edilmişdir. Bir çox təqvimlərdə fevral, onun başqa aylara nisbətən qısa olduğunu vurğulamaq üçün **gücük** deyə adlandırılmışdır. Oktyabr ayının məşğuliyyət-

ləri, heyvandarlıq, meyvəçilik işləri də bəzi təqvimlərə ayların, yaxud uzun və qısa vaxtların adlarını bildirən ifadələr verir: qoç ayı (qoçların bir-birinə qatıldığı ay), oraq ayı, gilas ayı... və s. Heyvandarlıqla əlaqədar kəlmələri ay adlarını göstərmək üçün istifadə etmək türklərdə qədim bir ənənədir. Heyvandarlıqla bağlı sözləri ay adlarını göstərmək üçün istifadə etmək Türklərin ən qədim adətlərindəndir; Mahmud Kaşğarlının lüğətində qışın yaxınlaşdığı bir dönəmə qoçların qatılması mənasında **koy kögi,** yazın başlanmasından sonra gələn aya (22 mart – 22 aprel) **oğlaq ay** və ondan sonra gələnə isə **uluq oğlaq ay** deyilir. Anadolu təqvimlərində qoç qatımını göstərən dönəmlərdən başqa, müəyyən fəsil bölünmələrinin **döl tökümü, quzu ayı** (Qars bölgəsində, mart ayı üçün), **döl başı** ifadələri ilə göstərilməsi eyni üsulun müxtəlif variantlarıdır. Bu sonuncu adı çəkilən ay xalq təqvimlərində eyni ifadələrlə göstərilən vaxtların rəsmi təqvimdə eyni aylara və ya ayın müəyyən hissələrinə təsadüf etdirilməsi düşünülə bilməz. Belə ki, qoç qatımı, ya da döl tökümü hər bölgənin iqlim şərtlərinə əsasən daha əvvəl və ya daha gec olur.

İlin fəsillərə ayrılmasında dəyişilməyən bəzi qaydalar da vardır. Bunlardan ən tutarlı və ən geniş yayılmış olanı ili **qasım** və **xıdırəlləz** deyə iki hissəyə ayırmaq qaydasıdır. Qasım rəsmi təqvimdə də noyabr dediyimiz ayın əvvəllərində daxil olur, xıdırəlləz isə 6 maydan etibarən başlayır.

Fəsillərlə əlaqədar başqa geniş yayılmış bir inancdan – cəmrələrdən yuxarıda (17-ci sualda) bəhs etdik.

Anadolunun şərq bölgəsi ilə yanaşı başqa bölgələrdə, xüsusilə, ələvi topluluqları arasında **Novruz** (22 mart – köhnə mart ayının doqquzu) yeni il hesab olunur. Bu tarix yazın başlanğıcı kimi bir çox mədəniyyətlərdə yeni il hesab olunmuşdur. Şərqi Anadolu ənənələrində Novruzu Nuh Peyğəmbərin yanındakılarla birgə öz gəmisindən çıxaraq, Ağrı dağının təpəsindən Sürməli Çuxuruna endiyi gün hesab edilməsi inancına

da rast gəlinir. Narlıdərə Taxtaçılarının inanclarına görə isə Novruz Həzrət Əlinin dünyaya gəldiyi gündür. Novruzla yay günləri başlayır, Tanrı yay günlərini "heç qurtarmayan işlər qurtarsın" deyə uzun, qış günlərini isə "çatmayan yeməklər çatsın" deyə qısa yaratmışdır. Həmin bu Taxtaçılar həftənin müqəddəs günü olan cüməni də Əlinin doğum günü hesab edirlər.

Mövsüm dəyişiklikləri ilə əlaqədar başqa bir regional ənənə "ulduz sıçrayışı" və ya "daşın daşdan gizlənməsi" kimi mənalandırılan inancdır. Bu zəmhərinin 27-sinə, yəni 18 yanvar gününə verilən bir addır. "Ulduz sıçrayandan sonra daş daşdan gizləndi" deyirlər, yəni ayaz daha əvvəl təpə tərəfdən gəldiyi halda, ulduz sıçrayandan sonra yan tərəfdən əsdiyi üçün əkinlər iki daşın arasındakı soyuqdan qorunurmuş (Heydər Çingiz, **Ilgından saya,** "Türk Folklor Araştırmaları", sayı 182, 1964).

Ulduzların vəziyyəti ilə əlaqədar olub, fəsillərin dəyişməsini aydınlaşdıran daha iki ənənə haqqında danışaq. Bunlardan birini, yəni Ülkər ulduzunun Tərəzidən ulduz oğurlamasını yuxarıda (6-cı sual) ulduzlarla əlaqədar inanclardan danışarkən qeyd etdik. İkincisi, Anadolu xalq təqvimlərinə Orta Asiya ənənələrindən gəlmə bir element kimi diqqət verməyə dəyər. Türklərlə monqollar ortaq olduğuna görə bunun kökü çox qədim bir mədəni birliyə gedib çıxır. Anadolunun bir çox yerlərində qışdan yaza doğru getdiyimiz zaman bir ay arada olmaq şərti ilə **doqquza, yeddiyə, beşə, üçə, birə** deyə göstərilən günlər vardır (**Söz derleme dergisi**ne əlavə "Folklor Sözləri"ndə bu sözlərə bax). Bu günlər, dokuzadan başlayaraq sırası ilə Qaziantepdə: yeddiyə yanvarın sonu ilə fevralın üç həftəsi, beşə fevralın sonu ilə martın üç həftəsi, üçə martın sonu ilə nisanın ilk həftələri, birə aprelin sonu ilə mayın ilk həftələri göstərilir. Mudurnuda da doqquz üçün dekabr-yanvar, yeddi üçün yanvar-fevral, beş üçün fevral-mart, üç üçün mart-aprel göstərilir. Mudurnuda bu günlərə "ulduz danışığı" deyirlər. Bu "danışıq" ifadəsi

Ülkər ulduzu ilə Ayın yan-yana durmalarını izah etmək üçün istifadə edilir. Bu hadisə buryatların dilində **tok** (vurmaq) kökünə gedib çıxan bir söz ilə göstərilir. Mudurnuda bu günlərdəki hava şərtləri barədə danışan bir yanıltmacda deyilir:

Ay danışa yediyə,
Payaların başı dönə qazıya.
Ay danışa beşə,
Sular bəndindən aşa.
Ay danışa üçə,
Hərkəs yaylağa köçə.

Bu ifadələrdəki doqquza, yeddiyə... rəqəmləri təzə ayın doğulacağı günlərə neçə gün qaldığını göstərir. Türk xalq təqvimlərinin bu ənənəsinə 1551-ci il tarixində Osmanlı dönəmində yazılmış ərəbcə-türkcə bir lüğətdə işarə vardır. Orada qanuni-əvvəl (dekabr) üçün **doqquza** ifadəsi istifadə olunmuşdur (**Tanıklariyle Tarama Sözlüğü,** "doqquza" sözü). Bunu da əlavə edək ki, Ülkər top ulduzu noyabr ayının başından etibarən görünməyə başlayır və may ayından (xıdırəlləz) sonra görünməz olur. Ərəb dilindən alınmış olan **qasım** sözü qədim türk ənənəsindəki **biçin**in ili iki hissəyə bölən mənasında, bir növ, tərcüməsidir. Ülkər kəlməsi də eyni mənada **-ül** kökündən gəlmiş olmalıdır.

**50-ci sual: Yağış, soyuq kimi hava şərtlərinə hansı magik tədbirlərlə təsir edilir?**

Bunlardan yurdumuzda ən çox rast gəlinən mövsümü gəlsə də, gecikən yağışların yağmasını təmin etmək və beləcə quraqlığın, qıtlığın qarşısını almaq üçün görülən tədbirlərdir. Bu mərasimlər iki istiqamətdən araşdırılmalıdır:

a) Böyüklərin qatıldığı "yağış duaları" ilə bunlara bağlı magik detallar;

b) Müasir dövrümüzdə uşaqlarla bağlı ənənələr arasında yer alan oyun mərasimləri. Bu axırıncılar da qədim "ciddi" mərasimlərin qalıqları olmalıdır.

Yağış dualarının ana xətləri bunlardır:

1) Xeyli çay daşının hər birinin üzərinə qısaca dualar oxuyaraq, onları bir torbanın içində suya batırırlar. Daşların sayı yerlərinə görə fərqli olur: ən az 41, ən çox 70, ya da hətta 75 min olduğu barədə müəyyən məlumatlar toplanılmışdır. Daşların sayı minləri, on minləri keçdiyi zaman çay daşlarının toplanması və duaların oxunması işi bir çox adamların arasında paylaşılır. Yağışın yetəri qədər yağdığı qənaətinə gəlindiyi zaman daşlar sudan çıxardılır. Bir tək daşın belə suya düşməməyinə xüsusi diqqət yetirilməlidir, belə ki, çay daşları suda qalarsa, yağışın kəsilməyəcəyinə, tufan halını alacağına inanırlar.

2) Kiçik uşaqların da iştirak etdiyi kütlələr ilahilər oxuyaraq, adətən, şəhərdən kənarda hündür bir yerdə, bir övliya qəbrinin yaxınlığında dua mərasimi təşkil edilir. Yalvarış əsnasında paltarlar tərsinə geyilir; əllər, barmaqlar aşağıya yerə tərəf çevrilərək havaya tərəf qaldırılır. Əllərin belə tutulması yağışın göydən yerə endiyini xatırlatmaq, arzuları daha qabarıq vurğulamaq üçündür.

3) Ortaq bir şəkildə hazırlanan "xeyir aşı" dua edilən yerdə fəqir-füqəraya paylanılır və hamı birlikdə yeyir. Bəzi nağıllarda rast gəldiyimiz bir motiv, bir növ, bu ənənəyə bağlı olmalıdır: padşah gecə vaxtı qapı-qapı dolaşaraq, heç kimə bildirmədən xalqın düşüncələri, qayğıları barədə öyrənmək istəyir, hallarından şikayət edən fəqir-füqəranın yerlərini öyrənir və onları sevindirməklə ölkənin quraqlıq fəlakətinə düçar olmasının qarşısını alacağına inanır. Yağış duası mərasimi əsnasında verilən xeyir aşı da bu üsulla Tanrının könlünü xoş etmək məqsədi güdür.

4) Yenə Tanrının imkansızlara yazığı gəlməsini təmin etmək üçün analarından ayrı salınan quzular mələdilir, buzovlar

böyürdülür, əmzikli uşaqlar ağladılır. Beləliklə, Tanrıya torpağın da süddən yanıq qalmış körpələr kimi su istədiyi bildirilir.

Bu əməmliyyatların hər yerdə bütün detalları ilə tam şəkildə tətbiq olunduğunu düşünmək yanlış olardı. Ən çox rast gəlinənlər dua və ilahilərlə, daşa dua oxumaq ünsürləridir. Mərasimlər əsnasında toplu halda oxunan yağış ilahiləri xalq şeirinin xüsusi bir növünü meydana çıxarır. Qədim cünglərdə bunların nümunələrinə rast gəlinir. Ankara Milli Kitabxanasında Əhməd Şükrü Əsən Cünglərinin birindən götürdüyümüz bu parçaya diqqət edək:

Ağlaşıb qapına gəlmişik,
Bu möhtaclar yağış istər.
İlahi, rəhmətin nəşr et
Quruyan əkin üstünə.
Əkinlər qurudu qaldı,
Hamısı saraldı, soldu.
Sənə məlumdur əhvalı,
Niyaz edər sənə sarı.
Günahımız çoxdur, amma
Səndən qeyri səcdəmiz yox.
Səni tək bilirik Rəbbim,
Durarıq qibləyə tərəf.
İlahi rəhmətin nəşr et,
Əkinlərimiz üstünə.

Bəzi yerlərdəki yağış dualarında detal səciyyəsi daşımaqla bərabər, diqqəti cəlb edən elementlər müşahidə olunur. Məsələn, Kütahyanın bir kəndində kişilərlə uşaqların əvəzinə gənc qızların duaya çıxması, hər qızın övliya məzarında bir şam yandırması və duaların qəbrin yan başında edilməsi, Kütahya qəsəbəsində dua edildikdən sonra da yağış yağmazsa, bir ağzıboşun dua yerində sanki Tanrıya üsyan edirmiş kimi danışdırılması və s. Bu son ənənə Çinlilərin dua mərasimləri

ilə yağışın yağmağını təmin edə bilmədikləri zaman Yağış Tanrısının heykəlini ona acıqlı olduqlarını başa salmaq üçün fişəng topasının içərisinə basdırmalarını xatırladır.

Yağış mərasimlərindəki daş elementinin kökü, hər halda, türklərlə monqolların ortaq ənənəsi olan "yada daşı" mərasiminə gəlib çıxır. Yada kəlməsi, bildiyimiz qədəri ilə, Anadoluda yalnız Ərzurum bölgəsində **yad muncuğu** ifadəsində yaşayır. Bu, bir növ, göz muncuğu kimi bir şeydir, zahının və ya yenicə doğulmuş körpənin bəzi xəstəliklərdən və zərərli təsirlərdən qorunması üçün istifadə edilir. Bunun yağış yağdırmaq ənənələri ilə bağlılığı haqqında isə bir məlumatımız yoxdur (Bax. Sırrı Numan, "Halk Bilgisi Haberleri", I, 1930, səh. 58-59).

Yada daşının adı çəkilən mərasimlərdə istifadə olunması və başqa magik güclər haqqında zəngin məlumatlara Çin və ərəb qaynaqlarında rast gəlinir. Haradan və necə əldə olunması barədə izahlar müxtəlifdir. Bir çaydan, bir heyvanın qarnından, yaxud başından, müəyyən bir bitkini xüsusi şərtlərlə sökmək yolu ilə "yada"nı əldə etmək və istifadə etmək səlahiyyəti qazanılırmış (Türk və monqol ənənələrində yada daşı və bu məsələdə doğru-dürüst mənbələr üçün "İslam ensiklopediyası"nda **İstisqa** maddəsinə baxılsın.)

Yağış yağdırmaq məqsədilə müraciət edilən və həm də az yayılmış tədbirlər bunlardır: İlan öldürüldükdən sonra qarın hissəsi göyə tərəf basdırılır, yaxud ağaca asılır (Balıkəsir). Quru at kəlləsini (Toqat), ölü kəlləsini (Həsənqala), məzar daşını və ya tabutu (Of) suya batırırlar. Suyun dəyirmandan çıxıp köpüklənərək töküldüyü yerə iki dəliqanlı cavanı atırlar (Isparta). Anasının ilk və tək olan uşağını paltarları ilə birlikdə bir bulağın gözünə batırıb-çıxararlar (Kütahya). Bütün bu işlər qurban rituallarının zarafata və oyuna çevrilmiş qalıqlarıdır.

İkinci qrup mərasimlərə gəldikdə isə, bunlar, yuxarıda da qeyd etdiyimiz kimi, bu gün uşaqlarla bağlı ənənələrdə öz

yerini tapmışdır. Əsas xüsusiyyətləri, yuxarıdakı işlərin bir çoxunda olduğu kimi, bir növ "sympathique"[63] xarakterli cadu işini görmələri, təbiət şərtlərinə bənzətmə yolu ilə təsir göstərməyi məqsəd kimi qarşılarına qoymalarıdır. Mərasim ana xətləri etibarı ilə belə baş verir: müxtəlif yerlərdə Qaşıq-Qadın, Çömçə-Gəlin, Yağış Gəlini deyə adlandırılan bir gəlinciyi uşaqlar mərasimə məxsus nəğmələr oxuyaraq qapı-qapı gəzdirirlər. Qadınlar evlərdən bu gəlinciyin başına sular tökür və uşaqlara da yeməli şeylər, yaxud yemək hazırlana biləcək müəyyən qida maddələri verirlər. Bəzi yerlərdə gəlincik yerinə əcayib paltarlara bükülmüş bir uşaq gəzdirilir və o, evlərdən tökülən su ilə isladılır. Uşaqlar topladıqları ərzaqla bir süfrə hazırlayır və cəm halında yemək yeyirlər. Balıkəsirdə, Qaşıqcıq adı verilən və kukla qiyafəsinə girmiş uşağın anasının ilk uşağı olması əsas şərtdir. Samsun və Sinop bölgələrində bu mərasimə **gödə-gödə** deyilir. Gödə buranın camaatının dilində qurbağa mənasını verir. Uşaqlar içində qurbağa olan su dolu bir qabı qapı-qapı gəzdirir və ərzaq toplayırlar.

Quraqlıq zamanı yağışı təmin etmək üçün görülən tədbirlərlə yanaşı, yağışın zərərverici bir afətə çevrilməsi halında da görülən tədbirlər vardır: 41 keçəlin adları bir-bir sadalanaraq bir ipə 41 ədəd düyün vurulur və bu ipi üzü qibləyə olan bir divara asırlar (Trabzon). Buradakı "keçəl adamların adlarını çəkməyin" tükün çıxmaması ilə sudan məhrum olmuş torpağın bitkisiz qalmış vəziyyətini ifadə edən, düyün vurmanın da bağlamaq cadularında olduğu kimi (bax: 38-40-cı suallar) durma, bitmə, kəsilmə kimi mənfi nəticələri çəkib gətirən rəmzlər olduğunu düşünmək mümkündür. Ərzurumda bu əməliyyatın bir oxşarı, əksinə, yağış yağdırmaq üçün istifadə olunur. 41 nəfər keçəl adamın adı 41 düyün üzərinə oxunur və sonda ip yerə basdırılır.

---

[63] Simpatik magiya dedikdə oxşatma/bənzətmə və təmas prinsiplərinə əsaslanan magiya nəzərdə tutulur – ***Tərcüməçi***

İçeldə dolunu dayandırmaq və onun zərərlərindən əkinləri, paxlalı bitkiləri qorumaq üçün görülən tədbir belə icra edilir: Bir ananın ilk uşağı "anamın ilkiyəm" deyərək, torpağın üzərinə balta, oraq kimi kəsici alətləri atır. Burada simvolika alətlərdəki "kəsmək" gücü ilə dolunun kəsilməyi arasındakı əlaqəni ifadə edir. İlk uşağın vasitəçi olması faktına yuxarıdakı bəzi tədbirlərdə də rast gəldik. Xalq inanışlarında ilk uşağa sonrakılara nisbətən daha böyük bacarıq, güc və dəyər daşıyıcısı kimi yanaşılır.

Soyuq havaların uzun çəkməsi cürbəcür zərərlərə, qış ərzağı və yanacağı qurtarmış evlər üçün böyük sıxıntılara yol açır. Daha sonra bayramları tədqiq edərkən görəcəyimiz kimi, bəzi mövsüm mərasimlərində hava şərtlərinə birbaşa təsir göstərmək, yaxud qızın yaza çevrilməyini xəbər vermək və bundan doğan sevinc hissini bayram etmək xüsusiyyətləri üzə çıxacaqdır. Ispartada qədim zamanlarda soyuq havalar uzun çəkərdisə, havanın yumşalmağını təmin etmək üçün toyu təqlid edən bir mərasim təşkil olunurmuş. Bu əyləncəli şənliyə "Lodosun[64] qızını Poyrazın[65]oğlu ilə evləndirmə" deyilirmiş. Mərasim qışın sonlarına doğru təşkil olunurmuş. Toy (salı) günü gəlin bəzədilir, çərşənbə günü bütün məhəllə camaatı qonaqlığa dəvət olunurdu. Daha əvvəl toplanmış ərzaqlarla hazırlanmış yeməklər və evdən gətirilmiş yeməklər həmin gün hər məhəllənin məscid meydanında bir yerdə yeyilir. Qadının yazdığı "izinnamə", yəni evlənəcək şəxslərin nikahlarının kəsilməyinə icazə verildiyini bildirən sənəd meydandakı ağacdan asılır və qonaqlıq əyləncələrlə davam edirdi... Əgər bu toy mərasimindən sonra havalar yumşalmırdısa, "Lodosun qızını Poyrazın oğlu bəyənmədi" – deyə zarafat edilirmiş. Hikmət Turxan Dağlıoğlu mərasimi detalları ilə izah edərək, "izinnamə" nümunələrindən birini də çap etdirmişdir. (Bax: "Halk Bilgisi Haberleri", I, 1930, s. 69-71).

---

[64] Lodos: cənub küləyi – ***Tərcüməçi***
[65] Poyraz: şimal küləyi – ***Tərcüməçi***

# III BÖLÜM

## BEŞİKDƏN MƏZARA QƏDƏR KEÇİD MƏRASİMLƏRİ

### 51-ci sual: Övladının olmasını istəyən qadın hansı çarələrə üz tutur? Bəs uşaq istəməyən nə edir?

Bu sual və bundan sonrakı iki sualın əhatə etdiyi mövzularla əlaqədar bol-bol faktlar toplanmış və çap olunmuşdur. Biz isə xüsusilə bu üç əsərdən yararlandıq: 1) Orhan Acıpayamlı. **Türkiyede doğumla ilgili adet ve inanmaların etnolojik etüdü.** Erzurum, 1961-ci il; 2) Sedat Veyis Örnek. **Sivas ve çevresinde hayatın çeşitli safhalarıyla ilgili batıl inanışların ve büyüsel işlemlerin etnolojik tetkiki.** Ankara, 1966; 3) Michele Nicolas. **Croyances et praticues populaires turques concernant les naissances** (Region de Bergama). Paris, 1972.

Gənc qadın, hətta ərə getməzdən əvvəl gənc qız özünün uşağı olub-olmayacağını öyrənmək üçün səbirsizlik edir, fal kimi bəzi işlərə üz tutur. Məsələn, Balıkəsirdə Dəvə Dədə və Çırçır Dədə adlı övliyalardan birinin məzarına gedir, orada bir kiçik yelləncək qurur, içərisinə dəvə formasında bir taş qoyur, əgər yelləncək öz-özünə yellənərsə, uşağın olacağı, yellənməzsə, olmayacağı qənaətinə gəlirlər.

Gənc qadının uşaq (və əvvəlcə oğlan uşağı) sahibi olmaq üçün evliliyinin ta başlanğıcından tətbiq olunan bəzi tədbirlər də vardır: təzə gəlinin yatağında daha gərdəkdən əvvəl bir oğlan uşağını dımırlatmaq, gəlinin qucağına bir oğlan uşağı vermək və s.

Bütün bunlar, bir növ ehtiyat tədbirləridir. Amma evləndikdən sonra əgər uzun bir vaxt keçirsə, uşağın olacağını bildirən əlamətlər də gecikirsə, bu zaman gənc qadın qısırlıq

şübhəsinə düşür və bu qüsurunu, ya da bu gecikməyə yol açan hər hansı bir səbəbi aradan qaldırmaq üçün müxtəlif çarələrə üz tutur. Bunları iki hissəyə ayırmaq olar:

a) Fövqəltəbii qüvvələrdən kömək almaq və cürbəcür cadu-pitik tədbirləri;

b) Rasional "dərman" və "bərpa etmə" tipində tədbirlər.

Birinci bölümdəki tədbirlərin başında övliya ziyarətləri gəlir. Hikmət Tanyunun kitabında (**Ankara ve çevresinde adak;** seriyada "uşaq" sözünə baxılsın) bunlardan bütün Türkiyə üçün 39 dənəsi verilmişdir, həqiqətdə isə, bu rəqəm daha da çox olmalıdır. Michele Nicolas yuxarıda adını çəkdiyimiz kitabında Bergama və ətrafında altı övliyadan beşinin bu məqsədlə ziyarət edildiyini göstərir. Bizə görə, demək olar ki, hər bir övliyadan bu "lütf" gözlənir. Övliya ziyarəti qaydalarına əlavə olunmalı olan əməllər də cürbəcürdür. Bunlarla əlaqədar yuxarıda (45-ci sual) kifayət qədər məlumat verdik.

Müqəddəs hesab edilən yerlərin (yeraltı su, bulaq, dəyirman ağzı...) suyundan içmək, oradan götürülmüş hər hansı bir şeyi (torpaq, böcək...) udmaq və ya oraların suyu ilə yuyunmaq kimi işlər də övliya ziyarətlərində edilən əməllərdən heç də fərqili məna daşımır: qadın bədəninə daxil etdiyi, ya da toxundurduğu həmin maddələrlə döl sahibi olmaq bacarığını təmin edəcəyinə inanır.

Başqa cadu xarakterli işlərə gəlincə, uşaq sahibi olmuş bir qadının ovucundan su içmək, doğuş sancısı çəkən bir qadının dişlədiyi almanı yemək, yenicə doğuş həyata keçirmiş bir ananın uşağının "cift"inin üstünə isti-isti oturmaq və s. kimi tədbirlər döl vermək gücü olanların gücünü qısırlığı olanlara keçirtmək təsəvvürünə əsaslanır. Bunlara mollaların oxuyub-üfürməklərini, yazdığı duaları (musqa) da əlavə etmək lazımdır. Bu axırıncı tədbirlər qısırlığa səbəb olan pis, zərərli qüvvələri qovmaq, uzaqlaşdırmaq məqsədini güdür.

Tədbirlərin ikinci qismi dərman və bərpa xarakteri daşıyır və əksəriyyəti uşaqlığın soyuqlamasına, əyilməsinə və ya ağzının qapalı olması ehtimalına qarşı tətbiq olunur. Belə şüşə çəkmək, küllü və ya darçınlı isti vannalar, tüstü və ya müxtəlif cür buğda otuzdurulmalar, çörək bişirildikdən sonra istiliyi dözülə biləcək dərəcəyə enmiş sobada oturtmaq soyuqlamaya qarşı alınmış tədbirlərdir. Uşaqlıq ağzının bağlı olmağına qarşı qara bir toyuğun yumurtasının sarısının üstünə qara istiot əlavə olunaraq, isti, təmiz bir parça ilə uşaqlığa salınır. Bu əməliyyatın hər hansı başqa bir toyuğun yox, məhz qara toyuğun yumurtasından istifadə olunmasında magik məna olmasına şübhə yoxdur. İlk baxışda dərman, bərpaetmə kimi görünməyinə baxmayaraq, magik elementləri aydın görünən tədbirlərə daha iki misal verək: qadını, yeddi növ çəmən çiçəyi ilə birlikdə qaynatdıqdan sonra, içərisinə güzgü, qayçı, köhnə ayaqqabı qoyulmuş və ya üstünə cəfəri səpilmiş süd buğunda otuzdurmaq (Adana, Elazığ); qısır qadına canavar əti yedizdirmək (Əskişəhər).

Digər qrupa daxil olan tədbirlər isə başdan-başa rasional xüsusiyyətlərə sahibdirlər. Bunlar uşaqlıq boynunun əyriliyini düzəltmək üçün istifadə olunanlardır: bel çəkdirmək (Zilə, İstanbul), qarnını ovdurmaq (Əskişəhər), ayaqları aralı vəziyyətdə əyilib yeri öpməyə çalışmaq, başıaşağı tutulmaq (Elazığ) və s.. Bu əməllər, göründüyü kimi, adi gimnastik hərəkətlərdir.

Hamilə qaldığını anladıqdan sonra qadının ilk fikri uşağının oğlan və ya qız olacağını öyrənməyi yoxlamaqdır. Hələ ki, ilk uşaq üçün ananın da, atanın da arzusu oğlan olmağıdır, lakin nadir hallarda, xüsusilə daha əvvəlki uşaqları oğlandırsa, ana daha çox övladının qız olmasını istəyir.

Doğulacaq uşağın cinsiyyətini əvvəlcədən öyrənmə yolları yozum və fal xüsusiyyəti daşıyır. Yozumların bir qismi yuxulardan çıxarılan nəticələrdir: hamilə qadın yuxusunda ay görərsə – oğlan, günəş görərsə – qız, bıçaq, tüfəng kimi kişi

silahları və ya qorxulu heyvanlar görərsə – oğlan, qayçı, iynə kimi qadına məxsus əşyalar, yaxud müxtəlif bəzək əşyaları, cəvahirat görərsə – qız olacağı kimi yozulur. Hamilə qadının qarnının, vücudunun bəzi yerlərinin formasından, hamiləlik ərzində gözəlləşib-çirkinləşməyindən, döşlərinin ucunun aldığı rəngdən, yerikləməyi əsnasında ürəyi istəyən şeylərdən, ana qarnındakı uşağın tərpənməyinin şiddətli və ya yavaş olmasından da dünyaya gələcək uşağın oğlan, ya da qız olacağı mənası çıxarılır. Bütün bunlar təbii əlamətlərin izah olunmasıdır. Bir də əsl mənada "fal" deyilə biləcək əməllər vardır: hamilə qadının xəbəri olmadan girib oturacağı otağın döşəməsindəki iki döşəkçədən birinin altına qayçı, birinin də altına bıçaq qoyulur. Qadın birinciyə oturarsa – oğlan, ikinciyə oturarsa – qızı olacaq deyirlər. Hamiləliyinin səkkizinci ayında qadının döşündən sıxıb çıxarılan "süd"ü bir stəkan suyun içərisinə damcıladırlar: damcıların stəkanın dibinə çökməsinə (oğlan), ya da dağılaraq getməsinə, suya qarışmasına (qız) görə də nəticələrə gəlmək mümkündür (Bergama).

Hamilə qadının uşağını salmaması üçün görülən tədbirlərin də bəziləri eynilə qısırlığı aradan qaldırmaq üçün görülən tədbirlər kimi rasional (əqli-təcrübi) hərəkətlərdir: ağır şey qaldırmamaq, hündürdən tullanmamaq və s. Bir qrupu isə magik mənaya malik tədbirlərdir. Bu sonuncuların əksəriyyətində Sədat Veyis Örnəyin də Sivas ərazisində mövcud olan bu tipli əməlləri tədqiq edərkən vurğuladığı kimi, uşağın düşməsinə səbəb ola biləcəyinə inanılan fövqəltəbii zərərli varlıqların təsirlərini başqa bir istiqamətə yönəltmə məqsədi güdülür. Məsələn, bir kərtənkələni diri-diri bir qutunun içərisinə qoyub, qadının boynunda daşıtdırma tədbiri fövqəltəbii varlıq olan **məkir**in öldürücü təsirini kərtənkələnin üzərinə yönəltmək üçündür. Heç uşaq salmayan qadınların "yaşadıcı" gücündən yararlanmaq üsulunun tətbiq olunduğu tədbirlər də vardır: bədənində

uşaq saxlaya bilməyən qadın uşaq salmayan qadınların qapılarına toxunur; balaları yaşayan bir heyvanın məngürdəsini (yəni sığırların boyunlarına taxılan ağac halqanı) qadının boynuna taxaraq bir qayanın ətrafında üç dəfə fırladırlar. Bu son əməldə sanki yerindən oynamaz bir varlıq olan "qaya"nın bu xüsusiyyətlərinin müsbət təsirlərindən istifadə olunur.

Yerikləmə hamiləliyin müəyyən dövründə qadında görülən hallardan biridir. "Aşerme"[66] sözünün əsli **aş yerme**, yəni "yeməli şeylərdən diksinmə" deməkdir. **Yermek** felinin "bəyənməmək", "pisləmək" mənaları verdiyini bilirik. Söz get-gedə mənasını dəyişdirmiş və "boylu qadının ürəyinin bəzi yeməkləri istəməsi, onların dadına baxmaqdan özünü saxlaya bilməməsi" mənasına gəlmişdir. Hamiləliyin bu dövründə hamilə qadına hər ürəyi istəyəni, pis də olsa, yaxşı da olsa, verməyə çox diqqət edilir. Əgər buna əməl edilməzsə, ya anaya, ya da doğulacaq körpəyə bir zərər gələcəyindən qorxurlar: uşaq düşə bilər, şikəst, qüsurlu doğula bilər. Həm də ananın ürəyi istəyən şeylərlə doğulacaq uşağın cinsiyyəti arasında bir əlaqə olması düşüncəsi vardır. Ürəyi turş şey istəyənlərin qızı, şirin şey istəyənlərin isə oğlu olacağı deyilir. Hamilə qadının yediyi şeylərin, tez-tez baxdığı insanların, heyvanların da doğulacaq övladının xasiyyətinə, bədən quruluşuna, üz mimikalarına təsir edə biləcəyinə inanırlar. Buna görə hamilə qadın anadan olacaq uşaqda qüsur yarada biləcək şeyləri yeməkdən, belə şəxslərə baxmaqdan, belə heyvanlarla qarşılaşmaqdan çəkinir. Əlalxüsus qüsurlu, şikəst adamlara lağ etmək son dərəcə təhlükəli hərəkət hesab olunur. Bunun nəticəsi kimi uşaqda da eyni qüsurun, şikəstliyin ola biləcəyinə inanırlar. Oğurlanan şeylərin, gizlincə götürülən yeməli şeylərin də yerikləyib-yerikləməməkdən asılı olmayaraq, doğulacaq körpədə iz buraxacağı söylənilir.

---

[66] Aşerme: türkcə "yerikləmə" – ***Tərcüməçi***

Bundan otuz-qırx il bundan əvvələ qədər, xüsusilə kənd mühitlərində uşaq ölümlərinin faizinin yüksək olması səbəbindən uşağın anadan olmasına maneə olmaq barədə heç kəs düşünməzdi. Kəndlilərimizin: "Çox uşaq olsun ki, bir neçəsi sağ qalsın" tipli ifadələri bu baxımdan mənalı idi. Amma nadir hallarda da olsa, ya kənddə, ya şəhərdə birdən çox uşağı olmasını istəməyən qadınların bir çox çarələrə baş vurduqları da olmuşdur. Son vaxtlar bu cür hərəkətlər lap çoxalıb. Həkimlərə üz tutaraq hamiləliyin qarşısını almaq üçün mövcud olan dərmanları əldə etmək istəyən ər-arvadlara artıq tez-tez rast gəlinir. Doğumla bağlı ənənələrin araşdırılmasında bu tipdən tədbirlər haqqında başqa mövzularla müqayisədə az tədqiqat aparılmışdır. Bunların, demək olar ki, hamısı rasional dərman preparatları və tədbirlərdir. Çox az bir hissəsində cadu elementlərinin izlərini görmək mümkündür. Məsələn, qatır dırnağı adlanan bitkinin kökünü balla qarışdıraraq hazırlanan dərman. Bunun qorunma vasitəsi kimi istifadə olunmasını tərkibindəki bitkinin adını qatırdan alması ilə izah edə bilərik: qatır qısır bir heyvandır və onun adı ilə adlandırılan bitkidə də qısırlaşdırma gücünün olduğuna inanınılır.

Hamiləliyin və doğuşun qarşısını almaq üçün görülən tədbirləri iki qrupa ayırmaq lazımdır. Buna dair bir nümunə bir az əvvəl haqqında danışdığımız dərmandır. Bu cür dərmanların əksəriyyəti karbonat, zəy, tuz, nişasta, aspirin, sarı səbir daşı, limon duzu kimi apteklərdə, ədviyyatçılarda tapılması mümkün olan maddələrdir. Bu maddələrdən qadınlığın içərisinə, döl yatağına tərəf müəyyən miqdarda yerləşdirməklə hamiləliyin qarşısını almağa çalışırlar.

Hamiləliyini bilən kimi "aybaşı yaratmaq", ya da hamiləlik artıq kifayət qədər inkişaf edibsə, uşağı tələf etmək üçün hamilə qadının üz tutduğu çarələr və istifadə etdiyi maddələrin bəziləri qorunmaq üçün lazım olanlarla eynidir: karbonat, sabun

və s. İstifadə olunan üsullardan, demək olar ki, hamısı qadının uşaqlığının içərisinə, ağzına qədər cürbəcür şeyləri soxmaq texnikasıdır: badımcan saplağı, ətirli sədəf və ya da çıfıt otu adlandırılan bitki, əməköməci, cəfəri saplağı, qaz, ya da qartal qanadından qoparılan tük, hörgü üçün şiş... Bir də buğda oturmaq üsulu vardır: sirkə buğu, saman buğu. Konkret olaraq tam magik tədbirlərə nümunə olanlar: gərdək gecəsində gəlinin üzünü yuduğu su bir gül kolunun dibinə tökülür və bu zaman neçə il uşaq arzu olunmursa, ona uyğun niyyət edilir (Əskişəhər). Nikah gecəsi paltar vannasını, gərdək gecəsi də hamam tasını tərsinə çevirirlər. Bu proses zamanı övladın neçə ildən sonra doğulması istənilirsə, o sayda barmağı açırlar (Əskişəhər).

Axırıncı uşağa verilən adın ondan sonra doğula biləcək uşaqların qarşısını ala bilməsinə təsiri haqqında 29-cu sualda danışdıq.

**52-ci sual: Doğuş vaxtı və zahılıq dönəmində hansı qaydalara əməl edilir? Zahını və ya uşağı qorumaq üçün nələrə əməl olunmalıdır?**

Doğuş yaxınlaşdığı zaman sancılar təzəcə başlayanda ilk ağıla gələn şey doğuşun asan və uğurlu olmasını təmin etməkdir.

Anadolu türklərinin ənənələrində aydın bilinən doğuş üsulları bunlardır: oturaraq, diz çökərək və ya çömbələrək, yataraq, əlləri ilə ipə sarılaraq doğmaq. Bunların da hamilə qadının vəziyyətlərinə, istifadə olunan alətlərə, etdirilən hərəkətlərə görə və bölgədən-bölgəyə müəyyən cəhətlərə görə fərqlənən növləri vardır.

Doğuşun asan olmasını təmin etmək üçün hamilə qadını yeritmək, bədəninin bəlli yerlərini ovmaq kimi hərəkətlərdən başqa, magik xarakterli bir çox tədbirlərə də əl atılır. Bunların demək olar ki, hamısı **sympathique və homeopathique** (təqlid, oxşarlıq, təmas...) kimi magik prinsiplərə əsaslanır. Bu barədə

Türkiyə miqyasında aparılmış araşdırmalarda əldə edilən uzun siyahılardan bir neçə misal verməklə kifayətlənəcəyik. Bunu da deyək ki, əlbəttə, bu işlərin hamısı eyni bir yerdə, bir bölgədə tətbiq olunmur, amma eyni bir toplumun doğuş ənənələrində bunlardan bir neçəsinin bir yerdə müşahidə olunması da təbiidir.

Ən geniş yayılmış işlərdən biri içərisinə Məryəm ana əli (və ya Fatma ana əli) deyilən bitki qoyulmuş sudan içirtməkdir. Qurudulmuş halda olan bu bitkini suyun içərisinə qoyan kimi açılır. Bununla da bitkidə uşaqlıq yolunun açılmasını təmin edən bir gücün olması inancına əsaslanırlar. Doğuş sancısı çəkən qadının evindəki qapalı yerləri, kilidli şeyləri açmaq, düyünləri, qadının öz saçındakı hörükləri açmaq kimi tədbirlərdə də eyni düşüncə müşahidə olunur.

İkinci qrupa daxil olan tədbirlər su axıtmaq prinsipinə əsaslanır: dolu qabları boşaltmaq, su gələn yerlərin ağzını açmaq. Burada da magik mənası açıq-aydın görünür: suyun axmağı asanlığı və tezləşdirməni simvollaşdırır. Qəfəsdəki quşları, hindəki ev quşlarını azad buraxmaq da qapalı bir yerdən qurtulmağı simvolizə etmək baxımından eyni tipdən olan tədbirlərə aiddir. Hamilə qadına qayınatası, qayınanası, və yaxın qohumlarının, küsülü olduğu kimsələrin əlindən su içirtmək, yaxud bu şəxslərin əllərini, bəzən ayaqlarını yuduğu sudan içizdirmək ürəyi qırılmış olan, ya da ola bilən şəxslərlə hamilə qadının barışması mənasında olub, onlardan gələ biləcək düşmənlik təsirlərinin qabağını almağı nəzərdə tutur. Asan doğuş keçirmiş qadının ovcundan su içmək isə yuxarıdakı "bənzətmə" qrupundakı magik tədbirlərə aiddir. Gurultu salmaq, tüfəng atmaq kimi hərəkətlər anaya və doğulacaq uşağa pisliyi toxuna biləcək fövqəltəbii zərərli varlıqları qaçırtmaq məqsədini güdür. Nəhayət, uşağın tərs gəlməsi, göbək bağı ilə boğulması kimi halların qarşısını almaq üçün edilən əməllər: kilimlər tərs üzünə sərilir; doğuş zamanı orada gözləyən insanların ayaqlarını ayaqlarının üstünə

qoyması qadağan edilir; düyünlü, hörgülü şeylər açılır; odunlar, sobanın ağzına şaquli şəkildə uzunlamasına qoyulur.

Uşaq doğulduqdan sonra, təbii olaraq, daha qısa doğum sancılarıyla gələn **plansentaya** bəzi yerlərdə **yoldaş,** bəzi yerlərdə **son,** bəzi yerlərdə də **etene, eten deyirlər**. Hamiləlik boyunca bətndə ananın öz qanı ilə uşağını qidalandırmasını təmin edən bu orqana xalq ənənələrində böyük əhəmiyyət verilmişdir. **Ətənə/cift** ya saxlanılır, ya basdırılır, ya suya atılır, ya da yandırılır. Yandırma yuxulu doğulmuş uşaqları ayıltmaq məqsədi ilə həyata keçirilir. Suya atılarsa, ananın südünün bol olacağına inanırlar.

Qısırlığın qarşısını almaq üçün yenicə ana olan bir qadının ciftindən necə istifadə olunması barədə (51-ci sual) yuxarıda danışdıq. Uşağı olmayan qadına xəbəri olmadan başqa bir qadının ciftindən bir parça yedizdirmək də eyni məqsədlə həyata keçirilir. Ciftin, bundan başqa, saranı, sıracanı, boğaz ağrısını sağaltmaq üçün (Bergama), zahının doğum sonrası sancılarının qarşısını almaq üçün də (Şarkı-Karağac) yedizdirildiyinə rast gəlinir.

Amma cift ilə əlaqədar tədbirlərdən ən əhəmiyyətlisi uşağın yaşamasını təmin etmək üçün həyata keçirilənlərdir. Təkcə, "sadə bir tədbir" kimi deyil də, bir-birini gücləndirərək tamamlayan bir qrup magik elementlərdən biri kimi ciftin istifadə olunmasını, zamanını, yerini, tətbiq edənlərin kimlər olduğunu konkret olaraq bildiyimiz iki misal üzərində nəzərdən keçirək. Danışacağımız hadisələr 20 il aralıqla iki ayrı-ayrı yerdə, iki fərqli doğum əsnasında baş vermişdir: a) birincisi, bundan 85 il əvvəl Adanada; b) ikincisi, bundan 65 il əvvəl Gümülcənin bir ilçəsində.

Birinci qadının ilk üç uşağından sonra arxa-arxaya beş uşağı ölür. Doqquzuncu uşağını doğan kimi:

**a$^{1}$)** Cift duzlanır; üzərinə yeddi cür ədviyyat (xına, darçın, qərənfil toxumu, yenibahar, cirə otu, zəncəfil, havlican) əkilmiş; yeddi qızdan götürülən yeddi sap yeddi yorğan iynəsinə keçiril-

miş, sonra iynələr ciftə taxılmış. belə bir şəkildə hazırlanmış cift gəlib-gedən qonaqların altından keçməsi üçün qırx gün zahı qadının otağının qapısının üzərində asılmış və daha sonra da günəşdə qurudularaq saxlanılmışdır (Qadın ölməmişdən əvvəl cifti əsl “sahibi”nin [yəni oğlunun] arvadına vermişdir.

**$a^2$)** Körpə bələnib bir qadına verilmiş, bu qadın uşağı aparıb məscidin içərisinə qoymuş və arxasına baxmadan evinə qayıtmışdır. Məscidin qapısının arxasında gizlənmiş ikinci bir qadın uşağı götürmüş, onu uşağın yaxınlarından bir qadına satmış, o da uşağın əsl anasını süd anası kimi götürmüşdür.

Bu tədbirləri Adanada uşağı dünyaya gələn qadın 20 il sonra qohumlarından birinə – ard-arda iki uşağı tələf olmuş, indi də üçüncüsünün yolunu gözləyən gənc bir qadına məktub yazaraq məsləhət vermişdir. Doğuşdan sonra eyni proseslər həyata keçirilmişdir. Bundan başqa, həmin gənc ana yaşadığı yerə aid olan bir neçə tədbiri də həyata keçirtmişdir.

**$b^3$)** Yeddi qonşunun hər birindən bir parça əski alıb, bunlardan uşağa zıbın deyilən çağa paltarı tikmiş və geydirmişdir.

**$b^4$)** Uşağın anası üç il körpəsinə paltar tikməmiş, uşaq həmişə nənəsinin (yəni uşağı satın almış olan və əsl ananı yalandan “süd anası” tutmuş olanın) tikdiyi şeyləri geyinmişdir.

**$a^5$)** Adanadakı qadın doqquzuncu uşağına hamilə qalınca sağ qalmış ilk üç uşağından üçüncüsünü, yəni sıra ilə ölənlərdən əvvəlki oğlunu bir quyunun başına aparmış, orada yeddi dəfə: “Tövbələr tövbəsi, bir də heç vaxt baş yemərəm” deyə qışqırtmışlar. Bu uşaq böyüyəndən sonra da ta ölənə qədər heç bir heyvan başı (balıq başı, qoyun başı...) yeməmişdir. Burada diqqəti “baş yemək” ifadəsinin “birinin ölümünə səbəb olmaq” mənası üzərində qurulan söz oyunu cəlb edir.

**“$a^5$”** adı altında nömrələdiyimiz bu son əməliyyatın **“b”** bəndində göstərilmiş doğum prosesində tətbiq olunmamasının

səbəbi avtomatik olaraq üzə çıxır: çünki ikincidə ortada ölən uşaqlardan əvvəl sağ qalmış bir uşaq yoxdur.

Geniş yayılmış bir inanca görə, “yoldaş” (cift) körpənin özü kimi “canlı” doğulur, göbək ciyəsi kəsilən kimi onun ananın bətni və uşaqla əlaqəsi qalmadığı üçün ölür. Ona ölmüş hər hansı varlığa göstərilən hörmətin göstərilməsini, hər hansı bir yerə atılmayaraq basdırılmasını, it, pişik kimi heyvanların yeməsinə imkan verilməməsinə diqqət edilməsini ancaq belə izah etmək olar. Başqa bir inanca görə isə, canlı bir varlıq kimi doğulmuş cifti yerə qoyub, üzərinə bir mismar vurmaqla öldürmək lazımdır və öldürməmiş basdırmaq günah hesab olunur (Çanaqqala). Burada göbək ciyəsi kəsildikdən sonra da ciftin diri qalmasına inanc düşüncəsi üzə çıxır.

Körpənin ciftinə (yoldaşına) qədim türk ənənəsində döl-yaradıcı və uşaq qoruyan bir “ana tanrıça” xüsusiyyətlərinə sahib olan Umay ilə eyni adın verildiyini Mahmud Kaşğarlının sözlüyündən öyrənirik. Mahmud **umay** sözünün mənasını izah edərkən ona “cift” və “yoldaş” mənasını verdikdən sonra sözlərinə bir inanışı da əlavə edir: “Umayka tapınsa, oğul bolur” deyir. Bu sözlər “insan Umaya (yəni “uşaq tanrıçasına”) səcdə edərsə, uşaq sahibi ola bilər” kimi başa düşülür. Kaşğarlının izahını: “İnsan körpənin ciftini müqəddəs hesab edərək, ona lazımi ehtiramı göstərərsə, uşaq sahibi ola bilər” şəklində də başa düşsək, yenə də bu sözlərdə Umay Tanrıçanın gücünün, qabiliyyətinin cift ilə bağlı olması inancına şahid oluruq.

Doğumla əlaqədar ənənələr arasında, ələlxüsus sonsuzluğun aradan qaldırılması və uşağın yaşamasını təmin etmək üçün görülən bütün tədbirlərdə ciftin əhəmiyyətli rol oynaması türklərin qədim dinlərindən günümüzə qədər gələ bilmiş bir inanışın izi olmalıdır.

Göbək ciyəsi həm ciftin, həm də körpənin bir hissəsi hesab edildiyinə görə, ciftə göstərilən hörməti və diqqəti ondan da əsir-

gəmirlər: atmırlar və heyvanlara yedirtmirlər. Körpəni pis gözdən qorumaq məqsədilə göbək ciyəsini bir parçaya büküb, yatağına, yastığının altına qoyurlar. Bu, "körpə üçün yuxuluq" adlanır (Konya). Əgər evdə qorunub-saxlanarsa, uşağın böyüyəndə evinə bağlı olacağına, küçəyə atılarsa, gözünün çöldə olacağına, məktəb divarının dibinə basdırılarsa, oxumağı sevəcəyinə, siçan apararsa, oğru olacağına inanırlar (İzmir). Qız uşaqlarının göbəkbağı cehizi bol olsun deyə, qurudulub sandıqda saxlanır.

Uşaq anadan olar-olmaz ilk həyata keçirilməsi lazım olan işlərdən biri də ona ad verilməsidir. Adın hansı düşüncələr və səbəblərlə seçilməsi, uşağın yaşamasını təmin etməkdə adın mənası və funksiyası və bunlarla əlaqədar inanclar haqqında daha əvvəl (29-cu sual) kifayət qədər danışdıq.

Uşağın göbək adını uşağın göbəyini kəsən adam elə o andaca qoyur. Doğumundan az sonra ölə biləcəyi haqda düşüncələr mövcud olduğu üçün göbək adının gecikdirmədən verilməsini İslam dinin qayda-qanunları lazımlı hesab edir. İkinci ad isə daha sonra kiçik bir mərasimlə verilir: molla və ya ailənin ağsaqqallarından biri uşağın qulağına azan oxuyaraq onun adını deyir. Amma, xüsusilə də kənd yerlərində uşağa bir ad verilməsi ilə kifayətləndiyi müşahidə edilmişdir.

Adın verilməsindəki müxtəlif amillərdən bəzilərini 29-cu sualda saydıq. Burada isə bunları da əlavə edək: Doğulduğu yerin adını daşıyan uşaqlara nümunə olaraq dəniz səfərləri zamanı dünyaya gəldikləri üçün Bəhri, Bəhriyə adını daşıyanları göstərə bilərik. Qars bölgəsində kənd əhlinin yaylaqda olduğu zaman dünyaya gələn qızlara Yayla adının verilməsi müşahidə olunur. Bir çox adlar ananın, atanın və ya yaxın qohumlardan birinin görüdüyü yuxuya əsasən qoyulur. Uşağın anadan olduğu ərəbi aylardan birinə görə: Rəcəb, Şaban, Ramazan, Məhərrəm, Səfər, Rəbii (və ya qızdırsa: Rabia), doğulduğu günə görə: Cümə, Bayram və s. kimi adlar da verilir. Müasir dövrümüzdə bu

ənənələrin çoxu unudulmağa doğru gedir. Kənd əhalisinin böyük şəhərlərə axın etdiyi bu son illərdə şəhərlilər arasında "dəbdə" olan adların kəndlərdə də yayıldığı müşahidə olunur.

Uşağın göbəyi kəsilib adı qoyulduqdan sonra duzlanması və yuyundurulması mərhələsi gəlir. Bədəninə duz səpib az bir müddət elə saxladıqdan sonra su ilə yuyundururlar, yaxud da əvvəlcə duzlu suda, sonra da təmiz suda yuyurlar. Duzlama xalq təbabətində uşağın təri, nəfəsi pis iy verməsin deyə əvvəlcədən görülmüş bir tədbir kimi xarakterizə olunur. Ancaq bunun magik bir əməl olmasına heç bir şübhə yoxdur. Duzun gözdəymə, uğur, bərəkət inanclarındakı müqəddəs yeri barədə, əlbəttə, məlumatımız vardır, məsələn, bir evə ilk girdiyiniz zaman götürülməsi lazım olan ilk şey duz və çörəkdir. Duzlama tədbirinin uşağın duzlu suya batırılması kimi həyata keçirildiyi yerlərdə həmin suya qızıl atılması gələcəkdə bu körpənin zəngin olmasını təmin etmək məqsədini güdür (Bergama, Balıkəsir). Çanaqqala bölgəsində uşağın anadan olmasından sonra verilən qonaqlığa "duzluq" deyilməsi də mərasimin duzla əlaqəsinin olduğunu göstərir. Bəzi yerlərdə duzlanmadan sonra uşağın yuyunduğu ləyənin içərisinə mamaçaya çatacaq bəxşiş olaraq pul atılır.

Bəzi uşaqlar isə bir zər (torba) içərisində anadan olur: belə uşaqlar uğurlu sayılır. Albaniyadan Anadoluya köç etmiş yaşlı bir qadından İzmirdə toplanmış bir məlumata əsasən, bu torbanı götürüb qurudurlar. O, hər bir dərdin dərmanı hesab olunur və çətin işləri həll etməyə kömək edir. Uşaq oğlandırsa, əsgərliyə gedəndə həmin qurudulmuş torbanı verirlər ona: kim bunu boynunda gəzdirərsə, ona güllə dəyməzmiş.

**53-cü sual: Doğuşdan sonra görülən əsas tədbirlər hansılardır?**

Zahılıq dönəmində, xüsusilə doğumdan sonrakı qırx gün ərzində ananın da, uşağın da cürbəcür zərərli təsirlərdən qo-

runması lazımdır. İlk ağla gələn "bəd nəzərə"ə qarşı alınan tədbirlərdən bəzilərini yuxarıda gördük. Göz muncuğu, maşallah kimi aksessuarlar uşağı da, zahını da qorumaq üçün istifadə olunan geniş yayılmış vasitələrdir. Bir qədər sonra üzərində dayanacağımız "albasdı"ya qarşı olması barədə düşüncələr mövcud olan başqa bir qorunma vasitəsi də qırmızı rəngdir. Zahının və uşağın yastıqlarına və ya başqa yerlərinə qırmızı rəngdə lent bağlamaq, ananı və uşağı görməyə gələnlərə qırmızı rəngdə şərbət ("zahı şərbəti") vermək kimi adətlər bu mənanı özündə ehtiva edir.

Gözdəymənin bir çox pis təsirlərindən biri ananın südünün kəsilməsinə səbəb olmasıdır. Amma başqa səbəblər də ola bilər. Zahının özü də südünün kəsilməməsi üçün müəyyən tədbirlər tökə bilər. Məsələn, zahını görməyə gələnlər gedərkən körpənin anası onlara "gülə-gülə" deməməlidir (Balıkəsir), belə ki, süd bu sözün təsiri ilə "gəzməyə gedə bilər". Onsuz da hər hansı bir səbəbdən südü kəsilən ana bunu "südüm çəmənliyə gedib, amma gələcək" deyərək izah edir. Bu cür inanclarda süd bir növ canlı varlıq hesab olnur və belə deməklə ona təsir etmək istəyirlər. Eyni mənada olan başqa bir tədbir də vardır: zahının südü kəsiləndə yeddi Mehmet adlı evdən toplanan un ilə hazırlanmış kökə və bir soğan bir çobana verilir, çoban bunları axşama qədər dağarcığında gəzdirəndən sonra axşam: "Sizə süd gətirmişəm", – deyə zahıya verir (Əskişəhər).

Yenə bu dönəmdə diqqət olunmalı başqa bir məqam qırx gün uşağın və anasının evdən çölə çıxmaması, uşağın qırxlı dönəmində doğuş həyata keçirmiş başqa bir qadının uşağı ilə qarşılaşdırılmamasıdır. Çünki qırxlı vaxtında ana da, uşaq da mənfi təsirlərdən zərər görmək üçün ən əlverişli (həssas) vəziyyətdə olurlar və bununla qırx günlük müddətləri qarışmış zahı və uşaqlardan birinə dəyəcək mənfi, fövqəltəbii varlıqlardan o birilərini qorumaq istəyirlər.

Uşaq və xüsusilə zahı qadın üçün ən böyük təhlükə “albastı”dır. Bu, Al-qarısı, Al-anası deyə adlandırılan fövqəltəbii bir varlıqdır. Albastının nə olduğu, zahını ondan qorumaq üçün nələr edildiyi, hal ocaqlılarının bu bacarığı necə əldə etdikləri haqqında yuxarıda (26, 41-ci suallar) danışdıq. Bir də zahının qırx gün içərisində tutula biləcəyi və “qırx basması” deyə adlandırılan “xəstəlik” də var. Belə hesab edirəm ki, bu ifadə “albastı” (Al/Hal adındakı varlığın zahını “basaraq” ona əziyyət verməsi) sözünə bənzətmək yolu ilə əmələ gəlmişdir. Toplanan məlumatlarda çox vaxt bu iki “xəstəlik” eyni xüsusiyyətləri daşıyır və qorunmaq üçün də eyni yollardan istifadə olunur.

Qırx gün başa çatdıqdan sonra qırx çıxartma mərasimi həyata keçirilir: bu, uşağın və anasının yerinə görə bir sıra fərqli qaydalara əməl edilməklə yuyunmalarıdır. Məsələn: qırx hamamında sonuncu qab suya (və ya sonuncu tas suyuna) bir qızıl, ya da bir açar qırx dəfə batırıldıqdan sonra çimirlər (Kilis, İstanbul).

Taxtaçıların ənənələrində susuz qırx çıxartmağa da rast gəlinir. Beşiyin altına bir döşək sərilir, beşiyin iki tərəfində qarşı-qarşıya iki qadın oturur, sağ tərəfdə oturan qadın uşağın başı üzü qibləyə olmaq şərti ilə onu qucağına alır və “gülbənk” (mərasimə məxsus bir dua) oxuyaraq, beşiyin alt tərəfindən o biri qadına tərəf dımırladır. Bu hərəkət üç dəfə təkrar olunur. Sonra bir dua oxunur.

Qırxı çıxandan sonra artıq ananın da, uşağın da həddən artıq təsirlənmə ehtimalları qalmır və onlar indi heç bir qaydaya əməl etmədən başqa insanların içərisinə qarışa bilərlər.

**54-cü sual: Uşağın anadan olduğu ilk aylar ərzində onunla bağlı adət və mərasimlər vardırmı?**

Qırxlı dönəmindəki “böyük təhlükələr” olmasa da, körpəni yenə də, xüsusilə ilk aylar ərzində bir qrup zərərli təsirlərdən qorumağa diqqət edilir. Gözdəyməsinə qarşı qoruma va-

sitələri haqqında bir çox məqamlarda danışdıq. İlk baxışda əhəmiyyətsiz görünən, lakin bununla bərabər qorunmaq tələb edən bir sıra "yasaq" hərəkətlər də vardır, məsələn, uşağın üstündən tullanmaq yaxşı hərəkət hesab edilmir, "uşaq böyüməz, boyu uzanmaz" deyirlər. Bu qaydaya hər hansı bir səbəbdən əməl etməyən şəxs yenidən bu hərəkəti əks istiqamətdən təkrar etməlidir. Bu inanc Makedoniya xristianları arasında da yaşamaqdadır. Başqa bəzi davranışlar da vardır ki, onların uşağa salamatlıq bəxş edəcəyinə inanırlar: məsələn, uşaq əsnədiyi vaxt yanında olan şəxs üç dəfə şəhadət barmağını uşağın dodaqlarına toxunduraraq alnına aparması və xoş sözlər söyləməsi. Bu adətə Midillinin yunan əhalisi arasında rast gəlinir.

Uşağın həyatının ilk ilində əməl edilən daha önəmli iki adət vardır. Birincisi, ilk dırnaq tutulmağı ilə əlaqədardır: uşağın dırnaqları kəsildikdən sonra onun əlini içində qızıl pullar olan bir kisəciyə salırlar. Uşağın kisədən götürdüyü pulları əgər o, oğlandırsa, böyüdüyü vaxt quracağı işin sərmayəsi, qızdırsa, cehizinin ilk "mayası" kimi qorunub saxlayırlar. İkincisi daha önəmli bir mərasimdir və ilk dişin çıxmasını qeyd etmək üçün təşkil olunur. Buna "diş buğdası", bəzi yerlərdə isə "diş hədiyi" deyirlər. 1956-cı ildə Ankarada bir müəllimin öz qızı üçün təşkil etdiyi mərasimin qısa məzmununu verək: Uşaq yerə sərilmiş ağ bir parça üzərində otuzdurulur. Daha əvvəldən hazırlanmış olan və şəkər tozu ilə qarışdırılmış bişmiş buğdadan bir ovuc uşağın başından səpilir. Qabağına da qayçı, "Quran" və qızıl qoyulmuşdur. Uşaq bu üç əşyadan hansını seçərsə, buna əsasən onun gələcəyi haqqında yozum verilir: "Quran"ı götürən oxumuş adam olacaq, qayçını götürən (uşaq qız olduğu üçün qayçı qoyulmuşdur) hünərli ev xanımı olacaq, pulu seçən isə varlı bir kişiyə ərə gedəcək. Bundan sonra bişmiş buğda başqa meyvə və çərəzlərlə birgə qonaqlara verilir. Bu "diş mərasimi" Midilli yunanları arasında da yaşadılan ənənədir.

Uşağın dil açmazdan əvvəlki dönəmindəki inanclardan birinə də toxunaq: Uşağın başında sümükləşmənin tamamlandığı bir yer vardır ki, buna əmgək deyirlər. İnanışa görə, bu yumşaq yerin bərkimə prosesi uşaq "daş" kəlməsini dediyi zaman tamamlanır.

**55-ci sual: Sünnət olunana qədər uşaqlarla əlaqədar başqa hansı inanc və adətlər vardır?**

Bunlardan bir neçəsinə əvvəl də başqa münasibətlə toxunduq (33 və 42-ci suallar). Hamısını qruplaşdıraraq, hərəsinə bir-iki nümunə verək:

**1) Uşağın duruş və davranışlarının yozulması:** Uşağın öz baş barmağını əmməsi, dayanmadan ağlaması, yumruqlarını yığaraq qoltuqlarının altına, ya da bir-birinin üstünə qoyduğu əllərini ayaqlarının arasına qoyaraq yatması pis şeylərə yozulur: onun ata-anasız qalacağına inanırlar. Yatdığı zaman dişlərini qıcırdatmağı da yaxşı əlamət hesab edilmir, bu zaman atasının ev ayaqqabısı ilə üç dəfə ağzının üstünə vururlar. Uşağın əllərini boynunun dalına qoyaraq yatması onun ömrünün qısa olacağı kimi yozulur (İzmir). "Baş barmağını əmmə" ilə əlaqədar inancla bağlı yuxarıda (52-ci sual) gördüyümüz və uşağın yaşaması ilə əlaqədar bir tədbirdəki "başını yemə" inancı, güman ki, eyni bir magik düşüncə kökünə gedib çıxır.

**2) Uşağın vaxtında yeriməsini təmin etmək** üçün görülən əməllərdən bir neçəsi həkimlik tədbirlərinə oxşayır: topuqlarına (və ya oynaqlarına: İstanbul) yumurtanın ağını sürtmək, isti təndir çörəyini mis bir qabda tərlədərək uşağın bədənini onun buğuna tutmaq (Yusufeli), qoz yarpağı və ya duz atılmış suda çimizdirmək (İstanbul) və s. Amma bir çoxu həqiqi mənada magik əməllərdir. Məsələn, bir ələyin üstünə tükdən düzəldilmiş kəndir qoyulur və dualar oxunur, uşaq bir kafir mə-

zarının üstündə basdırılır (Yusufeli), "öz vaxtında yeritdirmək bacarığı" olan övliyaların ziyarətgahlarına aparılır, türbənin, ya da qəbrin ətrafında qoltuqlarından tutub, yeriməsinə kömək etməklə fırladırlar (Ispartada Ayaq Dədəsi; İstanbulda Sünbül Əfəndi, Baba Cəfər; Ankaranın Ayaş ilçəsində Əhməd Dədə; Merzifonda Üçlər: burada məzarın yanındakı ağacdan qoparılmış yarpaq uşağın belinə bağlanmalıdır; Sivasda Yürük şah). Axırıncı övliyanın yeritmək gücünü yerli ənənə onun adı ilə izah edir. Ispartadakı Ayaq Dədəsinin adı da bir növ cadugərlik simvolunu özündə daşıyır. Bunlar kimi daha əvvəl toxunduğumuz (48-ci sual) İstanbuldakı Qaraca Əhmədin atının üstünə vaxtında yeriyə bilməyən uşaqların aparılmasında da atın yeriməyi, danışmağı simvolizə edən bir heyvan olması düşüncəsini görmək yerinə düşür. Yenə bu məqsədlə baş vurulan yollardan digərləri: Uşağı dörd yol ayrıcına aparır, orada qollarından tutub sallayırlar (İzmir). Ayaq kətəsi deyilən çörək bişirilir, bunlardan birinin içinə bir xırda pul qoyulur və həmin kökə qonaq edilənlərdən kimə düşərsə, o, uşağa bir köynək tikir, ya da bir hədiyyə verir (Bursa). Uşaq cümə günü, azan vaxtı üzü minarəyə tərəf "yellətdim uşağı səlaya[67], yerisin inşallah gələn cüməyə" diləyərək yellədilir (Bursa). Sünbül Əfəndi türbəsinin müəzzini cümə azanı verə-verə uşağın qurşağını öz kürəyində gəzdirir. Eyyub müəzzini isə ərəbi ayın ilk cümə günündə uşağın hər hansı bir əşyasını mehrabdan salladır: uşaq Eyyub türbəsində təsbehdən keçirilir. Uşaq Nərdivan kəndində Mama adlanan yerdə olan palanın üstündə otuzdurulur, uşağın qoltuqlarından tutur, "ay gördüm dağ kimi, uşağım yerisin yağ kimi" deyilərək, təzə çıxan aya tərəf addım atdırıllar (İstanbul). Bir səbətin içərisinə qoyularaq yeddi evin arasında gəzdirilir (Sivas: Qızıq, Qanqal, Şarqışla). Bəzi yerlərdə "köstək kəsmə",

[67] "Səla" sözü "səlat" sözünün el arasında deyiliş şəkli olub, namaz mənasındadır – ***Tərcüməçi***

bəzi yerlərdə isə “duşşaq kəsmək” adı verilən təməllər barəsində isə yuxarıda (42-ci sual) danışdıq.

**3) Uşağın vaxtında danışmasını təmin etmək.** Gec danışan uşaqların bu qüsurlarını aradan qaldırmaq üçün üz tutulan çarələr də cadu xarakterlidir: yeni ay görünəndən sonrakı ilk cümə günündən etibarən üst-üstə üç cümə günündə uşağı tövləyə apararaq axırda bağlayır və “insansansa dilə gəl, heyvansansa bəqaya (yem verilən yerə) gəl” deyilir (Yusufeli). Uşağa yemək qaşıqlarının və ya qablarının yuyulduğu su (İstanbul, İzmir), sarı bülbülün su içdiyi qabda məhərrəmlik ayında yeyilmiş aşurənin kasasından su içirdilir (İstanbul, İzmir). Eyyubda isə Bəşir Ağa türbəsinin açarı ilə ağzı açılır, cümə azanı vaxtı müəzzinə qara üzüm verilir, müəzzin bunu azan verərkən cibində saxlayır, sonra bu üzüm uşağa yedizdirilir (İstanbul). Uşağa dananın, qoyunun dili yedirdilir (İzmir).

**4) Xəstəhal, sısqa uşaqların** bu halının aydaşlıqdan (yəni qırxlı ikən başqa bir qırxlı körpə ilə rastlaşmış olmaqdan) törəmiş olduğu güman edildikdə həyata keçirilən “aydaş bişirmə” tədbiri haqqında yuxarıda (42-ci sual) danışdıq. Yusufelində əgər qabaqlayıcı tədbirlər dərhal həyata keçirilməzsə, cinlərin sağlam uşağı oğurlayaraq, yerinə öz cılız uşaqlarını qoyacağına inanırlar. Bu inanca əsaslanaraq, çəlimsiz, xəstəhal uşağı cinlərin toplaşdığı yer kimi tanınan sahibsiz, zibillik yerlərə aparır, bir qazanın altına qoyur və “sizinkidirsə, alın aparın, bizimkini dala qaytarın” deyə cinləri səsləyirlər. Yenə Yusufelində boynunu üstündə saxlaya bilməyən çəlimsiz uşaqların analarına toyuğun boyun topunun əti yedizdirilir, sümükləri isə uşağın yastığının altına qoyulur, ya da cümə günü səhər vaxtı su arxına atılan bir sümük heç bir səs çıxarmadan sudan götürülərək, hər hansı bir divar deşiyinə yerləşdirilir. Sısqa uşaqlara Əyirdir gölündəki adada dəfn olumuş Şeyx Müslühüddinin türbəsindəki köynək gölün suyunda yuyulduqdan sonra geyin-

dirilir. Uşaq Əbdülqadir türbəsindəki daşın dəliyindən “götür çürüyü, ver sağlamı” deyə-deyə keçirilir (Isparta).

**5) Uşağın ilk diş dəyişimi** mövzusunda da bəzi qaydalara əməl olunduğuna dair faktlar vardır. Məsələn, ilk düşən diş çölə atılmayıb, saxlanılır, bunu döyüb, tozunu suya qataraq içmək vərəmin sağaldılmasına faydası var (Bursa). Düşən süd dişlərini evin damına atırlar (İzmir).

**6) Diqqətəlayiq bir neçə adət-ənənəni** də qeyd edək: Ankaranın Ayaş ilçəsində çox ağlayan, yatmayan uşaqları Yavuz Ana Sultan adlanan türbəyə aparır, orada “ya al, ya ver” deyə həmin övliyanı çağırırlar. Yatmayan uşaqları səhər erkəndən qəbiristanlığın ətrafında gəzdirirlər. Qəbirdən götürülmüş torpaq və ya ilan qabığı uşağın balışının altına qoyulur (Sivas). Bu əməldə ölünün yatdığı torpaqdan yuxu gücünün simvolu kimi istifadə edildiyini görürük. Çox ağlayan uşağın başına qazan keçirərək, ya da atasının ayaqqabısı ilə ağzına vuraraq “Anandan, atandan uzaq olsun” deyilir. Burada ağlamağın carçısı ola biləcək hər hansı bir fəlakəti, məsələn: ölümü uzaqlaşdırmaq məqsədi güdülür. Uşaq anadan olduğu otaqdan başqa bir otağa keçirildiyi zaman, danışması ilə yeriməyi eyni bir vaxtda başlasın deyə, başı ilə ayaqları düz xətt üzrə olmaqla böyrü üstə çıxarılır. Uşaqları gözləri çəp olmasın deyə balaca ikən güzgüyə baxmağa qoymazlar (Yusufeli).

**56-cı sual: Türk xalq ənənələrində sünnət adəti hansı məna və dəyərləri özündə ehtiva edir?**

Bir inanışa əsasən, Məhəmməd Peyğəmbər (s.ə.a.s) sünnətli dünyaya gəlmişdir. İnanc bununla da sünnət ənənəsinin köklərini bu faktla əlaqələndirmək istəyir. Əslində isə uşaqları “sünnət etdirmək” islamaqədərki dövrdə də, sami əsilli və başqa soylardan gələn xalqlarda olduğu kimi, ərəblər arasında da tətbiq edilən bir mərasim idi. Rəsulallah da bu ənənəni da-

vam etdirdi. İslam dinində onun Peyğəmbərinin etdiyi, ya edilməsini buyurduğu şeylərə "sünnət" adı verildiyi üçün oğlan uşaqlarının cinsi orqanının ucundakı dərini çevrəsi boyunca kəsib götürmək əməliyyatı da xalq arasında bu sözlə adlandırılmışdır. İfadənin əski yazı dilində (osmanlıcada) qarşılığı ərəb dilindəki "hıtan" kəlməsi idi.

Sünnət əməliyyatının islam və yəhudi dinlərinin qaydaları arasında yeri olmaqla bərabər, bu dinlərdən kənarda qalmış bir çox xalqlar arasında da tətbiq edilir: məsələn, Okeaniya və Afrika tayfalarında, Amerikanın bəzi yerli toplumlarında. Sünnət adətinin mənşəyi haqqında müxtəlif fikirlər mövcuddur. Bəzi alimlər buna "cinsi birləşmə"ni və ya bilavasitə "dölün inkişafını" asanlaşdırıdığı üçün bir "bərəkət hadisəsi" mənası verir və əməliyyatı da bərəkət tanrılarına və ya bərəkət təminedici müqəddəs varlıqlara cinsi orqanının bir parçasının təqdim olunması kimi səciyyələndirilər. Sünnət mərasimlərinin arasında evlənmə mərasimləri ilə bənzərlik nümayiş etdirən və bərəkət təmin etmək məqsədi ilə edilməsi qənətinə gətirən bir sıra aktların olması bu nəzəriyyəni dəstəkləməyə imkan verir. Müsəlman-türk ənənələrində sünnət mərasimlərinin ən aydın görünən cəhəti uşağın bu mərasimlə islam cəmiyyətinə daxil olmasının təsbit edilməsidir. Belə ki, öz dinindən üz döndərib müsəlman olan şəxsin sünnət edilməsinin ilkin şərt, bir növ, qanun hesab edilməsi də işin bu tərəfini xüsusi qabardır.

Türkiyədə sünnət adətləri və mərasimləri ilə əlaqədar geniş və ətraflı bir tədqiqat işi aparılmamışdır. Məlumatlar olduqca çox, amma dağınıq vəziyyətdədir və danışılanların çoxu da köhnə sünnət toylarının xatirələri məzmunundadır. Bugün köhnə adətlərin əksəriyyəti, ələlxüsus da böyük şəhərlərdə get-gedə unudulur. Bir çox ata-analar uşaqlarını toysuz-düyünsüz xəstəxanalarda həkimlərə sünnət etdirərək bu "ağır yükdən" canlarını qurtarırlar.

Müxtəlif bölgələrdən bilavasitə canlı mərasimlərin özündən toplanmış məlumatlara əsasən, sünnət adət və mərasimlərində aşağıdakı ortaq cəhətləri görürük:

– **Uşağın neçə yaşda sünnət edilməsi və mərasimin zamanı** (ayı, günü) ilə əlaqədar dəqiq bir qayda yoxdur. Uşaqlar əsasən məktəb yaşına yaxın, ya da ibtidai sinif dönəmində, hər halda, 13-14 yaşını keçmədən, **ərgənlik** çağına girmədən, bəzən isə daha tez (2 yaşından başlayaraq) sünnət edilir. Bəzən də bir neçə oğlan uşağı olan ailələr, ya da qohum-əqrəbalar bir yerdə, "hamısı birdən əldən çıxsın" deyə, yaşları biri-birindən fərqlənən iki-üç qardaşı və ya qohum, qonşu uşaqlarını toplu halda sünnət etdirirlər. Fəsil barədə isə, bəzi yerlərdə baharda (Bünyan-Kayseri), bir çox yerlərdə yay-tətil aylarında, bəzi yerlərdə payız mövsümündə, məktəblərin başlanmasından qabaq hər hansı bir gün seçilir. İstanbulda qədim zamanlarda sünnət mərasimləri çərşənbə günləri təşkil olunurdu. Müasir dövrümüzdə isə gün seçimi evlilik mərasimlərində olduğu kimi, daha çox şənbə və bazar gününə təsadüf edir.

– **Sünnət olunan uşağın geyimi:** Qəsəbə və şəhərlərdə olduğu kimi, kəndlərdə də uşağın xüsusi bir "sünnət qiyafəsi" vardır. Şəhərlərdə varlı ailələr uşağı ləl-cəvahiratla bəzəyərlər, bunları kirayəyə götürənlər də olur. Şəhər yerlərində ön tərəfinə "maşallah" sözü işlənmiş mavi rəngli bir papaq ənənəsi ən çox istifadə olunan geyim elementlərindən biridir. Kəndlərdə uşaq təzə paltarlar geyinir, boynuna, çiyinlərinə boyunbağı, pullar asılır, papağından arxaya tərəf isə gəlin fatası atılır (Göl bazarı, Biləcik). Bəzi yerlərdə isə uşağın barmaqlarına xına qoyurlar (Bursa).

– **Mərasimin ssenarisinin qısa məzmunu:**

1) Bəzəkli paltarda olan uşaq ya mərasim günündən bir gün qabaq, ya da mərasim günü günortaya qədər yaxın qohum-əqrabanın əlini öpməyə gedir. Bu, həm də sünnət toyuna dəvət gəzintisidir. Mərasim günü, xüsusən türbələri ziyarət et-

mək, atlarla, arabalarla başqa uşaqların da iştirak etdiyi nümayiş gəzintisi bir çox yerlərdə ənənəyə aid işlərdəndir.

2) Evdə mövlud oxutdurmaq, qurban kəsdirmək də bir çox yerlərdə əməl olunan qaydalardandır.

3) Ata öz uşağına bəxşiş verir. “Kirvə adəti”nin olduğu bölgələrdə isə kirvənin uşağa və uşağın atası ilə kirvənin bir-birinə hədiyyə verməsi adəti var.

4) Uşağın atası dəvət olunmuş qonaqlara yemək verir.

5) Qonaqlar uşağa və atasına hədiyyələr gətirirlər.

6) Mərasim boyunca həm uşağı sakitləşdirmək, həm də qonaqları əyləndirmək məqsədilə şəhər yerlərində saz, kəndlərdə isə zurna, nağara çalınır. Şəhər yerlərində göstərilən hoqqabaz, qaragöz tamaşaları, kəndlərdə isə cavanların göstərdikləri müxtəlif “yarışma oyunları” eyni məqsədə xidmət edir. Əyləncələr bir uşaq sünnət edilən zaman, bir də gecə ən yüksək səviyyəsinə çatır. Bir çox yerlərdə sünnət olunmuş uşağı gecədən səhərə qədər yatmağa qoymamaq adəti vardır: bunun, qanamanın qarşısını almaq üçün lazım olduğuna inanırlar.

Yuxarıda da dediyimiz kimi, sünnət toyları bir çox detalları ilə evlilik mərasimlərinə oxşayır. Bəzi yerlərdə sünnət gününün axşamına “xına gecəsi” deyilir və mərasimdə iştirak edən qadınların, qızların əllərinə xına yaxması adətdəndir. Ümumən zurna-balabanlı, ya da çalğılı əyləncələr bu oxşarlığın əsas əlamətlərindəndir: mərasimə toy adının verilməsi də bu baxımdan məna daşıyır. Taxtaçılarda eynən toylarda olduğu kimi, qənd və qərənfillə bir yerdə dəvətnamə paylama, bayraq və bayraqdar ilə bir yerdə mərasimin ellik cəhətini (toplumsal olduğunu), sünnət əməliyyatının qurtardığını tüfəng ataraq xəbər vermək, bayraqdarın evində cavanların əyləncə təşkil etməsi kimi ənənələr bu oxşarlığı dəqiqləşdirən elementlərdir. Yenə də Taxtaçıların ənənələrində qadınların sünnət prosesi gedərkən əlləri ilə oxlov fırlatmaları, cinsiyyət

üzvündən "kəsilən dərinin" bir siniyə qoyulub, hər kəsə göstərilərək, sünnətçiyə bəxşiş toplanması, qurban kəsərək "cəm ayini"nin təşkil olunması kimi ənənələr, hər halda, qədim və islamdan kənar adətlərin qalıqları olmalıdır. Kəsilən dəri parçasının bir sininin üzərində uşağın anasına aparılaraq göstərilməsi və əvəzində bəxşiş verilmə adətinə Osmanlı saraylarında şahzadələrin sünnət mərasimlərində də əməl olunurdu.

Üstündə durulması vacib olan nöqtələrdən biri də sünnətçinin kim olmasıdır. Müasir dövrümüzdə bir çox adamlar bu cərrahlıq işini həkimlərə elətdirirlər. Üçüncü Muradın oğlu Şahzadə Məhmədi öz dövrünün əməliyyatçı həkimi – cərrah Məhməd Paşa sünnət eləmişdi. Amma bugün də bu işi həkimlərdən daha yaxşı gördüyü qəbul edilən usta sünnətçilər vardı, bir çoxları isə özlərini "fəndgir sünnətçi" deyə tanıtdırırlar. Kənd yerlərində bu işi görənlər adi sünnətçilərdir. Orta Anadolunun bir çox yerlərində bu adamlar qızılbaş-abdal cəmiyyətlərindən olan şəxslərdir. Qədimdə sünnət mövsümündə sünnətçi, nağaraçı, zurnaçı, təlxək və məzhəkəçilər hamısı bir dəstə halında kənd-kənd, qəsəbə-qəsəbə gəzərək öz işlərini görərdilər. Sünnət edilən uşağın kəsilən yerindəki qanı dayandırmaq, yaranı sağaltmaq üçün sünnətçi uşağı təmiz odun külünün üstündə otuzdururdu. Yaranı sağaltmaq üçün bir başqa "antiseptik maddə" isə çürümüz odun tozudur (Kığı).

**"Kirvəlik"** (sözün **kirvə, kivra, kivre** formaları da vardır) bir adət kimi şərqi, cənubi və cənub-şərqi Anadoluda müşahidə edilir. Ənənənin tam olaraq harada yayıldığını müəyyənləşdirmək üçün əlimizdə kifayət qədər məlumat yoxdur. Kirvə, demək olar ki, xristian uşaqlarının xaç suyuna salınması mərasimlərindəki **parrain** ("xaç atası") və **marraine**nin ("xaç anası") yerini tutur. Kirvə önəmli bir "keçid mərasimi" olan sünnət vasitəsilə uşağın ailəsinə kənardan daxil olan və o gündən etibarən ailənin bir üzvü hesab edilən kişi xeylağıdır. Vəzifəsinin əsas

tərəfi isə uşaq kəsilərkən onu tutmaqdır. Kirvəliyi uşağın atası yaxın qohum-əqrəbalarından və ya dostlarından birinə təklif edir: qəbul etmək isə həm şərəf və həm də borc hesab olunur.

Sünnət mərasiminin fərdləri biri-birinə qohumluq və qonşuluq əlaqələri ilə bağlanmış cəmiyyətin həyatındakı əhəmiyyətini göstərən bir-iki fakta da toxunaq. Bəzi kənd yerlərində sünnət toyunun xərci bütün kənd əhlalisi arasında bülüşdürülür, üyüdülməli buğdanın döyülməsi, yeməklərin hazırlanması, dağdan odunun kəsilib gətirilməsi kimi çətin işlər də birlikdə görülür. Bütün bu işlər görüldüyü zaman nağaraçı və zurnaçıların da vəzifəsi iş görənləri əyləndirmək, qeyrətə gətirmək olur (Göl bazarı, Biləcik). Bu mərasimlərin ictimai cəhətlərindən biri də varlı şəxslərin öz uşaqlarını sünnət etdirdiyi zaman qonum-qonşu, qohum-əqraba içərisində kasıb ailələrin uşaqlarını da sünnət etdirməklə onları ağır xərcdən xilas etmə ənənəsidir. Son zamanlar böyük şəhərlərdə bu toplu tədbirləri xeyriyyə qurumları öz üzərinə götürürlər. Bu zaman varlı ailələr toyun xərcini çəkir, xeyriyyə qurumları da əyləncəli tamaşaları seyr etməyə gələnlərdən aldıqları giriş pulları ilə həm kasıb uşaqları sünnət etdirmə imkanı əldə edir, həm də özlərinə gəlir götürürlər. İstanbulda bu gün də bu cür sünnət mərasimləri təşkil olunur.

Qaragöz və hoqqabaz tamaşaları böyük şəhərlərdə keçirilən sünnət toylarının proqramında əhəmiyyətli yer tuturdu. Qaragöz repertuarındakı tamaşalardan birinin mövzusu elə məhz **Sünnət**dir. Bu tamaşa əsasında qədim sünnət toylarının bir çox detalları haqqında məlumatlar əldə edilə bilər.

### 57-ci sual: "Məktəbə getmə" mərasimi nədir? Bu mərasim hansı məktəb üçün təşkil olunurdu?

Bu mərasimin şəhərlərdə, qəsəbələrdə və mollası olan bəzi kəndlərdə təşkil olunmasına dair məlumatlar toplanmışdır. Burada sözü gedən məktəbə məhəllə məktəbi, ya da sıbyan mək-

təbi deyilirdi. Bu məktəblər məscidlərə əlavə olunmuş tikililərdən birinin geniş bir otağında təşkil olunurdu və onları məhəllə məscidinin mollalığını da edən müəllimlər idarə edirdi. Qiraətdə inkişaf etmiş, hafizliyə başlamış böyük yaşlı şagirdlər kiçiklər üzərində "xəlifəlik" (nəzarətçi və oxumağa vərdiş etdirən) vəzifəsini yerinə yetirirdilər. Bu məktəblərə dövlətin ibtidai sinif məktəbləri və ya onların proqramını tətbiq edən özəl məktəblər açılmağa başladıqdan sonra da 4 yaş ilə 7 yaş arasında, yəni ibtidai məktəb yaşına çatmamış oğlan və qız uşaqları əlifbanı öyrənmək, namaz surələrini, "Quran"ı oxumaq bacarığını təmin edən 2-3 illik hazırlıq dərsləri keçməyə gedirdilər. Həvəsli şagirdlər arasında hafiz olmaq üçün təhsilini davam etdirənlər də olurdu. Cümhuriyyət dönəmində təhsil qurumları dünyəviləşdikdən sonra yaddan çıxmış olan bu adət və ənənələrin 1950-ci ildən sonra "Quran" kurslarının açılması ilə yenidən canlanıb-canlanmadığı ilə əlaqədar məlumat əldə edə bilmədik.

İstanbulda xalq məktəbə başlama mərasimlərinə **amin alayı** deyirmiş. Uşaq mərasimdə, demək olar ki, sünnət mərasimlərində olduğu kimi, bəzəkli paltarlar geydirilərək, boynuna işləməli həmayil və pul kisəsi asılaraq, başına (varlı ailələrin uşaqlarında) almazlarla, incilərlə bəzədilmiş fəs geyindirələrək iştirak edirdilər. Toplanmış məlumatlara görə, dərs ilinin başlanğıcı mərasimi üçün konkret bir mövsümü seçilmirdi. Uşaq hər hansı bir fəsildə məktəbə başlaya bilirdi, həmçinin "üç aylar"[68], qəndil kimi müqəddəs hesab edilən bir vaxt, bazar və ya çərşənbə günlərindən biri seçilirdi. Mərasimin sxemi təqribən belə olur:

1) Uşağın gedəcəyi məktəbdəki uşaqlar məktəbə yığışırlar. Dəstə şəklində uşağın evinə gedirlər; ən qabaqda bir əlin-

[68] "Üç aylar" dedikdə Rəcəb, Şaban və Ramazan ayları nəzərdə tutulur – ***Tərcüməçi***

də rəhil[69], başı üzərində isə uşağın oturacağı döşəkçəni tutmuş "xəlifə" gedir.

2) Evin qapısının qabağında molla bir dua oxuyur. Uşaqlara, müəllimə və qonaqlara yemək verilir (əgər evin şəraiti əl vermirsə, yemək məktəbdə verilir).

3) Dəstə, uşaq da onlarla bir yerdə ilahilər oxuya-oxuya məhəlləni gəzirlər və ilahilərin müəyyən yerlərində uşaqların hamısı bir ağızdan "amin" deyə qışqırışırlar. Məktəbə çatdıqda uşaq müəlliminin əlini öpür və qarşısında diz çökərək oturur. Müəllim əvvəlcə "Rəbbi yəsir" duasını öyrədir, sonra əlifbadan ilk dərsini başa salır. Müəllimə ata-ananın hədiyyələri təqdim olunur.

Çankırıda dəstədə qadınlar da iştirak edir və savab qazanmaq üçün uşağı çiyinlərində aparırdılar. Bursadan toplanmış məlumatlara görə, uşağın ayağı gərək mərasim boyunca heç yerə dəyməyəymiş; qadınlar onu məktəbə gedərkən də, qayıdarkən də qucaqdan-qucağa verərək maşına mindirirmişlər. Uşağın dəstəyə maşınla və ya atla qatılması ənənəsi, demək olar ki, hər yerdə ortaq cəhətlərə sahibdir.

Təfərrütlar içərisində başqa maraqlı adətlərə də rast gəlirik. Yusufelində uşağın məktəbə gedərkən rast gəldiyi ilk insanın şəxsiyyəti əsasında onun gələcəyi yozulurmuş, "bəxti sınanırmış": müdrik, elmli bir kimsəyə rast gəlməsi uşağın da yaxşı oxuyacağını göstərirmiş. İstanbulda belə bir əyləncəli adət var imiş: şagird təhsilini inkişaf etdirib "İnşirah" ("Ələm naşrahləkə sədrək") surəsinə çatdığı gün son ayənin son sözünü ("fərqab") deyən kimi müəllim: "Al fəsini[70] sən götür" deyərək, fəsi uşağın başından götürər və onu evə başı açıq göndərərdi. Papaq atanın müəllimə, bəvvaba (məktəbin xadiməsinə) və xəlifələrə bəxşişinin əvəzində geri qaytarılırdı.

---

[69]Rəhil: üzərində kitab qoyub oxumaq üçün açılıb-bağlanan əşya – ***Tərcüməçi***
[70] Fəs: baş geyimi – ***Tərcüməçi***

İstanbuldan uşağın məktəbə başlaması ilə əlaqədar daha bir neçə adət toplanmışdır: məsələn, uşağın Üsküdardakı Əziz Mahmud Hüdai türbəsinə aparılması və ona ərzi-hal[71] verilməsi, bir yerdə götürülmüş üzüm və qələmin türbədə mollaya dualatdırılması, kəkələyən uşaqların damaq və dişlərinin miras qızılı ilə cızdırılması, asan və yaxşı oxumasından ötrü uşağın dilini burma və s. Dualanmış üzümü yeyən uşağın zehninin iti olacağına inanırdılar.

Məktəbə başladığı zaman uşağın müəllimə təslim edilməsi, ana-atanın öz vəzifələrini, bir növ, müəllimə təhvil verməsi kimi başa düşülür. Anaların və ümumiyyətlə, uşağın ana tərəfdən qohum və yaxınlarının son dərəcə təsirlənmələri bunun psixoloji göstəricisidir. Ata müəllimə: "Əti sənin, sümüyü mənim" deyərək, uşağın təhsil məsələləri ilə bağlı övladının sümüklərini qırmamaq şərti ilə bədəni ilə əlaqədar "tədbir tökmə" haqqını ona vermiş olurdu. Hamımızın yaxşı bildiyi "falaqqa" bu məktəblərin başlıca cəza aləti idi. Falaqqaya uzatma müəyyən qaydaları ilə birlikdə mərasimi məna daşıyırdı.

İki ildən sonra "Quran"ı başdan-ayağa qədər oxumağı öyrənmiş olan şagird üçün "Xətm duası" adlanan mərasim təşkil olunurmuş. Burada da gözəl paltarlar geyinmiş uşaq məsciddə xətm duası oxunduqdan sonra müəlliminin, ana-atasının və qohumlarının əllərindən öpür, axşam da ata evdə bir ziyafət verirdi. Kəndin varlı ailələrində bu mərasimdə atanın uşağa bir tarla və ya bostan bağışlama ənənəsi də var idi.

### 58-ci sual: Ərgənlik-dəliqanlıq dönəmindən evlənmək dönəminə hansı rituallarla keçirlər?

Evlilik çağına çatana qədər uşağın və gəncin nələrlə məşğul olduğunu, nə işlər gördüyünü, cəmiyyətin həyatında

---

[71] "Ərzi-hal": ərizə, diləkçə, halı "ərz edən" yazı – ***Tərcüməçi***

necə iştirak etdiyini sonrakı fəsillərdə bayramları və oyunları tədqiq edərkən görəcəyik. Burada isə qısa şəkildə oğlanın və gənc qızın evliliyə necə hazırlaşdığını, həyatının bu önəmli dönəmini necə gözlədiyini göstərən diqqətəlayiq qayda-qanunlardan nümunələr verək.

Gənc oğlanın evlənmək istədiyini bildirmək üçün istifadə etdiyi üsullardan ən məşhuru tez-tez öz ata-anasına "qurbətə getmək niyyətinin olması"ndan danışmasıdır. Bəzi yerlərdə isə daha xüsusi davranışlar müşahidə olunur: Çankırıda cavan oğlan anasının ayaqqabısını çöl divara mıxlayaraq evləndirilmək zamanının gəldiyini yada salmaq istəyir. Yüz illər əvvəl Əskişəhərdə gənc evlənmək zamanının gəldiyini sübut etmək üçün məhəllənin toplantı otağında bir sınaqdan keçirilirmiş: meydan sinisindən bir damcı yerə tökmədən su boşaltması lazım imiş.

Qızların eyni məqsədlə istifadə etdiyi üsullar daha zəngindir:

– Köhnə İstanbulda qızlar çobanyastığı ilə niyyət edər, üstlərində qarışqa duası, qaraçılardan alınmış qurdbüzüyü kimi magik gücü olduğuna inandıqları əşyalar gəzdirərdilər.

– Bursanın Dərəqızıq kəndində evdə ərlik qızın olduğunu bildirmək üçün evin damına qızların sayı qədər məcməyi qoymaq adəti bugün də davam edir.

– 15-20 il bundan əvvələ qədər Afyonda ərlik yaşa gəlmiş qızlar cümə günü namaz vaxtı yola çıxmamış özləri ilə kilidlənmiş bir qıfıl da götürərək, Qız qalasına gedirlərmiş. Orada qoca bir qadın qıfılı qızların başının üstündə açar, qızlar da qaladan şəhərə tərəf "Bəxtim, bəxtim, qızıl taxtım, gəlin olacaq vaxtım" deyə qışqırırmışlar.

– Çankırıda gənc qızın Murad baba türbəsinin ətrafında dolanaraq, "Taleyim, ləbbeyk" deyərək qışqırması da eyni ənənəyə aiddir. Çankırıda qədim zamanlarda ərə getmək yaşı keçən gənc qızlar damın üstünə çıxaraq miyoldaşırmışlar. Bir rəvayətə

görə, bir qız bunu heç cür öz qüruruna sığışdıra bilməmiş, nəhayət, çarəsiz qalıb, damın üstünə çıxmış və "Adətiniz yerə girsin, miyav!" deyə qışqırmışdır. Bu adət, belə görünür ki, çox qədimdir. "Kitabi-Dədə Qorqud"da oğlandan xoşu gələn qız üçün işlədilən "pişiyi miyoldadı" ifadəsi ilə bu adət arasındakı əlaqə açıq şəkildə görünür. Bu adət gənc qızın yerbəyer edilməsi zamanının gəlməsini murovda olan pişiklərinin damlarda gəzib miyoldaması ilə simvolizə edir. İrəlidə haqqında ayrıca danışacağımız xıdırəlləz mərasimləri də, xüsusilə gənc qızların ərə gedəcəkləri adamla əlaqədar yuxularının yozulması və ərə getmək arzularını bildirməsi üçün bir vasitə rolunu oynayır.

Kənd, qəsəbə və şəhər yerlərində gənc qızlarla oğlanların tanış olub-görüşmələrini, sevişmələrini təmin edən adətlər folklor, sosiologiya və sosial-psixologiya kontekstlərində lazımi qədər araşdırılmış və tədqiq olunmuş hesab edilə bilməz. Bu məsələlərlə əlaqədar zəngin materialları biz ancaq roman və hekayələrdə tapa bilirik. Xüsusilə müasir yazıçılar xalq həyatının bu səhifələrindən geniş bəhs etmişlər. Onların nəql etdikləri, əksərən, öz müşahidələrinə, ya da tutarlı qaynaqlara əsaslanan məlumatlardır.

Köhnə İstanbulun Kağızxana, Göysu kimi gəzinti yerlərini təsvir edən yazarların əsərlərində də iri şəhərlərin gənclərinin o dövrün şərtlərinə əsasən hansı qayda və qanunlara əməl edərək və bəzən də adət-ənənələrə meydan oxuyaraq tanış olmaqlarından və ünsiyyət yolları aramalarından bəhs edən səhifələrə rast gəlirik. Keçən əsrin sonlarında Göysuda gənc oğlanlarla qızların qayıq gəzintiləri zamanı "bayatı deyişmə" oyunlarına Kunoş **"Türk halk edebiyyatı"** adı ilə türk dilində çap etdirdiyi kitabında (İstanbul, 1925-ci il), öz xatirələrinin arasında yer vermişdir. Qayıq gəzintilərində gənclərin türkü və bayatılarla söz deyişmələri Bartın xalq adətlərində də geniş yer tutur.

**59-cu sual: Evlənmə adət və mərasimlərinin tədqiqində hansı problemlərlə qarşılaşırıq?**

Evlənmə-toy keçid mərasimlərinin içərisində quruluşunun qarmaqarışıqlığı və məzmunundakı təfərrüatların zənginliyi baxımından həm çox maraqlı, həm də tədqiq olunması çətin bir ənənədir. Eləcə də iki gəncin həyatlarını birləşdirməsi baxımından fərdi davranışları, yeni bir qohumluq əlaqəsinin qurulması aspektindən ailələrarası münasibətləri, iki tərəfin də qohum, dost və qonşularının iştirakını qanuniləşdirdiyi üçün sosial göstəriciləri öz strukturuna daxil edir. Evlənmə-toy xüsusilə kiçik kənd sosiumunda, demək olar ki, heç kimin qıraqda qalmadığı bir "bayram" mənası qazanır. Mərasimlərin bəzi hissələri coşğulu əyləncələr, yemək-içmək, "toy-bayram" havası içərisində keçdiyi halda, başqa dönəmləri "ağı" görüntüsündədir. Görücülük, söz kəsmək və qonaqlama məsələlərində qohumluq əlaqəsi quracaq ailələrin qarşılıqlı çəkişmələri iqtisadi bir prosesə çevrilir.

**Düyün/toy** bugün evlənmə mərasimi silsiləsinin müəyyən bir dövrünü: gəlin hamamı, xına, gəlin alma, gərdək gecəsi və onun səhəri mərhələlərini öz içərisinə daxil edir və ən uzun davam edəni bir həftə, əksərən isə, üç gün qədər bir vaxt ərzində həyata keçirilir. **Düyün** sözünün ilk mənası bağlama, bağlanma deməkdir. **Düyün, düymə** sözlərinin də törəndiyi **düy-** feil kökü Mahmud Kaşqarlının lüğətində **tüy-** formasında öz əksini tapmışdır. O, öz lüğətinə eyni kökdən yaranmış başqa sözləri, o cümlədən, bu gün dilimizdə **düğün** mənasında istifadə etdiyimiz **tüyün**ü də daxil etmişdir. Başqa bir tərəfdən Türkiyə türkcəsində gəlin və bəyin ata-analarının və yaxın qohumlarının bir-birilərinə verdiyi ad kimi istifadə olunan **dünür**[72] sözü də həmçinin **düy-** kökündən yaranmış olmalıdır. Bu söz də adıçəkilən lüğətdə bugünkü mənasında

[72] Quda – ***Tərcüməçi***

**tüngür** formasında özünə yer almışdır. Kaşqarlının kitabında **tüngür** sözündən yaranmış **tüngürle, tüngürleş** fellərinə də rast gəlirik. Evlilik hadisəsinin əhatə etdiyi adət və mərasimlər bəylə gəlini və onların ailələrini bir-birinə bir çox qarşılıqlı "müqavilələr" – mal, mülk, pul, əşya alış-verişi vasitəsilə bağlamaq, beləcə qohumlaşmaq işini möhkəmləndirmək məqsədi güddüyü üçün, görünür, ta qədimdən bu adət və mərasimlərin hamısı birlikdə **düyün**[73] adlandırılmışdır. Bu söz zaman keçdikcə öz məna genişliyini itirmişdir. Nağıllarda, dastanlarda qırx gün, qırx gecə davam edən **toyları** da öz qədim mənaları ilə qəbul etmək məqsədəuyğun olar. "Kitabi-dədə Qorqud"da evliliklə əlaqədar mərasimlərin hamısı "kiçik düyün" (kiçik toy) və "ulu düyün" (böyük toy) ifadələri ilə iki hissəyə ayrılır. Birincisi "danışıq və nişan" qrupundan olan, ikincisi isə "xına, gəlin köçürmə və toy gecəsi" qrupundan olan mərasimləri əhatə edir. Eyni mətndə igidin qızın barmağına nişan üzüyünü taxarkən dediyi "düyün qutlu olsun" alqışındakı **düyün** ifadəsi yuxarıdakı qruplardan birinə aiddir. Amma belə görünür ki, **düyün** sözü bu Oğuz dastanının yazıya alındığı dövrdə artıq özünün bugünkü dar mənasını da qazanıbmış. Belə ki, dastanda yuxarıda qeyd etdiyimiz iki qrupdan, hər halda, ikincisi ilə bağlı olan "çalıb-oynamaqlı toplantılar" **düyün** sözü ilə adlandırılır. Eyni kitabda, **toy-düyün** ifadəsinin müasir dövrümüzdəki "toy-bayram" mənasında (evlənmə mərasimlərini nəzərdə tutmadan da) "yemək-içməkli hər cür şənlik" üçün də istifadə edildiyini müşahidə edirik.

---

[73] Azərbaycanda dilində "düyün" sözü "toy-düyün" mürəkkəb sözünün tərkib elementi kimi işlənir. "Toy" və "düyün" eyni mənalı sözlər olub, biri-birinin leksik sinonimidir. Dilimizdə funksionallıq qazanmış "toy" sözünün də "düyün" sözü kimi "düy" kökünə bağlı olması, başqa cür desək, həmin kökün dilimizdəki müasir deyiliş şəkli olması, bizcə, göz qabağındadır. Ancaq "toy" sözünü (yeməkdən) "doymaq" sözünün kökü ilə əlaqələndirənlər də var. – ***Tərcüməçi***

Qız seçərkən ilk təşəbbüs oğlan evi tərəfindən edilir. Ya cavan oğlan özü kiməsə göz qoyur, ya da seçim işini anasına, atasına etibar edir. Dəyərləndirilmə mərhələsində ilk olaraq qızın gözəlliyi, xasiyyəti ədəb-ərkanı, iffətli olub-olmaması nəzərə alınır. Ancaq qohumluq əlaqələri qurmaq istəyən ailələrin iqtisadi vəziyyəti də əsla diqqətdən kənarda qalmır. Belə ki, qız alıb-verərkən ailələrin, əksərən, sosial cəhətdən bir-birinə uyğun gəlməsi (tən gəlməsi) mütləq nəzərə alınır. Oğlan tərəfinin qız tərəfindən daha imkanlı olması bir narahatlıq yaratmır. Bunun əksinə, oğlan evinin kasıb olması müəyyən çətinliklər yaradır, ya da normal üsullardan yan keçməyi tələb edir. Qohumluq əlaqələri də qızın seçilməsində önəmli amildir. "Öz içimizdən biri ilə ailə qurma" ("endogamie") adətlərinin yaşadığı mühitlərdə bunun konkret nümunələrini tapmaq mümkündür. Türkiyə əhalisinin bugün də davam etməkdə olan adət-ənənələrində içəridən və qıraqdan evlənmə ("endogamie" və "exogamie") sistemlərinin yayılma əraziləri və sərhədlərini dəqiq şəkildə müəyyənləşdirmək çətin işdir. Elə olur ki, eyni bir bölgədə hər iki qayda istifadə olunur, elə də olur ki, bu qaydalardan birinin funksional olduğu bölgədə funksional olmayan o birinin də dərin izlərinə rast gəlinir. Məsələn, Maraş şəhərinin evlilik adət-ənənələrində qızlarını qırağa (qohum olmayana) ərə vermək istəyən valideynlər subay əmi uşaqlarının "birincilik" haqqını nəzərə alaraq, onların razılığını almağa məcburdurlar: "Əmioğlu gəlini atdan endirir" deyimi məhz bu adətə işarə edir (H.Uğurol Barlas, **Maraş düğün adetleri,** s. 17-18)

Yuxarıda "Kim kimlə evlənir?" sualının bir-iki tərəfini cavablandırmağı təcrübə etdik. Bir də "Cavanlar onların evlənmələrinə ailələri tərəfindən əngəllər törədildiyi zamanlarda nə edirlər?" məsələsi var. Bu kimi hallarda tətbiq olunan üsul "qız qaçırtma"dır. Bu vəziyyət ya iqtisadi, ya da bəzi başqa səbəblərdən, ən çox isə qız tərəfi əngəl törətdiyi zaman ortaya

çıxır. Cavan oğlan daha əvvəldən qız ilə danışaraq dostlarının və yaxınlarının yardımı ilə, bu da olmasa, sadəcə öz imkanları ilə onu qaçırdır. Gənclər bu halda toysuz-düyünsüz, hətta kəbinin gərdək gecəsindən əvvəl kəsilməsini vacib bilən adəti tapdayaraq "ər-arvad olurlar". Qız atası qızın yaşı balaca olduğu üçün hökumətə müraciət etmək ixtiyarı olsa da, fakt qarşısında qaldığı üçün iş əksər hallarda xoşluqla nəticələnir. Qız qaçırılması hadisəsi xüsusilə kənd yerlərində qızı gözaltı etmiş oğlanın qız atasının istədiyi "başlıq pulu"nu verməyə gücü çatmayanda baş verir. Bir çox yerlərdə qızın atası da bunu yaxşı qarşılayır: az məbləğdə başlıq puluna razı olub nüfuzunu itirməkdənsə, qızının qaçırılmasına göz yumur.

Toysuz-düyünsüz evlənməyin ikinci bir nümunəsini dul qadınların ərə getməsində müşahidə edirik. Aşağıda detalları ilə tədqiq edəcəyimiz adətlər normal evlilik çağında olan və ilk dəfə evliliyə qədəm qoyan qızla oğlanın əməl etməli olduqlarıdır.

Türkiyədə xalq adət-ənənəsi kimi "evlilik və toy" ilə əlaqədar say etibarı ilə olduqca zəngin məlumatlar toplanmışdır. Deyə bilərik ki, türk folklorunun üstündə ən çox dayanmış olduğu mövzulardan biri toy adət-ənənələridir. Bununla bərabər, həmin tədqiqatlar ənənənin Türkiyə miqyasında bütün ortaq tərəflərini aydınlaşdırmaq, bölgələrin və azlıqların nümayiş etdirdikləri variantları müqayisə etmək yolu ilə onlardan hər birinə xas elementləri meydana çıxarmaq imkanını təmin edə biləcək gücdə deyildir. Türkiyənin toy ənənələrinin tam və əhatəli tədqiqatı aparılmamışdır. Hamit Zübeyir Koşayın **"Türkiye Düğünleri Üzerine Mukayeseli Malzeme"** adlı kitabı (Ankara, 1944-cü il) müəllifin öz araşdırmalarının, daha əvvəl nəşr edilmiş olan və bu kitaba olduğu kimi daxil edilən məlumatların, yazıçının tərtib etdiyi sorğu-müsahibələr üçün daxil olan, çap edilməmiş məlumatların müəyyən bir plan əsasında qruplara ayrılmasından meydana gəlmişdir. Kitab, bun-

dan başqa, zəngin biblioqrafik qeydlər, şəkillər, nota salınmış toy mahnıları, axırına əlavə edilmiş indeks-sözlük baxımından da çox faydalı bir mənbədir. Amma kitabdan kənarda qalan (onun çapından sonra toplanmış və nəşr edilmiş) bir çox sənədlər "xam material" dəyərini özündə qoruyub saxlayır.

Bugünə qədər aparılmış araşdırmalarda tətbiq olunan üsullar, təqribən, belə xarakterizə oluna bilər: Tədqiqatın bir hissəsi toplayıcının özünə görə önəmli, qəribə və seçdiyi əraziyə məxsus hesab etdiyi adət və ənənələrin sıralanması əsasında meydana çıxmışdır. Bunların bəzilərində danışılan şeylərin müasir dövrümüzdə də tətbiq olunduğu, ya da **köhnə** olduğu haqqında deyilsə də, zaman və yer dəqiq olaraq müəyyənləşdirilməmişdir. Sadalananların adət və mərasimlərin hamısı olduğu, yaxud da söyləyicilərin danışdıqlarından seçmələrin olduğu məsələləri qaranlıq qalır. Bir qrup araşdırmalar isə müəyyən bir bölgənin, ya da bəlli bir yerin ənənəsini **tam şəkildə** izah etmək məqsədi güdür və bu zaman tədqiqatçı özünün və başqalarının müşahidələrindən, xatirələrindən, köhnə və təzə, yaşayan və unudulmuş olan nəyi əldə etmişsə – hamısını sadalamaqla məşğul olur. Bu isə bizə köhnə mərasimlərin xatirələri ilə günümüzdə yaşayanları fərqləndirmək, onları tətbiq edənlərin öz sosioloji vəziyyətlərinə (iqtisadi güc, mədəni səviyyəsi və s.) uyğun olaraq nümayiş etdirdikləri xüsusiyyətləri anlamaq imkanı vermir.

Etibarlı araşdırma üsullarının tətbiq edilməsinə son illərdə çap olunmuş üç kiçik tədqiqatda rast gəldik: H.Uğurol Barlasın **"Maraş Düğün Adetləri"** (İstanbul, tarixsiz) və **"Kayseri Düğünleri"** (1963-cü il, İstanbul); eyni müəlliflə Süheyla Efenin **"Kütahya Düğünleri"** (İstanbul, yazılma tarixi: 1963-cü il). Bu müəlliflər məlumatları araşdırma apardıqları qəsəbələrin "adət və ənənələri yad təsirlərdən ən yaxşı mühafizə olunmuş, dəyişikliklərə ən az məruz qalmış **orta təbəqələrə**

mənsub adamlar arasındakı müsahibələrlə” və toyların bəzilərində şəxsən iştirak etməklə toplamışlar.

Müəyyən bir sosium içərisində iqtisadi sistemlə qohumluq sistemi arasındakı münasibətləri aydınlaşdırmaq məqsədi ilə aparılmış başqa bir tədqiqatı da fransız sosioloqu Jean Cuiseniernin **“Economie et parente. Essai sur les affinites de structure entresysteme eqonomique et systeme de parente”** (“Mouton Yayın Evi”, 1973-cü il) adlı əsərində rast gəlirik. Əsərdə (birinci kitab, IV fəsil) Konya Ərəylisinə tabe türkmən və yörüklərin məskunlaşdığı kəndlərdəki evlənmək ənənələrinə yer verilmişdir. Bu məsələyə həsr olunmuş səhifələrdə müəllif suallarına o kəndlərin yerli əhalisindən aldığı cavablar əsasında **oğlan evi** (“alıcılar”) və **qız evi**nin (“vericilər”) əməl və tətbiq etmək məcburiyyətində olduğu adət və mərasimləri detalları və xronologiyası ilə göstərən bir mənzərə şəklində xülasə etmişdir.

Üçüncü tipə aid bir üsul da vardır. Müəyyən bir yerdə və müəyyən bir tarixdə edilən **tək bir** toyu və onun daha əvvəlki mərhələlərini tədqiqatçının və köməkçilərinin başdan-ayağa qədər izləyərək gördüklərinin olduğu kimi təqdim olunması. Bu üsuldan istifadə edilərək toplanmış məlumatlar, əlbəttə ki, bir bölgənin, hətta bir yerin evlənmək adət və mərasimlərini **tamamilə** əks etdirmir: bu məlumatların say etibarı ilə çoxluğu və ya azlığı, araşdırma yerinə məxsus elementlərin sıxlığı və s. toy sahiblərinin içərisində yaşadıqları mühiti hansı şəkildə təmsil etmə dərəcələrinə mütənasibdir. Müəyyən bir bölgənin, müəyyən bir yerin evlilik ənənələrinin əskiklik olmadan öyrənilməsi ancaq bu üsulla toplanmış **çoxlu** materialların müqayisəsi nəticəsində mümkündür. Amma başqa bir tərəfdən də, bu cür araşdırmalar onlardan istifadə edəcək tədqiqatçıya müxtəlif fərdi və sosial faktorların, fərqli zaman və yer şərtlərinin ənənələrdə yaratdığı quruluş və məzmun dəyişikliklərini qavramaq və izah etmək imkanını verir.

1940-cı ildə iyul ayında Bolu eli ərazisindəki bir kənddə (S. kəndi) bir "toy" üç günlük müddətdə bu üsula əsaslanaraq tədqiq olunmuşdur. Oxucu aşağıda (63-cü sual) "kiçik bir kənd mühitində hər hansı bir toy necə keçir" sualına cavab tapacaqdır. O toyun qadınlara aid tərəfində baş verənləri həyat yoldaşım, kişilərə aid tərəfindəkiləri mən izləmişdim. Daha çox insanın iştirak etdiyi mərasimlərin daha zəngin göstəricilər nümayiş etdirdiyi hallarda, əlbəttə ki, daha çox sayda müşahidəçi və onlar arasında iş bölgüsü lazımdır.

Bundan sonra gələn altı sualda (60-65-ci suallar) evliliklə əlaqədar mənalı elementlərini tədqiq etməyə çalışacağımız adət və ənənələri silsiləsini qaralama formasında aşağıdakı sxem üzrə qruplaşdıra bilərik:

**A. Toydan əvvəl:**

I. Görücülük, qudalıq/qız istəmə;

II. a) Sözkəsmə, b) şirinçay, c) nişan;

III. Toya dəvət etmə;

IV. Cehizin göndərilməsi və nümayiş etdirilməsi;

V. Gəlin hamamı.

**B. Toy:**

I. Xına gecələri: a) qız xınası, b) oğlan xınası;

II. Gəlin köçürtmə;

III. Kəbin;

IV. Gərdək;

V. Gərdək sabahı (fata-parça).

**C. Toydan sonra:** gəlin və bəy mərasimləri.

**60-cı sual: Görücülük və qız istəmə adətləri hansı şərtlər daxilində və necə tətbiq olunur? Beşikkəsmə nədir?**

Görücü üsulu şəhər və kənd mühitlərinin bir adəti kimi üzə çıxır. Yaşayış şərtlərinin bu mühitlərdə sürətlə dəyişdiyini nəzərə alsaq, bu ənənənin getdikcə zəiflədiyini də demək

mümkündür. Kənd yerlərində qız kəndin özündən və ya yaxın kəndəndirsə, “görücüyə getmək” və “qız istəmə” bir-biri ilə qaynayıb-qarışmışdır. Bunun səbəbi aydındır: belə yerlərdə ailələrin və evlənmək yaşına gəlmiş gənclərin bir-birini tanımasına, oğlan tərəfinin qızı istəməyə getməzdən əvvəl ilk məlumatları əldə etməsinə maneələr yoxdur. Bu yerlərdə (və bəzi qəsəbələrdə də) **görücü** yerinə **dünürçü (qudaçı)** ifadəsi istifadə olunur. Görücülük bu üsuldan istifadə etməzdən əvvəl bir seçim edilə bilmədiyi hallarda mümkün olur. Ailələr arasında cürbəcür iqtisadi səbəblərdən açıq və ya örtülü şəkildə əvvəlcədən sözləşməyin nəticəsi kimi bir-birinə uyğun olduqları qəbul edilmiş qohum və ya qonşu uşaqlarının evləndirildiyi təqdirdə görücülük işi öz-özlüyündə qüvvədən düşür. Görücülük işini bu ənənənin olduğu yerlərdə qadınlar öz boynuna götürürlər. Bunlar oğlanın anası ilə yaxın qohumlarından olan yaşlı qadınlar olur. Görücülük işi oğlana uyğun ola biləcək qızların yoxlanılması və daha sonrakı dəyərləndirilmələr nəticəsində vaz keçə bilmək imkanına əl yeri qoymaq şərti ilə sanki ilk seçim turudur. Görücü qadınlar qızın gözəlliyi, adət-ənənələrə necə əməl etməsi haqqında ilkin rəyi formalaşdırırlar. Bundan sonra isə ailənin maddi və mənəvi vəziyyəti, həmçinin, başqa əhəmiyyətli məsələlərlə bağlı məlumatlar toplamağa başlayırlar. İkinci mərhələ oğlan evinin qızı bəyəndiyi təqdirdə həyata keçirilən elçilik mərasimidir. Qız tərəfinə də araşdırmağa və fikirləşməyə vaxt verilir. Nəhayət, hər iki tərəfin müsbət nəticəyə gəlməsi ilə görücülərin işi başa çatmış olur.

Anadolunun bəzi bölgələrində (bəzi ailələrdə) uşaqlar hələ beşikdə ikən böyüdükləri zaman onların evləndirilməsi haqda qərar verilir. Ənənənin bugün də davam etdirilib-etdirilmədiyinə dair dəqiq məlumatımız yoxdur. “Halk Bilgisi Haberleri”nde (26-cı nömrə, 1933-cü il) M.Zəkinin bir tədqiqatında yeri göstərilmədən belə bir ənənədən bəhs edilmişdir. Orada **beşik qır-**

**dı** ifadəsi ilə adlandırılan adət haqqında bunlar deyilir: Oğlan atası qohum olmaq istədiyi bir ailədə qız uşağının olduğunu eşidən kimi bir beşik bəzəyərək qızın evinə yollayır. Beləcə, hələ qız beşikdə ikən deyikli olur. Oğlan evi qəndillərdə, bayramlarda qızın ata-anasına və qıza hədiyyələr göndərir. Bu adətin daha geniş yayılmış adı **beşik kərtmə**di[74]. **"Kitabi-Dədə Qorqud"**da bu barədə danışılması bunun çox qədim bir türk adəti olduğunu göstərir. Nağıl və rəvayətlərdə bu adətin başqa bir formasına təhkiyə motivi kimi rast gəlinir: fövqəltəbii güc sahibi olan bir adam (bəzi hallarda dərviş) övladı olmayan iki nəfərə bir alma verir və onlar bu meyvədən yediyi zaman uşaqları olur: bir qız, bir oğlan. Hər iki atanın birgə doğulmuş bu uşaqları böyüdükləri zaman evləndirmələri lazım gəlir.

**61-ci sual: Hansı adət, mərasim və tədbirlər "söz kəsimi", "şərbət" və "nişan" sözləri ilə adlandırılır?**

Bu sualdan etibarən toxunacağımız adətlər haqqında bir neçə yerdən seçdiyimiz sanballı faktlarla kifayətlənəcəyik. Təsnifata salınası materiallar çoxdur və onların bütün təfərrütaları ilə müqayisəli tədqiqi bu kitabın planından qırağa çıxır.

S. kəndində biz ancaq toy mərhələsində ola bildik, bu səbəbdən də toydan əvvəlki mərhələni tədqiq edə bilmədik. Nəql olunanlar əsasında əldə etdiyimiz məlumatlar bunlardır: oğlan atası ilə qız atası başlıq pulu kimi, 1940-cı il şərtlərinə görə, 30 lirə pul və bir qızıla razılaşıblar (Oğlanın atası qızınkından daha varlı idi, bu üstünlüyü də hərbçi olduğu üçün aldığı 20 lirə pul sayəsində əldə etmişdi və kəndin ən varlısı hesab olunurdu.). Əslində, başlıq pulunun qızın cehizinə xərclənməsi lazım imiş. Lakin qızın atası bu pulu öz evinin təmir işlərinə xərcləmiş, oğlan evi də qızın cehizlərinin tamamlanması işini öz boynuna

---

[74] Azərbaycanda "beşikkəsmə" kimi işlənir – ***Tərcüməçi***

götürmək məcburiyyətində qalmışdır. Oğlanın atasının dünya müharibəsi səbəbilə qızıl qiymətlərinin yüksəldiyini bəhanə edərək, qızıl taxılması barədə lazım olmayan tərzdə danışması düz gəlin köçən günündə mübahisə mövzusu oldu. Və bu mübahisə ancaq şəhərdən gələn qonaqlardan birinin araya girməsindən sonra sakitləşdi. Oğlan evinin nişan hədiyyələri: qayınlara papaq, qayınanaya don, qayınataya köynək. Qız evinin hədiyyələri: sırma işləməli yaylıq (bəy bunu toy günlərində boynunda gəzdirəcəkdir), işləməli parçadan kisəciklər.

Maraş (qəsəbə) ənənəsində söz kəsimi və nişan adətləri belə sıralanır:

a) **Söz kəsimi**[75] günü cəvahirat (mirvari, qızıl...) ilə əlaqədar danışıqlar qadınlar arasında gedir. Başlıq və qızın əmi uşaqlarına və qardaşlarına veriləcək "yol pulu" haqqında da söhbət gedir, amma bu məsələlər haqqında son qərarı kişilər verir.

b) **Şərbət**[76] hər iki tərəfin adamlarının dəvət vasitəsilə çağırıldıqları ilk mərasimdir. Qız evində qadınlar və kişilər ayrı-ayrı otaqlarda yığışırlar. Oğlan evindən gələn qəndlə şərbət düzəldilib paylanır, çərəz, meyvə və şirniyyatlar yeyirlər. Mərasim çalğı və mahnı ilə davam edir. Bu arada qayınana qızın barmağına üzüyü taxır.

c) Şərbətdən sonra bir gün oğlan evinin qıza və qızın yaxınlarına aldığı əşyalar əvvəlcə oğlan evində qohumlara göstərilir, daha sonra qız evinə göndərilir və orada da göstərilir.

d) **Nişan** hər iki tərəfin yaxın adamları üçün qız evində təşkil olunan ikinci mərasimdir. Gəlinlik geyinmiş qızın paltarına oğlanın yaxın qohumları öz hədiyyələrini sancaqla taxırlar[77].

---

[75] Buna Azərbaycanda yerinə görə "kəsmət kəsmə", "danışıq" və s. deyilir – ***Tərcüməçi***

[76] Buna Azərbaycanda yerinə görə "şirniiçmə", "şirinçay" və s. deyilir – ***Tərcüməçi***

[77] Qızıl bəzək əşyaları, pul və s. – ***Tərcüməçi***

Qadınlarla qızlar bir tərəfdə, gənc oğlanlar da başqa bir tərəfdə çal-çağırla əylənirlər. Günorta yeməyi yeyilir. Gənclərin əyləncəli məclisləri gecə də davam etdirilə bilir. Əgər nişan mərasimi Ramazan ayına təsadüf edərsə, oğlan qız evinə "maya" göndəririr, qız da bu mayadan çörək bişirir.

Bu silsilədən Maraş adət və ənənələri ilə Konya Ərəylisi kəndlərinin adətlərinin bir qismi ortaqdır. Ancaq burada Maraşdakı şərbət və nişan mərasimlərinin çal-çağır dolu əyləncəli tərəfi müşahidə edilmir. Başqa xüsusiyyətləri:

a) **Sözkəsmə**də başlıq pulu və evin bəzək əşyaları, xalça, palaz... bazarlığına dair danışıqlar oğlanın atası, ya da oğlan evini təmsil edən yaşlı adamlardan bir kişi ("oğlan başı") ilə qızın atasının arasında olur.

b) **Şərbət**də oğlan evi bir qurban kəsir, bu ətlə qız evi qonaqlara yemək bişirir.

b-1) Oğlan evindən qız evinə gəlin paltarı və şərbət aparılır, qız evində şərbət içilir.

b-2) Oğlanın atası ilə birlikdə oğlan evinin qadınları qızgilə gedirlər. Başlıq pulu qız atasına verilir; qızıllar qıza taxılır (Burada mərasimlərin bu hissəsi **nişan** adlandırılır.).

b-3) Qız evindən oğlan evinə hədiyyələr aparılır və bunlar oğlan evinin qonum-qonşularına göstərilir.

d) Oğlan evinin qadınları qız evinə gedir, hədiyyələr aparırlar.

d-1) Bunun əvəzində qız evindən kiçik hədiyyələr alırlar.

d-2) Kürəkən qayınanasının əlini öpür, o da oğlanın barmağına üzük taxır (Bu adət məhz bir kəndə məxsusdur.).

Ərəyli adətləri silsiləsində Maraş ənənələrinin "c" qismindəki "əşyaların göstərilməsi" adəti yoxdur.

**62-ci sual: Nişan ilə toyun arasında hansı adətlərə əməl olunur?**

Toyun vaxtı hər iki tərəfin birgə danışığı əsasında müəyyənləşdirilir. Bu proses çox qısa ola biləcəyi kimi, həm də oğlan evinin başlıq pulunu təmin edə bilməməsi və başqa səbəblər üzündən illər boyu uzana da bilər. Qars bölgəsində nişanlı olduğu halda cavanların özlərini evli hesab etdiklərini, nişanlı cütlüklərin ər-arvad münasibətini qurmalarının, arada uşaqlarının olmasının heç də pis hesab edilməməsini, hətta zarafatla "gəlin ərinin evinə getdiyi zaman özü ilə bir-iki **buzov** götürməsə, nə işə yarayar?" deyildiyini eşitdim.

Anadolunun kəndli və köçəri mühitlərində toyun payız fəslində qeyd edildiyi bir qayda halına düşmüşdür. Xırman işlərinin, qış hazırlıqlarının sona çatmış olması, yaylaqdan geri dönmələri və toy xərci məsələsini həll edə bilmək baxımından ən əlverişli mövsüm payızdır. Amma payız fəslinin seçilməsi iqtisadi səbəblərlə yanaşı, yəqin ki, müəyyən inanclara da bağlıdır. Yaşar Kamalın "Ala ceyran əfsanəsi"ni danışarkən türkmənlərin toyu payızda etməsini qanun dəyərində bir adət kimi vurğulaması təsadüfi deyildir. Qoyunçuluqla məşğul olan topluluqların yaylaq mövsümünün sonunda, payız aylarında keçirdikləri "qoçların qoyunlara qatışdırılması" mərasimlərini toya bənzədirlər. Belə ki, hər iki mərasimdə "bərəkət yaratma" inancı ilə əlaqədar adətlər özünə yer alır.

Bolunun S. kəndində toy mərasimlərini izləyərkən bu məsələ ilə əlaqədar bu məlumatları əldə etdik: Oğlanla qız ancaq üç ay nişanlı qalmışdılar, əslində, bu müddət uzun çəkməli, toy xırmandan sonra olmalı imiş. Amma oğlanın atası xırman işlərində təzə gəlinini də işlədə bilmək üçün toyun xırmandan əvvəl olması ilə bağlı inadkarlıq göstərmiş, nəhayət, qız atası da razı olmuşdur. Toy iyulun ikinci həftəsində (8

iyuldan etibarən) keçirilməyə başladı: bu zaman kəsimi isə o kəndlər üçün oraqla biçin mövsümüdür.

Toy kütləvi bir hadisədir. Gənc oğlanla gənc qızın və bilavasitə onların ailələrinin yeni bir qohumluq əlaqəsi ilə bir-birinə bağlanmasının bütün cəmiyyət tərəfindən bilinməsi və bu əlaqənin cəmiyyətin də iştirak etdiyi mərasimlərlə qanuniləşdirilməyi lazımdır. Toyun daha az adamla həyata keçirilən əvvəlki mərhələ-mərasimlərinə nisbətdə ənənələr toyun özünün mümkün qədər çox insanla birlikdə keçirilməsini tələb edir. Toyda iştirakın üsulları, xərclərin, külfətlərin (ailələrin) bölüşdürülməsi yerinə görə dəyişən qayda-qanunlara əsaslanır. Kənd yerlərində mərasimlərdən kənarda bir nəfərin də qalmamağına xüsusi diqqət yetirilir, hətta mərasimlərin bəzi mərhələlərində dəvətli-dəvətsiz, yaxın-uzaq – hər kəs iştirak edə bilər. Amma yenə də toyun kimin oğlu, kimin qızı üçün olduğunu, yerini, vaxtını bildirmək toya dair ilk iş kimi mərasim xarakterindədir.

Toya çağırma Anadolunun bir çox yerlərində **oxuntu, oxuma**[78] vasitəsilə həyata keçirilir, bəzi yerlərdə bu məqsədlə göndərilən hədiyyələrə **yolluq** deyirlər. Toroslar bölgəsində (Qaratəpə kəndində) toya çağırma **yol paylama** adlandırılır. Bu işi əksərən qadınlar görür, bəzi yerlərdə kişilərə kişi, qadınlara qadın dəvətçilər göndərilir. Sivasda qadın dəvətçinin yanında bir uşaq da olur. Əskişəhərdə dəvətçilərin toy sahibinin evindən çıxarkən onların dəfçilərlə yola salınması buna toyun başlandığına işarə kimi xüsusi əhəmiyyət verildiyini göstərir. Dəvətçilər toya çağırılan adamlara ya sabun, qənd, şam kimi simvolik xarakter daşıyan, ya da parça kimi hədiyyələr aparır, toyu təşkil edən mərasimlərin (gəlin hamamı, xına, fata...) tarixlərini, yerlərini xəbər verir və bəxşiş alırlar. Mudurnunun kəndlərində toya dəvət olunanlara tək-tək şam göndərildiyi kimi, bəzən də təkcə kəndin muxtarına

[78] Oxuntu, oxuma: dəvətnamə – ***Tərcüməçi***

bir şam göndərilməsi halına da rast gəlinir. Sədr də bunu məsciddə yandırır və bütün kəndin toya çağrıldığını elan edir.

**63-cü sual: Bolunun bir kəndində keçirilmiş toyun üç gün ərzində izlədiyimiz adət-ənənə və mərasimləri içində nələr var idi?**

1940-cı ilin iyulunda S. kəndində keçirilən bu toyun müşahidəsini apardığımız bütün detallarını olduğu kimi çatdıra bilmək üçün onu iki hissəli şəkildə təsvir edəcəyik: **A)** qadınlar olan yerdə baş verənlər; **B)** kişilər olan yerdə baş verənlər (Qadınlarla kişilərin birgə iştirak etdikləri mərasimləri isə **A+B** şəklində göstərəcəyik.).

Toy üç gün davam etdi: şənbə, bazar və bazar ertəsi. Əvvəllər gərdək gecəsinin məhz çərşənbə günü, yəni cümə gününün girdiyi gecə keçirilməsi və başqa tarixlərin də buna əsasən müəyyənləşdirilməsi bir qayda olduğu halda, bugün, hər yerdə olduğu kimi, gərdək gecəsi tarixinin bazar gününə, yəni bazar ertəsinin girdiyi gecəyə dəyişdirilməsi müşahidə olunur. Günlərdən şənbəni **a)**, bazarı **b)**, bazar ertəsini **c)** ilə işarə etdik, günləri işarə etdiyimiz hərflərə əlavə olunan **1, 2, 3** rəqəmləri də müvafiq olaraq: günortadan əvvəli, günortadan sonranı və gecəni bildirəcək.

**A. a 1-2.** Oğlan evinin qız evinə hədiyyələri: qız evinə qayınata üçün köynək, qayınanaya don, qayınlara papaqlar, gəlinə isə biri gəlinlik paltarı olmaqla doqquz ədəd don, öz dəzgahlarında toxuduqları bezdən beş dənə şalvar, beş köynək gətirildi. Əslində, bütün bunlar toydan iki gün əvvəl gətirilməli imiş, hazırlayarkən gecikdikləri üçün toyun birinci günü gətirdilər. Bütün bunlar qız evində həmin axşam (xına gecəsi) və fata günündə sərgilənəcək.

**a 3.** İşa namazına qədər kəndin bütün qadınları qız evinə toplaşdılar. İşa namazı vaxtı oğlan evindən bir dəstə qadın qız

evinə gəldi. Baş tərəfdə otuzduruldular və onlara xüsusi ehtiramla qəhvə verildi.

Gözəl səsi olan gənc bir qız oğlan evindən gətirilən dəfi götürdü. Sözləri dəyişən, lakin havası eyni qalan bir türkü/mahnı oxudu (Dəfin mütləq oğlan evindən gətirilməsi lazımdır, yoxsa, qız evi öz dəfini əsla verməz.). Oynamağa əvvəlcə qayınarvadı başladı, sonra oğlan evinin yaxın adamları olan qızlar, gəlinlər durdular və qayınarvadı onların hamısını oynatdı. Qayınarvadıdan sonra oynayan adamları idarə etmə işini başqa ailədən olub, oyun havalarından yaxşı başı çıxan bir qız ələ aldı. Dəf çalıb, mahnı oxuyan qızlar da növbə ilə öz yerlərini dəyişdilər. Oynayanlar bəzən iki-iki, bəzən də dörd-dörd rəqs etdilər.

Sözügedən oyun mərasimi qurtarana qədər gəlin ortalıqda görünmədi: o başqa bir otaqda xına gecəsi üçün bəzədilirdi. Oynamaq gecə yarısına qədər davam etdi.

Ortalığa üstündə iki şam yanan bir sini gətirdilər. Sininin içində xüsusi çərəzlər də qoyulmuşdu. Bunları uşaqlar yedilər. Sinini gətirən qız sininin başında oturdu. Gəlin yanında başqa bir qızla (dayısı qızı) gəldi. Onun başına qırmızı fata örtülmüşdü. Onlar da sininin ətrafında oturdular. Üç qız birgə mahnı oxumağa başladılar. Gəlin ağlamsınar bir səslə oxuyur, gəlini gətirən dayıqızı isə başını gəlinə dayayıb yırğalana-yırğalana oxuyurdu. Onlardan sonra dörd-beş qız birlikdə başqa bir mahnı oxumağa başladı. Gəlin bu mahnıları ağlamsınar səslə oxuyurdu.

Əlində dəf olan yaşlı bir qadın içəriyə daxil oldu. Mahnı oxumağı o davam etdirdi. Bu isə hədiyyələrin verilməsi hissəsidir. İlk hədiyyəni oğlan evindən bir qadın bəyin hədiyyəsi adı ilə təqdim etdi. Bu zaman əlində dəf olan qadın: “Bəyin bir cüt bilərziyi var. Bərəkətli olsun!” sözləri ilə ətrafdakılara məlumat verdi. Adını bilmədiyi şəhərli qonaqlardan birinin hədiyyəsi veriləndə: “Şəhərli bibisinin bir üzüyü var. Bərəkətli olsun!” – deyirdi. Hədiyyələr pul şəklində də verilə bilir: üç

quruş, beş quruş, qırx quruşa qədər (Atılan pullar arasında işlək olmayan pullar da olmuş, bu da səhərisi gün söz-söhbətə səbəb olmuşdu.). Təqribən, qırx-əlli adam hədiyyə verdi.

Gecə yarısından sonra, saat ikiyə doğru gəlinin bir əlinə oğlan tərəfindən, bir əlinə isə qız tərəfindən bir qadın xına yaxdılar. Bundan sonra oğlan evinin qadınlarına keşkək[79] verildi. Mahnılar və oyunla bir qədər də davam etdi (Əvvəllər xına mərasimi kənd yerlərində iki-üç gün davam edirmiş. Bu toyda isə xınadan əvvəl gənc qızların şənlikləri, xınadan sonra isə qadınların şənlikləri birlikdə olmaqla bir neçə günlük mərasim bir gecəyə sığışdırılmışdı. Mudurnuda çərşənbə axşamı təşkil olunan mərasimə "qızlar xınası", çərşənbə gecəsindəki mərasimə isə "arvadlar xınası" deyirlər.).

**A+B. b. Gəlin apardı günü (bazar günü):**

**b. 1.** Günortaya qədər hər iki evdə ancaq qonaqlara yemək hazırlamaq işi görüldü.

**b. 2.** Günortadan sonra: oğlan evinin gəlin gətirməyə gedəcək qadınlarından bir qismi atlara mindi, bir qismi də piyada olaraq dəstəyə qoşuldular (Nə qədər at varsa, qadınlara verilir, kişilər isə piyada gedirlər.). Uşaqlar da eşşəklərə mindilər. Dəstə yeddi-səkkizi atlı, dörd-beşi eşşəkli, qalanı isə piyada olmaq şərti ilə dalbadal düzüldü. Gəlinin mindiriləcəyi ata oğlanın atası mindi. Bu atla sağdışın (gəlinin qayınarvadının) atının başı oğlan evinin verdiyi bəzəkli halqalarla bəzəndi (Qız evinə gedərkən bəzən yol qəsdən uzadıla bilir. Qız evi S. kəndinin bir məhəlləsi olan D.-dədir, iki məhəllənin arası yeriyə-yeriyə 15-20 dəqiqəlik yoldur.). Gəlinin sağdışı oğlan evindən bir heybə götürdü. Bu heybənin bir gözündə "ana boğçası", o biri gözündə isə buğda dənələri var idi. "Ana boğ-

---

[79] Keşkək: yaxşıca döyülmüş buğda ilə ətin uzun müddət qaynadılmasından hazırlanan yemək növü – ***Tərcüməçi***

çası"nın içərisində börək, halva, gözləmə[80] (qutaba bənzər bişinti növü – *tərcüməçidən*) və çörək vardır. Bu boğça "qız anasının ürəyinə məlhəm olsun" deyə göndərilir.

Oğlanın yaşadığı məhəllədən hələ evlənməmiş cavan bir oğlan kürəkənin evindən diri bir xoruz götürdü. O, bunu başqasına qapdırmadan qız evinə aparacaq və "Alın xoruzunuzu, verin toyuğumuzu" deyərək bəxşiş alacaq. Yol boyunca xoruzu o oğlandan alaraq bəxşiş ala bilmək üçün cavanlar bir-birini qovurdular. Xoruz qız evində kəsiləcək. Yolda cavanlar tüfəng atdılar, qız evinə yaxınlaşdıqları zaman tüfəng səsləri çoxaldı. Qız evinin qapısının qabağında nişan taxtası qoyulub: qız atası hədəfi düzgün vura bilənə bəxşiş verəcəkdir. Elə bu vaxt uşaqlar da bir qıraqda bu oyunu təqlid edərək daş ilə nişanalma oyununu oynayırlar.

**A. b 2.** Oğlan evindən gələn qadınları bir otağa gətirdilər. Gəlin başqa bir otaqda hazırlanırdı. Saçları gəlin saçına uyğun bir şəkildə yığıldı: saçının yan tərəfləri qulağının altındakı xətdən kəsildi. Qaşlarına rastıq[81] sürtüldü. Üzünü isə yazmadılar. Qızın üzü, adət-ənənəyə, görə qız evində yazılmalıdır. D. kəndinin övliyalarının davul səsindən və üzün yazılmasından xoşu gəlmirmiş. Buna görə də bu kənddən qız aldıqları zaman gəlinin üzünü oğlan evində yazırlar.

Gəlinin paltarı belədir: alt köynəyi ilə alt şalvarının üstündən sarı qaşlı bir korset, onun üstündən isə oğlan evindən gətirilmiş (oğlanın atasının şəhərli dostu D. bəyin qızlarının əli ilə işlənmiş) patisqa adlı parçadan dekolte köynək, onun üstündən isə Avropa basması adlı parçadan bir xalat, ən üstdən isə jers üstündə budaqlar işlənmiş qırmızı gəlinlik. Ayaqlarında isə ipək corablar, şallı laklı tuflilər. Bu qat-qat paltarın üstündən isə bir çarşab geyindirdilər, ağzını da bir halqa ilə

[80] Gözləmə: qutaba bənzər bişinti növü – ***Tərcüməçi***
[81] Rastıq: sürmənin bir növü – ***Tərcüməçi***

bağladılar. Çarşabın üstündən isə qırmızı rəngli patist parçadan küncləri işlənmiş bir boğça qoyuldu, onun üstündən də yaşıl rəngli bir yaylıq atdılar. Gəlin ayaqqabılarını geyindiyi zaman ayaqqabılarının içinə bəxşiş atırlar, bunları isə geyindirən qadın götürür. Lakin bu, gəlin geyindirilən zaman yaranmış bir mübahisə üzündən yaddan çıxdı (Hadisə isə bu idi: Oğlanın atası qızın atasına söz veribmiş ki, gəlinə bir qızıl pul hədiyyə verəcək. Lakin sözünə əməl etməyibmiş. Buna görə də qızın atası son anda qızını verməkdən imtina etdiyini bildirərək, qızına gedib soyunmasını söylədi. Araya şəhərli qonaq D. bəyin girməsi və qayınatanın qızılın sonra, xırman mövsümünün sonunda, qızılın müəyyən qədər ucuzlaşdığı zaman verəcəyinə söz verməsi ilə məsələ şirindilliklə həll olundu.).

Qız evindən bir qadın oğlan evinin qadınlarını stəkanla şərbətə qonaq etdi; eyni stəkandan hamı bir qurtum içdi və qadına bəxşiş olaraq pul verdilər.

Gəlin getməyə hazırdır və o, oğlan evinin qadınları olan otağa girdiyi zaman başından rəngli qənd atılacaqdı. Lakin yuxarıda nəql etdiyimiz hadisə ucbatından bu adət də yaddan çıxdı. Baldızın ağzına bir yaylıq bağladılar. Bəy gərdəyə girənə qədər o danışmamalıdır. Əks təqdirdə, anadan olan uşaq dilsiz ola bilərmiş. Baldız da bir qədər sonra yaylığı çıxardır, amma susqunluğunu qoruyur, öz sözünü işarələrlə başa salır.

**A+B. b 2.** Qız ata minən zaman atası bir parça tutdu. Gəlinin sağdışının atının bir tərəfinə yataq dəsti, o biri tərəfinə də cehiz sandığını sarıdılar, bunların arasında da sağdış qadın otuzduruldu. Gəlinin atının başını oğlan evinin hörmətli adamlarından biri tutdu və atı bir müddət o yedəyinə aldı, sonra isə bir cavan oğlana verdi. Gəlinin atı yeriməyə başlayandan sonra cavanlarda biri qız evindən səhəng oğurlayır. O, gəlinin artıq ata mindiyini bəyə xəbər verib, bəxşiş ala bilmək üçün səhəngi aparıb ona verəcəkdir. Bu səhəngin üstündə də

hələ evlənməmiş gənclər bir-birini qovaraq dalaşırlar. Gəlin aparan dəstənin içərisində qız evindən heç kim yoxdur. Dəstə oğlan evinə yaxınlaşdığı zaman güllə atılır. Gəlin oğlan evinin qapısının qabağında atdan endiyi zaman ayağının altında bir oğlaq kəsdilər. Gəlini yuxarıdakı boş bir otağa apardılar; bu, gərdək otağıdır, amma hələlik tam boşdur.

Gəlin öz evlərindən kül və maya gətirmişdir, bunları, bir-biri ilə yola getsinlər deyə, bəyin evindəki kül və maya ilə qarışdıraraq, gərdək otağının qapısının çöl tərəfindən yuxarıya yapışdırırlar.

Gəlin evə girdiyi zaman bəy gəlini gətirən ata minir və kəndin arasında çapır. O, daha sonra qayıdıb duvağı götürəcəkdir. Gəlin şalını çıxardı, başına örtdüyü boğça ilə, üzünə saldığı tülü bəyin açmağı lazım imiş, amma bəy at ilə kəndarası gəzintidə ləngidiyi üçün gəlinin üzünü qonaq gələn qadınlardan biri açdı. Qadınlar gəlinin başını bəzədilər və yuxarıda dediyimiz kimi, qız evində yazılmalı olan üz oğlan evində yazıldı.

**B. a 1-2.** Şənbə günü gündüz kişilərin tərəfində heç bir şey olmadı. Bəy bütün günü əynində kənd dəzgahlarında toxunmuş çuxa paltarı ilə ortalıqda gəzdi, gündəlik işlərin dalınca qaçdı.

**a 3.** Axşam toy sahibi öz evində şəhərdən və uzaq kəndlərdən gəlmiş qonaqlara yemək-içmək verdi. Qonşularından və qohumlarından birinin evi "qonaq evi"inə çevrilmişdir. Bu ikinci evdə kəndin cavanları özləri gətirdikləri rakını (arağı) içdilər, məzələrini isə toy sahibi hazırlatdırmışdı. Gənclərin yeyib-içmək məclisi saat on birə qədər çəkdi. Saat on birə yaxın süfrədəkiləri yerlərindən güclə durğuzdular. Bu dəfə də cavanlar toy sahibinin evinin qabağındakı xırmana toplaşdılar (Əslində yeməkdən əvvəl və yemək əsnasında rakı içilərkən də həm qonaqların olduğu evdə, həm də xırman yerində zurna-balaban çalıb oynayarlarmış, amma kəndin əksər cavanların bir qismi səfərbərliklə əlaqədar getdikləri üçün, bir də

əkin-biçin vaxtı çalıb-oynamağa heç kimdə həvəs olmaz deyə, toy sahibi zurna-balaban tutmamışdı. Əgər toy münasib zamana düşsə imiş, üç dəstə ilə nağara-zurna çaldıracaqmış.).

Cavanlar xırmanda əvvəlcə oynamaq üçün zurna və kaman çalmağı yoxladılar amma alınmadı, bacaran tapılmadı. Axırda dəflə ritm tutub qaval çalaraq, oynamağa razı oldular. Daha sonra da dərisi bir az kifləmiş bir davul tapdılar, onu çaldılar, qaval çala-çala ağızları ilə mahnı oxuyaraq oynadılar. Oyunlar: düz oyun, orta oyunu (bunlar cüt telli kimi iki-iki adamla oynayırlar), meşəli, zeybək, gənc Osman, Koroğlu (topla oynanılır).

**B. b 1.** Bazar günü günortaya qədər heç nə olmadı. Bəy də, atası da öz işlərinin dalınca getdilər. Bəy həmin gün xaki[82] rəngli şəhər parçasından bir şalvar və yenə şəhər parçasından boz bir pencək, dizlərinə qədər ağ yun corablar geyinmişdi. Sinəsində nişan boyunbağısı və uzun zəncirli saatla bərabər bəylik paltarında gəzib-dolaşdı.

**b 2.** Günortadan sonra gəlingətirdi üçün hazırlıqlar və gəlin gətirmə mərasimi (Yuxarıda haqqında danışıldı).

**b 3.** Toy sahibinin evində (oğlan evində) qalan qonaqlara yemək verildi: oğlan evinin qabağında gəlin atdan endiyi zaman kəsilən qurban əti və paxlava. Yeməkdən sonra kəndin mollasına kəbin duasını oxumağın zamanı olduğu xatırladıldı. Bəyin 18 yaşı tamam olmadığı (hələ iki ay var idi) üçün molla bizdən çəkindi, kəndin muxtarı da rəsmi dövlət nikahını kəsə bilməmişdi. Şəhərli qonaq D. bəy araya girdi, dövlət nigahının mütləq iki ay sonra kəsilərək tamamlanacağını və buna görə də bizdən qorxmağının yersiz olduğunu dedikdən sonra kəbin duası oxundu. Saat on birə yaxın tərbiyəçi İ. yatsı (işa) namazının azanını oxudu. İyirmi nəfərə yaxın adam bəylə birlikdə xırman yerində namaz qıldılar. Namazdan sonra camaat tək-

---

[82] Xaki: torpaq rəngi, "xak" fars sözü olub, torpaq mənasındadır. – ***Tərcüməçi***

bir (Allahu-əkbər) deyərək, bəy qabaqda olmaqla evə döndülər. Evin eyvanında toplaşdılar. Molla ərəb-türk qarışıq bir dua oxudu, camaat da duanı təkrar elədi. Molla bəyin dilindən tövbə-istiğfar duasını. Duanın arasında və sonunda yemək yeyildikdən sonrakı kəbin duasında unudulduğu üçün "mehri-müəccəl" və "mehri-muaccel" mövzuları barəsində də danışdı.

Dua qurtardıqdan sonra yanındakı adamlar bəyi dürtmələdilər, o da sağdışla birlikdə yolunun üstündəki qonaqların əllərini öpərək, evin üst mərtəbəsinə çıxmaq üçün yeridi. Kürəyinə sanki yumruq vururdular. Sağdış pilləkənin başına qədər getdi. Bu vaxt şərbət hazırlanaraq içilməli imiş, amma yaddan çıxıb. D. bəyin xatırlatması ilə dərhal şərbət hazırlandı və qonaqlara paylandı. Bəy gərdək otağına daxil olduqdan sonra qonaqlar dağılışdılar.

**A. c. Duvaq günü (bazarertəsi):**

**c. 1.** Səhər tezdən gəlinlə bəy qız evinə və yaxın qohumlarının evinə əlöpdüyə gedirlər.

Quşluq namazı zamanı qadınlar oğlan evinə toplaşmağa başladılar (Duvaq mərasimi və əyləncələrində yalnız qadınlar iştirak edirlər, qızlar bu mərasimə qatılmırlar.).

Gəlin çalıb-oynamaq başlayana qədər əynində çiçəkli pazən parçadan xalat ortalıqda gəzərək qonaqlara xidmət elədi. Belində qalın gümüş var və üzünün yazısı da hələ pozulmamışdır.

Duvaq mərasimində də eynən xına mərasimində olduğu kimi, mahnı oxuyub, rəqs etdilər.

**64-cü sual: Türk xalqının evlilik ənənələrində yuxarıda haqqında danışdığımız toyda rast gəlinməyən başqa adətləri də vardırmı?**

Toy mərasimlərinin bölgədən-bölgəyə necə fərqləndiyini bu məsələ ilə əlaqədar ayrı-ayrı ərazilərdən toplanmış məlumatların, hətta ötəri şəkildə də olsa, gözdən keçirilməsi ki-

fayət qədər aydın mənzərə yaradır. Bu kitabın miqyası və quruluşu əlimizdəki məlumatlar əsasında geniş və müqayisəli tədqiqat aparmağa imkan vermir. Odur ki, bir neçə fakta toxunmaqla kifayətlənəcəyik.

Toy sahiblərinin özləri ilə əlaqədar bir neçə səbəb (hər iki tərəfin maddi sıxıntıları, həmin yerdə ənənələrin zəifləməsi, toyda müəyyən qaydaların hər hansı bir səbəbdən unudulması və s.) eyni ərazidə baş tutan toylar arasında belə fərqlər yaradır. Yuxarıda S. kəndinin toyundan danışarkən hansı hallarda və hansı hadisələrin təsiri ilə mərasimin bəzi adətlərinin üstündən keçildiyini və beləcə mərasim prosesinin qısaldığını göstərdik. Bu variantlara dair daha bir neçə misal.

S. kəndində xına mərasimi bir gecə çəkdi. Bu kəndin aid olduğu qəsəbədə bu mərasim iki gecə davam edir: həftənin ikinci gününün axşamı qızlar xınası, həftənin üçüncü gününün axşamı isə qadınlar xınası. Qızlar üçün olan xına mərasimində qadınlar, sadəcə, tamaşaçı kimi iştirak edirlər Gənc qızlar həmin gün gecə yarısına qədər deyib-gülüb, rəqs edib əylənirlər. Bu mərasimdə bundan sonrakı gün keçiriləcək qadınlar xınasında olduğu kimi ağlamalı, kədərli havası yoxdur, coşğun bir şənlik, zarafat içərisində keçir qızlar xınası. Qadınlar öz evlərinə getdikdən sonra gənc qızlardan gəlinin yaxın rəfiqələri qız evində yatırlar, yatmamışdan əvvəl bir-biriləri ilə mani (bayatı) söyləməklə deyişirlər: buna "sığırtmaç oyunu" deyirlər.

Yenə eyni qəsəbədə "gəlin hamamı" da ayrıca bir mərasimdir. Anadolunun qəsəbədə keçirilən toy mərasimlərinin əksəriyyətində icra olunan bu mərasimi də S. kəndində hamam olmadığı üçün keçirmirlər. Bunun yerini gəlingətirdi günü gəlinin oğlan evinə gəlməsindən əvvəl qısa şəkildə keçirilən "saç bəzəmə və saç kəsimi" mərasimi tutur.

Türkiyənin bir çox bölgələrində (Arapkir: Ş. Belli, "Türk Folklor Araştırmaları", № 289; Qayseri: H.Z.Koşay,

**Türk Düğünleri** və s. 177-178) bəyin əlinə, ya da barmağına xına yaxılması mərasimi var. Bolunun bizim müşahidə obyektimiz olan qəsəbə və kəndində bu mərasim yoxdur.

Yuxarıda haqqında danışdığımız toyda rast gəlinməmiş, Maraş qəsəbəsinin toylarında müşahidə olunan adət-ənənə və mərasimlərindən də bir neçəsinə toxunaq:

Maraşda gərdək həftənin dördüncü günün gecəsi, yəni cümə axşamını cümə gününə bağlayan gecə olduğu halda, gəlingətirdi mərasimi çərşənbə günü keçirilir. Axşam namazından sonra atlı dəstə əllərində məşəl, qabaqda zurna-balabançılar olmaqla gəlini qız evindən çıxarırlar. Dəstə arvadlı-kişili oğlan evindən olan adamlarla birgə meydana gəlib çıxırlar. Oğlanın anası gəlingətirdidə iştirak etmir. Gəlinin minəcəyi ata oğlanın atası, ya da onun vəkili minmişdir. Qadınlar qız evinə gəlib çıxdıqları zaman içəriyə girib şərbət içirlər. Qadınlardan biri şərbətdən bir qab götürüb, bir güzgü və bir Quranla bir şeirdə oğlan evində qalmış bəyə aparırlar. Bəy şərbəti içir, güzgüyə baxır, Quranı biraz oxuyub cehizlərin üstünə qoyur.

Qız evində gəlini qızın qayınanasının vəkili ilə birlikdə iki yengə, qız evindən də qız anası, nənəsi, bacıları, yengələri bir yerdə geyindirirlər: Bədəninə kəfən parçasından tikilmiş, yaxalığı və qol yeri orada bıçaqla açılan bir torba, onun üstündən də köynək və gəlinlik paltarı, başına isə önü qırmızı, arxasında yaşıl duvaq. Ata minməmişdən əvvəl qız atası gəlinin belinə bir qurşaq bağlayır. Qız ata mindiyi zaman yengələri ayaqqabısının tozunu silirlər. Oğlanın atası və ya vəkili atın üstündən enmədən bir ayağını üzəngidən çıxardır, gəlin ora ayağını basır, kişi yarıya qədər enir, gəlin də yarıya qədər minir, həmin adam ayağını üzəngidən götürər-götürməz gəlin ayağını oraya qoyur (Bu tədbirlər, gəlinin ya da bəyin cadu ilə "bağlanma"sının qarşısını almaq üçün görülür.).

Dəstə yola çıxan kimi qız anası gəlinin dalınca bir ovuc torpaq atır: yuxarıda geyindirildiyi barədə danışdığımız kəfən torbası ilə bu torpaq qızın öz ata-anası üçün artıq bir ölü hesab edilməsini simvolizə edir[83]. Qızın qardaşları, ya da əmisi oğlanları onun ayaqlarına toz dəyməsin deyə bir əlləri atın üzəngisində, o biri əlllləri də silahlarında olmaqla oğlan evinə qədər gəlinin yanında gedirlər. Evlənənlərə pislik etmək istəyən birinin gəlinin ayağına qum, toz atması cadu xarakterli akt olub, onun ya da bəyin "bağlanma"sı ilə nəticələnirmiş. Oğlan evinə gəlib çatdıqları zaman gəlinin atının yüyənindən qayınata (ya da vəkili) tutur və gəlini ata mindiyi zaman istifadə olunan üsulla metodla atdan endirir, özü minir; at ilə biraz gəzib-dolaşır, sonra cavanlardan bir neçə nəfər də atı minir, gəzib-qayıdıb gəlir və hər birinə müəyyən bəxşiş verilir. Gəlin atdan enəndən sonra evin qabağında qayınatasının əlini öpür; qayınata da onun başına arpa, buğda kimi şeylər səpir. Qayınana gəlinin ayağının altında boş bir şüşə qırır. Gəlin su ilə doldurulmuş bir küpü sındırır, pilləkənin başında qayınanasının qo-

---

[83] Yəni gəlin köçən qız simvolik olaraq dəfn edilir. Mərasimin bu ayini magik xarakter daşıyır. Ölüm birdəfəlik gedişi, geriyə dönüşün olmamasını rəmzləndirir. Ölümün bu semantik mahiyyəti "Kitabi-Dədə Qorqud"da "Çıxan can geri gəlməz" hökm-deyimində daşlaşıb. Qız evi bu simvolik dəfn ayini vasitəsilə qızın boşanıb geri qayıtmaq ehtimalını magik yolla aradan qaldırmağa çalışır. Bu ayin ritualın funksional struktur semantikası baxımından ölüb-dirilməni simvolizə edir. Keçid ritualları fərdin bir sosial-bioloji mərhələdən o birisinə keçidini təşkil edən model-mexanizmlərdir. Keçid ölüb-dirilmə yolu ilə baş verir. Gəlin köçən qız toy ritualında qızlıq statusundan qadın statusuna adlayır. O, özünün qız statusunda ölür, qadın statusunda dirilir. Bu proses üç status-mərhələdən ibarətdir: Qız – Gəlin – Qadın. **Qız – köhnə status, Qadın – yeni status, Gəlin –** (birbaşa keçid mərhələsinin özünü nəzərdə tutan) **aralıq statusdur**. Statusun dəyişməsi eyni zamanda məkandəyişmə ilə müşayiət olunur. Beləliklə, gəlin köçən qız öz köhnə məkan və statusunda ölür, gəlinköçdü müddətində aralıq statusda olur, gərdək gecəsi oğlanla evlənməklə oğlan evində yeni məkan və statusda dirilir. – ***Tərcüməçi***

lunun altından keçir. Otağa girən zaman əlinə verilən narı divara vurub parçalayır, xınasının qarışdırıldığı qaşığı otağın ortasında qırıb yerə atır, qonaqların əlini öpür. Ondan sonra manilər, türkülər və ilahilərlə "gəlinçilərin əyləncəsi" başlayır.

Qonaqlar dağılışdıqdan sonra gərdək otağında oğlanın əmisi arvadı, xalası, bibisi gəlini yatağın üstündə oturdub, əlinə-ayağına xına yaxırlar. Həmin gecə gəlin ilə eyni çarpayıda yaxın qohumlarından bir qadın yatır və ona sabahkı gecə haqqında məlumatlar verir. Bəy isə başqa bir evdə qonaq olur...

Uğurol Barlasın **"Maraş Düğün Adetleri"** tədqiqatından xülasə şəklində topladığımız bu məlumatlar, müəllifin də vurğuladığı kimi, iyirmi il bundan əvvəlki illərdə tətbiq olunan **atla gəlin gətirdi** mərasimidir. Bu gün isə atlı dəstənin yerini avtomobil karvanı tutub: deməli, mərasimdəki gəlinin, qayınatanın (ya da onun vəkilinin) ata minməsi və düşməsi ilə əlaqədar adətlər də öz-özünə aradan qalxmışdır. Burada diqqəti cəlb edən başqa bir məqam isə xına mərasiminin iki dəfə təşkil olunmasıdır: birincisi qız evində gəlingətirdidən bir gün əvvəl, ikincisi isə gəlin köçürdü günü, gərdək gecəsindən bir gün əvvəl oğlan evində keçirilir.

Yuxarıda verdiyimiz bu bir neçə misal mərasimləri və adət-ənənələri bütün detalları ilə qədər öyrənmək istədiyimiz zaman onların yerə, dövrə adamların fərdi vəziyyətlərinə görə nə qədər zəngin variantları ilə rastlaşacağımızı göstərmək üçün kifayət edir. Amma türk toy ənənələrinin qorunduğu yerlərdəki mərasimlər silsiləsində bəzi ortaq və dəyişməz adətlər də vardır. Gəlinə xına yaxılması bu adətlər siyahısının ən başında gəlir. Bu mərasimin Türkiyənin müsəlman xalq ənənələrinin sərhədlərini aşaraq yayılmasına bir sübutunu Midilli yunanlarının evlənmə adətlərində tapırıq. Onlarda da mərasim **xına** sözündən yarandığına heç bir şübhə olmayan **knas** sözü ilə adlandırılır və gərdək gecəsindən bir gün əvvəl keçirilir (Georgeakis və Pineau, **Folklore de Lesbos,** Paris 1894, s. 315-318).

Anadolu xalqının evlənmə ənənələrində çox qədim mərasimlərin (bir qismi türklərin islamdan və Anadoludan əvvəlki çağlarından, bir qismi də başqa köklərdən gəlmə) qalıqlarına da rast gəlirik. Bir çox yerlərdə gəlin gətirdi mərasimində qız tərəfi oğlan evindən gələn adamları müxtəlif çətinliklər qarşısında qoyur. Bunların çoxu oyun və zarafat şəklində baş verir, amma bəzən həqiqi bir davaya bənzəyəcək qədər ciddi də olur. Afyonun Yazlıqaya kəndində yerləşmiş qaraçaylıların bir toyunda bu cür səhnələri müşahidə etdik. Mudurnunun kəndlərində də qız tərəfinin gəlini gətirməyə gələn dəstəyə cürbəcür əngəllər çıxartmaları da onların adətlərinə uyğun haldır. Sarıqışlada və Alacahöyükdəki toylarda hər iki tərəfin "bayraqdar"ları vuruşmanı təqlid edərək, yarışırlar: bir-birlərinə özlərindən tapmaca deyir, bilməyən tərəfə cəza verirlər. (P.N.Boratav və İ.Başgöz, **Les devinettes,** "Philologiae Turcicae Fundamenta", Wiesbaden 1964, s. 85; H.Z.Koşay, **Alacahöyük,** Ankara, 1951, səh. 26-28). Mudurnu qəsəbəsində gəlingətirdi mərasiminin bir mərhələsində söz vuruşması hər iki tərəfin məhəllə uşaqları, evlilik yaşına yaxın cavanları arasında baş verir. Bu döyüşlərin bərəkət və uğur gətirəcəyinə dair inanclar da mövcuddur. Mudurnuda həmin adət "bərəkət" adlandırılır: gəlin maşını oğlan evinə tərəf yönələndə qız evinin uşaqları və cavanları bəy tərəfini təmsil edən dəstənin qızın məhəlləsinin eşidə biləcəyi bir yerdə durub, "bərəkət" deyə qışqırmalarının qarşısını almaq üçün onları oradan uzaqlaşdırmağa çalışırlar. Bütün bu ənənələr müharibə və güc tətbiq edərək yadlardan, düşmənlərdən qız alma mərasiminin bir qalığı olmalıdır[84].

Türk epik ənənəsində, məsələn, **"Kitabi-Dədə Qorqud"**, **"Şah İsmayıl"** dastanlarında və bir çox nağıllarda ərə gedəcəyi kişinin onu məğlub etməsi şərtini qoyan döyüşçü

---

[84] Bu adət, digər tərəfdən, bioantropoloji mənşəli ritual aktı olub, erkək fərdlərin dişi fərdi vuruşaraq əldə etmə arxetipini simvollaşdırır – ***Tərcüməçi***

qızlara da rast gəlinir. Bəzi türk əsilli tayfalarda (məsələn, qırğızlarda) evlilik yaşına çatmış qızlarla oğlanlar arasında bir “döyüşmə” oyunu adətinin olduğunu bilirik. Kamal Bilbaşar **“Cemo”** adlı romanında Anadolu kürdləri arasında da bu ənənənin yaşadığı barədə danışır. Qars bölgəsi xalq dastanlarının final səhnələrində muradına çatan sevgililərin gərdəyə girməsi səhnəsi nəql olunarkən bununla bağlı oxunan “toy” türkülərində qızın oğlana güləşmək təklif edərək meydan oxuması da bu qədim ənənənin bir izi olmalıdır. Jean-Paul Roux (**Les traditions des nomades,** Paris 1970, s. 247-248). Anadolunun yörükləri və taxtaçıları arasında da bu qədim ənənənin izlərinə toxunur. Bundan 25-30 il əvvəl Ədrəmit kəndlərindən birində çox döyüşkən bir dəvənin sahibi olan varlı, gənc və gözəl bir yörük qızı haqqında danışılanların da bu adətə bağlı olduğunu hesab edirik: bu qız onunla evlənmək istəyən adamın dəvəsinin onun dəvəsini məğlub etməli olduğunu şərt kimi qoyaraq, almaq istəyənləri geri qaytarırmış.

“İlk gecə haqqı” (**jus primae noctis**) ifadəsi ilə göstərilən adətin yan keçilməsi mümkün olmayan bir adət kimi bugün də yaşadığını, əldə olan məlumatlardan çıxış edərək, qəti şəkildə deyə bilmirik. Bunun Anadolunun evlilik adət-ənənələrindəki izlərinə ancaq bəzi kəndlərin zarafat etmək, əylənmək istədikləri əcnəbi topluluqlar haqqında danışdıqları lətifə, lağ xarakterli əhvalatlarda rast gəlirik. Məsələn, Afyon bölgəsində bir mühacir kəndində çərkəzlər və qaraçaylar haqqında: “Onların bir İsaları var imiş. Gəlin ilk gecə ondan keçərmiş...” deyirlər. Bəzi yerlərdə isə qızın qızlığının götürülməsi işinin bəydən əvvəl kəndin dəyirmançısına, ya da dəmirçisinə gördürülməsi də yenə zarafat, ya da sataşmaq üçün danışılır. Bu “ilk gecə haqqı”nın özlərinin haqqı olduğunu düşünən bəylər və ağalar haqqında danışılanlar isə qanunlarını zorla yeritmək istəyən zorbalarla gücsüzlərin vuruşması və onlara üsyan etməsi tipində ha-

disələrdir. Xalq ənənəsi güclülərin bu cür davranışlarını onların "haqqı" kimi yox, insanlığa yaraşmayan bir zülm kimi xarakterizə edir. Müasir dastançılar, xüsusilə ağaların qədim dərəbəylik qayda-qanunlarını davam etdirdikləri, torpaqlarında işləyən kəndlilərə əsir gözü ilə baxdıqları yerlərdə – şərq və cənub-şərq bölgələrində – baş vermiş bu cür hadisələrdən təsirləniblər. Biz 1967-ci ildə Manavgatda o yerlərdə geniş torpaqların sahibi olan bir ağanın vaxtı ilə özünün belə bir haqqı olduğu, nəhayət, bu adətə etiraz edən bir kəndlinin pusqusuna düşərək öldürüldüyü barədə olan bir hekayəni dinləmişik.

**65-ci sual: Toydan sonra keçirilməsi lazım olan "gəlinlik" və "bəylik" törələri nədir?**

Gərdəyin səhərisi "duvaq" adlandırılan günün Bolunun S. kəndində necə keçirildiyi barədə yuxarıda qısaca danışdıq. Bu mərasimin də bölgələrə görə dəyişən çox zəngin variantları vardır. İstanbulda və Anadolunun bir çox yerində bu gün "paça" ifadəsi ilə adlandırılır. Bəzi yerlərdən əldə olunan məlumatlara görə, bu ad həmin gün qonaqlara yeməkdə paça[85] verilməsi ilə əlaqədar yaranıb. Mərasimin yerlərə görə müxtəlif olan adlarına bir neçə nümunə: **çarşaf** (Toroslar bölgəsi), **duvaq** (Mudurnu, Çivril), **suphə** (Xatay, Kərkük), **gəlinertəsi** (Isparta), **gərdəkertəsi** (Maraş, Kütahya), **samet** və ya **samat,** semet (Kastamonu, Sinop), **kakül günü (**cümə günü yerinə şənbə: Yörüklər**), güveybaşı** (Qayseri). Evlənmə mərasimi silsiləsinin "toy" dönəmi "paça günü" mərasimləri ilə başa çatmış olur. Ondan sonrakı günlər ərzində gəlinin və bəyin əlöpmə gəzintiləri, oğlan evi ilə qız evinin qarşılıqlı qonaqlıqları və hədiyyələr alıb-verməleri kimi mərasimlər də bölgədən-bölgəyə çoxlu variantlara malikdir.

---

[85] Kəllə-paça – ***Tərcüməçi***

Həmid Zübeyr Qoşayın kitabında kitabında (**Türk Düğünleri,** s. 323-325) Konya Ərəylisi, Ərzurum, Qayseri, Kırşəhər, Niydə, Sivas, Yozgat bölgələrində müşahidə edilən və barəsində bir evlənmə ənənəsi kimi danışılan "gəlinlik etmə" adətinə görə, gəlin ərinin ev əhlindən və yaxın qohumlarından yaşca özündən böyük olan adamlarla uzun müddət (bəzi yerlərdə və bəzi hallarda illər boyunca) danışmır, soruşulan suallara əl, baş və göz işarələri ilə cavab verir, evdəki böyük adamlara demək istədiklərini isə yaşca özündən balaca olanların vasitəsilə çatdırır. Gəlin bu qadağadan qayınatanın icazəsi və bir bəxşiş verməsi ilə qurtula bilər. Bu adət yörüklər arasında da tətbiq olunur. Məşhur **"Boşbeşik"** hekayəsində gənc bir yörük gəlininin bu adətə əməl etmə məcburiyyəti üzündən kiçicik körpəsini necə itirdiyi barəsində danışılır. Mudurnu kəndlərində buna bənzər bir adət bəyin qayınatasının və qızın başqa qohum-əqrəbasının yanına əl öpməyə getdiyi zaman tətbiq olunur. Oğlan evinin xərci öz boyunlarına götürməsi şərti ilə qız evində verilən ziyafətdə qız tərəfi kürəkəni danışdırmaq üçün səy göstərir, lakin o, qızın atasının verdiyi bir hədiyyə qarşılığında danışmağa razı olur. Sonra bəy sağdışı ilə birlikdə qadınlar olan tərəfə keçir. Qayınana hər ikisini bir yorğanın üstündə otuzdurur, hər birinin dizlərinin üstünə köynək pay qoyur və beləcə kürəkəni danışdırır.

**66-cı sual: Qürbət ellərə yollanan və əsgərliyə gedən insanlarla əlaqədar hansı adət-ənənələr mövcuddur?**

Anadolu bölgəsinin torpağı az olan və ya məhsuldar olmayan kəndlərində, yaşayış imkanları aşağı olan qəsəbələrində artan kişi camaatı hələ o vaxtdan bəri qürbət ellərə üz tutmuşdur. "Əyin nəğmələri"[86] belə insanların kədərindən bəhs

---

[86] Yəni mövzusu "əyin"/əyin-baş/pal-paltar, dolanışıq haqqında olan nəğmələr – ***Tərcüməçi***

edir: daha çox ərlərinin arxasınca "əlləri böyründə" qalmış qadınların, bəzən də arvad-uşağını yurdunda qoyub, böyük şəhərlərə pul qazanmağa getmiş kişilərin dərdlərindən danışır. Bugünün şərtləri ilə əlaqədar olaraq qürbət elləri ifadə edən yerlərin adı da dəyişmişdir. Əvvəllər qürbət deyildiyi zaman ağla birinci İstanbul gəlirdi; uzaqlara işləməyə gedənlərə bir çox yerlərdə "İstanbulçu"[87] deyirdilər, çünki Anadolunun artan kişi əhalisini ən çox cəlb edən yer İstanbul idi. Düzdür, indi Türkiyənin başqa böyük şəhərlərinə də daha çox axın var, amma əsl böyük "qürbət" dedikdə Almaniya başa düşülür. Əvvəllər qürbətçilər ancaq kişilər idi və qürbətdə olmaq nə qədər uzun çəkməyindən asılı olmayaraq, əksəriyyət üçün müvəqqəti xarakter daşıyırdı. İndi isə insanlar evləri, ailələri ilə birlikdə köç edirlər, şəhərlərin ətrafında "gecəqondu" şəhərləri qurulur. Bu cür yeni tip qürbətçilərin yaşayış şərtləri, hər halda, özlərinə məxsus adət-ənənələr, inanclar yaradır. Bəs bunlar qəlibləşmiş ortaq formada yayılma gücü əldə edə biləcəkmi? Dəqiq deyə bilmərik. Uzun müddətdir ki, gecəqondu əhalisinin gündəlik həyatı ilə əlaqədar müxtəlif problemlər sosioloqların araşdırmalarının mövzusunu təşkil edir. Folklorşünaslıqda bu cür cəmiyyətlərdəki insanlar hələlik onların köçüb gəldiyi yerlərin ənənələrini araşdıranlar üçün məlumat mənbəyi dəyərindədir. Anadolunun kəndlərindən başqa ölkələrə işləməyə gedənlər haqqında da eyni sözləri söyləmək olar. Amma bu sonuncuların öz yeni həyatlarını yeni bir düşüncə ilə görməyə və mənalandırmağa başlamalarının əlamətləri var. Əri qürbətə getmiş Əyinli qadının öz duyğularını bir quru "bəddua" formasında:

"Gürbet icad eden görmesin Cennet!" –

---

[87] Şəhriyarın "Heydərbabaya salam" poemasındakı "Bakıçı" sözü də Cənubu Azərbaycandan çörək qazanmaq üçün Bakının neft mədənlərinə işləməyə gələnlərə verilən addır. – ***Tərcüməçi***

deməsinə cavab olaraq Almaniyadakı işçi:

"Alamanya, Alamanya!
Ben gibi sağmal bulaman ya!"[88] –

söyləyərək öz taleyinin əsl üzünü ifadə edir.

Köhnə qürbətçilərin ənənələrinə qayıdaq: əldə edilən məlumatlar bir çox başqa məsələlərdə olduğu kimi, bugün artıq tarixi faktlara çevrilməkdədir. Təəssüf ki,bu ənənələr haqqında çox az şey toplanmışdır. Bütün qaynaqları bir yerə yığsaq, onların sayı bundan 30-35 il əvvəl yazılmış bir-iki tədqiqatdan o yana keçmir. O dövrləri canlı olaraq yaşamış və görmüş şəxslərin xatirələrindən onlar ömürlərini başa vurmamış nəyi xilas edə bilsək, bu, folklorşünaslıq üçün bir qazanc olacaqdır. Bu cəhətdən, həmin mövzuda daha çox şeylərin toplanılmasını həm tövsiyə, həm də arzu edirik.

Ənvər Bəşənin "Halkbilgisi Haberleri"ndə (nömrə 92-93, 110; 1930/1940) çap etdirdiyi iki yazı əsasında Kastamonu və Safranbolu bölgələrindəki ənənələri belə xülasələndirə bilərik: Safranbolulular İstanbulda və başqa böyük şəhərlərdə kürəçi (çörəkçi, şirniyyatçı) və qayıqçı kimi işləməyə gedirdilər. Qürbətə ilk gediş cavan oğlanın toyuna görə girdiyi borcları ödəmək məcburiyyətindən irəli gəlir. Həmin şəxsin getməsindən bir gün qabaq axşam vaxtı qonum-qonşu onun evində toplaşır. İstanbulda qürbətçisi olanlar gedəcək olan şəxsə məktublar, müəyyən hədiyyələr verir, xəbər yollayırlar. "İstanbulçuların" kənddən toplu halında çıxmaları bir ənənədir. Səfər noyabr ayında xırman işləri, qışa hazırlıq qurtardıqdan

---

[88] "Ben gibi sağmal bulaman ya" misrasında omonimik cinas yaradılmışdır. Burada "sağmal" – "sağılan", "bulaman ya" – "tapa bilməzsən ha" deməkdir. Cinas/omonimiya "bulaman" felinin "bulama" ismi ilə qarşılaşdırılması yolu ilə yaradılmışdır. "Bulama" inəyin ilk südünün bişirilməsindən hazırlanan yeməkdir. Beləliklə, ikinci misra iki mənada işlədilir: "Mənim kimi sağlam işçi tapa bilməzsən" və "Mənim kimi bulaması olan sağılan inək tapa bilməzsən" – ***Tərcüməçi***

sonra olur. Qürbətçi özü ilə altı aylıq ərzaq ehtiyatını da aparır. Kənddən çıxış səhərin erkən saatlarında olur. Hər bir qürbətçi qatırçılardan kirayə heyvan götürür. Evinin qabağında ata minir. Bütün yolçular hər evdən onları yola salanlarla birlikdə kəndin qırağında toplaşırlar, təkcə gəlinlər (qürbətə gedənlərin həyat yoldaşları) yolasalma mərasimində iştirak etmirlər. Qürbətə gedənlər yola salındıqları yerdə atdan düşürlər. Molla dua edir. Yolçular ağsaqqalların əllərindən öpür, öz yaşıdları ilə qucaqlaşır, halallıq alaraq ayrılırlar.

İstanbula ilk gedən qürbətçilər yaşlarına və ya qabiliyyətlərinə görə bir ustasının yanında qalır, şəyirdlik edirlər... Arada isə yığdıqları pulla kənddəki ailə-uşağına, öz yaxınlarına hədiyyələr alıb, kəndlərinə **"sılaya"**[89] qayıdırlar. Sılaya qayıtma Xıdırəlləz bayramında olur. Qürbətçilərin kəndə qayıdacağı günlər əvvəlcədən məlum olur. Onları kəndin kənarında qarşılayırlar. Əl öpmə mərasimindən, qucaqlaşmalardan sonra İstanbulçuları cavan dostlarının atdıqları silahların səsləri altında kəndə gətirirlər. Sılacı iki-üç həftə işləmir; onu ziyarət edənlərlə söhbət edərək dincəlir, dəvət edildiyi yerlərə gedir, hədiyyələr paylayır. İstanbulda, ya da başqa böyük şəhərdə mağazası olan şəxs onu həmyerlisi olan bir ortaqla işlədir. Onlar ortaqları ilə növbələşərək iki ildən bir sıla səfərinə çıxırlar: biri işin başına qayıdan kimi ortağı kəndə yola düşür. Bu köhnə ənənədə qürbətçi, ümumən, kənddəki evini, cütünü, iş alətlərini yox etməmiş və torpağında işləməyə davam edir.

Əsgərliyə gedənlərin kənddən ayrılmalarında bugün də daxil olmaqla bir sıra adət-ənənələrin müşahidə olunduğunu Əli Rza Balamanın "Türk Folklor Araştırmaları"nda (273-cü nömrə, 1972-ci il) Qızılcahamamın bir kəndində 1971-ci ildə əldə etdiyi müşahidələrin nəticəsi kimi verdiyi məlumatlardan

---

[89] Sıla: qürbətdə olanın doğulub böyüdüyü və darıxdığı yer – ***Tərcüməçi***

öyrənirik. Orada haqqında danışılan mərasimin qısa məzmunu belədir:

a) Hərbi komissarlıqdan çağırış vərəqəsi gəldikdən sonra kənddən çıxdıqları günə qədər olan 10-15 gün içərisində qonşuların növbə ilə gələcək əsgərlərə qonaqlıq vermələri, yemək yeyildikdən sonra gecə yarısına qədər davam edən çalıb-oynamaqlı əyləncələr.

b) Gələcəyin əsgərləri getdikləri gün yaşlı qadınların evlərinə əl öpməyə gedirlər, əli öpülən hər bir qadın da gizlincə cavan oğlanın cibinə xırda pul qoyur, bu, "uğur pulu"dur. Daha sonra kənd meydanında camaatın toplanması, mollanın dua oxuması. Əsgərliyə namizədlər yaşlı insanların əllərindən öpür, gənc dostları ilə qucaqlaşıb halallaşırlar. Əli öpülən yaşlı kişilər də əsgər gedənlərin cibinə xırda pul qoyub: "Bunun müqabilində mənim üçün də qarovul çək", – deyirlər. Namizədləri kəndin qırağınadək yola salırlar. Onları orada yaxın adamları azuqə və paltar torbaları ilə birlikdə gözləyirlər. Onlar da səfər üstə olanlarla halallaşdıqdan sonra geri qayıdırlar. Həmin gün evlərə "Sağ-salamat gedib-gəlsin" deməyə gələnlərin qarşılanması və onlarla söhbət etməklə keçir.

Seyidşəhərdə əsgərliyə gedənləri yolasalma mərasimləri ilə əlaqədar aşağıdakı məlumatları əldə etdik. Qadınlar əsgərliyə gedən üçün bişirdikləri çörəyi üç yerə bölürlər: bir qismini qurda-quşa yem olsun deyə suya atırlar, o biri qismini cavan oğlanın bir köynəyinə bükərək sandıqda saxlayırlar, başqa bir qismini də azuqə kimi onun özünə verirlər. Əsgər hər dəfə icazə alıb evə gələndə sandıqda saxladıqları çörəkdən bir parça ona yedizdirirlər. Əsgər yola salındıqdan sonra yola salan qadınlar bir bulağın başında yemək yeyir, qaval çalaraq rəqs edirlər. Əsgərin dalınca ağlamaq olmaz. Bulaq başındakı yeməkləri də taxta qaşıqla yox, əllə yeyirlər. İnanca görə, həmin süfrədə yemək taxta qaşıqla yeyilərsə, əsgər xidmət zamanı çoxlu döyülərmiş.

**67-ci sual: Həccə gedəndə və Həccdən qayıdanda hansı mərasimlər təşkil olunur?**

Hacı olmağa namizədin məmləkətdən ayrılması və hacı olub, evinə qayıtması ilə əlaqədar təşkil olunan mərasimlərlə bağlı bundan 40-42 il əvvəl Bursa və Kilis şəhərlərindən (Faiqə İsaməddin "Halkbilgisi Haberleri" 1-ci nömrə, 1931; Əli Rza Yalğın, eyni jurnal, 40-cı nömrə, 1934) və 1972-ci ildə Qızılcahamamın bir kəndindən (Əli Rza Balaman, "Türk Folklor Araştırmaları", 276-cı nömrə) toplanmış məlumatları müqayisə etmək imkanı vardır.

Bursada həccdən qayıdan insanlar üçün təşkil olunan mərasim **təhniyə** adlanır. Hacı vətəninə qayıdandan sonra birbaşa öz evinə getmir. Onu qarşılayanlar hacını məscidə aparırlar. Daha sonra yaxın qohumlardan birinin evinə gedib, öz evinə dəymədən, üç gün orada qalır. Bu müddət ərzində hacının öz evi bir "toy" ab-havasına bürünmüş olur: ev bəzənir, ağ paltarlar geyinmiş gənc qızlar, başlarına tac qoyub, bir masanın ətrafında toplaşırlar. Masaya zəmzəm suyu, hacı yağı və şəkərlə bəzədilir. Qonaqlar şirni yeyir, ətir vurur, zəmzəm suyu içirlər, hacının bəzədilmiş başqa bir otaqda oturmuş arvadını təbrik edirlər. Üçüncü gün axşam qaranlıq düşdüyü zaman hacını öz evinə gətirirlər, şərbət içir, dua oxuyurlar. Ertəsi gün isə pəncərələr, qapılar, bəzən də bütün ev yaşıl rəngə boyanır. Kilisdə həccə yola salınarkən şəhərin cənubundakı yəhudi qəbristanlığına qədər əllərində bayraqlar ilahilər oxuyurlar. Geri qayıdarkən isə Məkkədən çıxması xəbəri gələn kimi evinin qapısı müxtəlif boyalarla rənglənir, yaxud yağlı boya ilə çəkilmiş rəsmlərlə bəzənir. Bu "hacı qapısı" adəti hacının evinin yerini hamıya göstərməklə bərabər, qarşılama mərasiminin müjdəçisi xarakterini daşıyır. Hacı evinin qapısının yaşıl rənglə boyanması geniş yayılmış bir adət olmalıdır. Hacı həcc xərclərini çəkə biləcək

qədər varlı, eyni zamanda həccə getməklə özünü mənəvi cəhətdən zənginləşdirmiş bir şəxsdir. Əvvəllər qəndil axşamlarında şam pulu yığmağa çıxan uşaqlar İstanbulun küçələrində bu mərasimə məxsus olan adətlərdən bəhs edən nəğmələr oxuduqları zaman bunu vurğulayırdılar. Pul istəməyə getdikləri qapının sahibini qürurlandırmaq məqsədilə:

Yağlı qapı, ballı qapı,
Halqası böyük hacı qapısı –

deyə qışqırışırdılar.

Qızılcahamamın bir kəndində müşahidə nəticəsində əldə olunan məlumatları belə xülasə edə bilərik:

a) Hacı olmağa namizədin qohumları onu səfərə bir ay qalmış növbə ilə qonaq çağırırlar. O da qarşılıqlı olaraq onları qonaq çağırır. Bütün qonaqlıqlarda mollası mütləq iştirak edir.

b) Həccə gedən yola düşəcəyi gün qonşu kəndlərdən onu yola salmağa gələnlərə yemək verir. Onların da yanında öz mollaları olur. Qonağın sayı çox olarsa, onları qonşularda yerləşdirirlər, amma yeməkləri hacılığa namizədin evindən aparılır. Qonaqlıqdan sonra məsciddə mövlud duaları, Kəbə haqqında ilahilər oxunur. Sonra bütün kənd əhli xırmanda toplaşır. Hacılığa namizəd ətrafa xırda pul səpələyir, toplaşanlar da "Hacı pulu uğurlu olur" deyə, qapmağa çalışırlar. Hacı namizədi qoca adamlardan başlayaraq hamı ilə halallaşır, gənclərə əlini öpdürür. Halallaşma, eyni zamanda, onun kimsəyə borcu və kimsədən alacağı olmadığının şahidlər hüzurunda göstəricisidir. O, sonra ölülərdən icazə almaq üçün qəbristanlığa ziyarətə gedir.

**Qayıdanda:** c) Hacı əvvəlcə onu uzaqdan qarşılamağa gəlmiş şəxslərdən birini kəndə muştuluqçu kimi göndərir. Kəndin kişiləri hacını qarşılamağa gəlirlər. Onu maşından düşürdüb, qolundan tutur, hacını aralarına alıb, qol-qola girir və ilahilər oxuya-oxuya kəndə çatırlar.

d) Hacı neçə gün evindən heç yana getmir: ziyarətçiləri qəbul edir. Gələn adam ondan yaşca balaca belə olsa, onu ayağa qalxaraq qarşılayır. Gələn şəxslərə ovcunu öpdürür. Münasib olan qonaqlara hədiyyələr verir. Evin gənc qızı, ya da cavan oğlu qonağa xurma, hacı yağı və zəm-zəm suyu ehsan edir. Zəm-zəm suyunu mütləq üzü qibləyə doğru içirlər. Uzaq kəndlərdən gələn olarsa, yemək də verilir. Hacı evə qayıdanda evinin damına bayraq asırlar və bayraq bir müddət orada qalır.

e) Xalq belə hesab edir ki, hacı ticarət və siyasət işləri ilə məşğul olmamalı, özünü axirət işlərinə, öz ədalətli mühakimələri ilə qonum-qonşuların mübahisələrini həll etməyə, barışıq yaratmağa və s. xeyirli işlərə həsr etməlidir.

**68-ci sual: Ölüm hadisəsi xalq ənənəsində hansı adət və mərasimləri əhatə edir?**

Ölüm konkret olaraq insan həyatının sona çatmasıdır. Amma insanların yaşadığı cəmiyyətlərin inanc və ənənələrində bu hadisə də doğum və toy kimi bir "keçid" mərhələsi olaraq dəyərləndirilir. Ölümdən sonra ölünün dirilərlə münasibətləri, alış-verişi davam etməkdədir.

Türkiyə xalqının ölümlə bağlı ənənələrini, mövcud materialları öz araşdırmaları ilə tamamlamaqla, geniş bir tədqiqat əsərinin predmetinə çevirmiş olan Sədat Veyis Örnəyin əsəri (**"Anadolu Folklorunda Ölüm",** Ankara 1971) əldəki materialların təmin etdiyi qədər uğurlu və etibarlı tədqiqatdır. Bu sualdan etibarən 70-ci sual da daxil olmaqla Örnəyin tədqiqatından böyük ölçüdə yararlanacağıq.

S.V.Örnək əsərində ölüm hadisəsi ilə əlaqədar müəyyənləşən və təşkil olunan mərasimləri üç yerə ayırmışdır:

I. Ölümdən əvvəl olanlar;

II. Ölüm zamanı olanlar;

III. Ölümdən sonra baş verənlər.

Onun birinci hissəsi ilə ikinci bölümünün "D" alt qrupuna aid olan faktların bir qismi haqqında can, yuxu, röya, ulduzlar, heyvanlar və s. ilə əlaqədar inancları tədqiq edərkən bu oxuduğunuz kitabın birinci hissəsində (6, 7 və 9-cu suallar) və yeri gəldikcə başqa yerlərdə lazım olan qədər danışdığımız üçün onlara təkrar toxunmayacağıq.

Sədat Veyis Örnəyin kitabında zəngin müqayisəli məlumatlar vardır. Müəllif birinci bölümü: A) ölümü haqda düşünməyə vadar edən ilk əlamətlər və B) qaçınmalar[90] adları altında iki hissəyə ayırmışdır. İlk əlamətlər əhəmiyyətli və əhəmiyyətsiz hadisələrin ölümdən xəbər verməsi haqqında inancdır. Öncədən hissetmə vacib və ya qeyri-vacib bəzi hadisələrin ölümə işarə etdiyinə dair mövcud olan inancdır.

**Qaçınma** ifadəsi "yerinə yetirilmədiyi", ya da icra olunacağı təqdirdə "ölümlə nəticələnəcəyinə inanılan tədbir və davranışları" göstərir. Bir neçə misal verək: Bir məhəllədə ölü düşdüyü zaman o məhəllədə olan su dolu bütün qablar boşaldılmalıdır: "Əzrail barmağını batırırmış" (Zara); "Əzrail qanlı bıçağını yuyurmuş" (Nallıxan); Ölü yuyulanda, ya da meyid aparılanda orada yatan kimsə varsa, "ölüm yuxusuna getməsin" – deyə, oyadırlar (Kayseri). Evindən ölü çıxan adam "ağırlığı daşa keçsin" – deyə, daşın üstündə oturur (Sivas). Qəbirqazanlar beli və digər alətləri əldən-ələ vermirlər, götürdükləri yerə qoyur və oradan götürürlər: "bu alətlər əldən-ələ ötürülməsi ard-arda qəbir qazılacağının, ölümlərin olacağının əlaməti sayılır" (Söyüdözü, Ərzurum). Sabunu bir başqa adama verəndə "ölü yuyanları təqlid etməmək üçün" əlinin üstünə qoyaraq verməlisən: "onlar sabunu bir-birinə ovucun içində verirlər" (Hopa, Rize). Bu axırıncı qaçınma (qorunma) hadisəsi xalq ənənələrində geniş yayılmış bir inanc olaraq yaşa-

---

[90] Ölümün gətirdiyi bədlikdən qorunma – ***Tərcüməçi***

maqdadır: sabunu əldən-ələ vermək (eynən qayçı, bıçaq kimi) yaxşı hərəkət sayılmır.

Ölümdən dərhal sonra ardıcıllıqla görülən işlər bunlardır: ölünün gözlərini örtür, çənəsini bağlayır, yataq dəstini dəyişdirir, qarnına bıçaq (ya da qayçı, maşa, kəndir, qayış...) qoyurlar. Meyid olan otağın pəncərələrini açır, həmin gecə o otağın işığı yanılı qalır, baş tərəfində "Quran" oxuyur və meyidi tək qoymurlar. Meyid mümkün qədər tez dəfn olunmalıdır. Amma ikindi namazından sonra ölənlərin dəfni sabahkı günə qalır.

Dəfn hazırlıqları: meyidin yuyulması, kəfənlənməsi, müsəlla daşının üstündə cənazə namazının qılınması. Tabutun üstünə, adətən, ölünün cinsiyyətini, bəzi vaxtlarda isə sənətini-peşəsini bildirən bir əşyası qoyulur. Cavan yaşında vəfat etmiş insanın tabutunu gəlin kimi bəzəyirlər. Taxtaçılarda cavan ölənin yaşıdları tabutun ardınca ipəkdən hazırlanmış rəngli bayraqlarla gedirlər. Meyid bəzən tabutla, bəzən də tabutsuz basdırılır. Amma tabutda dəfn ediləndə də tabutun baş tərəfini açırlar: gərək ölünün üstünə torpaq düşsün. Basdırandan sonra istər molla, istər də camaatdan biri "Quran"dan ayələr oxuyur. Sonra molla "təlqin" verir: bu, sorğu-sual mələklərinə ölünün verəcəyi cavabları asanlaşdırmaq üçün söylənən ərəbcə öyüd xarakterli sözlərdir. Ən axırda ölünün oruc-namazına dair borclarını ödəmək, yerinə yetirmədiyi sözləri, vədləri, əhdləri bağışlatmaq üçün fəqir-füqəraya pul paylayırlar ("devir" ya da "isqat" əməli).

Bu işlərdən bir qismi tamamilə dini xarakter daşıyır. Bizim ölkəmizdə müsəlman-türk xalqının əksəriyyətinin bu işlərdə əməl etdiyi qayda-qanunlar sünni-hənəfi məzhəbi çərçivəsində həyata keçirilir: ölünün yuyulması, kəfənlənməsi, ölüm hadisəsinin minarədən oxunan "azan"la xəbər verilməsi, cənazə namazı, qəbir üstündə "təlqin" və "Quran"dan ayələrin oxunması, "isqat" tədbirləri və s. Bir qismi müasir şəhər adətləridir: qəzetlər vasitəsilə verilən ölüm elanları, müəyyən qurum-

ların ödəniş müqabilində cənazə xidmətləri, çələng, ailə qəbristanlığı və s. S.V.Örnək **“Anadolu Folklorunda Ölüm”** kitabında bu axırıncı qeyd olunanları da tədqiqatdan kənarda qoymamış, eyni zamanda sadəcə qruplaşdırmaqla da kifayətlənməmiş, bütün bu işlərin (dini, ənənəvi və ya “müasir”) tətbiq olunduğu yerlərdə onlara verilən mənaları, onlar haqqında şərhlər və izahları da tədqiqatına əlavə etmişdir. Beləcə, kitabda verilmiş məlumatlar sayəsində dini təlimlərin, ya da müasir həyatın yaratdığı yeni davranış qaydalarının köhnə adətlərlə necə qaynayıb-qarışdığını öyrənmək imkanı əldə edirik.

Öldüyü andan basdırılma prosesi başa çatana qədər müşahidə olunmuş adətlərə daha bir neçə nümunə verək. Ölünün mümkün qədər tez basdırılması məsələsi ilə əlaqədar gətirilən səbəblərin əksəriyyəti “ağlasığan” açıqlamalardır: “iylənməsin” (Ankara), “kədər dərhal yaddan çıxsın” (Çankırı), “dərhal torpağına qovuşsun” (Kayseri), “əzabı daha uzun çəkməsin” (Nallıxan), “beyni soyumasın”, “beyni soyumasa, sorğu-sual mələklərinə daha yaxşı cavab verər” (Sivas).

Bunların bir qismində isə cadu elementləri gözə dəyir: Kırşəhərdə ölünü yuyarkən onun burun və qulaq deşiklərinin pambıqla tıxanması Şeytanın girməsinin qarşısının alınması kimi izah edilir. Bəzi yerlərdə meyidin yuyulduğu suyun dərhal atılması lazımdır: bu suyun uzaq durulmalı bir “maddə” olduğuna inanırlar. Bəzi yerlərdə isə, məsələn, Afyonda ev adamları “o biri dünyada ölü ilə görüşə bilmək üçün”, Çorum/Boğazlayanda “qəm-kədərin soyuması” üçün bu su ilə əl-üzlərini yuyurlar. Zara, Afyon, Divriği, Niğdedə həmin su ilə “şəfa olsun deyə qırxlı uşaqları, xəstələri yuyundururlar”. Belə görünür ki, yuxarıda **qaçınmalar** (qorunmalar) silsiləsində rast gəldiyimiz qadağaların əksinə olaraq, bu son adətlərdə su ölü üçün istifadə olunmaq məqsədilə hazırlanmış bir şey olduğu halda **müsbət** xüsusiyyətlərə də malik ola bilir.

**69-cu sual: Ağı mərasimi nədir? Harada və necə təşkil olunur?**

Sədat Veyis Örnəyin tədqiqatında ağı mərasimindən bəhs edilməmiş, yalnız kitabın ölümə dair folklor nümunələri (atalar sözü, deyimlər, məsəllər, dastanlar) hissəsində bir neçə "ağı" mətni verilmişdir. Sözlü şifahi ənənədə bu mətnlərin yaradılmasına və oxunmasına səbəb olan mərasimin qısa məzmununu verək. Xalq ənənəsində bu mərasim də, orada oxunan (şeir quruluşuna uyğun gəlib-gəlməməsindən asılı olmayaraq) sözlər də "ağı" kəlməsi ilə adlandırılır. Özlərinə məxsus və bölgədən-bölgəyə fərqlənən hissələri ilə "nəğmə"lərin də işlədildiyi "ölüyə ağlamaq" mərasimlərini ancaq qadınlar təşkil edir və aparırlar. Bu insanlar ölünün bacısı, anası, arvadı, qızı, başqa yaxın qohumları, dostları və qonşularıdır. Qadınlar ölünün evində yığışırlar. Divrikin Çamşıqlı kəndində əldə etdiyimiz məlumata görə, mərasimin ölünün üzərində təşkil olunduğu hallar da mövcuddur. Oxunan nəğmələrdə və eləcə də mərasimin tələb etdiyi cürbəcür əməllərdə, ümumən, orada olanların hamısı iştirak edə bilər. Otağa hər təzə girən qadın ölünün ən yaxını və yaşca ən böyük olan qadının (ailəni təmsil edənin) boynunu qucaqlayır, ağlayır, ya da ağlamısınır. Ağı deyənin ağısına səs verərək "fəğan edir", acılı fəryadlar müəyyən tezliklərlə xor halında təkrar olunur. Mudurnu qaraçılarında xalqın elə oturub qaldığı yerdə baş-başa verərək ağladıqları müşahidə olunmuşdur. Ailənin üzvü olan qadınlar kədərlərini vurğulamaq üçün müxtəlif hərəkətlər edirlər: sinələrinə döyür, saçlarını yolurlar. İskəndərunda ölünün anasının sinəsinə vurması, arvadının isə "torpaq başıma"[91] deyərək, saçlarını yolması adəti var imiş. Belə düşünmək olar ki, bu sözlər deyənin özünə yönəlir və "Mən də ölüm, başıma qara torpaq səpilsin" məna-

[91] Azərbaycandakı "kül başıma" mənasında – ***Tərcüməçi***

sında bir qarğışdır. “**Kitabi-Dədə Qorqud**”da yaxınlarının ölümü zamanı qadınların “dırnaqları ilə yanaqlarını yırtmaq” istəmələri barədə danışılır. Bu davranış, başa düşüldüyü kimi, bugünümüzə qədər gəlib çatmışdır. Araşdırmaçılar ölünü ağlama mərasimlərini izah edərkən bu detala xüsusi diqqət verməsələr də, bəzi ağı mətnlərində buna bənzərliklər vardır. Ağı deyən ağıçı sözləri deyərkən bir tərəfdən də ölünün paltarlarını bir-bir əlinə alıb göstərir. Bu, mərasimlə bağlı tədqiqat aparanların ən çox rast gəldikləri detallardandır.

Ağıçı yaslı ailənin hər hansı bir yaxını, ölənin qızı, bacısı, anası və s. ola bilər. Amma hər hansı yad bir adam da ola bilər. Hətta bəzi yerlərdə ağıçılığı peşəyə çevirmiş və zəhmət haqqısını pul və ya başqa bəxşişlərlə alanlar da vardır. Ağı deyən yad adam olduğu zaman ağının tərkibində öz adından da danışa bilir, amma sözlərin böyük əksəriyyətini orada iştirak edib-etməməsindən asılı olmayaraq, ailə üzvlərinin, doğmalarının dilindən (adından) deyir.

Basdırılma ölünün can verdiyi gün həyata keçirilə bilmirsə, mərasim gecə də davam edə bilir. Meyidi öldüyü gün basdırılsa, ya da mərasimə gecə fasilə verilsə belə, ağı mərasimi dəfndən sonra da davam edə bilir. Ağı mərasimi Sivərəkdə üç gün, Divrikin Camşıqlı kəndində üç, ya da beş gün davam edir. Ağılar, adətən, ölünün evində oxunur, ama bəzi xüsusi hallarda, məsələn, İzmirin Badamlar kəndi Taxtaçılarında müşahidə olunduğu kimi, qəbir üstündə də ağı deyirlər. Şəxsin evindən uzaqda, qürbətdə ölməsi də mümkündür. Bəzi faktlara əsasən, kədərli hadisənin baş verdiyi yerdə ağı deyə bilən qadınlar vardırsa, onlar elə orada bir ağı mərasimi təşkil etməyə çalışırlar. Əgər ölüm qürbətdə ikən baş veribsə, qara xəbər evə gəlib çatar-çatmaz, sanki ölü elə evdəymiş kimi, mərasim təşkil edib, ağı deyirlər. Əlbəttə, ağıçı dediyi ağının sözlərində ölü və ölümdən söz açacaq, ölənin boy-buxun və xasiyyətcə tərif ediləcək

xüsusiyyətlərini saydıqca-sayacaqdır. Əgər ölən şəxs yaşadığı müddətdə xoşbəxt olmayıbsa, onda ağıçı onun həyatı boyunca çəkdiyi əzablar haqqında oxuyacaq, yox, bəxti üzünə gülmüş, varlı bir insandırsa, onda ağılarda həmin adamın var-dövlətindən, ətrafdakı insanlara etdiyi yaxşılıqlardan bəhs edəcəkdir. Məşhur quldurlar üçün oxunmuş ağılarda onların hərbə-zorbaları, hökumət qüvvələrinə meydan oxumaları barədə danışılır. Ağılarda ölən şəxsin hansı şəraitdə öldüyü barəsində də çox bəhs edilir. Bunlar cəmiyyətin yaddaşında iz buraxan, ən uzun ömürlü, ən təsirli ağıların yaranmasına səbəb olan, çox can yandıran, məsələn, təsadüfi güllə ilə, ya bir dava nəticəsində, ya da düşmən əliylə olmuş vaxtsız ölümlərdir. Ağıçı bir çox mətnlərdə toydan az sonra ölmüş təzə evlənənlərdən, toylarını görmək nəsib olmamış nişanlılardan, əsgərlikdə, ya da qürbətdə ölənlərdən bəhs edir. O cümlədən, ölümlə nəticələnən bir çox qəzalar da ağıların mövzusuna çevrilmişdir. Ağı gah ölümə yanan şəxsin halını ifadə edir, gah da ölənin yaxın və uzaq keçmişindən danışır. Bu axırıncı halda keçmişin müasirləşdirilməsi kimi xüsusi bir üsuldan istifadə olunur və ağıçı bu zaman ölünü də danışan bir adam timsalında ifa-mükalimə prosesinə qoşur. Ağılar oxunarkən orada keçmiş ilə bugün qovuşur. Bu, yaşamaqda olanların (dirilərin) öləni mərasimlərin keçirildiyi müddətdə sanki onlarla bir yerdəymiş kimi təsəvvür etmələrinin nəticəsində meydana çıxır: o, bu müddət ərzində hələ cəmiyyətdən qopub ayrılmamış hesab olunur. Yuxarıda mərasimi tədqiq edərkən ölünün paltarlarının hansı məqsədlə istifadə olunduğunu gördük: bu əşyalar elə bil öz sahiblərini əvəz edir. Sivərəkdə və Azərbaycanda rast gəlinən bir adətə görə (M.A.İnan, "Halkbilgisi Haberleri", VI, 1937, s. 143; "Azərbaycan folkloru antologiyası", I, Bakı, 1963, s. 273), ölənin atı küçədə gəzdirilir, ya da həmin at belində sahibinin paltarları ilə birlikdə cənazəni aparan dəstənin yanında qəbristanlığa qədər aparılır.

Bu davranışın da mənası, gərək ki, o birilərlə eynidir. Beləcə, bununla ölən son dəfə cəmiyyətin həyatında iştirak edir.

**70-ci sual: Ölü basdırıldıqdan sonra əməl olunan adət və mərasimlər hansılardır?**

Ölümlə bağlı ənənələrin bu son hissəsindəki əməllər aşağıdakı kimi qruplaşdırılır:

a) Baş sağlığı vermək üçün edilən ziyarətlər;

b) Ölüdən qalan əşyalarla bağlı əməllər;

c) Müəyyən günlərdə “Quran”, mövlud oxuma və ölüyə verilən ehsan;

d) yas tutma və yas qaldırma.

Yuxarıda ana xətlərini göstərdiyimiz ağı mərasimləri bütün bu müəyyənləşdirdiyimiz qayda-qanunları ilə bu gün də Türkiyənin hansı bölgələrində və hansı şərtlər altında təşkil olunur? Bu məsələ barəsində dəqiq bir fikrə gəlmək mümkün deyil. Tədqiqatlarla toplanıb nəşr olunan faktlar çoxluğu bizə ənənələrin canlı olduğu zamanların xatirələrini izləməyə imkanı verir. Hər nə olursa olsun, əldə olunan məlumatlara görə, ağı mərasimlərinin yaşadıldığı yerlərdə “başsağlığı vermə” adəti “ağı” mərasimi ilə qaynayıb-qarışmışdır. Mərasimdə iştirak edənlər hislərini qəlibləşmiş ifadələrlə, bəzi hallarda ağı janrına aid nizamlı, şeirvari danışıqlarla ifadə edir, ya da sadəcə olaraq, bir sıra mərasimi davranışlar, kədər ifadə edən nidalarla ölünün yaxınlarının kədərinə şərik olduqlarını bildirirlər. Vaxtında mərasimdə iştirak edə bilməyənlər ölünün doğmaları ilə ilk qarşılaşdıqları zaman bu borclarını yerinə yetirirlər və hər belə təsadüf zamanı sanki kiçik bir ağı mərasimi baş tutmuş olur. Ağı ənənəsinin olmadığı yerlərdə başsağlığına gəlmə sanki onun yerini almışdır. Bunlar ölü (yas) düşən gündən başlayır: yaxın qonşular təskinlik vermə davranışları ilə kifayətlənmə-

yib, xüsusilə ilk günlərdə yas evindəki işlərin dalınca qaçmağı, yemək gətirməyi özlərinə borc bilirlər.

Ölünü üst-baş əşyaları ilə əlaqədar ən geniş yayılmış adət bunları fəqir-füqəraya paylamaqdır. Bir çox yerlərdə "soyqa" adı ilə tanınan geyim, paltar, yataq üzləri kimi əşyalar kiməsə verilməmişdən öncə onları təmizləmə əməliyyatı həyata keçirilir. Sadəcə, simvolik xarakter daşıyan bir təmizlənmə də ola bilən (su səpmə, gecənin ayazında saxlamaq kimi) bu adətlərin ölünün qayıdıb gələrək, əşyalarından istifadə edənlərə zərər verməsinin qabağını almaq üçün tökülən tədbir olduğu bu mövzuda aparılan araşdırmalardan, izahlardan, şərhlərdən də görünür: Ölünün paltarı "ruhu üstündə qayıtmasın" deyə yuyulduqdan sonra birinə verilir (Ankara), geyimlər sahibi "qayıdıb gəlməsin" deyə üç gün ərzində yuyulur, ya da üstünə su səpilir (Ankara, Çubuq). Sivərəkdə geyimlərin yuyulduqdan sonra yoxsullara verilməsi, köynəyinin isə yandırılması bir adətdir. Dəyərli əşyalarının, silahlarının kiməsə bağışlanması haqqında əlimizdə heç bir məlumat yoxdur. Ancaq bəzi qəbir daşlarında (məsələn, Ərzincanın ələvi Başköy bucağında müşahidə etdiklərimizdə) ölənin peşəsi ilə əlaqədar olub-olmamasından asılı olmayaraq, bir sıra əşyalarının, o cümlədən silahlarının şəkillərinin olması, ölən adamın əşyalarının özü ilə basdırılması, bu zaman atının da qurban edilməsi kimi adətlər, güman ki, çox qədim, islamaqədərki ənənələrin izləridir.

Ölünün xatırlandığı, ruhuna həsr olunaraq "Quran", mövlud oxunduğu, ehsan verildiyi müəyyən günlər daha çox ölənin qırxıncı və əlli ikinci günləri ilə, ildönümü, daha seyrək isə üçüncü və yeddinci günləridir. İstanbulda bu mərasimlər iki mərhələdə təşkil olunur: cənazə axşamı, "Quran" xətmindən sonra ev sahibi hafizlərə irmik halvası yedizdirir, ölünün qırxıncı günündə qonşulara loxma (yemək) paylanır və mövlud oxutdurulur. İstanbul inanclarında qırxıncı gün ölünün burnunun düş-

düyü gün hesab olunur. Uşakda belə bir inanc vardır ki, əlli ikinci gün ölünün burun və əl sümükləri qopur. Burun sümüyü düşdüyü gün meyid çox əzab çəkir. Həmin gün ehsan edilən yeməyi mələklər qızıl sinilərdə ölünün qabağına qoyurlar, o da bunun sevincindən ağrını hiss etmir (S.V.Örnək, adı keçən əsər, s. 79).

Bir çox yerlərdə ölünün yeddinci günündə də xeyrat (ehsan) məclisləri təşkil olunur: çörək kimi şeylər bişirərək qonum-qonşuya paylayırlar. İzmirin ətrafındakı ələvi kəndlərində ölünün ruhuna bişirilmiş yeməklər Novruz günü (23 mart) qəbristanlıqda toplu şəkildə yeyilir, bu mərasimdə rakı[92] içmək də bir adətdir. Həmin gün üçün hazırlanan yeməklərin, quru meyvələrin bir qismini də elə orada paylayırlar: buna "haqq çatdırma" deyirlər. Həmin gün qəbristanlığa yeməklərdən heç bir şey evə qaytarıla bilməz. Onları ziyarətə gələnlərin məzar başında yemələrinin ölülərinin yemiş olması demək olduğuna, evə qaytarılmasının ölünün xoşuna gəlməyəcəyinə inanırlar. Bütün bu inanış və əməllər bir çox dinlərdə ölünün o biri dünyada bu dünyada olduğu kimi yaşaması və müəyyən günlərdə ona yemək göndərməyin lazım olması haqqında inancın qalıqlarıdır. **"Kitabi-Dədə Qorqud"**da bu ənənə qonşu kafir qövmlərin ölənlərin qəbirlərinə səhər-axşam ərzaq daşıması haqqında nəql olunarkən vurğulanmışdır. Bizcə, bunu oğuzların qədim dinlərinə aid bir törə/adətin uzaq bir xatirəsi kimi də şərh etmək mümkündür.

İstanbulda olduğu kimi (M.Halit Bayrı. **İstanbul Folkloru,** s. 117), Mahmud Makalın bir məqaləsindən öyrənirik ki, Niydə kəndlərində də ölünün cümə gecələrində evinə gəlib, sağ qalanları ziyarət etdiklərinə inanırlar. Makalın verdiyi məlumatlara görə, həmin günlərdə evlərdə gözəl yeməklər bişirir, ocağa şam atır, səs-küyün olmamasına nəzarət edirlər. Nahar zamanı pis iyi verəcək şeylər (məsələn: soğan) yeyilmir. Bişiri-

[92] Spirtli içki, araq – ***Tərcüməçi***

lən yeməklərdən ölülərin ruhu şad olsun deyə kasıb qonşulara verirlər. O gecə ölülər öz ehtiyaclarını bildirmək üçün dirilərin yuxusuna girirmişlər: çılpaq, ayaqqabısız, papaqsız görünmələri onların adından qonşulara bu cür əşyaların paylanmasının lazım olduğunu bildirməsi kimi başa düşülürmüş.

Bugünə qədər aparılan araşdırmalardan görünür ki, yasın müddəti haqqında Türkiyə xalqının ənənələrində dəqiq bir qayda yoxdur. Yas ən az üç gün olmaqla səkkiz ilə qədər davam edə bilir. Müxtəlif müddət göstəricilərinin ölkə miqyasında paylanışı və müəyyən bir yerdə, müəyyən bir ayrıca yas müddətinin müşahidə olunub-olunmaması kimi suallar cavabsız qalır. Ən geniş yayılmışı qırx gündür.

Yas müddətində bəzənməmək, əyləncələrdə iştirak etməmək, yuyunmamaq, böyük işlər görməmək kimi qadağalar haqqında dağınıq məlumatlar toplanmışdır. Yasın rəngi Türkiyə xalqının ənənəsində qaradır, amma bu adət də bugün xristian cəmiyyətlərində olduğu kimi, qatı və dəqiq bir adət olma xüsusiyyətini itirmişdir. Qədim türk ənənəsində bunun bir qanun olduğunu sübut edən faktlar vardır: **"Kitabi-Dədə Qorqud"**da oğuzların bu adətə əməl etdikləri açıq-aşkar görünür. Vanın Qaraxan kəndində qadınlar bir ay müddətində paltarlarını tərsinə geyinirlər (S.V.Örnək, adı keçən əsər, s. 83). Paltarı tərs geyməyin həm yas, həm də acındırma (rəhmetdirmə) əlaməti olduğunu bilirik: yağış duasına çıxdıqları zaman paltarların tərsinə geyilməsi də bu adətlər sırasındadır. Bir tədqiqatçının (İ.Özalp, "Türk Folklor Araştırmaları", 21-ci nömrə, 1951) İnevində tətbiq olunan bu adəti "yas rənginin ağ olması" kimi şərh etməsini yersiz hesab edirik. XVI əsrdə Krım xanlığında saçlarını yolmaq, üzünü cırmaq və börkünü (papağını), paltarını tərsinə geymək yas davranışları idi (Özalp Göybilgin. **Tarihi-Sahib Giray Han**, Ankara, 1973, s. 144). Qadınların saçlarını kəsmələri, baliklərini (incə hörüklərini) açmaları da

Urfada, Qaziantep türkmənləri və baraklarında, Ərzurumda bir yas adəti kimi müşahidə olunur (S.V.Örnək, adı keçən əsər, s. 84). Bu, çox qədim bir türk adətidir və Yunus Əmrənin:

Uca dağlar başında
Salxım-salxım olan, bulud!
Saçın açıb mənim üçün
Yaşın-yaşın ağlarmısın? –

deməsi də bizə bu adəti xatırladır.

Yasın sona çatdırılması bir çox yerlərdə bəzi qayda-qanunlara əsaslanır: bunun üçün ölüm hadisəsindən sonra gələn ilk bayramın (bəzi yerlərdə bir neçə bayramın) ötüb keçməsi lazımdır. İlk "yas bayramında"[93] ölü evindən olanlar bayram gəzintisinə çıxmırlar; ziyarətçilər özləri onların evinə gəlir, onlar da qonaqlara şəkər əvəzinə, "acı qəhvə" verirlər. Qadınların yas paltarlarını çıxarması, qara yaylıqlarını ataraq, rəngli yaylıq bağlamaları, kişilərin saqqallarını təraş etmələri (Van, Qaraxan kəndi) kimi adətlər yasın sona çatdığını bildirən adətlərdir. Yas bir çox yerlərdə isə adına "yas hamamı", ya da "ölü hamamı" deyilən bir mərasimlə sona çatdırılır. Ölü evinin əhalisi bəzi yerlərdə qohumları və qonşuları, xüsusilə onları kədərli günlərində yad etməyə gəlmiş, yemək gətirmişləri də dəvət edərək, bəzi yerlərdə isə əksinə, özləri başqaları tərəfindən dəvət edilərək, ölümdən üç gün sonra (Ərzurum), bir həftə sonra (Ərzincan), on beş gün sonra (Sivas), on beş gün və ya bir ay sonra (Zara), qırxından sonra (Mərzifon, Kayseri, Çorum, Urfa, Sivərək) hamama gedir və yuyunurlar. Yas hamamı əksər yerlərdə yeməklə müşayiət olunur. "Ölü hamamı"nın bəzən ağı mərasiminə bənzədiyi yerlər də var: "Sivasda ölü hamamında ağılar oxunur və ölən yad edirlər" (S.V.Örnək, adı keçən əsər, s. 85-86). Yas hamamını da başqa yas mərasimləri kimi qadınlar təşkil edir.

---

[93] Bu, Azərbaycanda "qara bayram" adlanır – ***Tərcüməçi***

# IV BÖLÜM

# BAYRAMLAR

**71-ci sual: "Bayram" anlayışının içinə nələri daxil etmək mümkündür?**

Bayram bir sıra tamaşa və oyunlardan əmələ gəlir və onların forma və qaydalarını ənənə müəyyənləşdirir. Doğum, evlənmə, ölüm kimi hadisələrin səbəb olduğu mərasimlərdən bayramı fərqləndirən bir sıra cəhətlər var: bayramın ən başlıca xüsusiyyəti budur ki, onun keçirilməsinə hər hansı bir adam səbəb olmur. Yas mərasimi ölmüş konkret bir adam üçün təşkil olunur, toy ailə quran bir cavan oğlan ilə bir cavan qız üçün keçirilir. Bayram isə toplumun hamısı üçün və hamı tərəfindən təşkil və tətbiq olunan mərasimlər toplusudur. Dini bayramlarla, "bir may" müasir fəhlə bayramı və ya ənənəvi bahar bayramları kimi dünyəvi bayramlar dövlətin hüdudlarını da aşır, milli bayramlar millətin ortaq şəkildə iştirak etdiyi mərasimlərdir. Bayramların sevinc nümayişləri ilə müşayiət olunmaları da onların bir xüsusiyyətidir. **Şiə** toplumunun məhərrəm ayinləri (İmam Hüseynin ölüm ildönümünü anma mərasimləri) bütün bir məzhəbi əhatə etsə də, "bayram" deyə adlandırılmır və bu səbəbdən də, mövcud ənənə eyni tarixlərdə, yəni yas müddətinin sonunda qeyd olunan aşura mərasimlərini başqa bir kökə aparıb-çıxararaq, "Nuh tufanının başa çatmasına yaxın toplu halda yeyilən yeməy"in xatirəsi kimi izah edir.

Bayramın başqa bir xüsusiyyəti də ilin məlum bir günündə keçirilməsidir. Hər bir bayram neçə gün davam etməsindən asılı olmayaraq, ildə bir dəfə keçirilir və bu baxımdan, bir dəfə bir tarixdə, bir dəfə də başqa tarixdə qeyd olunan günlərə bayram deyilə bilməz.

**72-ci sual: Bayramları necə qruplaşdırmalı?**

Bayramları bir qayda əsasında qruplaşdırmaqdansa, çoxaspektli bir qruplaşdırma sxemi tətbiq etmək onların müxtəlif tərəflərini müəyyənləşdirməyə daha çox imkan verəcəkdir.

**1. Bayramlarda iştirak edənlərin dinlərinə görə:** xristian bayramları, müsəlman bayramları və s. Bəzi dini bayramların başqa dinlərlə ortaq ola biləcəyini aşağıda görəcəyik. Hər bir dinin daxilindəki məzhəblərə görə də alt qruplar mövcud ola bilər: müsəlman-türk cəmiyyətinin daxilindəki şiə, ələvi zümrələrin özlərinə məxsus bayramları vardır. Məsələn, taxtaçıların Qaz Dağında Sarı Qızı ziyarət etməklə keçirdikləri bayram.

**2. Rəsmi xalq bayramları:** 30 avqust Zəfər bayramı, Cümhuriyyət bayramı və s. Bu bayramların "rəsmi" xüsusiyyətləri, olduqca yaxın tarixdən etibarən qeyd olunmaları onları zahirən folklordan kənarda qoysa da, xalq həmin mərasimlərdə başqa bayramların ənənələrini tətbiq edərək iştirak etdiyi üçün tədqiqat aktuallığı qazanır. Bu qrupun bir alt-qrupunda qurtuluş bayramları kimi "yerli rəsmi bayramlar" cəmlənir. Bunlar da rəsmi xalq bayramları ilə eyni xüsusiyyətlərə malikdir, bir fərqlə ki, bu mərasimlərdə tək bir qəsəbə, yaxud şəhər xalqı iştirak edir.

**3. "Etnik" xarakterli bayramlar:** Əvvəllər İzmir, İstanbul, Manisa kimi şəhərlərdəki Afrika əsilli zəncilərin qeyd etdikləri "dana bayramlar"ı və s. Xıdırəlləz Türkiyə miqyasında məlum bayram olsa da, onun "Qaraçı bayramı" kimi xarakterizə edilməsinə də diqqət etmək lazımdır. Bu qrupdakı bayramlara, müəyyən mənada, Anadolu yörüklərinin Söyütdə Ərtoğrul Qazi türbəsində keçirdikləri bayramı da daxil edə bilərik.

**4. Qadın və ya kişi qrupları tərəfindən keçirilən bayramlar:** bəzi bayramlara kişilərin önəm vermədikləri, iştirak etmədikləri müşahidə olunur. Məsələn, xıdırəlləz mərasimləri. Bu, açıq müşahidə olunan dərəcədə qadınlara məxsus, onların

daha çox iştirak etdikləri, cürbəcür mərasimlərlə rəngləndirdikləri bir bayramdır.

**5. Yaş qruplarına görə bayramlar:** bəzi bayramları da sadəcə uşaqlarla müəyyən yaşa qədər qız və ya oğlanlar keçirirlər. Məsələn, pasxa bayramında rast gəlinən "bətləm" ("qırmızı yumurta", "gavur-küfrü") uşaqların və gənc qızların, "badam plovu" oğlan uşaqlarının bayramıdır. Bəzi bayramların isə müəyyən mərasimləri uşaqların ixtiyarındadır: çıraqlarla qapı-qapı gəzərək, ya da küçələrin başında dayanaraq "şam pulu" yığma (bu, əvvəllər İstanbulda və Anadolunun bir çox yerlərində yayılmış bir ənənə idi), qurban bayramlarında qurban əti yığma ("səydim") və bu ətləri birlikdə bişirib yemə (Biləcik/Borçak) və s.

**6. Bəzi bayramlar da "ekoloji" elementlərlə şərtlənən mərasimlərdir:** Qoyunçuluqla məşğul olanların "saya" bayramları, meyvəçiliklə məşğul olan kənd və qəsəbələrin ətraflarındakı üzüm və ya gilas bayramları, köçərilərin "köç bayramları" və s.

**7. Kənd bayramları (tək bir kənd tərəfindən təşkil olunan bayramlar):** əksər hallarda kəndin yaxınlığındakı pirin ziyarəti ilə birlikdə bayram edilir. Bəzi kəndlərdə isə Ramazan və Qurban bayramlarında hər kənd öz kəndindən və məhəllələrindən dəvət etdikləri insanlarla bərabər yaxın kəndlərdən gələn qonaqlarına da yemək verir. Safranboluda bu adət "kolanqa" deyə adlandırılır. Əvvəllər bu adət Mudurnu qəsəbəsinə yaxın bəzi kəndlərdə də var idi: o kəndlərin əhalisi qəsəbədən dəvət etdiklərinə qonaqlıq verir və bu münasibətlə oraya yığışanlar cürbəcür əyləncələr təşkil edirdilər.

### 73-cü sual: Dini bayramların xalq ənənəsinə məxsus çalarları vardırmı?

Dini bayramların günləri "qəməri təqvim"ə əsasən hesablandığı üçün bunlar hər ildönümündə günəş təqviminin eyni günlərinə təsadüf etmir, hər il, təqribən, on gün dala gedir.

Belə olduğuna görə, uzun müddət keçəndən sonra qeyd edildikləri fəsillər də dəyişir.

Dini bayramlar haqqında danışdığımız zaman ilk ağla gələn şəvval ayının ilk üç günündə qeyd olunan Ramazan bayramı, zilhiccə ayının onundan başlayaraq dörd gün davam edən Qurban bayramıdır. Bu bayramların qeyd olunmasına müasir dövrümüzdə də xüsusi əhəmiyyət verildiyi üçün onlar xalq ənənələrində öz təravətini hələ də qoruyub saxlayır. Hökumət idarələri, böyük iş yerləri həmin günlərdə tətilə çıxırlar. Beləcə, bunlar dini müqəddəs günlər içərisində "rəsmi bayram" xarakteri almışdır. Əvvəllər xalq adət-ənənəsində bu iki bayram qədər olmasa da, böyük önəm verilən qəndil günləri indi İstanbul kimi böyük şəhərlərdə qəndil çörəklərinin yeyilməsi, minarələrin işıqlandırılmasından başqa heç bir adətlə qeyd olunmur.

Ramazan və Qurban bayramlarının əsas xüsusiyyəti dostların, yaxın qohum-əqrəbanın qarşılıqlı ziyarətləridir. Gənclər yaşlı adamların əllərindən öpür, onların xeyir-dualarını alırlar. Uşaqlara pul, ya da xırda hədiyyələr vermək də bu adətə daxildir. Çox qoca adamlar evlərindən çıxmırlar; keç kəs onların kimisə ziyarət etmələrini ummur, əksinə, hamı həmin yaşlıların əllərini öpməyə gedir. Ramazan bayramında ziyarətə gələnləri şirniyə qonaq edirlər: elə bu səbəbdən bu bayramın bir adı da "şirni bayramı"dır. Ancaq indi Qurban bayramında da bu adət özünə yer alıb. X əsrin Xarəzmli müdriki Biruninin verdiyi məlumatlara görə, bayramlarda şirni verilməsi Cəmin[94] şəkər qamışındakı dadlı şirəni bir Novruz günü tapması və bu yolla şəkər düzəltmək ənənəsini insanlar arasında yaymış olmasına əsaslanır. İlk vaxtlar Novruz günü şirin şeylərə qonaq edərmişlər, sonradan bu adət başqa bayramlara da tətbiq olunmuşdur.

---

[94] Əfsanəvi hökmdar Cəmşid – ***Tərcüməçi***

Qurban bayramı Türkiyədə əyləncələr baxımından Ramazana baxanda daha az parlaq keçir. Bu bayram İbrahim Peyğəmbərin oğlunu Allaha qurban edəcəyi anda göydən enən bir qoçun Allahın əmri ilə oğlunun yerinə keçməsinin bir xatirəsi kimi İslam dininə daxil olmuşdur. Ramazan bayramının qeyd edildiyi şəvval ayı ilə Qurban bayramının qeyd olunduğu zilhiccə ayı arasındakı zilqədə ayını xalq aralıq ayı deyə adlandırır. Xalqın inancına görə, bu ayda toy etmək uğurlu hesab olunmur. Qurban bayramının birinci günü Məkkədə Mina adlandırılan yerdə hacıların qurban kəsdikləri gündür. Qurban islam dininin qayda-qanunlarına görə, "fərz" hökmündə vacib və vazkeçilməz olmaqla bərabər, maddi vəziyyəti yaxşı olan hər bir bəndə üçün "borc", yəni **vacib**dir. Qurban kimi qoyun, dana və dəvə kəsilə bilər. Dana ilə dəvənin "ödəmə" gücü qoyuna nisbətən üstündür, amma Türkiyədə qurbanlıq kimi demək olar ki, ancaq qoyun kəsilir. Heyvanın erkək olması, şikəstliyinin olmaması əsas şərtdir.

Qurbanın kəsilməsində əməl olunması lazım olan bir neçə adət vardır: bunlardan bir qismi islam dininin qoyduğu qayda-qanunlara əsaslanır. Amma əksəriyyəti də əhaliyə və bölgələrə görə dəyişən yerli ənənələrdən gəlir. Məsələn, ölkəmizin bəzi yerlərində qurbanlıq qoçları yuyundurma, xınalama və gəlin fatası ilə bəzəmə kimi adətlər vardır. Qurbanlıq heyvanları "xınalamaq" yəhudilərdə də çox qədim bir adət idi, islam dininə oradan keçmiş, ya da İslamdan əvvəlki sami tayfalarının dini ənənələrinin bir qalığı hesab edilə bilər. Gəlin fatası ilə heyvanları bəzəmək isə Orta Asiyadan gələn bir adətdir: moğollarda Tanrıya əhd olunan qurban heyvanlarına lentlər bağlayırlar.

Qurban ətinin üçdə biri qurbanı kəsənin evdə yeyilmək üçün saxlanmalı, üçdə biri qonşulara və qohum-əqrəbaya, qalanı isə fəqir-füqəraya paylanılmalıdır. Türkiyədə ənənənin yayılmış forması ətin çiy halda paylanmasıdır. Amma Narlıdərə taxtaçılarında paylanılacaq ətin bişmiş olması və birgə ye-

yilməsi adəti vardır. Ət qurban kəsməmiş olan yoxsul adamlara və kəndə olan yad adamlara yenə bişmiş halda verilməlidir.

Türkiyənin bəzi yerində rast gəlinən bir adət də heyvan kəsilən zaman onun gözlərinin qapadılmasıdır. Bu adət İbrahim Peyğəmbərin oğlunu yerə yıxdığı zaman qorxutmamaq üçün gözlərini bağlaması haqqındakı mənqəbəyə əsaslanır. Taxtaçılarda qurbançı (yəni, qurban kəsən adam) heyvanın gözlərini onun qulaqları ilə örtür. Yenə taxtaçılar və kandıraların ənənələrində ortaq olan bir adət – qurban sahibinin heyvanın sağ budunu (taxtaçılarda sağ budu ilə sinəsini) özünə götürməsi oğuzların şölənlərində kəsilən heyvanın paylanması zamanı konkret ət paylarının konkret tayfalara verilməsi adətini xatırladır[95]. Taxtaçılarda nişanlı, deyikli, ya da aralarında bəlli anlaşma olan gənc qız və oğlanlar bayramın ilk günündə qurbanlıq qoçlarını döyüşdürürlər və bu, cavanlar üçün bir öyünmə vasitəsi olur[96]. Kandırada "qurban orucu" adətinə görə, qurban sahibi heyvan kəsilib bölünənə qədər bir şey yemir və orucunu qurbanın əti ilə açır: heyvanın qara ciyəri ilə oruc açma yaxşı hesab olunur.

---

[95] "Oğuznamə"lərdən məlum olduğu kimi, 24 Oğuz tayfasından hər birinin şöləndə kəsilən heyvanın bədənində öz "yeri" və bu yerə uyğun payı var idi. Hər bir tayfa ona heyvanın bədəninin hansı hissəsinin pay veriləcəyini qabaqcadan bilirdi. Bunun əsasında qədim oğuzların "totemi yemə" ritualı durur. Totem heyvanın bədəni toplumun strukturunu modelləşdirirdi: cəmiyyətin strukturu heyvanın bədən quruluşunda proyeksiyalanırdı. Totemin bədəni cəmiyyətin, bir növ, xəritəsi statusunda idi. Toplumun üzvü olan hər bir etnik vahid (ailə, klan, tayfa və s.) bu "totem-xəritədə" öz yerini dəqiq bilirdi. "Totemi yemə" funksional strukturu baxımından qurbanvermədir. Cəmiyyətin struktur vahidlərini təmsil edən nümayəndənin (ailə, nəsil, tayfa... başçısının) etnik ənənələrlə müəyyənləşən zaman ritmi ilə qurban kəsilmiş totem heyvanın ətindən "öz payını" alması ilə onun təmsil etdiyi etnik vahidin (ailə, klan, tayfa və s.) cəmiyyətin strukturunda mövcud olma hüququ yenidən təsdiq və təsbit edilirdi – ***Redaktor***

[96] **Təkrar qeydimiz:** "Bu adət, digər tərəfdən, bioantropoloji mənşəli ritual aktı olub, erkək fərdlərin dişi fərdi vuruşaraq əldə etmə arxetipini simvollaşdırır" – ***Tərcüməçi***

Ramazan və Qurban bayramlarının ortaq xüsusiyyətlərindən biri də kütləvi əyləncələrin təşkil olunmasına səbəb olmasıdır. Qəsəbə və şəhərlərdə, xüsusilə uşaqlar və gənclər bayram yerlərində görüşərək əylənirlər. Bayram yeri, eyni zamanda, kiçik bir yarmarka görünüşü alır: satıcılar cürbəcür şeylər (ərzaqlar, bəzək əşyaları, oyuncaqlar...) satır, yelləncəklər, fırlanqıclar qurulur. Yelləncək təkcə dini bayramların yox, eləcə də başqa bayramların (xüsusilə bahar bayramlarının) vacib bir elementidir. Bəzi kütlələrin əyləncələrində yelləncəyin simvolik mənası (yerdən göyə yüksəlmək, göylə birləşmək istəyi) aydın şəkildə görünür. Bizim bayramlarımızda yelləncəklər, fırlanqıclar gənc qızlarla oğlanların bir-birlərinə söz atma, gizli dillə anlaşma vasitələri kimi önəmli yer tutur. Bayram yeri görüşləri qızlı-oğlanlı gənclərin evlənmə ilə başa çatacaq münasibətlər qurmalarına vasitəçi olur. Samsunun Çıraqman kəndində cavanlar orada diqqətlərini cəlb edən qızlara yağlı ətir hədiyyə edir, qızlar da buna ilk razılığın nişanəsi kimi boyunbağı hədiyyə etməklə cavab verirlər. Naci Qum (Fazil Yenisey. **Bursa folkloru.** Bursa, 1955, s. 84) 1940-cı ildə Bursanın Misi kəndində öz qızının yerindəcə müşahidə etdikləri əsasında belə bir adət barədə danışır: bayram məkanında qızlar qrupu öz aralarında oynayarkən oxuduqları mahnının bir yerində bir-birinə uyğunlaşdırdıqları qız və oğlanların adlarını deyirlər, həmin vaxt gənc oğlan adı çəkilən qızı bəyənibsə, bunu üç dəfə əl tapançasından atəş açmaqla bildirir və bu adət "nişanlama"ya bərabər sayılır.

Bayram yerlərinin yelləncək əyləncələri qədim Qaragöz teatrının repertuarında çox sevilən bir tamaşanın mövzusuna da çevrilmişdir. Keçən əsrlərdə Türkiyəyə gəlmiş xarici səyyahlar böyük şəhərlərdəki bu bayram əyləncələri barədə çox söz açmışlar.

Ramazan ayı da hər nə qədər "bayram" adlandırılmasa da, xüsusilə böyük şəhərlərin adət-ənənələrində bəzi tərəfləri ilə ilin

bayram xüsusiyyətlərini özündə ehtiva edən bir zamanıdır. Əvvəllər oruc tutanlar, xüsusilə gecələrin qısa olduğu yay fəslinə düşən ramazanlarda yatmır, səhərə yaxın yeyilən imsaq yeməyini gözləyərdilər. Belə olanda da gecənin təravih namazından imsaq zamanı arasındakı müddəti cürbəcür əyləncələrlə keçirilirdi. İstanbulun Şahzadəbaşında, Dirəklərarası, Çəmbərlidaş tərəfindəki Divan yolu, adətən, bayram yeri mənzərəsini alırdı. Ramazan gecələrinə xas olan tamaşaların ən birincisi qaragöz meydan tamaşası idi. Taşranın qəsəbə və şəhərlərində də evlərdə təşkil olunan yığıncaqlardan başqa, qəhvəxanalarda aşıqların çalıb-oxumağına qulaq asırdılar. Bu ənənə ölkənin Ərzurum, Qars kimi şərqdə olan şəhərlərində günümüzə qədər gəlib çatmışdır. Həmin yerlərdə aşıqlar ramazan ayı boyunca qəhvəxana məclislərində saz çalıb, oxumaqdan başqa, həm də əksərən bir neçə gecə davam edən uzun xalq dastanlarını söyləyirlər.

Qəndillərin bayramsayağı tərəflərindən, yuxarıda da qeyd etdiyimiz kimi, müasir dövrümüzdə elə bir şey qalmamışdır. Deməərəm, bəlkə, adət-ənənələrə bağlı ailələrdə qəndil çörəyi yemək, “qəndiliniz mübarək olsun” deyərək, əl öpmək adətləri davam etməkdədir. Əvvəllər isə bu günləri keçirmək üçün hazırlıq işləri və qəndil gecəsi şənlikləri uşaqlar üçün bayram mənasına gəlirdi.

**74-cü sual: Dövlət bayramlarında ənənə və adətlərə uyğun elementlər vardırmı?**

Şəhər və qəsəbələrdə bir şənlik ab-havasında qeyd olunan dövlət bayramlarının (30 avqust, Cümhuriyyət bayramı, Qurtuluş bayramları), hərbi parad, fənər alayının (məşəlçi dəstələrinin) keçidi və başqa “rəsmi” nümayişlərdə yeganə ənə-

nəvi elementi seymənlər[97], zeybəklər[98] və s. bu kimi artıq bugün mövcud olmayan əvvəlki quruluşların təmsilçilərinin xüsusi paltarları ilə iştirak etmələridir. Amma bu bayramlarla əlaqədar rəsmi nümayişlər qurtardıqdan sonra bəzi yerlərdə gecə yarısına qədər işçilərin, satıcıların öz aralarında hökumət, ya da bələdiyyə meydanlarında təşkil etdikləri əyləncələr bu şənliklərə o biri bayramlara xas olan məhəlli rənglər verir. Əyləncələr daha çox zurna-nağara dəstələrinin iştirakı ilə keçirilən oyun yığıncaqlardır. Anadolu qəsəbələrində hər bölgənin öz oyunlarının oynanmasına rəğmən, İstanbul, Ankara kimi şəhərlərdəki yığıncaqlarda ölkənin ayrı-ayrı ərazilərindən gəlmiş şəxslər də iştirak etdiyi üçün əyləncələr ayrı-ayrı qrupların, müxtəlif rəqs nömrələri ilə, bir növ, "xalq rəqsləri festivalı" görüntüsünü alır. Dövlət bayramlarında da bir çox yerlərdə rəsmi mərasimlərdən sonra "bayram yeri" kimi xarakterizə edə biləcəyimiz çəmənliklərdə güləş, qaçış və başqa növ yarışlar təşkil olunur. "Ciddi" yarışlarla bərabər, yumurta yarışı, kisə yarışı, uzunqulaq qaçırtma və s. kimi "gülməli" yarışlar da keçirilir.

Dövlət bayramlarının son illərdə qazandığı bir xüsusiyyət də siyasi partiyaların nağaralı-zurnalı nümayişlər, əyləncələr təşkil edərək, öz üzvlərinə və xalqa həmin günü sevinc içərisində keçirtmək fürsəti vermə, digər tərəfdən də rəqib partiyalarla, bir növ, "bacarıq yarışı"na girişmələridir. Biz 1970-ci ildə Ağhisarın qurtuluş bayramında iştirak etmək fürsəti əldə etdik. Gecə nümayişlərinin xüsusiyyətləri bunlar idi: Hər partiya mərkəzi qərargahının qabağına zurna-balaban dəstəsi gətirmişdi. Gecədən xeyli keçənə qədər eynən toylardakı adət-ənənələrə əməl edilərək cürbəcür zeybək tamaşaları

[97] Seymen: bayram günlərində, toylarda məhəlli geyimdə, atla, silahla iştirak edən igid – ***Tərcüməçi***
[98] Zeybək: Qərbi Anadoluda kənd igidi – ***Tərcüməçi***

göstərilirdi və aktyorlar nağaraçıya bəxşiş verərək, onları şövqə gətirməyi də unutmurdular.

Əvvəllər – İkinci Sultan Həmid səltənətinin sonuna qədər hər il Söyütdə Ərtoğrul Qazinin türbəsinin yanında keçirilən bir mərasim var idi. Yeri gəlmişkən, bu bayramı tək bir yerə məxsus dövlət bayramı qrupuna daxil etmək olar. Hər il 30 oktyabrda qeyd olunardı. Əli Rza Yalqının verdiyi məlumata görə (F.Yenisey. **Bursa folkloru**, s. 189-192), həmin gün Anadolunun dörd bir tərəfindən gələn bir neçə minlik atlı, piyada dəstələri, Qarakeçili yörükləri Əskişəhərdə yığışır, orada təşkil olunan qısa bir mərasimdən sonra Söyütə gedərdilər. Ərtoğrulun türbəsinin yanında böyük bir yarmarka qurulardı. 15-20 zurnanağaraçı dəstəsinin iştirakı ilə oyunlar, pəhləvanların güləşi kimi tamaşalar, cürbəcür əyləncələr dörd-beş gün davam edərdi.

## 75-ci sual: Mövsüm bayramlarının hansı növləri var?

Yuxarıda vurğuladığımız kimi dini bayramlar günəş təqviminə uyğun keçirilmədiyinə görə hər il eyni vaxta təsadüf etmir. Məsələn, əgər bu il ramazan bayramı yayın əvvəllinə təsadüf edibsə, 15 il sonra qışın orta aylarından birinə düşəcəkdir. Dövlət bayramlarının hansı tarixə düşəcəyini bayram edilən hadisənin ildönümü müəyyən edir, onlar hər il eyni gündə keçirilir və ilin fəsilləri ilə heç bir əlaqəsi yoxdur. Mövsüm bayramlarının isə hər birinin ənənəvi və səciyyəvi ritual xüsusiyyətləri hər yerdə eyni qalmaqla yanaşı, onların qeyd olunma vaxtları keçirildiyi yerlərin təbiət, iqlim, hava və ekoloji şərtlərindən asılı olaraq müxtəlifdir. Məsələn, “qoç qatımı”[99] bayramı qışın qısa keçdiyi, baharın tez gəldiyi ərazilərdə payızın əvvəllərində, baharın gec gəldiyi yerlərdə isə payızın sonlarında keçirilir. Buna baxmayaraq, bir sıra başqa mövsüm bayramları

[99] Qoç qatımı: qoyunların, keçilərin dölləndirilməsi – ***Tərcüməçi***

(Novruz, Xıdırəlləz...) hər yerdə eyni tarixdə olur. Deməli, bəzi bayramların vaxtını yerli istehsal şərtləri, bəzilərinkini isə daha ümumi "təqvim ənənəsi" müəyyənləşdirir. Beləcə, mövsüm bayramlarını "xüsusi mövsüm bayramları" və "ümumi mövsüm bayramları" olmaqla iki böyük qrup halında götürmək lazımdır.

Birinci qrupdakı bayramlara aşağıdakılar daxildir:

**A. Çoban bayramları silsiləsi:**

a) Qoç qatımı

b) Saya (davar üzü)

c) Döl

**B. Əkinçilik, meyvəçilik və bağçılıq bayramları**

**C. Köç bayramları**

İkinci qrupdakı bayramlara isə aşağıdakılar daxildir:

**A. Bahar bayramları:**

a) Novruz

b) Çiydəm

c) Bətnəm (kafir söyüşü və ya qırmızı yumurta)

d) Xıdırəlləz

**B. Yay gündönümü**

**C. Qışyarısı, yeni il**

**76-cı sual: Çoban bayramları silsiləsinin birinci həlqəsi olan "qoçqatımı"nın bayram hesab ediləcək tərəfi vardırmı?**

Qoç qatımının tarixi, yuxarıda qeyd etdiyimiz kimi, bölgədən-bölgəyə fərqlidir. Araşdırmaçıların verdiyi çox da dəqiq olmayan məlumatlara görə, bunu 1 oktyabrla 20 noyabr arası qəbul etmək olar. Qatışdırmaq vaxtından bir ay yarım, iki ay əvvəl qoçları sürüdən ayırırlar. Demək olar ki, hər yerdə təşkil olunan mərasimlər qoç qatışdırmanın ilk gününə bir bayram havası qatır. Həmin gün kənd əhalisi zurna-nağaralarla kənd

meydanına, ya da xırman yerinə yığışır. Çobanlar bəzənmiş, xınalanmış qoçları dişi qoyunların üstünə salırlar. Bu zaman bəzi yerlərdə mollalar toylarda olduğu kimi dualar oxuyurlar. Şarqışlanın ələvilər yaşayan Höyük kəndində Dədə[100] qatışdırma gülbəngi[101] kimi Pir Sultandan bir şeir oxuyarmış.

Bozqırın Meyrə kəndində təkələrin dişi keçi sürüsünün üstünə salındığı gün **təkəcik** adı ilə tanınır. Həmin günün gecəsi çobanlarla cavanların mərasimə məxsus mahnılar oxuyaraq ərzaq yığmaları, sonra da bunlardan hazırladıqları yeməkləri birlikdə yeyərək, əyləncələr təşkil etmələri təkəcik tamaşalarına daha sonra tədqiq edəcəyimiz **saya** (“qoyun üzü”) bayramının xüsusiyyətlərini əlavə edir.

Qoç qatışdırmanın əhatə etdiyi bir sıra adətlər, inanclar və magik əməllərin də xüsusi önəmi var. Qatışdırmadan əvvəl qoçların üstünə oğlan uşağı mindirsələr, döl vaxtı erkək quzunun, qız uşağı mindirsələr – dişi quzunun doğulacağına (Qars, Malatya, Toqat), qoçlar qatıma aparılanda yolda kişiyə rast gəlsələr, quzuların erkək, qadına rast gəlsələr – dişi doğulacağına, dişilərin içərisinə ilk qatılan qoç qara bir qoyun seçərsə, qızın – yumşaq, ağ qoyun seçərsə – şiddətli keçəcəyinə inanırlar (Qars). Toqatda isə əksinə, qara qoyunun sərt, ağ qoyunun isə yumşaq qışın xəbərçisi olduğuna dair inanc mövcuddur. Qoçun ala qoyun seçməsi isə qışın mülayim keçəcəyinin əlaməti hesab olunur. Qoç qatışdırmadan sonra çoban dəstəmaz almalı olduğu halda, təmizlənmədən sürünün içində gəzərsə, bu, doğulacaq quzuların şikəst olacağının əlaməti sayılır (Ayaş, Ankara). Həmin gün sürünün içində boş bir qabla (səhəng, dolça) gəzmək “quzulayacaq qoyunların südü az olar” deyə yaxşı əlamət hesab olunmur (Qars).

---

[100] Ələviləri toplumlarında dədə, təqribən, molla mənasındadır – ***Tərcüməçi***

[101] Gülbəngi: ələvilərdə dua – ***Tərcüməçi***

**77-ci sual: Saya bayramı necə keçirilir?**

Yerinə görə **saya, qoyun üzü, davar üzü** ifadələri ilə göstərilən bu bayram qoç qatımından düz yüz gün sonra qeyd olunur. Qoyunların hamiləlik müddəti 150 gündür. Qoç qatımından **yüz gün sonra** quzunun anasının qarnında canlandığına, tüklərinin çıxmağa başladığına inanırlar. Bax bu günə **davar üzü,** ya da **qoyun üzü** deyilməsinin səbəbi budur. Saya bayramı qoç qatımına nisbətən daha əyləncəli olur. Bunlar gecə təşkil olunur və aşağıdakı hissələrdən ibarət olur:

1) Çobanlar və onlara qoşulan uşaqlar, cavanlar cürbəcür, qəribə qiyafələr geyinir, qapı-qapı gəzir, **sayaçı sözləri** adlandırılan nəğmələr oxuyaraq, pay toplayırlar.

2) Bəzi yerlərdə bu gəzinti əsnasında sadə ssenarili bir xalq tamaşası da oynanır: tamaşanın iki önəmli personajı olan Ərəblə İxtiyar döyüşür, İxtiyar yalandan ölür və ağzına yeməli şeylər verdikən sonra dirilir.

3) Ev-ev gəzmək başa çatandan sonra sayaçılar toplanan ərzaqları birlikdə yeyir, gecədən keçənə qədər çalıb-çağırıb əylənirlər.

Saya bayramı Anadolunun bəzi yerlərində xristianların 18 yanvar tarixində qeyd etdikləri **Epiphanie** bayramına oxşayır. Yunan ortodokslarının həmin gün təşkil etdikləri "xaçı suya salma" mərasimləri saya adətlərinə uyğun şəkildə yozula bilir. Belə ki, davar üzünün qışın ortasına təsadüf edən yerlərdəki türk əhalisi də ortodoks yunanlar kimi həmin gündən etibarən soyuqların yavaş-yavaş azalacağı qənaətindədir və saya bayramı da sanki bu hadisəni qeyd etmək məqsədilə təşkil olunur. Bəzi yerlərdə **qış yarısı** mərasimləri qoyunçuluqla məşğul olanların qoç qatımı və onun kimi ənənələrlə sanki heç bir əlaqəsi yoxmuş təsiri bağışlayır. Hər halda, saya bayramının qış yarısına təsadüf etmədiyi yerlərdə iki adət biri-birindən ayrı düşmüş,

eyni tarixə düşdüyü yerlərdə isə bir-birinə qarışmışdır. Qoç qatımının 15-20 oktyabr tarixləri arasında həyata keçirildiyi Securdə (Bolu) noyabr ayının onunda heyvanların bağlı yerlərə – sayalara salındıqları gün **saya** adlanan əyləncələr göstərilir.

İranda kökü islamaqədərki ənənələrə qədər gedib-çıxan **sada (**pəhləvi dilində **sadağ)** adlı bir bayram vardır. Sözün mənası "100" deməkdir. Bu bayram qışın ortasında qeyd olunurdu və havaların həmin gündən sonra istiləşəcəyinə inanırdılar. İranlılarda bu, bir od bayramı idi və İran mifologiyasının obrazlarından olan Huşəngin bir əjdahanı öldürərkən çıxan qığılcımın sayəsində odun kəşf olunmasının bayram edilməsi kimi izah olunurdu. Bəzi rəvayətlərdə isə bayramın bu adı almasının səbəbi həmin gündən ilin sonuna 100 gün qalması və ya ilk insan olan Qayomardın 100 yaşına çatdığı günün, ya da yenə onun uşaqlarının sayının 100-ə çatdığı zaman onları (əlli qız, əlli oğlan) bir-birilə evləndirdiyi gecənin ildönümü olması, nəhayət, bir rəvayətə görə də, həmin gündən yeni ilə (novruza) 50 gün (50 gecə, 50 gündüz hesabı ilə 100) qalması ilə izah olunurdu.

Bütün bu danışılanlardan çıxarılacaq nəticə: saya bayramı, yəqin ki, adını İranda bizdəkindən başqa səbəblərlə qeyd olunan bir od bayramından almışdır. İranlıların **sada**ları da Anadolu və Azərbaycan türklərinin **saya**ları kimi, qışın ortasında soyuqların azalmağa başlamasını təmin etmək və ya bunun sevincini qeyd etmək üçün təşkil olunurdu. **Sada/sadağ**ın **saya** formasına düşməsinin izahı qədim türk dilində rast gəlinən **d/y** keçidi ilə mümkün olan fonetik faktdır. Bu bayramın adının türk dilinə keçməsi, hər halda, XI əsrdən əvvəl olmuşdur, çünki Mahmud Kaşğarlı **d** səsinin **y** səsinə çevrilməsinə oğuz dilinin bir xüsusiyyəti kimi işarə edir. Başqa bir tərəfdən, XVI əsrdə farsca-türkcə bir lüğətin tərtibçisi olan Sofiyalı Nemətullahın kitabında **sada gecəsinin (səb-i sada)** "kafirlərin xaçı suya salması gününə rast gəlir; soyuğun ən şiddətli olduğu zaman" kimi mənalan-

dırılması da həm **saya**nın mənşəyini, həm də Anadolu ənənəsinin İran və yunan ortodoks ənənələri ilə ortaq tərəflərini izah edir. İranlıların atəş bayramı Azərbaycan və Anadolu tərəkəmələrində bir çox əski simvollarını itirmədən döl bərəkəti adətləri ilə yeni bir formaya, başqa sözlə, "çoban bayramı"na çevrilmişdir[102].

---

[102] Qeyd edək ki, sayaçı mərasimləri, istisnasız olaraq, qoyunçuluq kultu ilə bağlıdır və mərasimin funksional strukturu, simvollar və atributlar sistemi döl-artım-bərəkət semantemlərindən təşkil olunur. Görkəmli Azərbaycan alimi, ömrünün böyük bir hissəsini Türkiyədə mühacirətdə olmuş Əhməd Cəfəroğlu (1899-1975) saya obrazı və sayaçı nəğmələri ilə bağlı 1930-cu ildən başlamaqla 1966-cı ilə qədər dörd məqalə çap etdirmişdir:
1. Caferoğlu A. Azerbaycan Halk Edebiyatında "Sayaçı" Türküsü // "Atsız" Dergisi, İstanbul: 1930, Sayı 9, s. 228-231;
2. Caferoğlu A. Azerbaycan Halk Edebiyatında "Sayaçı Sözleri" // Azerbaycan Yurt Bilgisi, Cilt 3, İstanbul: 1934, s. 41-45;
3. Caferoğlu A. Azerbaycan ve Anadolu Folklorunda Saklanan İki Şaman Tanrısı // Ankara Universitesi İlahiyet Fakültesi Dergisi, Cilt 1-4, Ankara: 1958, s. 65-75;
4. Caferoğlu A. Şaman Sayaçının Bir Duası // Reşit Rahmeti Arat İçin. Ankara: 1966, s. 155-161).
Alim, saya obrazını, haqlı olaraq, əski türk şamanist kultları ilə əlaqələndirərək yazır: "O, bilavasitə yüksək ruhlu, heyvan hamisi, sürünün hər cür qırğından, fəlakətdən qurtulması və uzaqda qalması üçün təqdis edən və nəhayət, sürünü yaman ruhlardan qorumağa çalışan bir ilahi, tanrı tipidir. Köçəbələr üçün tamamilə təbii olan bu qəbil ilahilərlə ən çox şamançı türk və monqol xalqlarında rastlaşa bilirik ki, bu qəbil ilahilərdən Altay türkləri və monqollar tərəfindən sayılanı və hörmət ediləni olan "Dzaya", yaxud "Dzayagacı" bizim "Saya", yaxud "Sayaçı"nın tamamilə özüdür" (3, səh. 74). Görkəmli dilçi-ensiklopedist Ə.Cəfəroğlu Dzaya-Saya sözünü əski mənbələr əsasında araşdıraraq, bu sözün türkmənşəli olması qənaətinə gəlmişdir: "Orta Asiya türk xalqlarının həyatında olduğu kimi, monqol yaşayışı zəminində də öz inkişaf çağını yaşamış və zamanla bir kult halına gələrək tanrılaşan "Sayaçı" filoloji və törəmə baxımından da monqollara məxsus deyildir. Belə ki, söz bu dildə "dzayağacı//dzaya-ğacı" şəklinə malik olub, türkcəyə "sayaçı//sayağuçı" tələffüzü ilə girmiş və... "ğ"-nı ataraq "sayaçı" şəklini almışdır. Bu şəkil və halı ilə türkcəmizə yerləşən söz öz ana anlamını heç vaxt itirməmiş, çağına görə bir inanc ünsürü olmuş, sərbəst yaşamış, zamanla yeni din və inancların təzyiqi altında olmuşdur" (3, səh. 75) – ***Tərcüməçi***

**78-ci sual: Qoyunların döl verməsi necə olur ki, bayrama çevrilir?**

Çobanlarla bağlı olan bayramlar zəncirinin bu halqasındakı adət və ənənələr haqqındakı məlumatlarımız başqalarına baxanda çox azdır.

Beş aylıq bir vaxtı əhatə edən çoban bayramların bu son hissəsi sayadan əlli gün sonra, qoyunlar quzulamağa başladığı günlərə təsadüf edir. Quzuların doğulması bəzi mərasimlərin keçirilməsinə səbəb olur və hadisə ilə əlaqədar bir sıra adətlər müşahidə olunur. Ancaq əldə olan məlumatlar bunlara bayram hesab edilməsinin nə dərəcədə düzgün olduğunu şübhə altına alır.

Azərbaycanda mərasim belə keçirilir: sayaçı (çoban) çalğı səsi altında nəğmələr oxuyur, musiqiçilər arada oyun havaları da çalırlar və sayaçı oynayır. Nəğmə və rəqslərə ara verildiyi zaman sayaçı qoyunçuluqla əlaqədar əhvalatlar danışaraq dinləyənləri əyləndirir. Mərasim açıq havada keçirilir, bütün kənd əhalisi çəmənlik bir yerdə toplanaraq ətli plov, qoyun içi çığırtması, qabırğa kababı... kimi həmin günə məxsus olan yeməklər yeyərək əylənirlər (**Azərbaycan folkloru antologiyası,** s. 247-248).

Türkiyəyə məxsus adətlər haqqında məlumatlar Malatya, Qars, Ərzincan bölgələrindən toplanmışdır. Buradan öyrənirik ki, bəzi yerlərdə quzular doğulduğu zaman çobanlar ev-ev gəzərək sürü sahiblərindən hədiyyələr yığırlar (Qars tərəkəmələri), doğulan ilk quzuları kəndə aparan çobana bəxşişlər verirlər (Qars, Ərzincan); Malatyada isə döl vaxtı yaxınlaşanda çoban sürünü kəndə yaxın bir yerdə otarır, quzuların doğulması xəbərini sürü sahiblərinə bir müjdəçi ilə göndərir, qoyun sahibləri də çobana fındıq-fıstıq, çərəz kimi cürbəcür yeməli şeylər (**dölcək**) aparırlar. Quzular çoxalaraq, **dölcək** yığılan kimi çoban axşamüstü kəndə gedir, uşaqlara yeməli şeylərdən paylayır.

Döl vaxtı ilə əlaqədar bəzi inanclar və qadağalar da var. Həmin gün evdən qonşulara duz və od vermək yaxşı əlamət deyil (Qars). Dölə iki ay qalmış qonşulara xəmir mayası, duz, od, yun darağı vermək uğur gətirməz, yoxsa, heyvanlara zərər gələr. Bu qadağa bütün quzular anadan olana qədər davam edir (Malatya).

Döl mərasimləri silsiləsinin davamı hesab edilən bir adət isə "quzu qatışdırma bayramı" adı ilə Divrikin Camşıqlı kəndindəki ələvilər arasında yaşamaqdadır. Bu kənddə qoyunlar quzuladıqdan iki ay sonra (yəni mayın 22-nə tərəf) quzular ot yeməyə başlayan kimi ayrı çobanın öhdəsinə verilir. Həmin gün uşaqlar və gənclər əyləncələr təşkil edirlər. Həmin kənddən olan Aşıq Feyzullah Çinarın verdiyi məlumatlara görə, xıdırəlləz Camşıqlı ələvilərində ayrıca bir bayram kimi qeyd olunmurmuş. Belə ki, orada xıdırəlləzlə həmin bu "quzu qatma bayramı"nın bir-birilə qaynayıb-qarışması ağıla gələ bilir. Xıdırəlləzin quzuların yeyilməli yaşa çatması vaxtı ilə üst-üstə düşdüyü bir çox yerlərdə həmin gün quzu kəsib yemək adətinin olduğunu da qeyd etmək istərdik.

### 79-cu sual: İstehsal işləri və mövsümləri ilə bağlı bayramlar hansılardır?

Yerin cütlə sürülməsi, tarlaya toxum səpilməsi, əkinin biçilməsi, xırmanın yerdən götürülməsi kimi işlər zamanı əkinçilərin təşkil etdiyi bəzi kiçik mərasimlər və əməl etdikləri adətlər vardır, lakin onlar bayram adlandırıla bilmək üçün lazım olan elementlərdən məhrumdur. Bu mərasim və adətlər, bəlkə də, lap qədim bayramların son izləridir, ancaq bu barədə qəti bir fikir söyləyə bilmirik. Bununla yanaşı, bağ-bağat, bostan işləri ilə məşğul olan bölgələrdəki bəzi mərasimlərlə, yaylaq-qışlaq ənənəsi ilə yaşayan insanların bəzi mərasim və əyləncələrində bayram xüsusiyyətləri vardır, hətta bunlardan

bir qisminin birbaşa "bayram" adlandırılmasına bu gün də rast gəlirik. Məsələn, İzmirə tabe Kəmalpaşanın gilas bayramı, Girəsunun fındıq bayramı, Mutun ərik bayramı bunlara nümunə ola bilər. Bu mərasimlərin bayrama çevrilməsi boşalmağa doğru gedən xalq adət-ənənələrini yenidən gücləndirmək, bir zamanlar qeyd olunduğu halda, uzun müddətdir unudulan köhnə bayramları yeni şərtlər altında və yeni məqsədlərlə canlandırmaq səylərinin nəticəsidir. Anadolunun, xüsusilə antik dövrlərdən qalan abidələr baxımından nəzər-diqqəti cəlb edən yerlərində son vaxtlar daxili və xarici turizmi canlandırmaq məqsədilə təşkil olunan "kərməs"lər[103] də müasir dövrün iqtisadi şərtlərinin, yeni bir "istehsal" üsulu və gəlir qaynağı olan "turizm sənayesi"nin yaratdığı bayramlardır. Bunların formalaşma baxımından köhnə bayramlara heç bir dəxli olmadığı halda, proqramları daxilində ənənə hadisəsi olan bayramlara məxsus bütün mərasimlər yer aldığına görə xalq bayramlarının tədqiq olunmasında diqqətdən kənarda qalmaması lazımdır.

Meyvə bayramları ilə bağlı maraqlı bir nümunə haqqında bəzi məlumatları 1967-ci ilin yayında Sidədə əldə etdik. Orada bizə deyildiyi kimi, Sidənin yaxınlığındakı Dəyirman-Özü/Beş-Qonaq kəndində Çingənə deyilən, amma türk dilində danışan bir azsaylı xalq yaşayır. Onlarda nara xüsusi əhəmiyyət verirlər. Narlar yetişib sulanmağa başlayanda "nar bayramı" keçirirlər. Onlara görə, vaxtı çatmamış nar dərmək böyük günah hesab olunur və qadağandır. Bu məlumatları verənlər "sidə" sözünün də mənasının "nar" olduğunu bilirlər.

Şimal-şərqi Anadolu ərazilərində təşkil olunması ilə əlaqədar ətraflı məlumatlar əldə etdiyimiz bəzi mövsüm mərasimləri də yerli əhali tərəfindən "bayram" hesab olunmasa da, on-

---

[103] Kərməs: əl ilə hazırlanmış cürbəcür yemək-içmək şeylərinin, geyim və bəzək əşyalarının dəyərindən bir qədər baha satıldığı kiçik "bazar" – ***Tərcüməçi***

ları da haqqında danışdığımız bayram qrupuna daxil edə bilərik: Şavşat kəndlərində beş gün davam edən "çuğundur əyləncləri" ("Türk Folklor Araştırmaları" jurnalı, 253-cü nömrə, 1970, Cəlal Qaradaşın məqaləsi); Poshof kəndlərində üç-dörd gün davam edən "seyran şənlikləri" (Güləli Aydınoğlu, eyniadlı jurnal, 265-ci nömrə, 1971); Girəsunun ilçəsi Tirəbolunun Çəpni kəndlərində üçgünlük "ot köçü" (Alparslan, "Halk Bilgisi Haberleri", VIII, 1939, s. 256-257). Bu mərasimlərin ortaq xüsusiyyəti kənd əhalisinin bir qisminin heyvanlarla bərabər yazın əvvəlində yaylağa çıxmasından bir ay yarım, iki ay sonra, yəni kənddəki tarlaya dair işlərin sona çatıb, əkinlərin, ya da otların biçilmə vaxtı ilə üst-üstə düşməsi, təzə bir işə girişməmişdən əvvəl kənddə qalanların bir neçə günlüyə yaylaqdakılara qoşularaq şənlik günlərini bir yerdə keçirmələri, sonra da əkini yığmağa, ya da ot biçməyə təkrar kəndə qayıtmalarıdır. Ərzurumun kəndlərində mərasim yenə iyunun sonu, iyulun əvvəlində ot biçinindən əvvəl həyata keçirilməklə yanaşı, daha qısa (yalnız bir gün) davam edir, gediləcək yerlərin də məhz yaylaq olması şərt deyil, əyləncələrin təşkil olunduğu yer hər hansı bir pirin yanı, ya da bulaq başı ola bilər. Hamısında ortaq olan başqa bir cəhət də bu günlərdə cürbəcür əyləncələr, davul, zurna, ya da başqa çalğı alətlərinin iştirakı ilə cürbəcür rəqslər, müxtəlif çöl oyunları, cıdır, nişan alma, qaçış kimi yarışların keçirilməsi, birlikdə yemək yeyilməsi kimi mərasimlərin bu yığıncaqlara tam bir "bayramsayağı" görünüş verməsidir. Cənub yörükləri də qışlaqlarını tərk edərək, toplu halda sürüləri ilə birlikdə yaylağa çıxarkən bayramaoxşar mərasimlər təşkil edirlər: ikinci düşərgə yerində pirləri ziyarət, birlikdə yemək yemək, sonuncu düşərgədə, yəni sürülərin əsl otlaq yerinə çatanda isə nişanalma, güləş yarışları təşkil etmə, "cınqıldaq" [104] quraraq əylənmə

[104] Salxımabənzər bəzəklər – ***Tərcüməçi***

(Jean-Paul Roux, **Les traditions des nomades de la Turquie meridionale,** Paris, 1970-ci il, s. 59-61, 247).

**80-cı sual: Bahar bayramları hansılardır və necə təsnif olunur?**

Artıq bu sualdan sonra biz mövsüm bayramlarına keçirik və bu mövzunun işlənməsinə "bahar bayramları" ilə başlayırıq.

Yazda keçirilən bayramların ən önəmlisi "novruz"dur. Anadolu şivəsində **navruz, navrız** formalarında da işlədilən bu sözün mənası "yeni gün"dür. Yaz fəslinə keçilən zaman gündüzlərlə gecələrin bərabər olduğu vaxta düşən günlərdə (adətən, 22 martda, yəni köhnə təqvimlə martın doqquzunda; bəzi yerlərdə isə 20-21 martda) qeyd olunur. Novruz bugün də İranlıların milli bayramıdır. İran mədəniyyəti ilə sıx bağlılığı olan türklər də bu bayramı mənimsəyiblər, xüsusilə Anadoluda yaşayan ələvi-qızılbaş topluluqları bu bayrama xüsusi əhəmiyyət verirlər. Taxtaçılar Novruz günü çəmənliklərdə əyləncələr təşkil edirlər: bir yerdə yemək yeyir, səma mərasimini icra edirlər. Onlardan bəzi yaşlı insanların inanclarına görə, Novruz günü Həzrət Əlinin (ə.) anadan olan gün imiş. Həmin gün uşaqların yumurta yemələri, çərpələng uçurtmağı ənənələrə aid işlərdir. Həmin gün üçün çörəklər hazırlayır, qəbristanlığa ölüləri ziyarətə gedir və bu çörəkləri orada yeyirlər. Novruzun həm yaz şənliyi, həm də ölüləri anma mərasimi olmaq xüsusiyyəti Qarsın Tuzluca mahalındakı Pırsaq kəndində də müşahidə olunur. Orada yaşayan əhalinin inancına görə, Novruz Həzrət Əlinin (ə.) xəlifə olduğu günün ildönümü hesab olunur. Burada bayram dörd mərhələdə təşkil olunan mərasimlərdən ibarətdir:

a) Novruzdan əvvəl bir çərşənbə gecəsi damlarda ocaqlar yandırılır. Bu, Həzrət Əlinin müharibəyə yola düşməsini xalqa xəbər verilməsini anma mərasimidir.

b) Ertəsi gün – cümə axşamı gününün axşamı "ölü bayramı" adlandırılır. Həmin gecə dualar, mövludlar oxuyur, yoxsullara, uşaqlara halva, ləbləbi paylayır, yerdə qalanlarını isə qəbirlərin üstünə tökürlər.

c) Novruzdan bir gün əvvəlki gün isə "əhya saxlama" adlandırılır. Həmin gün İmam Hüseyinin (ə.) ölümü ilə əlaqədar oruc tutulur, ağı mərasimi keçirilir.

d) 21 mart Novruz günü isə əyləncələr, birgə yeyilən yeməklərlə şənlik ab-havası içərisində qeyd olunur (Gülali Aydınoğlu, "Türk Folklor Araştırmaları", 238-ci nömrə, 1969).

Manisada məşhur olan "məsir bayramı"[105] da Novruz günü qeyd olunur. Bunun Sultan Süleyman Qanuninin tikdirdiyi xəstəxananın idarəçiliyini öz boynuna götürmüş Mərkəz Əfəndinin vaxtından qaldığını söyləyirlər. Novruz günü cürbəcür otlardan və çiçəklərdən alınan müxtəlif maddələrdən hazırlanmış və kağızlara bükülmüş kiçik məcun bükülülərinin minarədən atılması və aşağıda yığışan əhali arasında şəfalı hesab etdikləri bu məcunları tutmaq üçün qaphaqap düşməsi mərasimin ən önəmli hissəsi hesab olunur. Manisalılar bu bayramı, rəvayətə görə, ta XVI əsrdən bu yana qeyd edirmişlər. Cümhuriyyət dönəmində mərasim iyirmi beş il müddətində keçirilməmiş, 1955-ci ildən etibarən yenidən bərpa edilmişdir.

Novruzu və onunla əlaqəsi olan "məsir bayramı" kimi mərasimləri, sadəcə, İran mədəniyyətinin təsiri ilə formalaşıb inkişaf etmiş bayramlar hesab etmək, bəlkə də, həqiqətə tam uyğun gəlmir. Yazın əvvəlində təbiətin yenidən dirilməsi ilə hər bir topluluqda sevinc göstərilərinin və müxtəlif mərasimlərin əmələ gəlməsi təbiidir. Belə ki, Anadolu xalq ənənəsində "Novruz" adı daşımayan başqa yaz bayramları da vardır. Bunlardan "çiydəm plovu", ya da "çiydəm bacası", bəzi başqa qədim mə-

---

[105] "Məsirə" ərəb sözü olub, "gəzinti" mənasındadır – ***Tərcüməçi***

rasimlərdə də müşahidə etdiyimiz kimi, çoxçeşidli detalları ilə yaşlıların, kişilərin adətləri olmaqdan çıxsa da, uşaqların, qadınların, gənc qızların, yəni adət-ənənələri daha uzun müddət qoruyan mühitlərin mədəni məkanına sığınmış mərasimlərdən biridir. "Çiydəm" mərasimi uşaqların oyuna çevrilmiş bayramı hesab oluna bilər. Onun günü dəqiq məlum deyil: çiydəm gülünün[106] açıldığı vaxtda qeyd olunur. Kənd uşaqları, qəsəbələrdə də hər məhəllənin uşaqları qrup-qrup çəmənliklərdə torpağı qazaraq, soğançaları ilə birlikdə çiydəm gülünü yığırlar. Bunlardan düzəltdikləri buketlərlə nəğmələr oxuyaraq qapı-qapı gəzir, evlərdən bulgur, yağ və s. ərzaqlar yığır, aldıqlarının müqabilində də çiydəm verirlər. Yenə də qrup halında çəmənliyə gedir, orada bişirdikləri plovu gülə-gülə, oynaya-oynaya yeyirlər. Bu uşaq bayramının bəzi yerlərdə "çiydəm bacası" (ya da "baca plovu") deyə adlandırılmasının səbəbi birgə yeyilən bu plovun evlərin damlarında ("baca"larda) yeyilməsidir. Fikrət Türkmən ("Türk Folklor Araştırmaları", 252-ci nömrə, 1969) Boğazlayanın Abdili kəndində bu bayramın artıq qeyd olunmadığını və məlumatları yaşlı insanların xatirələrindən əldə etdiyini deyir. Müəllif uşaqların həmin gün çəmənliklərdən yığdıqları çiçəklər haqqında həmin kənddə olan bəzi inanclar haqqında da məlumat vermişdir. Çiydəmdən başqa, **gözənək** və **yetim-oğlan** da soğançalı güllərdir. Yetim-oğlan gülünün ya özündən, ya da soğanından yeyən adamın keçəl olacağına, gözünə it dirsəyi çıxacağına inanırmışlar. Çiydəm gülünün isə soğanı yeməlidir. Qoca qarılar bu gül haqqında "Peyğəmbərimizin göz yaşından bitmişdir" deyir, ona hörmət edir, əllərinə götürdükləri zaman üç dəfə öpürlər.

Yenə yazın əvvəlində olan bayramlardan Siyirt kəndlərində keçirilən **"çıx-gör"** baharı qarşılama şənliyi kimi 4

---

[106] Çiydəm: novruzgülünə bənzər, sarı rəngli, qar əridikdən sonra açan birinci çiçək – ***Tərcüməçi***

martda qeyd olunur. Həmin gün gəzinti yerlərində əyləncələr təşkil olunur, gecə damlarda od yandırırlar.

Bahar bayramları zəncirinin bir həlqəsi də xristianların Pasxa yortularına[107] təsadüf edən **bazar günü** mərasimləridir. Bu günə Bolu ərazisində (Mudurnuda) **betnem** deyirlər, sözün **betlem** forması da vardır. İfadənin haradan gəldiyi bilinmir. Kelt əsilli tayfalarda **beltane** deyilən bir bahar bayramı var idi. Ankara ərazisində bir vaxtlar qalat tayfalarının yerləşdiyini nəzərə alsaq, ora uşaqların qeyd etdiyi **betlem** şənliklərinin bu qədim kelt bayramının bir qalığı olmasını düşünə bilərikmi? Yoxsa, bayramın başqa yerlərdə "həsir söyüşü", "gavur söyüşü" deyə adlandırılmasını, pasxa günü qeyd olunmasını da nəzərə alaraq, türk-müsəlman uşaqlarının mühitinə xristianlardan keçmiş ola biləcəyini qəbul etməli? Mudurnudan topladığımız bir rəvayətə görə, bir dəfə xristianlar pasxa gününün hesablama üsulunu yadlarından çıxarmış və bunu onlara təkrarən, bir rəvayətə görə, müsəlman uşaqları, başqa bir rəvayətə görə isə Fatihin müasiri, məşhur din adamı Çibali öyrətmişdir. Bu hekayə bayramın o vaxtdan bəri müsəlmanlarla xristianlarda ortaq olması və deməli, bu iki dinə daha qədimlərdən miras qalmış bir ənənə olması fikrini də yarada bilir.

Bu mərasimin "həsir söyüşü" deyə adlandırılmasının səbəbi həmin gün uşaqların gənc qızlar və qadınların da iştirakı ilə köhnəlmiş həsirləri yandıraraq üstündən hoppanmalarıdır. Köhnə həsirləri yandırmaq, başqa bahar ənənələrində də gördüyümüz kimi, "yeni ilin gəlməsi ilə evlərin köhnə şeylərdən təmizlənməsi, yenilənməsi" adətinin bir elementi olmalıdır. Bayramın əsas xüsusiyyəti odun üstündən tullanmaqla bədənin ağrı-acıdan və hər cür pis təsirdən qorunacağına inanılmasıdır. Bu tonqal, yuxarıda da dediyimiz kimi, bəzi yerlərdə köhnə həsir-

---

[107] Yortu: gəzinti – ***Tərcüməçi***

lərlə yandırılır. Mudurnuda isə tonqal (bundan əlli il əvvəl müşahidə etdiyimizə əsasən) ardıc ağacının budaqları ilə yandırılırdı. Ardıcın betlem günündən qabaq dağlardan kəsilərək gətirilməsi də bəzi ənənələrin tərkib hissəsidir. Budaqların kəsilərək gətirilməsi zamanı və daha sonra da ayrı-ayrı məhəllələrin uşaqları arasında dava-dalaş olur: hər məhəllənin komandası o biri məhəllənin yığdığı ardıc budaqlarını yağmalamaq həvəsinə düşərdi. Betlemin səhəri günü tezdən oyanan uşaqlar söyüd ağacından düzəltdikləri fışqırıqlarla qapı-qapı gəzərək, yoldaşlarını yuxudan oyadardılar. Məhəllənin hündür bir yerində topalanan ardıc budaqlarına od vurulurdu. Odun üstündən uşaqlar, gənc qızlar, bəzən də qadınlar bu nəğməni deyərək hoppanırdılar:

Hacət dənəsi,
Qızlar sırğası!
Bre canım, dost, dost!
Arım, acım kafirə,
Kafiri Allah devirə!
Bre canım, dost, dost!

Alovların tüstülü olmasının bərəkətli yaz yağışlarının olmasını təmin edəcəyinə inanır və buna görə arada oda su çilənirdi. Bu bayramın ikinci bir tərəfi də həmin gün uşaqların əvvəlcədən hazırladıqları bişmiş qırmızı yumurtaları toqquşdurması idi. Bu, yumurtası möhkəm olan uşağın qırdığı yumurtaları qazanması şəklində oynanılan bir oyun idi. Bu bayramın “küfr”adı ilə adlandırılmasının qədim bir faktını XVI əsrdən qalma Osmanlı arxiv materialından əldə edirik: bu, 23 zilqədə 979-cu il (17 aprel 1572-ci il) tarixli bir “hökm”dür.

Bahar bayramlarının içərisində həm məşhur olması, həm də ona daxil olan adət-ənənələrin, şənliklərin zənginliyi baxımından ən diqqətə layiq olanı **“xıdırəlləz”**dir. Bu kəlmə müsəlman inancının əfsanəvi iki varlığı Xızır və İlyasın adlarının xalqın ağzında düşdüyü formasıdır. Ərəbcə yaşıllıq mənasını

verən **"hadr"** ərəblərin islamdan əvvəlki mifologiyasında təbiətin yaz fəslində yenidən canlanmasını simvolizə edən ilahi varlıq hesab edilir. İslam ənənələri bu əfsanəvi varlığı "nəbi" (peyğəmbər) deyə səciyyələndirir. "Quran"da onun Musaya yol göstərməsi əhvalatı nəql edilir. Xalq inancına görə, Xızır vaxtaşırı dünyanı dolaşır, gəzdiyi yerlərdə quru otları yaşıllaşdırır, toxunduğu adamın əlində yaşıl iz qoyurmuş. Xalq inanclarında onun bərəkət, uğur gətirməsi, darda qalanlara yardım etməsi, ona rast gələnlərin kömək edənin Xızır olmasını sonradan başa düşüb, gördükləri vaxt öz arzularını söyləyə bilməmələrinə heyfslənmələri haqqında rəvayətlər danışılır.

Xalq ənənəsində İlyas haqqında məlumatlar daha azdır. Bir inanca görə, Xızır və İlyas iki qardaş imiş. Başqa bir inanca görə isə, onlar: Xızır oğlan, Əlləz qız olmaqla iki sevgili imişlər. Bir-birinə uzun müddət həsrət qalmış, Xıdırəlləz gecəsi görüşmüş və bu qovuşmanın sevinci içərisində can vermişlər (Əli İmər. **"Halkalıda Hıdırellez"**, "Türk Folklor Araştırmaları", 96-cı nömrə, 1957). Bir çox bölgələrin inancında Xıdırəlləz gecəsi bir Xızır ilə İlyasın dünyada görüşdükləri gecə kimi qəbul edilir.

Daha çox qadınların və gənc qızların bayramı kimi xarakterizə edilməsi lazım olan Xıdırəlləz mərasimlərini ümumən üç hissə halında xülasə edə bilərik:

1) Mayın 5-də, xıdırəlləz gecəsi, həyata keçməsi arzulanan diləklər üçün, bərəkətin, sağlamlığın olması üçün bir neçə iş görülür. Bunların bir çoxu haqqında əvvəldə inancları və magik əməlləri araşdırarkən yeri gəldikcə danışdıq.

2) Sabahı gün də bu arzu və niyyət əməlləri davam etdirilir. Amma həmin gün mərasimlər əyləncəli və bayram havasında keçir: qadınlar və gənc qızlar "mantıvar çömləyi"ni[108]

---

[108] Çömlək: yemək bişirmək üçün qab, qazan – ***Tərcüməçi***

("niyyət çömləyi"ni) açırlar. Bu çömlək gecədən hazırlanmışdır; içinə su doldurulmuş, suyun içərisinə də niyyətdə iştirak edəcək hər şəxs öz balaca bir əşyasını (üzük, bilərzik və s.) salıb. Ağzı bir qıfılla bağlanmış çömlək bütün gecəni bir qızılgül fidanının altında saxlanılmışdır. Çömlək, adətə uyğun olaraq, bir gənc qızın başının üstündə açıldıqdan sonra kiçik bir qız uşağı bir-bir onun içərisindəki əşyaları çıxardır. Onlardan hər biri çıxarılmamışdan əvvəl söylənən mani/bayatı çıxan əşyanın sahibi üçün yozulur və bu yozumlar mərasimdə iştirak edənlərin gülüb-əylənmələrinə səbəb olur.

3. Xıdırəlləz günü qohum-əqraba, qonum-qonşu çəmənliklərdə kütləvi şəkildə həmin günə məxsus yeməklər bişirərək şənliklər təşkil etməklə keçirir. Əyləncələrin başında gənc qızların ağaclardan yelləncək asaraq yellənmələri gəlir. Xıdırəlləz haqqında toplanan məlumatların əksəriyyətində yelləncəyin həmin günə məxsus əyləncə olması üzərində daha çox dayanmışlar. Türkiyənin bir neçə yerindən nümunə olaraq verə biləcəyimiz tamaşa və adətləri sadalayaraq bayramın bu hissəsi ilə əlaqədar məlumatlarımızı yekunlaşdıraq.

Marmarisdə "niyyət çömləyinin açılmasından sonra keçirilən adət və mərasimlər bunlardır: çömləyui kilidləmək üçün lazım olan qıfıl axar suya atılır. Sonra da Əlik qayasına çıxır, orada birgə şəkildə nahar edirlər. Yeməkdə "s" hərfi ilə başlayan şeylərdən yeyib-içmək lazımdır (süd, simit və s.). Əlikdən qayıdanda gənc qızlar yolüstü onun-bunun bağ-bağçasından gül oğurlayaraq (bu, məhz həmin gün üçün ayıb hesab edilmir), saçlarına gül düzürlər. Günorta yeməyi və axşama qədər çəkəcək əyləncələr üçün bir gəzinti yeri seçilir. Marmarislilərin çoxu Köyceğiz yolunun üstündə, dəniz sahilində yerləşən Gönlücəkə gedirlər. Marmaris kəndlərindən olan Hisarönüdə qadınlar həmin gün kəndin yaxınlığındakı dərədə çimirlər. Gənc qızlar məktəbin bağında torpağın üstün-

də yumbalanır, ailə quranda çoxlu uşaq sahibi olmaq niyyətilə məktəbin arxasından axan dərədən çınqıl daşları yığırlar.

Bir çox yerlərdə yemək və əylənmək üçün gedilən yerlər pirlərin ətrafı olur. Nallıxanlılar qəsəbələrinin yaxınlığındakı Xoşəbə pirinə üz tuturlar (H.Tanyu. **Ankara və Çevresinde Adak və Adak Yerleri**, Ankara, 1967, s. 140-141). Adından göründüyü kimi, bu övliya qadın olmaqla yanaşı, həm də hər şeyi xoş qarşılayan bir adam imiş. Bunu Xıdırəlləz günü ora yeyib-içib əylənməyə gedənlərin Xoşəbənin qəbrinin üzərinə içki tökmələri ənənəsi də göstərir. Bu adət Xıdırəlləz günü quzu kəsmək adətinə yeni bir məna qazandırır: Adətlər, bəlkə də çox qədim zamanlarda, bu bayram günün ithaf olunduğu ilahi varlıqlara, onların məqbərələrinə təqdim olunanların daha uzaq xatırlatmalarıdır.

Xalqalıda Xıdırəlləz mərasimlərinin hissələri arasında 5 may gecəsində niyyət çömləyinin hazırlanmasından sonra köhnə həsirlərdən ocaq qalayaraq üstündən hoppanma adəti də vardır (Əli İmər, "Türk Folklor Araştırmaları", 96-cı nömrə, 1957). Bu müxtəliflik ölkəmizdə pasxa/qırmızı yumurta vaxtı keçirilən bir mərasimi mayın əvvəlinə gətirməklə xıdırəlləz bayramına, onu keltlərin **beltane** bayramına yaxınlaşdıran bir element kimi əlavə olunur.

Qırxlarelinin Qofçaz mahalına tabe Yuxarı Qanara kəndində isə (Ətəm Ütük, "Türk Folklor Araştırmaları", 267-ci nömrə, 1971) ələvilərin keçirdiyi Xıdırəlləz nisbətən daha uzun davam edən mərasimlər zənciri şəklində icra olunur. Xıdırəlləzə bir ay qalmışdan hər ikinci gün niyyət çömləkləri ilə mani/bayatılar oxuyaraq niyyət tutulur. Yeddinci dəfə qeyd olunan çərşənbə axşamına "nəzəri" adı deyilir. Həmin gün qurban kəsilir: kişilər bir tərəfdə, qadınlar isə başqa bir tərəfdə bir yerdə yemək yeyirlər. Uşaqlar səhər tezdən çöllərdən qırdıqları söyüd budaqları və çiçəklərlə bəzənirlər. Sonra "nə-

zəri türküləri" oxuya-oxuya evləri gəzirlər. Qadınlar onların üstünə səhənglərlə su səpir, ərzaq və pul verirlər. Uşaqlar yığdıqları ilə yemək hazırlayıb, Qızan Dədə pirinin baş tərəfindəki böyük meşənin ətəyində yeyib-içib şənlənirlər. Kəndə qayıtdıqları zaman dərə boyunca bir-birini isladır, çiçək və budaqlardan hazırladıqları çələnglərini dərədə basdırırlar. Bu mərasimlərin təşkil olunmasında həm də yağış və bərəkəti bol etmək məqsədi güdülür. Yuxarıda qeyd etdiklərimizdən də aydın görünür ki, Xıdırəlləz "çiydəm bayramı" ilə yağış yağdırmaq üçün təşkil olunan mərasimləri də özünə qatan bir "mərasimlər boğça"sına çevrilmişdir.

**81-ci sual: İlin yay bayramları və payız bayramları adlandırıla biləcək günləri varmı?**

Xristian cəmiyyətlərinin xalq bayramları içərisində "yaz gündönümü" əhəmiyyətli yer turur. Bizim Anadolu uşaqlarının "həsir küfrü" və ya "betlem" adı altında pasxa günü keçirdikləri mərasimlər Kelt əsilli tayfaların mayın əvvəlində tonqal qalayıb üstündən hoppanmaqla qeyd etdikləri mərasimlər sayağı bir çox xristian ölkələrində, demək olar ki, 22 iyun yay gündönümünə yaxın "Saint-Jean" yortusu (gəzintisi) kimi qeyd edilir. Anadolu xalq ənənələrində yay gündönümündə bayram xarakterli bir mərasim olduğuna dair iki yerdən məlumat ala bilmişik.

Sənirkənddə 27 iyun 1930-cu ildə "gündönümü" adı ilə xatırlanan bir bayram qeyd olunmuşdur ("Halkbilgisi haberleri", I, 1930, s. 163-164). Həmin günün ən vacib mərasimləri ətraf kəndlərdən gəlmiş cavanlar arasında güləş yarışı imiş. Güləşdən əvvəl at yarışlarından başqa, kisə yarışı, yumurta yarışı, tərsinə minilmiş uzunqulaqlarla yarışmaq kimi gülməli yarışlar da təşkil olunurmuş. 1930-cu ildə bu bayramda ilk dəfə futbol yarışı da keçirilmişdir (Müəllifin dediyinə görə, bay-

ram həmin ilə qədər hər il qeyd olunurmuş. 1930-cu ildən sonra isə bu ənənənin davam edib-etmədiyini bilmirik.). Güləşlərdə qalib gələnlərə verilən mükafatları bir dəstə dəliqanlı cavan dükan işlədənlərdən bəxşiş kimi yığırmışlar: parça, ayaqqabı, oraq və s. Bayram yeri bir yarmarkaya çevrilir, çadırlar qurulur, müxtəlif satıcılar öz mallarını sərgiləyir, meydandakı bir dirəyin başına bayraq taxılırmış.

Aşağıda (83-cü sual) qısa şəkildə haqqında danışacağımız kənd bayramları qrupuna da daxil edilə biləcək bir "yay gündönümü bayramı" ilə əlaqədar bəzi məlumat qırıntılarını isə 1967-ci ildə Sebendə (Bolu) topladıq. Bu bölgədə "yay gündönümünə yaxın, əvvəlcədən qərarlaşdırılmış bir gündə" (hər kəndin əhalisi ayrı bir gündə) öz aralarında şərikinə quzular kəsir, bulqurdan, düyüdən plovlar hazırlayırlar. Başqa yaxın kəndlərdən dəvət olunmuş qonaqlarla birlikdə yemək yeyib şənlənirlər. Xalq arasında həmin gün bişirilən plovların – düyünün, bulqurun arıtlanmadan[109] bişirildiyi halda, heç kimin şikayət eləmədən çox ləzzətli hesab edə-edə yeyəcəyi inancı da geniş yayılmışdır.

İstehsalat ilə əlaqədar ənənələrdən (qoçqatma, bağpozma mərasimləri...) başqa, öz adını sadəcə "mövsüm"dən almış və "payız bayramı" deyə xarakterizə edə biləcəyimiz bir bayram tapa bilmirik. Ənənəvi olaraq payızda keçirilən toyların isə "bayramsayağı tərəfləri" barədə yuxarıda kifayət qədər məlumat verdik.

### 82-ci sual: Qış bayramları hansılardır?

Anadolunun bəzi yerlərində sayaçı bayramının qışın ən şiddətli vaxtına təsadüf etməsi, həmin gündən sonra havaların istiləşməyə başlayacağı inancının yaşaması, mərasimlərin həm

---

[109] Düyünün, bulqurun içində qalan qabıqdan, çinədən təmizlənmədən – ***Tərcüməçi***

mövsümün gedişinə təsir etmək məqsədilə, həm də qışın yaya tərəf istiqamət götürməsindən doğan sevinci ifadə etmə düşüncəsilə təşkil olunması haqqında yuxarıda danışdıq və bu baxımdan sayaçı və ya qoyun-üzü bayramlarında çobanlığa dair xüsusiyyətlərlə yanaşı, mövsümi xarakterli cəhətin də ola biləcəyini vurğuladıq (77-ci sual). Yenə eyni sualda mərasimləri tədqiq edərkən Anadolunun bəzi yerlərində qoçqatma/saya/döl zəncirinə dəxli olmadan “qış yarısı” adı ilə mərasimlər təşkil olunduğuna da işarə etdik. Bunlar bütün detalları ilə sayaçı mərasimlərinə bənzəyirlər. Elə hesab edirik ki, “qış yarısı” bayramını çobanlığa dair xüsusiyyətlərini itirmiş saya-qoyun üzü mərasimləri hesab etmək mümkün olduğu kimi, eyni zamanda, saya-qoyun üzü mərasimlərini də çobanlıq adət-ənənələrilə zənginləşmiş qış yarısı şənlikləri hesab etmək yanlış fikir olmaz.

Qış yarısı Divrikin Camşıqlı kəndində, bizə həmin yerdən olan Feyzullah Çinarın verdiyi məlumatlara görə, qışın tam ortası olan zəmhəridə (15 yanvarda) bayram edilir. Bu bayram ilə əlaqədar daha ətraflı bir tədqiqat işi aparan Əli Rza Yalçın (“Camşıklı bölgesinde kış-yarısı”, “Türk Folklor Araştırmaları”, 212-ci nömrə, 1967) onun keçirilmə tarixini “qışın, doxsan gün hesabı ilə qırx beşinci günü çatdığı zaman” deyə göstərir. Tamaşalar və əyləncələr yuxarıda (77-ci sual) xülasə şəklində verdiyimiz ssenariyə uyğun davam edir. Əli Rza Yalçının haqqında danışdığı “Ərəb oyunu” xalq tamaşasında onun əsas obrazları olan Ərəb, Ər və Gəlindən başqa, tamaşaya Dəvə və ya Xortlaq adı ilə tanınan, üstü ağ parçalarla örtülmüş dörd adamdan formalaşmış əcaib bir məxluq, yaxud da Meymun adlandırılan gülünc qiyafəli bir məxluq da iştirak edir. Bu tamaşanın obrazları hər evin qabağında ev sahibi ilə danışaraq tamaşa göstərir, yemək və pul kimi bəxşişlər alırlar. Kəndin evlərini bir-bir gəzdikdən sonra oyunu təşkil edənlərlə tamaşaçılar toplanmış ərzaqla bir evdə yemək bişirir və səhərə qədər orada ye-

yib-içir, mahnılar oxuyur, rəqs edərək əylənirlər. Tamaşanın bu variantında diqqəti cəlb edən detallar arasında kənd əhalisinin tamaşadakı adamlardan "Ər"i qış, "Ərəb"i yay kimi xarakterizə etmələridir. Ölən "Ər"in ölümünə "Gəlin"in ağı deməsi, evinin qabağında oyun çıxarılan ev sahibinin bəxşiş verərək "Ər"in ona bağışlanmasını deməsindən sonra Ərəbin, öz öldürdüyü Ərin qarnına qamçısı ilə vuraraq onu diriltməsi də tamaşanın kifayət qədər maraqlı hesab etdiyimiz elementlərindəndir.

Artvin ilə Poshof kəndlərində iki toplayıcının verdiyi məlumatlara görə (Mehmet Çokal, **Artvinin Madenler köyünde yılbaşı karşılaması,** "Türk Folklor Araştırmaları", 127-ci nömrə, 1960; Güləli Aydınoğlu **Poshofun Yayla-Altı köyünde yılbaşı,** eyni adlı jurnal, 235-ci nömrə, 1969) yeni ildə (yəni 31 dekabr/1 yanvar gecəsi), müəyyən mənada, qış yarısı mərasimlərini xatırladan tamaşalar göstərirlər. Keçirilmə tarixini müasir təqvimin təsiri ilə yaranmış bir sürüşdürmənin nəticəsi kimi görməli, yoxsa, törənləri bu bölgəyə məxsus mövsümi bir bayram hesab etməli?

Bu suala dəqiq bir cavab vermək bugün üçün çox çətindir. Mərasimlərin qış yarısı və ya saya şənliklərindən fərqlənən əsas tərəfi "Ərəb oyunu" tamaşasının olmamasıdır. Mədənlər kəndində mərasimlər bu ardıcıllıqla davam edir: 15-20 yaş arası gənclər dəstə-dəstə tulum[110] çalıb, mahnılar oxuyaraq ev-ev gəzir, daha çox çərəz, meyvə olmaqla cürbəcür ərzaq növləri yığırlar. İçlərindən bir nəfər gəlin qiyafəsindədir və hər evin qabağında tamaşa göstəriləndə gəlini oynadırlar. İlk evin qarşısında yığılan çərəzlər elə oradaca yeyilir, ondan sonrakıları isə bir torbanın içərisinə yığırlar. Evləri gəzərkən bir-birinə rast gələn "rəqib" dəstələr arasında toplanmış yeməli şeyləri biri-birinin əlindən almaq üçün mübahisələr, da-

---

[110] Tulum: dəridən hazırlanmış nəfəsli musiqi aləti – ***Tərcüməçi***

va-dalaş da olur. Gəzmək qurtardıqdan sonra toplanmış şeylər dəstə üzvləri arasında bölüşdürülür.

Poshofun Yaylaaltı kəndində eyni soydan olan ailələrdən (qohum ailələr) təşkil olunan və **qanakop** adlandırılan qrupun həmin gecəni birlikdə bir evdə keçirmək adəti vardır: meyvələr, müxtəlif çərəzlər yeyilir, çalıb-oxuyub, əylənirlər. O biri yandan da cavanlar beş-on nəfərlik dəstələr halında qapıları gəzir, içlərindən biri evlərin damına çıxır, damdan içəriyə bir vedrə sallayır, nəğmələrlə ev sahiblərindən çərəz və meyvə yığırlar. Yığdıqlarını satıb bunun puluna bir qoyun alırlar. Bu qoyunu həmin gecə başqa bir evdə birgə yeyirlər. Səhərə qədər mahnılar oxuyur, çalıb-oynayıb əylənirlər. Yaylaaltı kəndində də bu gecəyə və ertəsi günə, yəni yeni il gününə məxsus bəzi inanclar vardır: gecədən evin sobası silinib-süpürülüb təmizlənir, səhəri gün sobadan buğda dənəsi tapılsa, bu, ilin bərəkətli olacağına, böcək tapılsa, bu, ilin qıtlıq olacağına yozulur. Yeni il günü evlərə bir ağ qoçu bəzəyərək salırlar, onun bərəkət gətirəcəyinə, doğulacaq uşağın oğlan olacağına inanırlar. Yeni il səhəri bir evə ilk gələn qonşunu zorla "kuluçkaya oturdur" (altına saman sərib, yumurta qoyub bir müddət oturdurlar) və ona ayağı uğurlu olsun deyə dadlı, şirin şeylərdən yedizdirirlər. Ayağı uğurlu olub, o il bərəkət gətirən şəxs hər il həmin evə qonaqlığa dəvət edilir. Uğurlu gəlməyən adam isə: "Bir daha əsla bizə gəlmə" deyə tənbeh edilir.

**83-cü sual: Övliya ziyarətləri ilə bayramların, bayramlarla yarmarkaların hansı əlaqələri var? Kəndli, köçəri topluluqların və zəncilərin özlərinə məxsus bayramları vardırmı?**

Övliya ziyarətlərini təkcə müqəddəsliyinə inanılan şəxslərin qəbirlərinin üstünə gedərək onların vasitəsilə Allahdan dərdlərə dəva diləmək işi hesab etmək məsələyə dar kontekst-

də yanaşma olar. Pirlər eyni zamanda pirin kəramətindən asılı olaraq az və ya çox insan kütləsinin müəyyən günlərdə görüşdükləri yerlərdir. Ziyarətlər orada yığışanlarla yerli və səyyar satıcılar arasında alış-veriş yerinə də dönür. Buna ən diqqətçəkən misallardan birini İstanbul bulaqlarında müşahidə edirik. Onların bir çoxunun bəlli bir tarixdə ziyarət olunma günü vardır və həmin gün eyni zamanda oranın yarmarka günüdür: alış-veriş, ibadət, bayram bir arada olur və bir-birini tamamlayır. Türk dilindəki "həm ziyarət, həm ticarət" ifadəsi də, çox güman ki, bu ənənədən yaranıb.

Müqəddəs yerin ziyarəti ilə bayram keçirilməsinin birgəliyinin gözəl bir nümunəsini Qaz dağında Sarıqız ziyarətgahındakı taxtaçıların mərasimlərində müşahidə edirik. Bunlar avqustun sonu ilə iyulun əvvəlləri arasındakı müddətdə təşkil olunur. Əvvəllər bu vaxtda bütün Ege bölgəsinin taxtaçıları Qaz dağındakı Sarıqız ziyarətinə gəlirmişlər: bu ziyarət bir növ həcc hesab olunurmuş. Son illərdə isə ancaq yaxın kəndlərin əhalisi gedir. Amma getməyən kəndlərin əhalisi də "Sarıqız qurbanını" olduqları yerdə adət-ənənələrinə uyğun şəkildə yerinə yetirirlər. 1964-cü ildə bayramın keçiriləcəyi vaxtda o ərazidə hərbi təlimlər keçirildiyi üçün Sarıqıza yaxın kəndlər də mərasimləri yaşadıqları kəndlərdə təşkil elədilər. Həmin ilin 22 avqustunda Ədrəmitə tabe olan Taxtaquşlar kəndində bayram belə keçirilmişdir:

Evlərdə bir gün əvvəldən ciddi təmizlik işi görülmüşdü. 22 avqust səhəri hər evdə bir qurban kəsildi. Heyvanın kəsilməsi, soyulması işini kişilər görürlər, qadınlar ocaq qalama, köz düzəltmə işinə baxırdılar. Heyvanın birinci olaraq iç-içalatı közdə bişirilərək uşaqlara paylandı (Uşaqlarla, qadınlar qurban kəsilmiş heyvanın qanından alınlarına da çəkiblər.). Ocağın hazırlanması başa çatan kimi qadınlar ən gözəl paltarlarını geyinmişdilər. Evin eyvanına həsirlər sərdilər, döşəkçələr qoydular, ev əhli və gələn qonaqlar közdə bişirilən kiçik ət parçalarından

yedilər. Bu, ilk səhər süfrəsidir. Bu yeməyin ardınca "xeyir paylama"[111] mərasimi gəldi: hər evin gənc qızı, qonum-qonşunun evinə yemiş-qarpız dilimləri apardı. İlk yeməkdən sonra qalan bütün ət pörtlədildi, suyu ilə plov dəmləndi. Əsl yemək bu ətli plovdur və o, ikindi vaxtına qalmış bütün ev əhli və qonaqları ilə birlikdə evin içərisində süfrə sərilərək yeyildi. Hər evin eyvanında, eyvanı olmayan evlərdə qapının qabağında hələ ilk yemək mərasimi davam edərkən gənc qız və oğlanlar kəndin küçələrində gəzə-gəzə söhbət edib əylənirlər. Bayramın birinci günü kəsilən bu qurban Sarıqıza əhd olunmuşdur.

İkinci gün də eyni adətlərə əməl olunaraq, Sarıqızın atasına əhd olunan qurban kəsilib-yeyildi. Üçüncü günün qurbanı isə "Üç daşlar"a əhd olunan qurbandır. Bu zaman hər ev ayrıca bir heyvan kəsə bildiyi kimi, bir neçə ailə ortaqlaşıb kəsə də bilir.

Sarıqız taxtaçıların adət-ənənələrində bir rəvayətə görə Fatma ananın[112] həyat yoldaşı Həzrət Əli (ə.) uzaq yerlərdə davada ikən anadan olan qızıdır. Başqa rəvayətlərə görə isə, o, Qaz dağının yaxınlığındakı bir kənddəndir; böhtana düşmüş, atası da onu bir qaz sürüsü ilə dağın başına atmaq üçün aparmış, amma çox keçmədən övliyalığını anlayıb yanında qalmışdır. "Sarıqız məqamı" və "Bubanın məqamı" deyə göstərilən və bir-birindən kifayət qədər uzaq olan iki yer onların qəbirləridir. Bayram Qaz dağında keçirildiyi vaxtlarda mərasimlər bir günlük fasilə ilə yerlərdə keçirilir. Əvvəllər bütün taxtaçıların eyni gündə ziyarətə gələrək bayramlarını qeyd etdikləri vaxt bu yerlərin ətrafı bir yarmarka görünüşü alırmış. "Üç daşlar" (Bunlara "Şahlar daşı" və ya "Qırxlar" da deyilir.) Sarıqız ilə "Buba məqamı"nın arasında bardaq böyüklüyündə bəzəkli daşlardır və müqəddəs hesab edilən bu daşlar haqqında cürbəcür şeylər danışırlar. Taxtaçılar həmin daşların Məkkədən gəldiyinə, onları

---

[111] Xeyrat paylama, ehsan paylama – ***Tərcüməçi***

[112] Məhəmməd peyğəmbərin (s.ə.a.s.) qızı Həzrət Fatimə – ***Tərcüməçi***

ziyarət etməyin Məkkəyə, həccə getmək qədər savablı iş olduğuna inanırlar.

Anadolunun bəzi yerlərində hər kəndin öz bayramı olur. Bunların arasında mövsümlə əlaqədar olanlar haqqında yuxarıda (79-cu sual) danışdıq. Mudurnunun Ovabaşı kəndlərində bu kənd bayramları haqqında aşağıdakı məlumatları əldə etmişik: Kənd bayramlarının konkret tarixi yoxdur; kəndlilər öz aralarında qərarlaşdırırlar. Göncəklilər yaylağa köçməmişdən bir həftə qabaq şənbə, bazarertəsi, çərşənbə axşamı və ya cümə axşamı günlərindən birində bayram edirlər. Dədələr kəndində Qaraca Əhməd Sultanın məqamında və isti su bulaqlarının yanındakı pirlərin olduğu yerdə qeyd olunur. Bu bayramların əsas xüsusiyyəti kənd əhalisinin birlikdə hazırladığı qonaqlıqda qonşu kəndlərdən gələn qonaqların da iştirak etməsidir. Bu cür kənd bayramlarının yuxarıda, 79-cu sualda haqqında danışdıqlarımızdan fərqi yaylaqda deyil, kəndin içərisində və ya onun yaxınlığındakı pirin başında qeyd olunmasıdır. Yenə yuxarıda (72-ci sual) danışdığımız kimi, bəzi kəndlərdə də xalq Ramazan və ya Qurban bayramlarının bir günündə "kənd bayramı"nı qonşu kəndlərdən gələn qonaqlara toplu halda yemək verməklə qeyd edər. 1918-1919-cu illərdə Ramazan bayramı yayın əvvəlinə, qurban bayramı isə isə yayın sonlarına təsadüf elədi. Həmin vaxtlarda Mudurnuya bir saat qədər uzaqlıqda olan Qayabaşı kəndinin bayramında qəsəbə uşaqları ilə birlikdə bir dəfə biz də iştirak etmişdik. Uşaqların həmin gün əsas əyləncələri fındıqlarla "təkmi, cütmü" oynamaq idi. Dəliqanlılar məhəllə dəstələri şəklində axşamüstü qəsəbəyə qayıdarkən bu dəstələrin bir-birinə meydan oxuması, daşlı-çomaqlı döyüşlərə girişmələri də bu bayram gününün adətlərindən idi.

Yörüklərin köç yolunun üzərindəki dayanacaqlarda və yaylağa çatdıqları zaman təşkil etdikləri bayramsayağı mərasimlər haqqında yuxarıda (72-ci sual) qısaca məlumat verdik.

Adət-ənənələri baxımından Türkiyə əhalisindən önəmli fərqli məqamlar nümayiş etdirən "etnik" qruplara məxsus bayram nümunəsi kimi Türkiyədə məskunlaşmış Afrika əsilli və əksəriyyət etibari ilə də qulların nəslindən olanların "dana şənlikləri" haqqında danışmağa dəyər. Bu bayram 50-60 il bundan əvvəllərə qədər İstanbul, İzmir, Manisa kimi böyük şəhərlərdə qeyd olunurdu. Bizim aşağıda verəcəyimiz məlumatlar 1949-cu ildə İzmirdə qoca bir Zənci qadından (Həvva nənədən) toplanmışdır.

Bayramın dəqiq bir tarixi yox idi: Xıdırəlləzdən sonra "gül mövsümü" zamanı qeyd olunurdu. Zənci böyükləri başlanğıc kimi bir cümə axşamı gününü öz aralarında qərarlaşdırırlar: bu, "elan günü"dür. Kişilər həmin gündən başlayaraq bir həftə ərzində kiçik dəstələr halında küçə-küçə, qapı-qapı gəzir, xüsusilə varlı adamların evlərinə baş çəkib pul yığırlar. Bu pul bir daxıla qoyulur. Növbəti cümə axşamı günü "peştəmal günü"dür. "Səbir daşı" adlanan yerdə "peştəmal"[113] açırlar və gəlib-gedənlər ora pul atırlar. Bu da bazar gününə qədər davam edir. Daxıla yığılan pula bir dana və iki keçi alınır. Peştəmalda yığılan pul isə düyü, yağ və odun almağa xərclənir. Bazar günü keçinin biri kəsilir və əti ilə "ərəb aşı" deyilən yemək hazırlanır. Qadınlar və uşaqlar Abbasağa Tarlasında, ya da Saleh Dədə deyilən yerdə ərəb aşını birlikdə yeyirlər. Yeməkdə ürəyi istəyən ağ insanlar da iştirak edir.

Həftənin ikinci günündən başlayaraq dəf və balqabaq çalan çalğıçılar lentlərlə, tellərlə bəzənmiş dananı qapı-qapı, küçə-küçə gəzdirir, bəxşiş alırlar. Dana gəzdirmək üç gün çəkir. Çərşənbə axşamı günü dananın ayaqlarına xına yaxılır. Dananı cümə axşamı günü səhər-səhər ərəb məhəllələrində gəzdirirlər. Sonra Bəkirağaya gedir, dananı Bayramyerinin

---

[113] Peştəmal: toxunma materialdan düzəldilən əşya – ***Tərcüməçi***

yuxarı tərəfində yerləşən bulağın başında kəsirlər (Maraqlıdır ki, bu bulağın suyu ancaq qurbankəsmə müddətində axır: heyvanın kəsilib, bıçaqlar yuyulan kimi su da dayanırmış.). Oradan da Yapıcıoğlu deyilən meydana üz tuturlar. Burada qazanlar asılır, dananın əti ilə plov bişirilir. Ət bölünür, bayrama yığışan bütün insanlara paylanır, süfrələr qurulur və əti hamı bir yerdə plovla yeyir. Amma dananın bir budundan pul bəxşişi vermiş, lakin yeməkdə iştirak etməyən şərəfli insan üçün pay ayırırlar. Hər kəs payına nə düşürsə, bu ətdən bir parça yeyir, bəziləri isə "hər dərdə şəfadır" deyə bu ətdən bir parça saxlayıb, evlərinə aparırlar. Bu qonaqlıqda da zənci olsun-olmasın hər kəs iştirak edə bilər.

Dananın başı şənbə günü yeyilir. Bazar günü ikinci keçi qurban kəsilir və yenə də hamı bir yerdə yeyir. Bütün bu günlər ərzində zənci çalğıçıların gəzdikləri küçələrdə, xüsusilə toplu halda yemək yeyilən meydanlarda şərqilər, oyun havaları və rəqslərlə tam bir bayram ab-havası olur. Mərasimlərdə "qodya"lar ("ocaqlı zəncilər") də iştirak edirlər.

## V BÖLÜM

## OYUNLAR

**84-cü sual: Burada "oyun" deyiləndə nə başa düşməliyik?**

Oyun dilimizdə çoxmənalı bir sözdür. "Oyuna gətirmək", "Qaramanın qoyunu, sonra çıxar oyunu" ifadələrindəki "hiylə", "fırıldaq" mənaları bir yana, bu söz teatr, kukla, qaragöz, meydan oyunu kimi tamaşaçının seyr elədiyi tamaşa mənasında da istifadə olunur. Oyunun bir də "rəqs" mənası var. Nəhayət, kitabımızın bu fəslində tədqiq edəcəyimiz "oyun"lar da var. Bunlar uşaqların və nisbətən az böyüklərin asudə vaxtlarında sadəcə əylənmək yolu ilə istirahətlərini təmin edən işlərdir: cıdır, güləş, xoruz döyüşdürmə, gizlənpaç, bilyə, topaç, aşıq oyunu və s.

Bu sonuncu oyunlarda çox böyük ölçüdə müxtəliflik müşahidə olunur. Bunları birincilərdən ayıran başlıca xüsusiyyət "tamaşaçı"ya ehtiyacın olmamasındadır. Hətta (güləş, xoruz döyüşdürmə kimi) tamaşaçısı olan oyunlarda belə tamaşaçılar bir azarkeş kimi sanki oyunda iştirak edirlər. Bəzi oyunlar oyunçunun bədən gücünü və bacarığını yoxlayır və o, qarşısındakı adamla bu yöndən yarışır, bəzilərində isə tərəflər bir-birinə ağlın üstünlüyü ilə qalib gəlməlidir. "Təkmi, cütmü?", "Yazımı, turamı?" oyunları kimi başqa bir qrup oyunlarda isə uğur və ya uğursuzluq, qazanmaq və ya itirmək, sadəcə, qismətdən asılıdır. Axırıncı qrup oyunlardan umulan nəticə gözəl şeylər yaratmaq, ahəngdar hərəkətlər bacarmaq kimi "estetik" duyğuları oxşamaq, ya da zarafat, lağ, gülmə, güldürmə yolu ilə əylənmə və əyləndirmədir.

Oyun uşağın yemək yeməsi, yatması, məktəbdə və evdə dərs saatlarından kənarda, demək olar ki, bütün həyatını əhatə edir. Belə ki, dostu ilə çəkişməsi, təkbaşına bağçanın bir başından o başına qaçması, pilləkənin tutacaqlarından sürüşməsi də bir "oyun"-

dur. Uşağın oyunu bütün bu geniş mənaları ilə uşaq psixologiyasının predmetidir. Folklorşünaslıq oyunu bu qədər əhatəli şəkildə tədqiq etməyəcəkdir. Ənənələrin formalaşma və inkişafını tədqiq etdiyinə görə o, oyunlardan məhz bu xarakterdə olanlarını öz tədqiqatına cəlb edəcəkdir. Buna görə də poker, tennis, futbol... kimi, mənşəyi nə olursa-olsun, bu gün qayda-qanunları oturuşmuş, formalaşma və inkişaf prosesi tamamlanmış, yerli ənənələrlə əlaqələri itmiş oyunlar tədqiqatımızın predmetini təşkil etməyəcəkdir.

**85-ci sual: Oyunlar necə qruplaşdırılır?**

Oyunlar onları araşdırmaq və tədqiq etmək üçün predmetə çevirən mütəxəssislərin güddükləri məqsəddən asılı olaraq fərqli qayda-qanunlar çərçivəsində qruplaşdırıla bilər. Oyunu uşağın tərbiyəsi və psixologiyası baxımından tədqiq edəcək mütəxəssis onların arasından ancaq uşaqlara məxsus olanları seçəcək və onları uşağın bədən, zəka və zehni gücünün formalaşmasına etdiyi təsir baxımından qruplaşdıracaqdır. Sosioloq üçün insanların cəmiyyət içərisində dincəlmək və əylənmək vasitəsi kimi istifadə etdikləri bütün işlər "oyun" çərçivəsinə daxil olur: at yarışları, kino, teatr, dağçılıq, rəqs, sirk, yarmarka əyləncələri...

Son illər Roger Cailloisin oyunları sosioloji baxımdan tədqiq və qruplaşdırma təcrübəsi (**Les jeux et les hommes**, Paris, 1958) diqqətəlayiqdir. Caillois oyunçuların dadmaq istədikləri qalibiyyət həzzi və bundan yaranan duyğularını ifadə edən davranışları, "oynamağı" şərtləndirən prinsipləri **aqon, alea, ilinx, mimicry** ifadələri ilə adlandırdığı dörd böyük qrupa ayırır:

1. **Aqon** yarışmaq və döyüşmək tələb edən oyunları əhatə edir. Bunlar idman növlərində olduğu kimi, bədən gücünə, ya da dama, şahmat və oxşar oyunlarda olduğu kimi, ağlı gücünə əsaslanır.

2. **Alea** qismətə, taleyə, təsadüfə əsaslanan oyunlar qrupudur; qumar, fal və niyyət oyunları bu qrupa daxildir.

3. **Mimicry** təqlid, tamaşa, maskarad elementlərini özündə ehtiva etməklə tamaşa edilən oyunlardır: teatr, kukla oyunu...

4. **İlinx** də insanın başını gicəlləndirən və bu yolla onu sevindirən, coşduran, ona coşqun zövq daddıran əyləncələri əhatə edir: yelləncək, karusel, cürbəcür karnaval oyunları bu qrupa daxil olur.

Caillois bu dörd əsas kateqoriyaya "oynanma tərzi" deyə izah etdiyi iki səciyyələndirici element əlavə edir: **paidia** və **ludus.** Dörd böyük kateqoriyadan hər hansı birinə daxil olan hər bir oyun bu axırıncı iki elementdən hər hansı biri ilə özünəməxsusuluq əldə etmiş olur. **Paidialı** oyunlardan **luduslu** oyunlar istiqamətində nizamsızlıqdan qaydalılığa, fərdilikdən sosiallığa və yarışmaya doğru bir inkişaf müşahidə olunur. Bu cəhətdən **ilinx** kateqoriyasındakı oyunlar qaydalara ən az riayət edən, **alea**dakılar isə qeyd-şərtsiz təsadüfün, taleyin qanunlarına boyun əyən oyunlardır.

Bundan əvvəlki sualda təyinatını verdiyimiz anlayış ilə (yəni folklorun tədqiqat mövzusu olan) oyunların bu elm sahəsinin məqsədlərinə görə qruplaşdırılması lazımdır. Beləcə başqa aspektlərdən edilmiş qruplaşdırmalardan kənarda qalan faktlar kimi, eyni bir oyunun yerlərə, dövrlərə görə ayrı-ayrı formalaşma və inkişaf pillələrində aldığı forma müxtəliflikləri və bu çoxçeşidlikdən hər birinin detalları da tədqiq oluna biləcəkdir.

Nağıla dair tədqiqatlarda bu folklor janrının müxtəlif tiplərinin həm bir ölkə, xalq içərisində, həm də ayrı-ayrı millətlər arasında yayılmasının tədqiq olunmasını təmin etmək üçün aparılmış sistemli qruplaşdırma təcrübələri beynalxalq nağıl kataloquna qədər gedib çıxmış və bu kataloq nağıllar haqqında tədqiqatlara geniş yol açmışdır. Oyunlar üçün də bir beynəlxalq oyun kataloqu tərtib etməyi qarşısına məqsəd qoyan bir təsnifat sxemi düşünülə bilərdi.

Parisdə 1960-cı ildə təşkil olunan VI Beynəlxalq Etnologiya Konqresində biz belə bir qruplaşdırma layihəsini təklif etdik **(Actes du VI `eme Congres international des sciences anthropologiques et ethnologiques,** c. 2, s. 141-148**)**. Konqresin komissiya iclaslarında bu qruplaşdırmanın prinsipləri və detalları barədə mübahisələr getdi və mütəxəssislərin əksəriyyəti layihənin müxtəlif ölkələrin folklor arxivlərindəki oyun materiallarının qruplaşdırılmasına tətbiq edərək yoxlanılmasına qərar verdilər. Sonrakı illərdə bu işə cəhd göstərənlərlə (Kanadalı, Yuqoslaviyalı, Avstriyalı həmkarlarımızla) məktublaşmalar apardıq. Bir tərəfdən də, biz əlimizdəki türk oyunları ilə Parisdəki Xalq İncəsənəti və Ənənələri Muzeyinin arxivindəki çox zəngin bir uşaq oyunları kolleksiyasındakı materialların qruplaşdırma sistemini təcrübədən keçirdik. 1970-ci ildə fransız oyunları kolleksiyasının bir qismi haqqındakı tədqiqatımızı çap etdirərkən ilk layihə üzərində apardığımız lazımi düzəliş və dəyişikliklərlə qruplaşdırma sistemi, bizə görə, son halını almış oldu (P.N.Boratav, **Une premiere ebauche de catalogue des jeux français,** "Art et Traditions populaires", XVIII, 1970, 1-3-cü nömrə, s. 1-77).

Bizim qruplaşdırma sisteminin əsas qaydaları belə xülasə olunur: Hər oyunda oyun boyunca oyunçunun (və ya oyunçuların) davranışları və uğur qazandıran cəhətlər arasında ən aparıcı və ən üstün olanı həmin oyuna onun əsas xüsusiyyətini verir. Oyunlar dərindən tədqiq edildiyi zaman bu davranışların hamısının üç böyük kateqoriyaya ayrıldığı müşahidə olunur:

1. Cadu, adət, qismət amilləri ilə şərtlənən davranışlar, təqlidlər, sənət yaradıcılığı;
2. Bədən gücü və bacarığına əsaslanan davranışlar;
3. Zehin gücünə və bacarığına əsaslanan davranışlar.

Oyunun mahiyyətini (daxilini, oyun strukturunu) bu davranışlar meydana çıxarır: bunlar oyunda oturuşmuş, əsaslı elementlərdir. Oyunları tək-tək bölgələr və beynəlxalq kon-

tekstlərdə müqayisə məqsədilə tədqiq etmək istəyən elm adamının ilk əsaslanacağı amillər bunlardır.

Qruplaşdırma sistemini tamamlamaq üçün yuxarıdakı üç böyük bölümə dördüncüsünü də əlavə etmək lazım gəlir:

4. Qarışıq oyunlar.

Bir oyundakı davranışlardan birinin və ya başqasının üstünlüyü dəqiqləşdirilə bilmirsə, yəni iki davranış, iki əməliyyat eyni dərəcədə əhəmiyyətli olursa, bu halda həmin oyunu "qarışıq oyunlar" cərgəsinə daxil edirik. Bir misal verək: Bəzi aşıqatdı oyunlarında oyunçu aşıq topasını nişan alır, vurduğu və müəyyən bir məsafəyə qədər uzaqlaşdırdığı aşığı qazanır. Bu cür oyunlar yuxarıdakı qruplardan ikincisinə daxil olur. Amma bəzi aşıq oyunlarında da qalibiyyəti həm vuruş, həm də atılan, ya da vurularaq yerindən tərpədilən aşığın dörd üzündən müəyyən birinin üst tərəfə düşməsi təmin edir. Bu tip oyunlar isə 4-cü qrupa (yəni qarışıq oyunlara) daxil edilir, çünki bunlarda qismət (aşığın dörd üzündən birinin üstdə gəlmə təsadüfü) və "bədənin bacarığı" (yaxşı nişanalma, aşığı fırladıb atmadakı ustalıq və s.) elementləri eyni əhəmiyyət daşıyır: qələbəni təmin etməkdə hər ikisinin eyni dərəcədə əhəmiyyəti vardır.

Oyunların qruplaşdırılmasında ikinci dərəcəli bölünmələri şərtləndirən faktor və səbəblər də var:

**a) İzahat formaları:** Oyunlara qoşulan qəlibləşmiş, təkrarlama xarakterli və ya qafiyəli sözlər, əvvəlcədən müəyyənləşdirilmiş (gimnastik və ya ritmik xarakterli) hərəkətlər, melodiyalar, dramatik səhnələr, həndəsi cizgilər və ya formalar, bacarıq tələb edən jestlər, davranışlar, güc göstərmələr, adət-ənənə xarakterli hərəkətlər, sözlər.

**b) Oyunun məqsədləri və funksiyaları:** Bunlar "keçid-giriş (**initiation**) sınaqları" və ya təhsil kimi oyunun sərhədlərini aşan məqsəd və funksiyalar da ola bilər, birbaşa oyunun bir hissəsi də ola bilər. Məsələn, oyundakı rolların bölüşdürülməsin-

də müəyyən bir vəzifəni icra edəcək şəxsin sanamalarla seçilməsi, rolları icra etməyəcək şəxslərin çıxarılması, fal, niyyət xarakterli oyunlarda bilinməyəni, gizli olanı kəşfetmə, sözlə magik qüvvələrə müraciət etmə, sənət zövqünün dadına baxılması, həcvetmə, yarışma, nailiyyətləri üstün olanın seçilməsi və s.

**c) Oyunun yararlandığı materiallar, oyunun yeri, zamanı:** Oyun vasitələri; oyuncaqlar; oyunun əsaslandığı təbiət elementləri: torpaq, su, qar, buz, hava; oyunun yeri: açıq hava, qapalı yer; oyunun vaxtı: mövsümü, ili, ayı, həftə ərzində bəlli günləri, günün müəyyən vaxtları.

**d) Oyunu oynayanlar:** Oyunçuların yaşı, cinsi, sayı; oyundakı yer və nömrələrinin bölüşdürülməsi; tək başına oynanan oyunlar, iki nəfər ilə oynananlar, toplu oyunlar, qarşılıqlı dəstələr şəklində oynananlar.

Bax bu prinsiplərə əsaslanaraq meydana çıxan qruplaşdırma sistemini aşağıda bir rəsm əsəri kimi xülasə edirik. Yuxarıda göstərdiyimiz bölümlərdən birincisini praktiki narahatlıq altında iki yerə ayırdıq və beləcə, qruplaşdırma dörd deyil, beş böyük bölüm oldu. Bunları I-V rum rəqəmləri ilə göstərdik, alt bölümlər də A-dan T-yə qədər böyük hərflərlə göstərildi.

**I. Ancaq uşaqlara məxsus olan oyunlar (A-C).**

A. Böyüklərin kiçiklər üçün çıxartdığı oyunlar.

B. Uşaqların söz oyunları.

C. Komanda şəklində, oynamaqlı, oxumaqlı oyunlar və sadə təqlid oyunları.

**II. Tale, qumar, fal, niyyət oyunları; magik və ənənəvi oyunlar (D-G).**

D. Tale oyunları.

E. Qumar oyunları.

F. Niyyət və fal oyunları.

G. Ənənəvi və magik oyunlar.

**III. Bacarıq və güc oyunları (H-L).**
H. Əsl bacarıq oyunları.
İ. Udma tələb edən bacarıq oyunları.
J. Gimnastikalı və ritmik oyunlar.
K. Əsl güc oyunları.
L. Güc və bacarığın qarışdığı oyunlar.

**IV. Zəka oyunları (M-R).**
M. Aldatma, yutturmaca[114] oyunları.
N. Yaddaş gücü, düşünmə çevikliyi, təxminetmə oyunları.
O. Gizlətmə və gizlənpaç oyunları.
P. Cizgili oyunlar.
Q. Daşlı oyunlar.
R. Başqa zəka oyunları. Bu bölümə daxil olan oyuncaqlar.

**V. Qatışıq oyunlar (S-T).**
S. Qatışıq oyunlar.
T. Oyuncaqlar

**86-cı sual: Ancaq uşaqlara məxsus olan oyunlar hansılardır?**

Qruplaşdırmamızın birinci bölümündəki oyunları başqalarından ayıran cəhət onların ancaq uşaqlara aid olmalarıdır. Başqa qruplardakı oyunların arasında isə həm uşaqlar, həm də böyüklərin oynadığı oyunlar vardır.

Uşaqlara məxsus oyunlardan bir qismini böyüklər kiçiklər üçün oynayırlar. Bunlar, müəyyən cəhətdən, ən sadə formasında bir "tamaşadır": tamaşaçısı təkcə uşaqlar, aktyorları isə onun yaxınlarından hər hansı bir böyüyü – anası, atası və ya bacısıdır. Başqa bir qismi isə birbaşa uşağın ya təkbaşına ya da dostları ilə yaradaraq oynadığı oyunlardır.

---

[114] Yutturmaca oyunu: eşidənin deyilən sözləri anlamayacağı şəklində oynanılan oyun – ***Tərcüməçi***

Böyüklərin kiçiklər üçün çıxartdığı oyunlar da müxtəlifliklər nümayiş etdirir. Sırf uşağı əyləndirmək üçün sözlü, ya da hərəkətli oyunlara nümunə olaraq “vadi qara gəlir ki...”, “burada bir hovuzcuq...” təkərləmələri [115] söyləyib, uşağın boynunu qıdıqlamaqla onu güldürməklə nəticələnən iki tipi göstərək. Başqa tiplər yenə uşağı şənləndirəcək sözlər və hərəkətlərlə ona yeriməyi, qaçmağı, öz bədənini, ətrafındakı əşyaları öyrətmək məqsədi güdən oyunlardır. Məsələn, bir İstanbul variantında uşağın başının ayrı-ayrı yerlərini, şəhərin məşhur məhəllələrinin adı ilə göstərən oyun, ya da balaca barmaqlarını bir-bir göstərərək oxunan bu təkərləmə:

Baş barmaq,
Badam barmaq,
Orta dirək,
Gül bənövşə,
Kiçik Aişə

Uşağa sağlamlıq, uzun ömür, xoşbəxtlik arzularını bildirən təkərləmə xarakterli qarğış və təriflərlə onlara qarışan jestlər və him-cim oyunları da bu qrupa daxil edilir. Məsələn, barmaqlar açılmış vəziyyətdə uşağın qabağında əlini oynada-oynada oxunan “tel sarıyır oğlum (ya da “qızım”), tel sarıyar...” oyunu, balacanın hər iki əlini bir-birinə vura-vura oxunan “əl çırpa, əl çırpa əl olsun...” təkərləməli oyun.

Yenə uşaqlara aid olmaqla yanaşı, onların öz aralarında (böyüklərin müdaxiləsi olmadan) oynadıqlara oyunlara gəlincə, bunların bir qismi, sadəcə, söz oyunlardır. Bunların mahiyyəti, növləri, başqa təkərləmələrdən fərqləri, forma xüsusiyyətləri haqqında birinci kitabımızda (**100 soruda Türk halk edebiyatı**, s. 135-142) ətraflı məlumat verdik.

[115] Təkərləmə: uşaqların oxuduğu sicilləmə xarakterli şeir – ***Tərcüməçi***

İkinci qrup isə quruluşu etibarı ilə daha mürəkkəb, daha çox formalaşmış, söz elementinə hərəkətlər, rəqslər, tamaşa xarakterli kiçik səhnəciklər də qatılan, əksəriyyəti qarşı-qarşıya gələn dəstələr şəklində oynanılan oyunlardır. Bəziləri isə ritmik olur: "Üşüdüm, ay üşüdüm...", "Aç qapını, ay karvanbaşı..." və s.

**87-ci sual: Təsadüf-tale və qismət-qumar oyunları ilə niyyət və fal oyunlarının ortaq və fərqli xüsusiyyətləri hansılardır?**

Təsadüfi qanunlarla idarə olunan oyunlar əsas iki qrupa ayrılırlar. Biri taleyin, qismətin oyunçularından, ya da oyunda iştirak edən dəstələrdən birinə və ya başqasına sadəcə bir üstünlük (məsələn, arzulanan bir rol, ya onunla öyünəcək bir ad), ya da əldə olunan nailiyyət sayının üstün olması ilə oyunu udma sevincini və ləzzətini təmin edir. İkinci növü isə əməlli-başlı qumar oyunlarıdır, yəni oyunçulardan, ya da dəstələrdən biri həqiqi və ya elə-belə dəyərli əşyalar qazanır. Bu əşyalar bəzi hallarda oyun vasitəsinin özüdür, məsələn, "təkmi, cütmü?" oyununda aşıqlarla oynanan oyunların bəzi növlərində olduğu kimi. Bəzi hallarda isə zərlə (və ya zəri əvəz edən vasitələrlə) oynanılan oyunlarda olduğu kimi, oyun vasitəsindən başqa olan bir əşyadır.

Bu qrupdakı birinci növ oyunlardan bəziləri oyunçuların istəyindən asılı olaraq ikinci növ oyunların qaydalarını tətbiq edilməklə də oynanıla bilir, yəni qazanılan xal sayı pulla, həqiqi ya da qondarma dəyərli əşyalarla əvəz oluna bilər.

Niyyət və fal oyunlarını yuxarıda (33-34-cü suallarda) araşdırdığımız yozum və fal əməllərinin oyun formasını almış çeşidləri də adlandırmaq mümkündür. Təsadüfün qanunları ilə idarə olunmaları onların tale və qismət oyunları ilə ortaq tərəfidir: amma onları tale və qismət oyunlarından ayıran cəhət niyyət və fal oyunlarında udub-uduzmağın olmamasıdır.

Bu oyunlarda ancaq ağla gələn bir faktın həqiqi olub-olmadığını anlamaq, dəqiq məlum olmayan bir şeyi öyrənmək, gələcək haqqında xəbər bilmək məqsədi güdülür. Çobanyastığının ləçəkləri ilə niyyət eləmək, hər birinin bir adamı simvolizə etdiyinə inanaraq, iki albalıdan birini seçməsini qarşısındakı adama (kimi daha çox sevdiyini başa düşmək üçün) təklif etmək, müjdəçi fatma böcəyini uçurmaqla fal, "ya bundadır, ya bunda..." təkrarləməsini deyərək, gizlədilən bir şeyi tapmaq, "kim buraxdı, bit buraxdı"[116] təkrarləməsi ilə "günahkar" olanı tapmaq və s. bu oyunlara nümunə ola bilər.

**88-ci sual: "Magik" və "ənənəvi" təyinləri hansı oyunlara aiddir?**

Mövsüm mərasimlərində, bayramlarda, qəndillərdə və Ramazanda uşaqların təşkil etdikləri bəzi mərasimlər oyun xarakterli göstərilərdir. Bunları böyüklərin "ciddi" fəaliyyətinin uşaqların dünyasına enərək oyuna çevrilmiş variantları kimi qəbul etmək daha düzgündür.

Bu cür oyunlara bir nümunə kimi Mudurnu uşaqlarının həyatında bu gün, bəlkə də, öz yaşam dövrünü başa çatdırmış qədim bir adətləri haqda danışacağam. Ramazan gecələrində burada yaşayan uşaqlar öz məhəllələrində təravih namazının qurtardığını hər məhəllə məscidinin yanındakı azan daşının üstünə çıxaraq "Ya Haqq, Ya Allah!" deyə bağırmaqla o biri məhəllələrə eşitdirmək istəyirdi. Bu "Bizim mollamız təravihi sizdən qabaq qurtardı!" mənasında, bir növ, öyünmək oyunu idi. Böyüklərin, müəllimlərin də iştirakı ilə dualar və ilahilər oxuyaraq təşkil etdikləri "yağış duası" mərasimləri ilə yanaşı, uşaqların "çömçə gəlin", ya da "qodu-qodu" deyə adlandırdıq-

[116] İfadədə vulqar sözlər üçün olduğu kimi verməyi münasib bilmədik – ***Tərcüməçi***

ları tamaşalar mərasimlə oyun arasında olan bir şeydir: uşaqlar onları bir oyun ruhunda deyə-gülə həyata keçirirlər. Amma onlar da digər ciddi mərasimlər kimi, özlərində gizlətdikləri inanclar və məqsəd baxımından magik bir mərasim hesab edilir. "Çiydəm plovu", "betnəm" kimi uşaq bayramları deyə xarakterizə etdiyimiz bəzi mərasimlər də müəyyən tərəfləri ilə oyuna bənzəyirlər. Məsələn, betnəm günü yumurta toqquşdurmaq da, bir növ, qumar oyunudur: yumurtası bir təsadüf, bir şans nəticəsində möhkəm olan uşaq qırdığı yumurtaları udur.

Tamamilə ənənəvi oyunlar arasında yer almalı olan mərasimlərə ən yaxşı nümunə kimi "sinsin oyunu"nu göstərə bilərik. Bu oyun Samsun, Sinop, Amasiya, Çorum, Yozqat, Ankara, Kozan kimi Anadolu bölgələrində və yanlız toy gecələrində meydan kimi bir yerdə qalanmış tonqal ətrafında oynanılır. Oyun tonqaldakı odunlar yanıb qurtarana kimi davam edir. Oyunçular və tamaşaçılar tonqalın ətrafında dairəvi şəkildə dururlar. Bir oyunçu ortalığa çıxır, zurna-nağaranın çaldığı havaya uyğun olaraq, bir dəfə bir ayağının üstündə, sonra da başqa bir ayağının üstündə hoppanaraq, tamaşaçılarla tonqal arasında olan ərazidə fırlanır, digər bir tərəfdən də tamaşaçılardan qorunur. Bu sonuncu adamlardan biri ortada fırlanana çatıb vurmaq üçün ən uyğun hesab elədiyi bir vaxtda tullanır və eyni ayaq hərəkətlərini edərək əvvəlki oyunçuya yumruq vurmağa çalışır, vurulan yenidən dövrəyə qatılmalı olacaqdır. Oyun beləcə alov sönənə qədər davam edir. Alov sönən kimi, sinsin orada olanların hamısının iştirakı ilə yallıya çevrilir. Oyunun ancaq toy vaxtı və toy evinin qabağında oynanılması onun adət-ənənə ilə bağlı xüsusiyyətidir.

**89-cu sual: Bədənin bacarıq və gücünə əsaslanan oyunların əsas xüsusiyyətləri və növləri hansılardır?**

Bu təsnifatın ilk "H" altqrupunu "sözün əsl mənasında bacarıq oyunları" deyə xarakterizə edirik. Əsas tipləri:

**a) Əllərin və barmaqların bacarıqları sayəsində baş tutanlar:** "beş daş", "kazık atmaca" (yumşaq, ya da yaş torpağa ucu iti kiçik ağacları saplama)[117], "bıçaq oyunu" (ələ müxtəlif formalar verərək bıçaqları yerə saplama), "top çiləmə", "çənbər çevirmə".

**b) Ayaqların bacarığı ilə üstünlük, xal qazanmağa əsaslananlar:** "cizgi" (ya da "ayna") oyunu, "başmaq çiləmə".

**c) Çevik zehin və hərəkət həmlələri tələb edənlər:** məsələn, "estepeta" oyunu. Burada oyunun əvvəlində bu sözləri deyən kimi oyunçular hansı vəziyyətdədirsə, eləcə yerində donmaları və ancaq "poz" deyən kimi hərəkət etmələri lazımdır. Bir çox "sanama" oyunları da oyunçunun reaksiyalılığına əsaslanır.

"İ" altqrupunda udub-uduzmaqla nəticələnən, amma yenə də xüsusilə əllərin bacarığını, nişan almaq istedadını tələb edən oyunlar qruplaşdırılır: məsələn, cürbəcür aşıq və top oyunları. Qabığı quru meyvələr ("qoz" oyunları, ya da böyük meyvə dənələri ilə oynanılanlar), şam qozası, dəmir pullar, ya da mismar, iynə kimi əşyalar da bu tip oyunları oynaya bilmək üçün bir vasitə ola bilər.

Gimnastika, akrobatika, kəndirbazlıq hünəri tələb edən, ritmik hərəkətlərdən, tarazlığı qoruyan simmetrik duruşlardan, sallanmaq yolu ilə əmələ gələn oyunları "J" altqrupuna yığırıq: ən sadələrindən ən mürəkkəb quruluşlu olanlarına qədər yerində fırlanma, təpik atma, əlləri üstdə, başıaşağı yerimək, yelləncək, turnik və s. bu kimi alətlərdən sallanmaq... Bu cür oyunların ən sadə olanlarına misal kimi "qayıt, ata, qayıt", "göydə göy muncuq" kimi balaca uşaqların yanıltmaclı əyləncələrində, ipatdılarında, "divar topu", "yer topu" kimi balaca topları divara və ya yerə sürətli ritmik hərəkətlərlə vuraraq oynanılanları göstərə bilərik.

---

[117] Bu oyunda istifadə olunan ağac Biləsuvar rayonunun Bəydili kəndində "şuppu" adlanır, oyuna da "şuppu oynamaq" deyilir – ***Redaktor***

“K” altqrupunda “əsl güc oyunları” deyə xarakterizə etdiklərimiz qruplaşdırılır: ağır əşyaları qaldırmaq, ya da fırlatmaq, güləş, qol və ayaqlardakı gücü sınamaq (“qol gücü”), itələyib-yıxmaq, “ip çəkişmə”, uzun və hündür tullanmaq, sadə quruluşlu qaçış növləri (müəyyən bir yerdə qoyulmuş hədəfə doğru qaçaraq həyata keçirilən yarışlar), güldürücü yarışlar (“kisə yarışı”, “yumurta yarışı” kimi).

“L” altqrupundakı oyunların sayı həddən artıqdır: bunlar daş, dəyənək kimi əşyaları (“daş tikmə”, “nəlbi”, “babuk”, “sürüşmə” və s. oyunlarda), top, güllə kimi oyun vasitələrini ən uzaqdakı bir yerə çatdırma, ya da nişangaha vurmaq məqsədilə tullama qaydalarına əsaslanan oyunlardır. Həmçinin, sapandla daş atma, kaman kimi qədim silah növlərinin oyun vasitəsinə çevrilməsi ilə meydana çıxanlar da bu qrupa daxil olur. Bu cür oyunlardan ən çox diqqəti cəlb edəni “çəlik-çomaq” oyunudur. Hoppanmaqla baş tutan oyunlardan müxtəlif variantları olan “birdir-bir” maneəli hoppanma oyunudur. “Uzun eşşək” kimi minmə və daşıma oyunları, yarışma və qaça-qovdular (“əlim üstündə” kimi), “əsir götürdü” kimi qarışıq qaydaları olan yarışlar da bu qrupa daxil olan oyunlardandır. Eyni qrupun başqa cür oyunları insanlarla birlikdə (ya da təkcə) heyvanların da iştirak etdikləri yarışlar və ya döyüş növləridir: at yarışları və cıdır oyunu, insanla heyvanın ortaq şəkildə gerçəkləşdirdikləri, it tutuşdurma, xoruz döyüşdürmə, qoç döyüşdürmə, dəvə güləşdirmə, buğa döyüşdürmə isə insanların ancaq tamaşaçı kimi istifadə etdikləri oyunlardır. Dəvə güləşdirmə Aydın ərazisində böyük rəğbət göstərilən bir oyundur. Buğa döyüşdürmənin Muğla qəsəbəsində və ona tabe olan kəndlərdə payız vaxtı, xüsusilə, məscid tikdirmək kimi xeyirxah işlər üçün, Qızıl Ay cəmiyyətinə pul bəxşiş vermək məqsədilə təşkil olunduğunu və bugün də yaşadığını, bu məqsədlə buğa saxlayıb-böyüdən, təlimləndirən, bu işə mara-

ğı olan insanların olduğunu 1970-ci ildə o bölgədəki tədqiqat zamanı öyrəndik.

Cirit[118] heyvanla onu minənin birgə hünər nümayişini, qovalama və döyüş qabiliyyəti tələb edən mürəkkəb quruluşlu bir oyundur. Bu oyun müəyyən tərəfləri ilə, çox güman ki, qədim Şərqin (İran və Türk məmləkətlərinin) ənənələrində formalaşmış "top və çovkan" oyunun bir variantıdır, belə ki, cirit dəyənəyi Anadolunun bəzi bölgələrində "çevgen" adı ilə tanınır. 45-50 il bundan əvvəllərə qədər Anadoluda çox geniş yayılmışdı. Daha sonralar Qars, Ərzurum, Bayburt kimi şərq bölgələrində öz varlığını yaşatmağa davam etmiş, başqa yerlərdə unudulmuşdu. Son illərdə ölkə miqyasında yarışların təşkil edildiyi barədə məlumatlar alırıq. 1972-ci ilin payızında Konyada bir çox mahallardan gəlmiş cirit komandalarının yarışmaları olmuşdur.

Beləliklə, qar və buz üzərində oynanılan oyunlarla (xizəklə sürüşmə və onun müxtəlif variantları) su üstündəkiləri və hava-külək oyunlarını da hesablasaq, "L" altqrupundakı oyun növlərini tamamlamış oluruq. Su üstündəkilərin diqqəti cəlb edənlərindən biri "su cıdırı" olub, Qaradəniz sahillərində bəzi yerlərdə uşaqların və cavanların sırf əyləncə xarakterli yaşatdıqları oyundur. Bu oyunun qaydası iki qayığın üstündə ayaq üstə dayanan oyunçulardan hər birinin o birini suya yıxmağa cəhd göstərməsidir. Hava-külək oyunlarının geniş yayılmış və oyunların tədqiqatı baxımından önəmli bir növü də "uçurtma"dır.

### 90-cı sual: İdman növləri ilə ənənəvi oyunların əlaqəsi vardırmı?

Türk dilinə "spor"[119] sözü Qərbdən gəlmiş, təkcə bir millətə aid olmayan, millətlərarası məşhurluğu böyük olan, bədən gücünə əsaslanan yarış və tamaşaların vətənimizdə ya-

---

[118] Cirit, yəni cıdır – ***Tərcüməçi***
[119] Spor: idman – ***Tərcüməçi***

yılması ilə mənimsənilmişdir. Xalqın dilində məhz bu mənada "spor" sözünün qarşılığı olan bir söz yoxdur. Belə oyunlar tamaşaçı kütləsi tələb etmədən, sadəcə, oyunçuların özü-özünü şənləndirmə məqsədi güddükləri zaman ənənəvi "oyun" istilahı ilə adlandırılır. Qruplaşdırma sxemimizin III bəndinin "K" və "L" altqruplarında bunlardan bir çoxuna dair misallar verdik. Yenə "K" və "L" altqruplarında güləş, cıdır kimi bəzi oyun növləri də vardır ki, bütün tərəfləri ilə "spor" anlayışına uyğun gəlir. Bunlar xalq dilində "oyun" ənənəvi adı ilə deyil, özlərinin xüsusi adı ilə göstərilir. Bunlara xalq idmanı, yerli idman da demək yerinə düşər. Belə ki, güləşlərin "yağlı güləş" tipi Türkiyə miqyasını əhatə edən, hərtərəfli bir idman tamaşasıdır. Dəqiq, heç vaxt dəyişilməyən qaydaları vardır, ona tamaşa edənlər arasında həmişə izdiham olur, tamaşaların axırında mükafatlar paylanır. Bəzi böyük güləş nümayişləri bölgələrarası çempionluğun müəyyənləşdirilməsi ilə nəticələnir.

Yerli, regional, ənənəvi qədim oyunlardan bəzilərinin güclü bir inkişaf nəticəsində beynəlxalq idman növünə çevrilməsinə bir çox misallar verə bilərik. Fransız kəndlərinin "soule" oyunu əvvəlcə İngiltərədə bir idman növünə çevrilmiş, sonradan Fransaya və başqa ölkələrə yayılaraq "rugby"[120] adı ilə beynəlxalq idman statusu əldə etmişdir. Anqlosakson ölkələrində rəğbət duyulan bir idman növü olan, daha çox varlı və əsilzadə şəxslər tərəfindən mənimsənmiş polonun kökü Şərqdə geniş yayılan "top və çovkan" oyununa gedib çıxır. Yaponiyanın "cüdo"su son illərdə Qərb ölkələrinə yayılmaqda davam edir.

Bəzi oyunlar da, regionlararası qəti qaydalara əsaslanma mərhələsindən keçərək və yerli variantları ilə əlaqələrini itirərək, beynəlxalq idman növlərinə çevrilir. Türkiyədə yağlı güləş çoxdan inkişafının bu mərhələsini tamamlamış və bir türk

---

[120] Reqbi – ***Tərcüməçi***

idman növünə çevrilmişdir. Son illərdə cıdır yenidən canlandırılmaqla və regional yarışların təşkil olunması ilə beynəlxalq bir idman növünə çevrilmə yolunda uğurla irəliləyir.

**91-ci sual: Zehni qabiliyyətə, ağıl gücünə əsaslanan oyunlar hansılardır?**

Bu bölümdəki oyunlara təsir göstərən əsas faktorlar bədən gücünün yerinə ağıl və yaddaş gücündən, cəld qavrama gücü oyunun tələb etdiyi məlumatlardan və qarşısındakının məlumatsızlığından yararlanmaq bacarığıdır. Bu baxımdan həmin oyunları aşağıdakı altqruplarda təsnif edirik:

**M. Aldatdı oyunu.** Bu cür oyunların mexanizmi oyunu bilməyən oyunçuya hiylə işlədərək, onun xoşuna gəlməyəcək şeylər dedizdirmək yolu ilə gülünc vəziyyətə salmaqdır.

**N.Yaddaş gücü və qavrama çevikliyi tələb edən oyunlar.**

**O. Gizlətmə və gizlənmə oyunları.** Məsələn, "üzük oyunu"nda gizlədilən nəsə bir əşyadır. Çoxlu fincanlardan birinin altında bir üzük gizlədilir, iki dəstə sıra ilə gizlədilən üzüyü tez və ya gec tapmalarından asılı olaraq çox və ya az xal qazanırlar. Gizlənpaç variantında isə gizlənən və tapılmağı lazım olan oyunçuların özləridir.

**P. Həndəsi xətli cizgilər, formalar yaratmağı, ya da müəyyən xətlər üzərində bacarıq nümayiş etdirməyi tələb edən oyunlar.** Barmaqların arasında gərilən iplərlə, bükülən, kəsilən kağızlarla nizamlı şəkillər, ya da quş, duzqabı, qayıq kimi "oyuncaq"lar düzəltmək oyunu, "su yolu", "dəniz müharibəsi" kimi cizgilərə əsaslanan oyunlar bu tipə nümunə olaraq göstərilə bilər.

**Q. altqrupuna dünyada çox məşhur olan "daş oyunları" daxil edilir.** Bunlara misal olaraq dama, şahmat kimi qlobal məşhurluq əldə etmiş əqli oyunların uşaq oyunu mər-

hələsində qalmış növləri, "üç daş", "doqquz daş" və bunlara bənzər oyunların adlarını sadalaya bilərik. "Doqquz daş"ın bir adı da "tokurcun"dur. Bu ad onun türk ənənələrində çox qədimlərə (bəlkə də, ortaq türk-monqol ənənəsinə) gedib çıxdığına sübut hesab edilə bilər.

**92-ci sual: Qarışıq oyunlar hansılardır? Qarışıq tiplər necə olur?**

Yuxarıda (85-ci sual) qruplaşdırdığımız, daha sonra da (86-89, 91-ci suallar) bir-iki nümunə ilə variantlarını göstərdiyimiz oyunlarda oyunçuların ya təkcə bir tip davranış, hərəkət və ya işi vardır və oyun özünün məzmunu, quruluşu ilə ən sadə növü ortaya qoyur, ya bu sadaladığımız elementlər eyni varianta aiddir, ya da variantları fərqli olmaqla yanaşı, biri mütləq üstün, dominant xarkterlidir.

Amma elə oyunlar da vardır ki, quruluşları sadə deyildir; məzmununda qruplaşdırma sistemimizin əsas hissələrindəki elementlərdən biri daha ağır gəldiyi halda, ikisi (çox nadir hallarda üçü) də eyni ağırlıqdadır. Kart oyunlarının növləri arasında biz sözü gedən oyunlara daha çox nümunələr tapa bilərik. Bunlarda oyunda qazanan tərəf olmağı təmin edəcək kartların oyunçulardan birinə və ya başqasına düşməsi təsadüf olduğu üçün həmin oyunlara tale-qumar oyunları bəndində (yəni bizim qruplaşdırmamızın II bəndində) yer vermək olar. Lakin nəzərə almaq lazımdır ki, burada oyunçunun əlinə alacağı kağızlara və qarşısındakı insanın tökə biləcəyi tədbirlərə əsaslanmaqla oyunu idarə etmək gücü və bacarığı da eyni dərəcədə önəmlidir, bu halda həmin oyunlar, mümkündür ki, ağıl oyunları bəndinə (yəni qruplaşdırmamızın IV bəndinə) yerləşdirilsin. Deməli, kart oyunları II+IV şəklində "qatışıq oyunlar"dır. Zərlə oynanılan nərd, zəri əvəz edən başqa vasitələrlə oynanılan domino, ağdörd (köş) oyunları da eyni qatışıq tipini ortaya qoyur. Yuxarıda

(85-ci sual) toxunduğumuz kimi, bəzi aşıqla oynanılan oyunlar isə III+IV tipində "qarışıqlıq" nümayiş etdirirlər.

Bizim qruplaşdırma tablomuzun ilk dörd bəndində A-dan R-yə qədər sıralanan 18 altqrup vardır. Bu qrupların oyunlarını iki-iki olmaqla qatışıq oyuna çevirməyin mümkün olması nəzərə alınarsa, bu halda nəzəri cəhətdən 153 qarışıq oyun tipinin olacağı gözlənilir. Amma təcrübədə qarışıqlar (hətta "üçlülər" də hesablanarsa) bu qədər böyük bir rəqəm olmayacaqdır. Ən çox qarışıq tiplər böyük qrupların, bir də III qrupun H-L altqrupuna daxil olan oyunların aralarında ortaya çıxır.

Beləliklə, 400 tip oyunu əhatə edən bir oyun kolleksiyası üzərində apardığımız sınaqdan aldığımız nəticə bu oldu: 400 oyundan 28-i qarışıq oyunlardır və bunlar 11 qarışıq tipi ortaya qoyur. 28 oyundan 2 dənəsi C+K (yəni I qrupla III qrupun xüsusiyyətlərinin qarışığı), 2 dənəsi üçlü D+H+K (yəni II qrupdan bir xüsusiyyətlə III qrupdan iki xüsusiyyətin qarışığı), 7 dənəsi: 5 E+N, 1 E+Q, 1 G+M (yəni II qrup və IV qrupun hər birindən bir xüsusiyyətin qarışığı), 9 dənəsi: 3 H+L, 6 K+L (yəni III qrupdan bir xüsusiyyətin qarışığı), 8 dənəsi də: 1 K+N, 1 L+M, 1 L+N, 5 L+O (yəni II və IV bölümlərin hər birindən bir xüsusiyyətin qarışığı) tiplərinə aid oyunlardır.

**93-cü sual: Oyuncaq nədir?**

Oyuncaq özü təkbaşına oyunu təmin edən əşyadır. Uşaq yumaqla təkbaşına oynaya bilir. Yumaq bu aspektdən yanaşıldığı zaman bir oyuncaqdır: kukla da, araba da, çənbər də eləcə. Amma istər yumaq olsun, istərsə də çəmbər özləri ayrılıqda bir "oyun vasitəsi"dir. İki uşaq yumaq fırlatma yarışı, ya da çəmbərlə qaçış həyata keçirtdikləri zaman çəmbər və yumaq oyuncaqdan bir az daha artıq bir status əldə edir. Bilyə və aşıq kimi bəzi oyun vəsaitləri isə folklor aspektindən sadəcə "oyun vasitəsi" hesab edilir. Bunlar təkbaşına oyunu formalaşdıra bilməzlər, sadəcə, oyunda

istifadə olunurlar. Bu axırıncı haqqında danışdıqlarımızın bir xüsusiyyəti də bəzi tip oyunlarda udulan əşya olmalarıdır.

Bəzi hallarda oyuncağı, oyun vasitəsini uşaq özü düzəldir, bəzən də onların böyükləri (anası, atası, yaşca özündən böyük dostları), yaxud da bazardan-dükandan alınır. Hələ o vaxtlardan bəri satın alınan hazır oyuncaqlar və oyun vəsaitləri olmuşdur. Bunlardan bəzilərinin yerli (regional, beynəlxalq...) xüsusiyyətləri vardır. Bugünkü gündə isə fabrik istehsalı olan oyuncaqlar vətənimizin ən ucqar ərazilərində də özlərinə müştəri tapa bilir, kiçik qəsəbə bazarlarında, kəndbəkənd gəzən səyyar satıcıların sandıqlarında plastik kuklalar, maşınlar, heyvanlar, hər növ "oyuncaq" tapmaq mümkündür. Bu səbəbdən də yerli xüsusiyyətləri, ya da uşaqlarının öz xəyal dünyalarını əks edən oyuncaqlar sürətlə azalmaqdadır. Fabrik istehsalı olan oyuncaq və oyun vasitələri ilə də ənənələrin məhsulu olan bəzi köhnə oyunlar yaşamağa davam edir. Folklorşünas yerli və ya ənənəvi oyuncaqları tapa bilmədiyi yerlərdə də fabrik istehsalı olan oyuncaqlarla oynanılan "uşaq oyunları"nı tədqiq etməkdən əl çəkməyəcəkdir.

Uşaqların öz oyuncaqlarını, oyun vasitələrini düzəltdikləri yerlərdə aparılan tədqiqatlar oyun araşdırmalarının ən maraqlısıdır. Bəzi oyuncaqların düzəldilməsi də elə "oyun"dur. "Sipsi çıxarmaq" buna ən gözəl nümunə ola bilər. Yazda uşaqlar, ağacların budaqlarına su gəlməyə başladığı zaman nisbətən nazik olan söyüd budaqlarından düdük düzəldirlər. Düdük düzəltmə uşağın ondan daha böyük olan dostlarının yanında, sanki bir növ, şəyirdlikdən çıxdığı vaxtdan bu yana öyrəndiyi texnikadır. Sipsi çıxarılarkən söyüdün budağının qabığına bir "təkərləmə" oxuyaraq bıçağı sapı ilə vurmaq lazımdır, uğurun əldə olunmasını, eyni zamanda, bu nəğmənin magik gücünü təmin edir. Bu təkərləmənin magik gücünə müraciət edərək nazik ağac budaqlarından düdük düzəltmə adəti türk uşaqları kimi fransız

uşaqlarının da ənənələrində geniş yayılmışdır. Başqa bir tərəfdən, XIV əsrdən qıpçaq əsilli Misirli bir müəllifin türklərlə haqqında qeyd etdiyi bir əfsanəyə görə, onların ulu atalarından biri quşların səsini təqlid edə bilmək üçün ilk dəfə bir "düdük" düzəldibmiş və bu düdüyün adı **sıpsıq** imiş.

Uşaq üçün oyuncağın öz modelinə oxşayıb-oxşamaması bir əhəmiyyət daşımır: uzun, qalın bir dəyənək həmin andaca "at"a çevrilə bilir, yaxud da bir-birinin ardınca düzülmüş stullar "qatar"a. Bir çox hallarda uşağın özü oyuncağın rolunu oynayır, məsələn, uşaq arabaçı olan dostu üçün də, özü üçün də xəyali bir arabaya qoşulmuş at olur və beləcə, bu "canlı" at "oyuncaq" atın yerini tutmuş olur.

"Oyuncaq" sözü "oyun" sözünün kiçiltmə şəkilçisindən istifadə olunmaqla əmələ gəlmiş şəklidir. Bu, bir çox başqa dillərdə də belədir. Oyuncağın ən böyük əhəmiyyəti uşaq balaca olanda daha çox üzə çıxır. Uşaq böyüdükcə onun yerini əməlli-başlı oyunlar alır. Müəyyən bir dövrdən sonra isə oyuncaqlar artıq, sadəcə, oyun üçün bir vasitə halına düşür. Oyuncaq uşaqla o, hələ uşaqların mühitinə daxil olmazdan əvvəl dostluq edir. Vasitəli və ya vasitəsiz oyun isə birdən çox uşağın iştirakının lazım olduğu oyunlarda meydana çıxır.

### 94-cü sual: Oyunları nəyə görə araşdırmalı və öyrənməliyik?

Oyunların mərasimlərlə əlaqələrinə, magik və ənənəvi tərəflərinə yuxarıda yeri gəldikcə toxunduq. Bu gün oyun formasında qarşımıza çıxan göstərilərdən (ələlxüsus uşaq oyunlarından) bir çoxunun kökü qədim mərasimlərə, oyunda oxunan nəğmələrin bir çoxunun kökü magik söz formullarına gedib çıxır. Bu, dinlərin, inancların dəyişməsi ilə öz ciddiliklərini itirərək, əyləncə materialına çevrilməsidir. Bəzi oyunların böyüklər tərəfindən yaxşı qarşılanmaması, uğurlu hesab edil-

məməsi, bəzilərinin isə əksinə, müsbət hesab edilməsi onların çox qədim zamanlara gedib çıxan köklərinə işarə edir. Bundan başqa, bir çoxu quruluş və məzmunlarındakı qarışıqlıq baxımından xalq sənət yaradıcılığının ən maraqlı nümunələrini ortaya qoyur. Bəzi uşaq oyunlarında musiqi, rəqs, söz və tamaşa elementləri bir arada toplanır.

Oyunların tədqiqatı bir-birindən çox uzaq ölkələrdə yaşayan xalqların aralarındakı mədəni mübadilənin çox qədim dövrlərdən başlayaraq bugünə qədər keçib gəldiyi yolları, yerdən-yerə, zamandan-zamana keçərkən məruz qaldıqları dəyişiklikləri öyrənmək baxımından (nağılların, əfsanələrin, ağız dadı olan yeməklərin müqayisəli araşdırmalarında olduğu kimi) böyük əhəmiyyət daşıyır. Uçurtma tipli bəzi oyunlar, məsələn, Çindən dünyanın digər ölkələrinə yayılmış, əsrlər boyunca ayrı-ayrı ölkələrin xalq ənənələrində yaşamış, inkişaf etmiş və formalaşmış, məhəlli və beynəlxalq variantları əmələ gəlmişdir. Bəziləri isə hətta uzaq yerlərə "köç etməyi" bacarsa da, qısa bir müddətdə mövcud olub, yaşamına son verir. Məsələn, 1932-1933-cü illərin "yoyo" oyunu. Bu oyun bir ara Böyük İnqilab illərində Fransada yayılmış, sonralar uzun bir müddət ərzində unudulmuş, daha sonra isə yenidən bərpa edilmişdir. İki il əvvəl Cənubi Amerikadan Avropa ölkələrinə axın etmiş "taka-tika" oyunu da bu gəldi-gedər oyun modasına bir nümunədir.

Amma aşıq-aşıq oyunu kimi bəzi oyunlar Anadolu ənənəsində iki kültür faktorunun (Orta Asiyadan olan türk və qədim Anadolu ənənələrinin) görüşməsini və bundan çıxacaq nəticələri tədqiq etmək baxımından böyük önəm daşıyır. Və daha neçə-neçə oyunlar da araşdırma mövzusu kimi eyni dərəcədə dəyərlidir.

## NƏTİCƏLƏR – SON SÖZ

**95-ci sual: Türk folklorşünaslığının bütün mövzularını əhatə edəcəyi gözlənilən bu kitabda nələr və niyə əskik qaldı?**

Bu kitabın bölünmə sxemi belə olmalı idi:

I. Adət və mərasim (bu mövzular kitabımızda ön sözdən sonrakı beş bölümdə incələnmişdir);

II. Xalq sənətkarlığı;

III. Xalq qurumları;

IV. Gündəlik həyat;

V. Nəticələr.

Bunun yerinə planın tam şəkildə ancaq I və V bölümləri həyata keçirilə bildi. Xalq musiqisi və xalq rəqslərini də öz içərisinə daxil edən xalq sənətkarlığı ilə xalq qurumları və gündəlik həyat mövzularının işlənməsi mümkün olmadı. Bu çatışmazlığın səbəblərini açıqlamağımız, oxucumuza hesabat verməyimiz lazımdır.

Xalq musiqisi, xalq rəqsləri və başqa bu kimi xalq sənətləri bəhslərinin əhatə edilməməsinin tək səbəbi bu işin bizim bacarığımızı aşmasıdır: bu cür yaradıcılıq nümunələrinin hərtərəfli tədqiq olunması başqa bir mütəxəssis tələb edir. Belə mövzuların öz mütəxəssislərinin öhdəsinə buraxılması lazımdır. “100 sual” seriyalı kitablardan birinin türk xalq musiqisi və xalq rəqslərinə həsr olunmasına ümid edirik. Bununla yanaşı yeri gəldikcə, az da olsa, bu cür xalq yaradıcılığı nümunələrinin folklorşünaslığın mövzusu kimi önəminə, onların xalq ədəbiyyatının türkü, ağı, uşaq söyləmələri ilə əlaqələrinə də toxunduq.

Xalq sənətkarlığı kimi rəsm, xəttatlıq, oyma, toxuma, işləmə, yazma, xalça, kilim və s. bu kimi sənətlər və peşələr ilə əlaqədar tədqiqatlar üçün hətta toplanılan materiallar belə çox

azdır. Halbuki bu sahənin mövzuları çox zəngin olub, ölkəmizin sivilizasiya tarixinin müxtəlif suallarına aydınlıq gətirilməsi baxımından geniş perspektivlər açır. Belə materiallar sağlam elmi üsullarla və həm də daha yaxşı olardı ki, etnoqrafiya muzeyləri miqyasında yığılıb, düzəldilib, qruplaşdırılsa, araşdırma və tədqiqatlar üçün etibarlı mənbə olar. Həm də bu sahədəki məlumatları öyrənmə, izah və şərhetmə qabiliyyətinə də ancaq sənətin tarixi üzrə mükəmməl təhsil almış mütəxəssislər sahib ola bilirlər. Bu mövzulara da gələcəkdə "100 sual" seriyasından bir kitab həsr olunmasını arzu edirik.

Digər boşluqlara gəlincə, qeyd etmək istərdik ki, hələ kitabın qaralama variantını hazırlayanda başa düşdük ki, "xalq qurumları" və "gündəlik həyat" başlıqlarının əhatə etdiyi mövzuları layiq olduğu şəkildə tədqiq etmək üçün onlara, ən az, adətlər və mərasimlərə ayırdığımız qədər səhifə ayırmağımız lazım gələcək. Bu isə həm kitabın həcmini onun bir misli qədər böyüdəcək, həm də nəşrini xeyli gecikdirəcəkdi.

**Xalq qurumları dedikdə bir yandan məzhəblər, təriqətlər və başqa dini qurumlar, başqa bir yandan da peşə-sənət birlikləri kimi iş qurumları başa düşülür.** Bu cür quruluşların keçmiş zamanlardakı böyük, nizamlı təşkilatlarının günümüzdəki qalıqları onların keçmiş adət-ənənələrindən bugünə ötürülmüş artıqları olaraq folklorşünaslığın tədqiqat sahəsinə daxil olur. Ancaq onu da vurğulamalıyıq ki, köhnə qurumların bir sistem olaraq inkişafının öyrənilməsi tarixi tədqiqatların predmetidir. Türk xalqının keçmiş zamanlarda müxtəlif din və peşə strukturlarının təşkili və inkişafında yaradıcılıq və iştirak payının müəyyənləşdirilməsi istiqamətindəki tarixi tədqiqatlar (bu mövzuda əhəmiyyətli araşdırmalar və nəşrlər olsa da) hələ çox yetərsiz durumdadır. Bu da folklorşünasın işini kifayət qədər çətinə salır. O, hələlik, əski qurumların ənənəsindən xalq arasında yaşayan, ya da danışılan nə

qalıbsa, onları toplamaq, tərtib etmək və əlinin altındakı tarixi sənətlərin verdiyi imkanlar çərçivəsində dəyərləndirməklə kifayətlənmək məcburiyyətindədir.

**"Gündəlik həyat" adı ilə ifadə etdiyimiz tədqiqat sahəsi istehsal, istehlak, yığıb-saxlamaq üçün vasitə və materiallar, iqamətgah və sığınacaqlar və bütün bunlarla əlaqədar işləri, adətləri, ənənələri, mərasimləri əhatə edir.** Türk folklorşünası bu mövzular haqqında ümumi bir fikrə gəlib çıxmaq bacarığından, hələlik, məhrumdur. Çox geniş olan bu sahədə tədqiqatlar və nəşrlər həm say, həm də keyfiyyət baxımından, hələ ki, kifayət deyil. Folklorun yuxarıdakı bölümlərdə tədqiq olunan faktları və xalq ədəbiyyatının müxtəlif janrlarını tədqiq etmək üçün lazım olan materialların toplanması işinə girişdiyimiz zaman ya insanların danışdıqlarına, yaddaşlarına (yəni şifahi sözlü qaynaqlara), ya da bu materialları bizdən əvvəl yazıya almış qaynaqlara (əlyazmalara, daşbasma kitablarına, kitabxanalara, arxivlərə) müraciət edirik. Şifahi qaynaqları əldə etmək, yazılı qaynaqlardan istifadə etmək, onların tədqiqatçıya çatdırılması o qədər də çətin və ağır deyildir. Amma bir az əvvəl saydığımız faktların tədqiq olunması üçün lazımi materialları ancaq yerində (tarlada, kənddə, yaylaqda...) görmək mümkündür və əlavə edək ki, elə ən sağlam, ən etibarlı üsul da budur. Bunları ayağımıza qədər gətirib-çıxarmağın tək yolu muzeylərə aparıb yerləşdirməkdir, bu iş isə kitabxanaya və ya arxiv qurmağa baxanda daha çətin və ağırdır... Elə bu səbəblərdən də türk folklorunun bu axırıncı məsələləri ilə bağlı toplamalar, tədqiqatlar yetərincə deyildir.

Qısası, "Türk folkloru"nun bu ikinci kitabı xalq ədəbiyyatından kənarda qalan bütün mövzuları əhatə edə bilmədi. Müəyyən çərçivəyə saldığımız plana daxil olan mövzuları da hər aspektdən və istədiyimiz kimi işlədiyimizi də deyə bilmərik. Bunun üçün ayrı-ayrı mövzular üzrə monoqrafiya xarakter-

li nəşrlərlə ensiklopedik vəsaitlərin əl altında olması lazım idi. Orxan Acıpayamlı, Hikmət Tanyu, Sədat Veyis Örnək, Uğurol Barlas, Həmid Qoşay, Ömər Asim Aksoy kimi tədqiqatçıların tək bir mövzu, ya da tək bir bölgə ilə əlaqədar yazdıqları monoqrafiyaların, Türk Dil Qurumunun "Söz Derleme Dergisi"ne əlavə kimi çap etdiyi "Folklor Sözləri" kimi əsərlərin nə dərəcədə yararlı olması xalq ədəbiyyatının və ümumən türk folklorunun bir bütöv olaraq və sistemli plan çərçivəsində öyrənilməsi zamanı üzə çıxır. Türk folkloru mövzularının bir çoxuna isə, ümumiyyətlə, toxunulmamışdır. Aparılmış tədqiqat işlərinin bir çoxu güvənilməz, nəşrlər isə dağınıq haldadır... Bu səbəbdən də birləşdirmə məqsədilə hazırlanan bu kitabın əhatə etdiyi mövzular və bunlara həsr olunan bölümlər arasındakı balans pozulmasından qaçmaq mümkün olmadı. Mütəxəssislərə deyil, adi oxuculara "Türk xalqının adət-ənənələri" haqqında səliqəli ümumi məlumat vermək məqsədi güdən bu kitabda ancaq sağlam nəticələrin verilməsi, statistik məlumatlarla ən tipik nümunələrin sərgilənməsi nəzərdə tutulur. Biz də əlverişli olan mövzularda bunu təcrübə etdik. Yetərli qədər məlumat əldə edə bilmədiyimiz hallarda isə, sadəcə, faktları və onların üzərində durulması lazım olan detallarını saymaqla və həmin mövzular işlənərkən qarşımıza çıxması gözlənilən problemləri müəyyənləşdirməklə kifayətləndik.

**96-cı sual: Türkiyə xalqının ənənələri tədqiq olunarkən qarşıya çıxan əsas problemlər hansılardır?**

Türk xalqının adət-ənənələrinə qarışıqlıq salan faktorlardan biri Türkiyənin coğrafi şəraitinin müxtəlifliyidir. Bunun konkret bir nümunəsini yuxarıda bayramları tədqiq edərkən üstündə dayandığımız "sayaçı" mərasimlərində tapırıq. Bir çox yerlərdə tərəkəmə əhlinin bayramı olan bu mərasimin iqlim və ekoloji şərtləri müxtəlif olan başqa-başqa yerlərdə

qeyd olunma vaxtı kimi məqsədi də dəyişir. Yurd yerlərinin dağlıq, ovalıq, çöllük, sahil boyu olmasından asılı olaraq, Anadolu əhalisinin qiyafələri, əkinçilik alətləri, evləri kimi xasiyyətlərində, adətlərində, inanclarında, mahnılarında da (ölkənin dörd dənizindəki balıqlarının cinsləri və dadlarındakı müxtəlifliklər kimi) saysız variantlaşmalar vardır.

Başqa bir tərəfdən, bu topluluqların bəzilərində coğrafi və iqlim şəraitinin dəyişikliklərinə baxmayaraq. yenə də ortaq adət-ənənələr tapırıq. Türkmənlərin yerləşdikləri kəndlər – Çuxurovada və ya Uzunyaylaqda eyni ağıları oxuyurlar. Yörüklərin qara çadırları hardan-hara köçməklərindən asılı olmayaraq, eyni tipdədir, xalça-kilimlərində eyni motivlər işlənmişdir. Çünki bu topluluqlar eyni etnik kökə aiddirlər. Bir çox hallarda kənd, qəsəbə topluluqları öz köklərinin kim olduğunu bilirlər. Köçəbəlik vaxtlarının xatirələrini unutmamış türkmənlər, yörüklər yerləşən kəndlərdə bu sual ortaya çıxdığı zaman alınan cavab "Atalarımız Xorasandan gəliblər" sözüdür. Başqa hallarda topluluğun dili, antropoloji xarakteri, kəndinin adı, onun etnik kökünü müəyyənləşdirməkdə ipucu ola bilər, amma bu 100% dəqiq nəticə əldə etmək üçün kifayət etməz, yalnız dəlillərin bir-birini dəstəkləməsi, şifahi ənənədəki sözlərlə yazılı faktların üst-üstə düşə bilməsi nəticəsində ümumi qənaətlərə gəlmək olar.

Türkiyənin etnik çöhrəsini həm tarixi **diaschronique**[121], həm də müasir durumu inikas edən **sinchronique**[122] şərtlərə əsaslanaraq, belə sxemləşdirmək olar:

- **XI əsrdən başlayaraq Kiçik Asiyanı kəşf edərək türkləşdirən müsəlman Oğuzlar.** Onlar özləri ilə Orta Asiyanın, Sır-Dəryanın o biri tərəflərinin köçəbə-çoban və müəyyən dərəcədə də əkinçi-kəndçi mədəniyyətini gətirdilər. Amma bu mədəniyyət hələ Anadoluya gəlməmişdən qabaq çinli və ondan daha

[121] Diaxronik – ***Tərcüməçi***
[122] Sinxronik – ***Tərcüməçi***

da böyük ölçüdə iranlılara məxsus elementlərlə zənginləşmişdi. Buddizm, manixeizm, məzdəkilik dinlərindən kifayət qədər çox inanc və adət-ənənələr də qədim zamanlarda türklərin köhnə dinlərinə girmiş, daha sonra da özlərinə uyğunlaşdırılmış formalarda təzə dinlərinə, müsəlman-türk təliminə daxil olmuşdu.

- **Anadolunun kəşfi ilə türklərin hökmü altına girmiş müxtəlif etnik köklərdən olan xristian topluluqları.** Bunlar yaxın vaxtlara qədər həm kəndlərdə, həm də şəhərlərdə müsəlman topluluqlarla normal qonşuluq münasibətlərində olublar. Bugün, demək olar ki, ancaq şəhərlərdə yaşayan bir milli azlıq formasına düşüblər. Xristian topluluqlardan müəyyən vaxtlarda və cürbəcür səbəblərdən və çox zaman da heç bir məcburiyyət olmadan müsəlmanlığı qəbul edən və beləcə türkləşənlər də qədim mədəni irslərindən kifayət qədər çox şeyi qoruyub-saxlayıblar. Xristian və müsəlman topluluqları əsrlər boyunca öz aralarında adət-ənənə, mərasim mübadiləsindən də geri qalmadılar.

- **Osmanlı imperiyasının parlaq dönəmində fəthlərin ardınca imperatorluğun ətraf ölkələrinə Kiçik Asiyanın müsəlman-türk əhalisi axın etmişdir.** Amma eyni vaxtda xarici ölkələrdən Anadoluya da, əhəmiyyəti az ola bilsə də, köçlər oldu. Bunun daha sonrakı bir dönəm üçün konkret bir nümunəsi XIX əsrin əvvəllərində Məhməd Əli Paşanın əsgərləri ilə birlikdə Anadolunun Çuxurova ərazisinə gələrək, burada yerləşən Misirli əkinçiləridir (Ərəb Fəllahın nəsli). Başqa bir nümunə: kölə nəslindən olan Afrikalı zəncilər İstanbul, İzmir, Manisa kimi şəhərlərdə olduqca qələbəlik topluluqlar əmələ gətirmişdilər. Bunların İzmirdə ayrıca məhəllələri var idi. Zəncilərin xalq ənənələrindəki özünəməxsus yerlərinə, pir/ocaqlı kimi əhəmiyyətinə, özünəməxsus bayramlarına yeri gəldikcə toxunduq.

- **Türk əsilli (Krım və Kazan tatarları, Qaraçaylılar, Azərbaycanlılar) və başqa soylardan (boşnaq, pomaq, arnavut, çərkəz, gürcü, ləzgi...) əhəmiyyətli miqdarda müsəl-**

**man topluluqlar Osmanlı İmperiyasının tənəzzül dönəmində ətraf ölkələrdən olan ərazilər əldən çıxdıqca bugün Türkiyə adı altında sərhədləri dəqiq müəyyən olunmuş torpaqlara sığındılar.** Bu böyük köçlərin sonuncuları Qurtuluş müharibəsi ilə İkinci Dünya Müharibəsindən sonrakılardır. Yunanıstanla aparılan əhali mübadiləsinin qəribə inikası Anadoludakı yurd-yuvalarını tərk edib gedən xristianların onların əvəzində gələn müsəlmanların əksəriyyətindən daha çox "türk"lüyünü qorumuş topluluqlar təşkil etməsidir. Buna Anadolunun türkləşməsindən daha əvvəl xristianlaşaraq, Anadoluda yerləşmiş türklər hesab edilir. Yunanıstanda ana dilləri türk dili olan bu Anadoluluların dilləri, folklorları, ənənələri haqqında tədqiqatlar və nəşrlər həyata keçirən ayrıca bir elmi qurum var.

- **Türk əsilli olmayan yerli müsəlmanlar.** Bunlar şərq bölgələrində və dağınıq halda başqa yerlərdəki kürdlər, cənub-şərq bölgələrindəki sami əsilli azlıqlar (gəldanilər, ələvi-nuseyri və sünni ərəblər), Şərqi Qara dəniz sahillərindəki lazlardır. Bu milli azlıqların böyük əksəriyyəti hələ ibtidai və orta məktəb siniflərinin yayıldığı yerlərdə sürətlə türkləşir. Köhnə nəsillərin arasında öz dillərində danışanlar da var. Yeni nəsillər ya iki dildə danışır, ya da öz dillərini unutmuş vəziyyətdədirlər. Amma onlar öz etnik əsillərinə məxsus adət-ənənələri hələ müəyyən bir müddət qoruyub-yaşadacaqlar. Onların mədəniyyətlərinə dair məlumatların hərtərəfli toplanması, dəyərləndirilməsi Türkiyə xalq mədəniyyətinin əksər problemlərinin aydınlaşdırılması baxımından birinci dərəcəli əhəmiyyət daşıyır. Heyf ki, bu istiqamətdə fransız alimi Georgis Dumezilin Qafqaz əsilli olub, Anadoluda özünə yurd salmış topluluqların dilləri və adət-ənənələri haqqında qırx ildən artıq bir müddətdə davam etdirdiyi çalışmalardan başqa, bugünə qədər heç bir iş görülməmişdir.
- **Kiçik Asiyanın xristianlıqdan əvvəlki qədim dövr insanlarının uşaqları müxtəlif siyasi idarəçiliklər (krallıq-**

**lar, imperatorluqlar) boyunca müxtəlif dinlərin birindən o birinə keçərək, bir-birilə qaynayıb-qarışaraq yaşadıqları torpaqların üzərində yaranıb inkişaf edən sivilizasiyaların mirası olan ənənələrdən də müəyyən şeylər götürmüş və bugünlərə qədər gətirib-çıxartmışlar.** Bu mədəni qalıqların nümunələri qab-qaşıq, dulusçuluq məmulatları, iş alətləri, musiqi alətləri kimi şeylərdə, bəzək əşyalarında, simvollarda daha asan müşahidə olunur. Hitit tayfalarından qalan qabartma üsulu ilə işlənmiş əl işlərində Anadolu davulunun, aşığın sazının ən qədim izlərini görürük. Anadolunun Çatal-Öyük qazıntılarında meydana çıxan ən qədim ev qalıqlarının divarlarındakı rəngli əl damğalarının eynisini bu gün də bir çox yerlərdə kəndlilər evlərinin divarlarına vururlar.

Bütün etnik kök, mədəniyyət, dil, din müxtəlifliyinə baxmayaraq, son bir dəfə, ən azı, altı yüzillik bir müddət ərzində bugünkü Türkiyə torpaqlarında siyasi birliyin təmin edilib möhkəmlənməsi kökləri ayrı olan mədəni toplumların, irqlərin bir-biri ilə qarışmasını və ardıcıl ənənə mübadiləsini təmin etmişdir.

Anadolu xalq mədəniyyətinin türk-müsəlman aspektini tədqiq edərkən də başqa problemlərlə qarşılaşırıq. Müsəlman dini Türkiyə ərazisindəki torpaqlarda tək bir inanc və ənənə sistemi deyildir. Müsəlman əhalisinin əksəriyyəti sünni-hənəfi məzhəbindəndir, önəmli miqdarda olmasa da, başqa sünni məzhəbindən olan topluluqlar da vardır. Dəqiq sayı bilinməməklə yanaşı, əhalinin, ən azı, dörddə biri ələvi olmalıdır: kəndli ələvilər (qızılbaşlar), bəktaşilər, taxtaçılar. Anadolu ələviləri isə, bilirik ki, sadəcə İran şiəliyinin qayda-qanunlarına bağlı qalmamış, əksəriyyəti bəlkə də, qədim yerli dinlərin qalıqları olan müxtəlif inanc, adət və ənənələri davam etdirmiş və hələ də etdirməkdədirlər.

Türk folklorunun müxtəlif mövzuları üzərində işləyənlər Anadolu xalqının (tək bir millət kimi “türk” deyə adlandır-

dığımız 45 milyonluq[123] böyük topluluğun) mədəni faktlarının (ənənələrinin, mərasimlərinin, incəsənətlərinin, gündəlik həyat tərzlərinin) müxtəlif köklərə gedib-çıxa biləcəyi barədə əsla unutmamalıyıq. Əlbəttə ki, bu mədəni birliyin əmələ gəlməsində bu millətə adını və dilini verən "Orta Asiyalı Türk"ünün mühüm iştirakı olmuşdur.

Ölkəmizdə Atatürk inqilablarından sonra və onların işığı altında inkişaf edən tarixi və mədəni tədqiqatların müsbət məhsulu yepyeni bir "millət" görüşünün yaranıb-çiçəklənməsi oldu. Bu, Anadolu xalqının keçmişinə və yaşayan mədəniyyətinə yeni bir aspektdən baxışdır. Həmin görüşü müdafiə edənlərin sırasında Səbahəddin Eyyuboğlu, Halikarnas Balıqçısı (Cavad Şakir Qabaağaclı) və Azra Ərhad üçlüyünü hamısından qabaq yada salmalıyıq. Onlar müxtəlif yazılarında irəli sürdükləri əsas fikir budur: Bütün Qərb xalqlarının özlərinə mədəniyyət, sənət, düşüncə qaynağı hesab etdikləri qədim yunan sivilizasiyasında bu xalqlar qədər, hətta onlardan daha çox o sivilizasiyanın ilk beşiyi olan Anadolu torpaqlarının varisi və sahibi olan türk millətinin də payı vardır. Bu fikir Səbahəddin Eyyuboğlunun Qaradəniz horon xalq musiqiləri haqqında yaranmış bir mübahisə ilə bağlı yazdığı bu sətirlərdə qısaca şəkildə belə xülasə olunur: "...Bəlkə, horon Orta Asiyadan gəlmişdir, dəqiq deyə bilmərəm. Amma mənim bilmək istədiyim bir şey var, o da budur: bu ölkənin öz tarixi hələ də hardasa öz yaşamını davam etdirir? Biz bu torpaqlardakı bütün xalq tamaşalarını dayandırdıqmı, bütün xalq mahnılarını susdurduqmu? Nə dəyərli şeyimiz varsa, hamısını xaricdənmi almışıq? İnsafın olsun, ay fanatik qardaş! İcazə verin, mənimsəyək vətənimizin tarixini. Ziya Göyalpın tarixi zərurətlərlə uzaq və məchul ölkələrdə axtardığı vətən, Ana Vətən bizim üçün adaları və Ru-

---

[123] Bu gün həmin topluluq 80 milyon civarındadır – ***Tərcüməçi***

melisi ilə birlikdə Anadoludur. Başqa yerlərdə qardaş-bacılarımız, uzaq-yaxın qohumlarımız ola bilər. Amma Türkiyənin əsl kökləri Türkiyədədir. Atatürkün dil və tarix nəzəriyyələrini də səhv başa düşməməli: bunlar onun bu torpaqlardakı bütün dəyərləri mənimsəmək qeyrətindən üzə çıxırdı. "Yunan türkdür" deməklə biz bu ölkənin Yunanlardan əvvəl də sahibi idik, "Əsil yunan da elə Anadoludan çıxmadır" demək istəyirdi. Son illərdə torpaqlarımızdan bir-bir baş qaldıran Eti tanrılarının gülümsəyərək demək istədikləri də elə budur".

Hər mədəni faktı Orta Asiya-Türk faktoru ilə izah etmək işin asan olanına qaçmaq, tələsik və insanları yanıldan nəticələr əldə etməkdən başqa bir şey deyil. Amma təşəkkül və inkişaf zəncirinin halqalarını tamamlamadan, hər bir adət-ənənəni, hər bir inancı bilavasitə üstündə yaşadığımız torpaqlarda formalaşmış bir mədəni kökə aparıb çıxarmağa çalışmaq da eyni dərəcədə yanılda bilər. Türklərin Anadoluya gəlməmişdən qabaq da əvvəllər yaşadıqları yerlərdə və köç yolları boyunca Anadoludakı sivilizasiyaların bir çox elementlərinin yayıldığı yerlərdə adət-ənənə mübadiləsində olduqlarını unutmamaq lazımdır. Xalq adət-ənənələrinin köklərini araşdırmaq kimi qarışıq bir cəhddə ən düzgün üsul ən yaxın inkişaf formalarından ən uzaqlarına doğru əmin və ehtiyatlı bir şəkildə izahlar verməkdir. Sağlam nəticələrə çata bilməyin bir şərti də araşdırmaları tək istiqamətli deyil, ən azı, iki istiqamətli aparmaqdır: yəni türkşünaslıq (Türkiyə xalqının mədəniyyətindəki Orta Asiyalı qatışığını araşdırmağı qarşısına məqsəd qoyan elm mənasında türkologiya) ilə türklərdən əvvəlki Anadolunun tarixi, arxeologiyası, mifologiyası, din tarixi, dilçiliyi... bir-birini tamamlamalıdır. Folklorşünas bu qədər geniş elm sahəsini əhatə edə bilməz. Onun görə biləcəyi iş bir tərəfdən müxtəlif elm sahələrinə onların işinə yarayan materiallar vermək, başqa bir tərəfdən də, həmin elm sahələrində əldə edilən

həqiqətlərin işığı altında pillə-pillə qabağa gedərək, öz mövzuları ilə əlaqədar şərh və izahlar verməyi təcrübə etməkdir.

**97-ci sual: Türk folklor araşdırmalarını çətinləşdirən əsas faktorlar hansılardır?**

Türkiyənin sosial quruluşu Cümhuriyyətin qurulmasından keçən son 60 illik sülh dönəmində böyük dəyişikliklərə uğramışdır. Əhalinin sayı ildə orta hesabla yarım milyon olmaqla on milyondan qırx beş milyon nəfərə gəlib-çatmış, digər bir tərəfdən də həm bu demoqrafik sıçrayışa görə, həm də əkinçiliyin mexanikləşdirilməsi və ixtisaslaşması nəticəsində kənd əhalisinin əksəriyyəti şəhərlərə axın etmiş və bunun nəticəsində şəhərlərdə korlanmış bir kənd həyatı ilə şəhər həyatının ortasında qalan topluluqlar (gecəqondu topluluqları) meydana çıxmışdır. Sənayenin inkişaf etməsinin nəticəsində köhnə sosial şərtlərlə müəyyənləşən istehsal texnikası və onlarla əlaqədar adət-ənənələr itib-getmiş, buna qarşılıq kimi “turizm sənayesi” xalq sənətlərinə, əl işi sənətlərinə, hətta söz və musiqi sənətlərinə münasibətdə bunların öz təbii şərtlərinə zidd, qarşı, süni olan bir canlanma imkanı təmin etmişdir.

Folklorun mövzusu olan adət-ənənələr, qurumlar, sənətlər öz normal formalaşma və inkişafını cəmiyyətin sənayeöncəsi yaşayış şərtləri içərisində sürdürə bilir və onlar haqqında ən düzgün, ən sağlam məlumatlar öz təbii şəraitində yaşayarkən əldə olunanlardır. Türk folkloru adət-ənənələrin o dövrünə gedib-çata bilmədi. Bugün isə biz onları ya yaddaşlarda qalan xatirələrdən, öyrənəcəyik, ya da hələ də bəzi yerlərə sığınaraq yaşamaq imkanı tapdığı ərazilərdə tədqiq edəcəyik. Addımbaşı qabağımıza çıxan “folklor tamaşalarının”, “kəndlilərin əl işi” deyə bazarda turistlərə topa-topa sırınan əşyaların etiketlərinə inanmaq olmaz.

Öz düşüncələrimizi konkret misallar əsasında izah edək. Türk xalqının rəqslərinin variantları tədqiq olunarkən qadın

rəqsləri, kişi rəqsləri, həmçinin qadın və kişilərin birgə oynadığı qarışıq rəqslər olmaqla üç böyük qrup üzə çıxır. Türkiyədə və Avropanın müəyyən şəhərlərində təşkil olunan “xalq rəqsləri festivalları”nda (indi bunlara “folk rəqsləri” deyirlər) bu qruplara ayırma yoxa çıxmışdır, rəqslərin, demək olar ki, hamısı “qadınlı-kişili” oynanılan rəqslər olmuşdur. Əgər söhbət, sadəcə, bir festival tamaşasından, ya da bir məktəb tədbirindən gedirsə, belə edilməsinə heç bir sözümüz yoxdur. Belə ki, bunların aralarında çox uğurlu, çox gözəl olan rəqslər də vardır. Amma xalq rəqslərinin quruluşunun, yerli xüsusiyyətlərinin, funksiyalarının, mərasimlərlə əlaqələrinin öyrənilməsi zamanı bunlardan sağlam, etibarlı folklor ənənəsi kimi istifadə etmək olmaz. Necə ki, Behcət Kamal Çağların Ankaralı Aşıq Ömər adı ilə yazdığı şeirlər müasir dövrümüzün aşıq şeirinə nümunə ola bilmir. Anadolunun müxtəlif bölgələrindən toplanmış xalq mahnıları da radioda eyni aqibətə məruz qalır. Radioda “Mahnı eşitdiyimiz ritmi, melodiyası və sözləri ilə hansı bölgənindir?”, “Yerli ənənədə hansı alətin müşayəti ilə oxunur?”, “Bir adamla oxunur, yoxsa xorla?”, “Sözləri olduğu kimi qorunubmu?” suallarına dəqiq cavab tapa bilməyəcəksiniz. Radioyayımın tranzistorlar sayəsində bugün yurdumuzun ən ucqar ərazilərinə qədər gedib-çatdığını nəzərə alsaq, xalq mahnıları tədqiqatlarının necə böyük, ziddiyyətli problemlərlə qarşılaşa biləcəyini aydın başa düşmək olar.

Yeni sosial şərtlər yerli və regional xüsusiyyətləri aradan qaldıran təzə ənənələr yaradır. Bunlar isə artıq folklorşünaslığın deyil, sosioloji tədqiqatların mövzusu olacaq faktlardır. Üç il bundan əvvəl İzmirin bir kəndində iki gəncin toyu iki ayrı mərasimlə keçirildi: biri kəndin içərisində, qədim adət-ənənələrə uyğun bir şəkildə, o biri oğlan və qız evlərinin “şəhərdən olan” tanışları üçün İzmirdə kirayəyə götürdükləri bir salonda çalğılı, rəqsli bir ziyafət formasında. Müasir dövrümüzdə kənd toylarının

da əksəriyyətində avtomobil, cip, traktorun kabinə hissəsi, qədim adət-ənənələrdəki at və faytonun yerini tutur və bununla da atlı, faytonlu gəlin karvanlarına xas bir çox adətlər də itib-gedir.

**98-ci sual: Folklora dair müxtəlif mövzularda toplama işləri hansı şərtlərə uyğun aparılmalıdır? Toplanma işi aparılarkən əməl olunmalı əsas qaydalar hansılardır?**

Folklorşünasın əsas vəzifəsi xalq həyatını olduğu kimi, heç bir sünilik qatmadan təqdim etməkdir. O, ən etibarlı qaynaqları, əlbəttə ki, adət-ənənələrin hələ də canlı-canlı yaşadığı yerlərdə tapacaqdır. Onun hər şeydən əvvəl bu mənbələri axtarması və istifadə etməsi lazımdır. Amma fikrimizcə, adət-ənənələrin yumşaldığı yerlərə ötəri yanaşmaq da düzgün deyildir. Eyni bir bölgənin xarici təsirlərdən qorunmuş yerlərində sağlam, canlı qalmış ənənələrlə yeni həyat şəraitinin təsir göstərdiyi mühitlərdə korlanmış ənənələrin müqayisəsi folkorşünaslıq üçün olduğu qədər, sosiologiya və sosial psixologiyanın da ən müxtəlif problemlərini həll etmək üçün əhəmiyyətli ola bilər. Bundan başqa, ənənələrinin öz qədim canlılığını və zənginliyini itirmiş bir bölgə, bir yer müəyyən mövzular qrupu üçün yeganə bir qaynaq rolunu oynayırsa, o halda oradan nəyi xilas etmək mümkün olsa, o da bir qazancdır. Belə ki, əli gələn materialların natamam, korlanmış, şikəst formalarından onların əsillərinin necə olmasını bərpa edə bilərik. Və bu zaman eyni bölgədən bir-birini tamamlayan müxtəlif variantlar ələ düşərsə, bu, lap yaxşı olar. Nağıl, türkü, ağı kimi xalq ədəbiyyatı mətnlərində olduğu kimi, adət-ənənələrdə, mərasimlərdə də bu üsulun faydalı nəticələr verdiyini bilirik. Necə ki, arxeoloqlar qazıntılarda tapdıqları qırıq, yarımçıq hissələrdən bir heykəlin, bir qabın əsl formasını tapıb tamamlamaya bilirlər.

İyirmi beş il bundan əvvələ qədər də folklorçuların tək toplama vasitəsi kağız-qələm idi. Səsyazma aparatları bugün-

kü kimi geniş yayılmış və praktiki deyildi. Ancaq xalq mahnılarını toplayarkən istifadə olunurdu. Toplayıcı o zamanlar türkü, təkərləmə, nağıl, rəvayət və s. janrları söyləyənin ağzından çıxdığı kimi, yəni toplanması lazım olan mətnləri bütün təhkiyə, dil, forma xüsusiyyətləri ilə birlikdə kağızlara köçürməkdə çətinlik çəkirdi. Belə mətnlərdə danışılanın, ya da oxunulanın təbii tempini pozmamaq, danışanı, oxuyanı ağır və ya dayana-dayana danışmağa məcbur etməmək lazımdır. Bugün istənilən yerə aparılması asan, işlədilməsi çox praktiki, kiçik qutu formasında olması ilə heç kəsi ürkütməyən səsyazma aparatları sayəsində artıq bir narahatçılıq qalmamışdır. Amma yenə də toplayıcının diqqət etməli olduğu bəzi məqamlar vardır. Hər şeydən əvvəl danışanı, söyləyəni ("qaynaq şəxsi") səsyazma aparatı ilə təkbaşına qoymamaq, onun üçün nağılı danışarkən, ya da xalq mahnısını oxuyarkən öz təbii mühitini təmin etmək, ətrafına onu maraqla dinləyəcək tamaşaçılar yığmaq lazımdır. Toplayıcı lazımi izahlar üçün danışanın sözünü kəsməməli, öz suallarını yadında saxlamalı, ya da dəftərçəsində qeyd etməli və bu sualları mətnlərin toplanması işi qurtardıqdan sonra soruşmalıdır. İzahlar (hamı tərəfindən başa düşülməyən yerli sözlər, ifadələr, yer və adam adları ilə əlaqədar məlumatlar və s. ) zamanı yaranan mübahisələrdə dinləyicilərin də iştirakını təmin etməsi yarımçıqlıq olan hissələrin tamamlanmasına daha çox fayda verə bilər.

Bəzi mövzular üzrə səsyazma aparatı və s. texniki vasitələrdən istifadə olunmadan da iş görülə bilər. Adət, ənənə, inancları öyrənməyin ən qısa və ən sağlam yolu araşdırma aparılan mühit içərisindəki insanların gündəlik həyatlarında iştirak etməklə, onlarla yaxın dostluq, qardaşlıq münasibəti qurmaqla mümkündür. Bu üsul xalq ədəbiyyatının, xalq dilinin atalar sözləri, deyimlər, qarğışlar, alqışlar kimi bir çox nümunələri üçün də yararlıdır. Lətifələr və heyvanlar haqqındakı

hekayələr kimi kiçik epik janrlar da əksər hallarda məişət söhbətləri içərisində yeri gəldikcə misal gətirmək üçün istifadə olunur. Bu cür materialların toplanması zamanı toplayıcının (lazım gələrsə, kiçik qeydlər apararaq, ya da yadında saxlayaraq) ilk imkan olan kimi, tək qalanda əldə etdiyi bütün məlumatları isti-isti qaydasına salması, onları yaddaşının və qeydlərinin köməyi ilə tamamlaması, hər faktın istifadə edildiyi, tətbiq olunduğu yeri, vəzifəsini, mənasını, izahını müəyyən etməsi lazımdır. Qarşısındakı insanı sorğu-sual etmə üsulu ilə işləmək əksər hallarda uğurlu nəticə vermir. Sorğu-sual siyahıları folklor toplayıcılarına bələdçilik etmək, tədqiqatın yarımçıq qalmasının qarşısını almaq məqsədilə tərtib olunur. Başqa sözlə, bu siyahıları adət-ənənələrini, yaşayışlarının cür-bəcür tərəflərini öyrənmək istədiyimiz şəxslərə sual verərək doldurulacaq "anket formaları" kimi anlamaq lazım deyildir.

Tək bir yerdə, bir məsələ üzrə olsun, yaxud bir neçə məsələ üzrə, ətraflı araşdırmalar aparan tədqiqatçı hər tərəfli öyrənmək istədiyi cəmiyyətin həyatında uzun müddət iştirak etməlidir. Əgər həmin cəmiyyətin həmyerlisi, yaxud övladıdırsa, bu zaman məsələ asanlaşır, yox, əgər belə deyilsə, özünü bir təhər onların "övladına çevirməlidir". Bölgələrdən birində ailə üzvləri haqqında verilən suala kəndlinin verdiyi fərasətli cavab belə olub: "Əvvəllər kəndlinin evindəki adamların sayı çox imiş... İndilərdə isə ana, ata, uşaqlar... Bir də etnoqraf".

Müsahibə planları barəsində diqqət yetirməli olduğumuz bir məsələ də var: yuxarıda toylar barədə danışanda bu problemə toxundum. Ənənələrin "əvvəlki formaları"nı keçmişə qayıtmaq imkanından məhrum olduğumuza görə, sadəcə, xatirələrdən öyrənə bilirik. Toplayıcı bu yolla əldə etdiyi məlumatların keçmişlə əlaqəsinin olduğunu açıq-aydın vurğulamalıdır ki, xatırlanan faktlardan bugün də yaşayanlarının olub-olmadığını müşahidə yolu ilə əldə edəcəyimiz məlumatlar sayəsində

dəqiqləşdirmək mümkün olsun. Yaşayan adət və ənənələri öyrənmək üçün ən sağlam metod, əlbəttə ki, birbaşa yerində görüb müşahidə etməkdir. Görmədən, eşitmədən, sadəcə, "qaynaq şəxslər"in verdikləri məlumatlara əsasən toplanan materialların isə bu üsulla əldə edilmiş olduğu açıq şəkildə göstərilməlidir. Əlbəttə, bu materialların hansı üsulla toplandığı haqda məlumat olarsa, bunlar da folklorşünası müqayisələr, tamamlamalar, ən əhəmiyyətlisi yerində müşahidə etməklə araşdırmalar aparmağa həvəsləndirmək baxımından faydalıdır.

Bir çox mövzular üçün səsyazma aparatının işini tamamlayacaq fotoaparat, cədvəl, plan və s. iş üsulları ilə əlaqədar danışmayacağam. Rəqslər, tamaşalar, uşaq oyunları tipli tamaşalar üçün usta nağılçıların, mahnıla oxuyaraq dastanlar danışmağın ustası olan aşıqların səs və melodiyaları ilə yanaşı, hərəkətlərini mimikalarını, dinləyici və tamaşaçıların duruş və davranışlarını, veriləcək reaksiyanı müəyyənləşdirməyi, bunların bir sənəd kimi dəyərinin heç bir detalının itirməməsini ancaq rəngli filmlər təmin edə bilər. Çox inkişaf etmiş və xərc tələb edən vasitələrlə işləməyə, əlbəttə ki, öz hesabına və tək başına iş görən tədqiqatçının maliyyə və texniki gücü çatmaz: bu cür imkanlara yalnız müxtəlif mütəxəssislərdən ibarət işçi qrupları ilə çalışan araşdırma qurumları malikdir.

**99-cu sual: Materialları qruplaşdırmaq və arxivləşdirmək nəyə görə lazımdır? Bu işlər necə həyata keçirilməlidir?**

Toplama işi aparılarkən bir tərəfdən də xalq ədəbiyyatı mətnlərini və müxtəlif mövzular üzrə aparılan tədqiqat işlərindən toplanan məlumatları müəyyən bir sistematik ardıcıllığa əməl edərək qruplaşdırma, sıralama, arxivləşdirmə işini görmək lazımdır. Hər tədqiqatçının öz tədqiqat sahəsinə və o sahədəki məsələlərə yanaşma üsuluna görə bir qruplaşdırma planı ola bilər. Planın maddələri tədqiqatçının gözdən keçirdiyi mövzu-

dakı məsələlərin araşdırılma dərinliyindən asılı olaraq artıb-azalır. Geniş bir bölgən, ya da tək bir yer (bir qəsəbə, bir kənd) bütün mövzular üzrə öyrənilirsə, qruplaşdırmanın ilk qaralamasında hissələrin sayı az ola bilər. Amma təkcə bir mövzu üzrə toplamalar aparılırsa, materiallar, mətnlər yığıldıqca qruplaşdırma sxemindəki qrupların, altqrupların da sayı əldə edilən materialların müxtəlifliyinə görə çoxalacaqdır. Bəzi mövzular üçün beynəlxalq səviyyəli müqayisəli tədqiqatları asanlaşdırmaq məqsədilə kataloqlar tərtib olunmuş və çap edilmişdir, bəzi mövzular üçün də, sadəcə, bir xalqın folklor mətnləri əsasında hazırlanmış qruplaşdırma nümunələri vardır. Bu hazır və yoxlanılmış qruplaşdırma sxemlərini (lazım gələrsə, çatışmayan tərəflərini tamamlamaqla) toplanmış materiallara tətbiq etmək təcrübi baxımdan (ölkə ərazisində və ölkədən kənarda qarşılıqlı ortaq işləri asanlaşdıracağını da düşünərək) yerinə düşər.

Biz türk folklorunun mövzuları üçün ilk qaralamasını qırx il bundan əvvəl hazırladığımız və təshih edərək bu son şəklə saldığımız sxemi təqdim edirik. Bu, mövzuların detallarına gedib-çatmamış bir sxemdir. “Türk Folklor Araştırmaları”nda 1949-cu ildən bu yana çap olunan sənəd və məlumatları tanıtmaq məqsədilə “Oriens” jurnalında 1957-ci ildən başlamaqla verdiyimiz yazılarda da bu çərçivədən istifadə etmişik.

I. Müxtəlif mövzuları əhatə edən jurnal və kitablar (Bu bölüm arxivləşdirmədə ancaq qədim əlyazmalar, cünglər, ya da sistemləşdirilməmiş toplamaları bir arada verən dəftərlər üçün etibarlıdır.).

II. El şairləri.

III. 1) Dastanlar (“epos” mənasında); 2) Məhəbbət dastanları.

IV. 1) Nağıllar; 2) Lətifələr.

V. Əfsanələr.

VI. 1) Atalar sözləri; 2) Tapmacalar; 3) Alqışlar, qarğışlar, andlar və bu tipli qəlib sözlər.

VII. Xalq şeiri: 1) Xalq mahnıları; 2) Manilər; 3) Təkərləmələr; 4) İlahilər və başqa dini şeirlər.

VIII. 1) Xalq musiqisi və musiqi alətləri; 2) Xalq rəqsləri.

IX. 1) Oyunlar və xalq idman növləri; 2) Xalq teatrı; 3) Başqa xalq əyləncələri.

X. İnanclar.

XI. Adətlər və mərasimlər.

XII. 1) Xalq sənətləri; 2) Peşələr; 3) İstehsal-istehlak, yığıb-saxlama (bunlarla əlaqədar ənənələr, əməllər, işlər və vasitələr); 4) Emalatxanalar, sığınacaq və bunlar üçün əşyalar; 5) Geyim, paltar, bəzək əşyaları.

XIII. Qurumlar: 1) Dini qurumlar (təriqətlər); 2) Sənət-peşə qurumları; 3) Gənclik təşkilatları.

XIV. Təbiət haqqında biliklər və təbiətə təsiretmə: 1) Cadu, tilsim; 2) Xalq həkimliyi və baytarlığı, bitkilər haqqında məlumatlar. 3) Astrologiya və xalq təqvimi.

Arxivləşdirmə işi daha incə detallara qədər enməyi tələb edən bir qruplaşdırmadır və materialların sayı çoxaldıqca onlardan istifadəni asanlaşdırmaq, ən kiçik faktlara qədər axtarılacaq məlumatın tapılmasını təmin etmək üçün lazımi səviyyədə hazırlanmalıdır. Yuxarıda haqqında danışdığımız nağıl və oyun kataloqları arxivləşdirmənin müəyyən mövzular üzrə gəldiyi praktik nəticələrdir.

Qruplaşdırma ayrı-ayrı tədqiqatçıların təkbaşına topladıqları materialları bir sistem halına salmaqla onların öz işlərini asanlaşdırır. Bu, fərdi şəkildə aparılan işin bir mərhələsidir. Bir ölkənin, ya da geniş bir bölgənin xalq adət-ənənlərini komanda şəklində çalışan elmi işçilərin zəhmətləri sayəsində bir araya gətirən, sayları minləri, onminləri keçən materiallarla meydana çıxan arxivlərin məqsədləri isə eynən əlyazmalar kimi, çap oluna bilməmiş materiallardan elm adamlarının və ya başqa maraqlananların istifadə edə bilmələrini təmin et-

məkdir. Bunun texnikası materialları indeksləşdirib, işlək vəziyyətə gətirməkdən ibarətdir. İndekslər, "açar sözlər" dediklərimiz mövzuları, adları, mənaları, formaları, janrları, motivləri... göstərən sözlərin əlifba sırası ilə düzülməsindən meydana çıxmış siyahılardır. Bu "açar sözlər" arxivlərdə çap olunmamış forması ilə kataloqlar şəklində qorunub saxlanılır.

**100-cü sual: Materiallar hansı yollarla və necə dəyərləndirilir? Onlardan kimlər və necə istifadə edirlər?**

Tutaq ki, xalq ədəbiyyatı mətnləri, və ya xalqın müxtəlif adət-ənənələri ilə bağlı məlumatlar yuxarıda haqqında danışdığımız üsullarla toplanaraq arxivlərdə, muzeylərdə qruplaşdırılmış, sıralanmış bir halda yığıldı, yaxşı, bəs bunlar nə işə yarayacaq? Bu halda ağlımıza "Bunlar bir kolleksiya yaratmaq üçün yığılır?", yoxsa, "Bunun başqa bir mənası da var?" sualları gəlir.

Bu məlumatlar bankından hər şeydən əvvəl müxtəlif elm sahələrində işləyən mütəxəssislər istifadə edəcəklər. Bugün artıq yaşanmaz hala düşmüş ənənələr, quruluşlar, sənət əsərləri, texnikalar haqqında arxivlərdə, muzeylərdə yığılmış məlumat və materiallar, mətnlər tarixi sənəd əhəmiyyəti daşıyır. Yazılı tarixi qaynaqlar bizi xalqın həyatı və problemləri ilə əlaqədar lazım olduğu qədər məlumatlandıra bilmir. Müasir dövrümüzdə yaşayan adət, ənənə, mərasimlər və s. haqqında əldə edə bildiyimiz məlumatlar isə müxtəlif sosial problemlərin tədqiq edilməsi baxımından laboratoriya materialları dəyərindədir.

Xalqın davranışını, dünya görüşünü, müxtəlif problemlərə, hadisələrə münasibətdə hərəkət tərzini, bir ölkənin sosial quruluşundakı təşəkkül və inkişaf proseslərini müşahidə edə bilmək üçün xalq kütlələrinin keçmiş və müasir həyat tərzini bütün aspektlərdən öyrənmək lazımdır. Xalqın sosial tərəqqisinə maneə olan adət-ənənələrlə ən uğurlu mübarizə onları görməmək, alçaltmaq, pisləmək, tənqid etmək, qadağan et-

məklə deyil, onları yaradan və yaşadan sosial şərtləri bilmək və aradan qaldırmaqla mümkün ola bilir.

Folklorşünasın vəzifəsi əlindəki faktlarla müxtəlif elm sahələrini (sosiologiya, iqtisadiyyat, tibb, baytarlıq, biologiya, əkin tarixi, sənət tarixi, arxeologiya, mifologiya və s.) onlar üçün əlçatmaz olan məlumatlarla zənginləşdirmək, onları daha geniş və dərin izahlarla təmin edən ilk lazımi şərhləri verməkdir.

Müasir sənət və ədəbiyyat məhsullarının xəlqi və qlobal güc əldə edə bilməsində xalq adət-ənənələrinin qidalandırıcı rolu barədə çox şeylər deyilib, ona görə də haqqında çox danışmayacaq, yalnız başqa səbəblərdən də dəfələrlə haqqında danışdığım bir fikrimi təkrar etməklə kifayətlənəcəm.

Sənətkar üçün xalqın bütün həyatı, ənənələri, müxtəlif sənət və ədəbiyyat məhsulları bir "məktəb"dir. Sənətkar bu mövzular üzrə təhsilini folklorşünaslığın toplayıb, hazırlayıb, təqdim etdiyi materialların vasitəsilə dərinləşdirdiyi kimi, eyni zamanda bilavasitə xalqın arasında yaşayaraq da həyata keçirə bilər (Bu axırıncı məsələdə şəyirdlik təhsilinin necə üstün bir dəyər olduğuna ədəbiyyatımızın son 35-40 il ərzində yetişdirdiyi kənddən çıxmış yazıçılarımızın əsərləri canlı bir sübutdur.). Amma müasir sənət xalq ənənələrinə romantik bir həsrət və bənzəmə səviyyəsində yanaşarsa, qısır bir təqlidçilikdən irəli gedə bilməz və cəmiyyətin irəliyə doğru atdığı addımlarda mühafizəkar faktora çevrilər. Yaradıcılığında və düşüncə gücündə xalq ənənələrindən daha irəliyə gedə bilən, bu bacarığı ilə onu daha yaxşı, daha gözəl olana, daha xoşbəxt bir gələcəyə doğru apara bilən sənətkar öz əsərlərinə xəlqi və qlobal bir güc qazandıra bilər.

## M Ü N D Ə R İ C A T

**Görkəmli türk folklorşünası Pertev Naili Boratav (*S.Əliyeva*)..........................................................................3**

**GİRİŞ**
**1-ci sual:** Bu kitabda hansı mövzular işlənəcəkdir?..............6

**I BÖLÜM. İNANCLAR VƏ TÖRƏ QAYDA-QANUNLARI**

**2-ci sual:** İnanc dediyimiz zaman nə başa düşürük?..............9
**3-cü sual:** İnanclar xalqın dili və davranışlarında necə mənalanır? Onları hansı mənbələrdən əldə edə bilərik?.........10
**4-cü sual:** Kainatla bağlı inamlar hansılardır?.......................13
**5-ci sual:** Günəş və Ayla bağlı inanclar hansılardır?.............18
**6-cı sual:** Ulduzlara dair inanclar hansılardır?.......................23
**7-ci sual:** Xalq inanclarında kainatın sonu və o biri dünya necə təsəvvür edilir?..........................................25
**8-ci sual:** İnsan və insan bədəni ilə əlaqədar nələrə inanırlar?..................................................................30
**9-cu sual:** Can nədir? Haradadır? Yuxu və ölüm necə olur? .....33
**10-cu sual:** Xalq inanclarında insanlar cins və yaş baxımından necə təsnif təsnif olunur?.............................35
**11-ci sual:** İrq və nəsil qruplaşdırmaları ilə əlaqədar inanclar və hökmlər hansılardır? ..........................................39
**12-ci sual:** Din və məzhəb ayrı-seçkiliyi inanclarda necə üzə çıxır?.....................................................................43
**13-cü sual:** Başqaları tərəfindən sosial çeşidlənmə və bunlarla əlaqədar inanclar hansılardır?.................................46
**14-cü sual:** Xalq inanclarında peşələrin və bazar adamlarının qruplaşdırılması necə izah olunur?....................48
**15-ci sual:** Fövqəltəbii gücləri olan insanlar kimlərdir?........49
**16-cı sual:** Övliyalar hansı qeyri-adi işlərə qadirdirlər? ........53
**17-ci sual:** Hansı təbiət hadisələri hansı inancların mövzusu ola bilir? .................................................................56

**18-ci sual:** Dağlar, qayalar, su mənbələri, göllər və çaylarla əlaqədar hansı inanclar vardır? ..................................59
**19-cu sual:** Bitkilərlə əlaqədar inanclar hansılardır? .............66
**20-ci sual:** Heyvanlarla bağlı nələrə inanırlar? .......................69
**21-ci sual:** Çevrilmələrin növləri və onlarla əlaqədar inanclar hansılardır? ..............................................................77
**22-ci sual:** Cansız maddələr, əşyalar və qidalarla əlaqədar nəyə inanırlar? Bunlarla necə rəftar edirlər? ...........................79
**23-cü sual:** Mənzil və sığınacaqlar inanc mövzusuna çevrilə bilərmi?.......................................................................83
**24-cü sual:** Mədən quyuları və xəzinələrlə əlaqədar inanclar varmı?......................................................................85
**25-ci sual:** Qədim böyük tikililər və xarabalıqlar haqqında hansı inanclar var?..................................................................87
**26-cı sual:** Fövqəltəbii varlıqların növləri, gördükləri işlər və onların insanlarla münasibətləri necədir? ..................91
**27-ci sual:** Hansı işlər necə, nə vaxt, harada edilməli və ya edilməməlidir? ............................................................98
**28-ci sual:** Hansı ifadələr hansı inanclarla bağlıdır?..............104
**29-cu sual:** Şəxs adlarının və ləqəblərin xüsusi əhəmiyyəti, mənası və cadu effekti vardırmı?........................107
**30-cu sual:** Sayların xüsusi əhəmiyyəti və mənaları vardırmı? ..................................................................110

## II BÖLÜM. TƏBİƏT BİLGİSİ – TƏBİƏT QANUNLARINA TƏSİR ETMƏYİN YOLLARI

**31-ci sual:** Uğur nə deməkdir?..............................................114
**32-ci sual:** "Bərəkət" sözünün "uğur" sözündən fərqli bir mənası vardırmı?...................................................115
**33-cü sual:** "Yozum" sözündən nə başa düşürük? Hansı hadisələr və davranışlar necə yozulur? ........................117
**34-cü sual:** Fal nədir və hansı növləri vardır? .......................122
**35-ci sual:** Nəzər nə deməkdir? Kimin, kimə, nəyə nəzəri dəyə bilər?...........................................................126

**36-cı sual:** Nəzərdən necə qorunmaq olar?............................127
**37-ci sual:** "Cadu" anlayışının içərisinə nələr daxildir?.........128
**38-ci sual:** Caduların hansı növləri vardır?............................129
**39-cu sual:** Caduların quruluşu necə olur?
Onların məzmunu nədən ibarətdir? ........................................131
**40-cı sual:** Bəd cadulardan necə qorunmaq və
təsirlərini necə aradan qaldırmaq olar?..................................135
**41-ci sual:** “Ocaq” nədir və cadularla
nə kimi əlaqəsi vardır? ..........................................................137
**42-ci sual:** Üfürmə, əfsun və s. əməllərin
hansı xüsusiyyətləri var? .......................................................141
**43-cü sual:** Musqa (dua kağızı), göz muncuğu,
tilsim nə iş görür?..................................................................145
**44-cü sual:** "Xalq təbabəti" ifadəsindən nə başa düşürük?....149
**45-ci sual:** Xalq təbabətinin cadu xarakterli sağaltmaq
üsulları hansılardır? ..............................................................150
**46-cı sual:** Xalq təbabətində başdan-başa həqiqi,
rasional metodlardan da istifadə olunurmu?...........................155
**47-ci sual:** Heyvanların sağlamlığı ilə əlaqədar
ənənələr hansılardır?..............................................................157
**48-ci sual:** Heyvanların sağlamlığını qoruma üsullarından
hansılar magik səciyyə daşıyır?..............................................159
**49-cu sual:** Təqvimlərə, hava dəyişikliklərinə,
mövsümlərə və aylara dair xalq ənənələri hansılardır? ..........160
**50-ci sual:** Yağış, soyuq kimi hava şərtlərinə
hansı magik tədbirlərlə təsir edilir? ........................................169

**III BÖLÜM. BEŞİKDƏN MƏZARA QƏDƏR KEÇİD MƏRASİMLƏRİ**

**51-ci sual:** Övladının olmasını istəyən qadın hansı
çarələrə üz tutur? Bəs uşaq istəməyən nə edir? ......................175
**52-ci sual:** Doğuş vaxtı və zahılıq dönəmində hansı
qaydalara əməl edilir? Zahını və ya uşağı qorumaq
üçün nələrə əməl olunmalıdır? ...............................................181

**53-cü sual:** Doğuşdan sonra görülən
əsas tədbirlər hansılardır? .......................................................187
**54-cü sual:** Uşağın anadan olduğu ilk aylar ərzində
onunla bağlı adət və mərasimlər vardırmı? ...........................189
**55-ci sual:** Sünnət olunana qədər uşaqlarla əlaqədar
başqa hansı inanc və adətlər vardır? ......................................191
**56-cı sual:** Türk xalq ənənələrində sünnət adəti
hansı məna və dəyərləri özündə ehtiva edir? ..........................194
**57-ci sual:** **“**Məktəbə getmə” mərasimi nədir?
Bu mərasim hansı məktəb üçün təşkil olunurdu? ...................199
**58-ci sual:** Ərgənlik-dəliqanlıq dönəmindən evlənmək
dönəminə hansı rituallarla keçirlər? ......................................202
**59-cu sual:** Evlənmə adət və mərasimlərinin tədqiqində
hansı problemlərlə qarşılaşırıq? .............................................204
**60-cı sual:** Görücülük və qız istəmə adətləri hansı şərtlər
daxilində və necə tətbiq olunur? Beşikkəsmə nədir? ............211
**61-ci sual:** Hansı adət, mərasim və tədbirlər “söz kəsimi”,
“şərbət” və “nişan” sözləri ilə adlandırılır? ............................213
**62-ci sual:** Nişan ilə toyun arasında hansı adətlərə
əməl olunur? .................................................................................216
**63-cü sual:** Bolunun bir kəndində keçirilmiş toyun
üç gün ərzində izlədiyimiz adət-ənənə və mərasimləri
içində nələr var idi? ......................................................................218
**64-cü sual:** Türk xalqının evlilik ənənələrində yuxarıda
haqqında danışdığımız toyda rast gəlinməyən başqa
adətləri də vardırmı? ....................................................................225
**65-ci sual:** Toydan sonra keçirilməsi lazım olan
“gəlinlik” və “bəylik” törələri nədir? ......................................232
**66-cı sual:** Qürbət ellərə yollanan və əsgərliyə gedən
insanlarla əlaqədar hansı adət-ənənələr mövcuddur? ............233
**67-ci sual:** Həccə gedəndə və Həccdən qayıdanda
hansı mərasimlər təşkil olunur? .............................................238
**68-ci sual:** Ölüm hadisəsi xalq ənənəsində hansı
adət və mərasimləri əhatə edir? ...............................................240
**69-cu sual:** Ağı mərasimi nədir? Harada və

necə təşkil olunur?.................................................................244
**70-ci sual:** Ölü basdırıldıqdan sonra əməl olunan
adət və mərasimlər hansılardır?............................................247

## IV BÖLÜM. BAYRAMLAR

**71-ci sual:** "Bayram" anlayışının içinə nələri
daxil etmək mümkündür?.....................................................252
**72-ci sual:** Bayramları necə qruplaşdırmalı? .........................253
**73-cü sual:** Dini bayramların xalq ənənəsinə
məxsus çalarları vardırmı? ...................................................254
**74-cü sual:** Dövlət bayramlarında ənənə və
adətlərə uyğun elementlər vardırmı?.....................................259
**75-ci sual:** Mövsüm bayramlarının hansı növləri var? ..........261
**76-cı sual:** Çoban bayramları silsiləsinin birinci həlqəsi olan
"qoçqatımı"nın bayram hesab ediləcək tərəfi vardırmı?........262
**77-ci sual:** Saya bayramı necə keçirilir?...............................264
**78-ci sual:** Qoyunların döl verməsi necə olur ki,
bayrama çevrilir?..................................................................267
**79-cu sual:** İstehsal işləri və mövsümləri ilə bağlı
bayramlar hansılardır?..........................................................268
**80-cı sual:** Bahar bayramları hansılardır və
necə təsnif olunur?...............................................................271
**81-ci sual:** İlin yay bayramları və payız bayramları
adlandırıla biləcək günləri varmı?.........................................279
**82-ci sual:** Qış bayramları hansılardır?.................................280
**83-cü sual:** Övliya ziyarətləri ilə bayramların, bayramlarla
yarmarkaların hansı əlaqələri var? Kəndli, köçəri topluluqların
və zəncilərin özlərinə məxsus bayramları vardırmı?.............283

## V BÖLÜM. OYUNLAR

**84-cü sual:** Burada "oyun" deyiləndə nə başa düşməliyik?...289
**85-ci sual:** Oyunları necə qruplaşdırılır? ..............................290
**86-cı sual:** Ancaq uşaqlara məxsus olan oyunlar hansılardır? ...295

**87-ci sual:** Təsadüf-tale və qismət-qumar oyunları ilə niyyət və fal oyunlarının ortaq və fərqli xüsusiyyətləri hansılardır?......297
**88-ci sual:** "Magik" və "ənənəvi" təyinləri hansı oyunlara aiddir? ..........................................................298
**89-cu sual:** Bədənin bacarıq və gücünə əsaslanan oyunların əsas xüsusiyyətləri və növləri hansılardır?.............299
**90-cı sual:** İdman növləri ilə ənənəvi oyunların əlaqəsi vardırmı? ...................................................................302
**91-ci sual:** Zehni qabiliyyətə, ağıl gücünə əsaslanan oyunlar hansılardır?...............................................................304
**92-ci sual:** Qarışıq oyunlar hansılardır? Qarışıq tiplər necə olur? ..........................................................305
**93-cü sual:** Oyuncaq nədir?...................................................306
**94-cü sual:** Oyunları nəyə görə araşdırmalı və öyrənməliyik?...................................................................308

## NƏTİCƏLƏR – SON SÖZ

**95-ci sual:** Türk folklorşünaslığının bütün mövzularını əhatə edəcəyi gözlənilən bu kitabda nələr və niyə əskik qaldı?.........................................................................310
**96-cı sual:** Türkiyə xalqının ənənələri tədqiq olunarkən qarşıya çıxan əsas problemlər hansılardır?.............................313
**97-ci sual:** Türk folklor araşdırmalarını çətinləşdirən əsas faktorlar hansılardır?......................................................320
**98-ci sual:** Folklora dair müxtəlif mövzularda toplama işləri hansı şərtlərə uyğun aparılmalıdır? Toplanma işi aparılarkən əməl olunmalı əsas qaydalar hansılardır?............322
**99-cu sual:** Materialları qruplaşdırmaq və arxivləşdirmək nəyə görə lazımdır? Bu işlər necə həyata keçirilməlidir? ......325
**100-cü sual:** Materiallar hansı yollarla və necə dəyərləndirilir? Onlardan kimlər və necə istifadə edirlər?.....328

**Pertev Naili Boratav.**
**Türk folkloruna dair 100 sual.**
Bakı, «Elm və təhsil» nəşriyyatı, 2018.

Nəşriyyat redaktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Ləman Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 336 səh.
Tirajı: 300

Kitab AMEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır deopozitivlərdən çap olunmuşdur.